Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

IX cild



Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

IX cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, IX cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Vətən”, “Araz”, “İlin ən yaxşı kitabı” və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun “Seçilmiş əsərləri”nin doqquzuncu cildinə onun “Çiçık yağışı” (2000), “Söz çəməni” (2002)”, “Ana dilim”(2007) “Şeirli, sehrli qrammatika” (2020) “Böyük arzuya gedən yol” (2000) “Günlərimiz, aylarımız” (2003), “Yaddaş kitabı” (2019) toplularında gedən uşaq şeirləri daxil edilmişdir.

$© \frac{19476347}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

## “Çiçək yağışı” kitabından

# QƏLBİNDƏ VARSA TƏPƏR, ALNINDAN GÜNƏŞ ÖPƏR…

### YOL

Dağlara uzanır yol,
Sən səfərə hazır ol! –

Dörd yan quldur-qaçaqdı,
Kim qorxmursa, qoçaqdı.

Yeri, qabağa yeri,
Yada vermə bu yeri!

Bu dağ-dərə sənindi,
Ayağa dur sən indi!

Yoxsa güləcək yağı,
Yer alacaq ayağı.

El yolunda ocaq ol,
Yad gözünə bıçaq ol!

Mat-mat baxma yollara,
Yeri, təzə yol ara!

Qəlbində varsa təpər,
Alnından günəş öpər.

Halsızı hala gətir,
Yolsuzu yola gətir.

Öndə qar var, dolu var,
Hər işin öz yolu var…

**1991**

## ANAMIN XATİRƏSİNƏ

Boylanıb dağlara sarı
Gecə-gündüz hey ah çəkdin.
Ölümünlə qəlbindəki
Yurd həsrətinə dağ çəkdin.

Qəlbində vətən nisgili
Bu dünyadan köçdün, anam.
Təzə yurd yerin mübarək,
Qaçqın anam, köçkün anam…

**8 iyul 2000**

## TEZ-TEZ YUXU GÖRÜRƏM

Tez-tez yuxuma girir
Kəndimizin dağları.
Ətirli yamacları,
Nəğməkar bulaqları.

Görürəm bağçamızda
Əriklər çiçəkləyib.
Köpəyimiz qapıda
Qulağını şəkləyib…

Yenə ətirli yazdı
Balaca kəndimizdə.
Görən, görürmü bizi
Balaca kəndimiz də?

– Bizdən ayrı düşəndən
Yola dikilib gözü.
Kəndimiz yatıbmı ki,
Yuxuda görsün bizi?

**1994**

## YUXUMDA BİR AĞ AT GÖRDÜM

Yuxumda bir ağ at gördüm,
Yüyürüb gəldi yanıma.
Yalmanına sığal çəkdim,
Od-alov axdı qanıma...

Elə bil nağıldan gəlib,
Nə yaman doğmadı bu at.
Yedəkləyib çəkdim onu,
Sözümdən çıxmadı bu at.

Başını sürtdü əlimə,
Heç mənə şıllaq atmadı.
Ha çalışdımsa, ayağım
Üzəngisinə çatmadı…

Qəmli-qəmli baxdı mənə,
Duydu ki, kefim pozulub.
Birdən gördüm yəhərində
Atamın adı yazılıb…

İgidlər atdan düşəndə
Fərəhləndi, yağı coşdu.
Ağ atların yəhərində
Ataların yeri boşdu…

Ürəyimdən keçənləri
Elə bil ki, duydu bu at.
Övladlarını qınayan
Atamın ruhuydu bu at…

**09.09.1994**

## AT BELİNDƏ

At kişnəsə, ürək dolar,
At igidə qanad olar.
Altında oynayırsa at,
Dərdini qov, kənara at.
Cilovu boşalt bir azca,
Qanad açsın alapaça.
Yavaş-yavaş yorğalasın,
Yüyrük kimi yırğalansın.
Güllü biçənəkdən çap keç,
Pöhrəlikdə əyil, çəp keç!
Gəl-gəl deyir yaşıl orman,
Meşəni öt, dağa dırman.
Çap get ulu nağıllara,
Qoşul igid oğullara!
Elə et ki, səndən olsun
Ellərin söhbəti, sözü.
Altında köhlənə dönsün
Yaşadığın dünya özü…

**1990**

## BİR OVUC TORPAQ

Düşmənə qardaş dedik,
Başımıza daş düşdü.
Bizi qırıb çatdılar,
Yaman qaçhaqaç düşdü.

Yad tapdağı altında
Qaldı evim-eşiyim.
Qaldı qoyunum, malım,
Qaldı itim, pişiyim.

Nə nəfəs çəkə bildim,
Nə köks ötürə bildim.
Həyatdən bircə ovuc
Torpaq götürə bildim.

Dönə bilməsəm geri,
Sönsə ümid çırağı,
Gözümə atarsınız
O bir ovuc torpağı…

**1992**

## NƏNƏM UŞAQ KİMİDİ

Nənəm uşaq kimidi,
Tez küsüb, tez barışır.
Çəkilib bir kənara
Öz-özünə danışır…

Xəyalında yer əkir,
Bağçamızda işləyir.
Gah quzunu səsləyir,
Gah toyuğa kiş deyir…

Yada düşür vətəndə
Keçən bəxtiyar günlər.
– Ayağımı torpaqdan
Üzənlər üzülsünlər! –

Deyib cumur xəyala,
Yanağına su gəlir.
Gözlərinin önünə
Həyət-bacası gəlir.

Öz əliylə əkdiyi
Ağacı xatırlayır.
Dərəni xatırlayır,
Yamacı xatırlayır…

Təzə yuva qurmağa
Yer axtarır, him gəzir…
Ah çəkir: – Qapımızda
Görən indi kim gəzir?!

Yadına nələr düşür,
Gözündə yaş qaynayır…
Nənəm xatirələrlə
Uşaq kimi oynayır…

**1994**

## HAVAYI ÖLÜM

Marıqda durub
Havayı ölüm.
Axı mən niyə
Havayı ölüm?
Bir iş görməmiş
Vurulsam əgər,
Vətən qazanmaz,
Vətən itirər…

**1993**

## TƏKƏDİR VERƏN SÜRÜNÜ BADA

Anamız Vətən
Düşmən tapdağı.
İş bilən durub
Kənardan baxır.
İş bacarmayan
Döyür döşünə.
Biçarə xalqı
Vurur dişinə.
Asaram deyir,
Kəsərəm deyir.
Düşmənə qəbir
Qazaram deyir.
Özünü öyür,
Qüdrəti hanı?
Cılız qolunun
Qüvvəti hanı?
Quzu tək sakit

Olanı döyür.
Eşşəkdən qorxur,
Palanı döyür…
Verir Şuşanı,
Alacam deyir.
Laçında zurna
Çalacam deyir.
İgidlər ölür,
Bu "zəfər çalır"
Hər yerdə təzə
Qəbristan salır.
Gözü yollarda
Qalıb analar.
Buludlar kimi
Dolub analar.
Qurda inanan
Qoyuna baxın!
Millətə ağıl
Qoyana baxın!
Yanır torpağım,
Qalanır oda…
Təkədir verən
Sürünü bada…

**21.02.1993**

## NƏRMİNİN GÖZLƏRİ

İşarır ocağın közləri,
Yol çəkir Nərminin gözləri…
Boylanıb hey baxır yollara,
Örtülüb, bələnib yol qara…
İz itib dağlarda, düzlərdə,
Nisgil var qəm dolu gözlərdə…

Bağlarda ağaclar qəribdi, –
Barını yad əllər dəribdi…
Küskündür taleyin ülkəri,
Darıxıb Bərgüşad, Həkəri…
Səngərin çalması ağarır,
Çayzəmi əl edir, çağırır…
İşarır ocağın közləri,
Yol çəkir Nərminin gözləri…

**1998**

## YAĞIŞ, KİRPİ, GÖZ YAŞI VƏ KİRPİK

Kirpilərin çətiri
Biz-biz, iynə-iynədi.
Damcı ona sancılıb,
Göyüm-göyüm göynədi…

Yenə hava tutulub,
Yenə şimşəklər çaxır.
Kirpilərin üstünə
Yağış yağmağa qorxur...

Kirpiyə sancılmaqdan
Çəkinir yaz yağışı.
Kirpiyə sancılmaqdan
Niyə qorxmur göz yaşı?!

Yağış altında bir qız
Ağlayır acı-acı.
Kirpiklər göz yaşına
Olubdur dar ağacı...

**1998**

## ÇAYLAQ DAŞLARININ MAHNISI

Yatağını dəyişməyin
Çəkdi sinəmə dağ, çayım!
Bizi özünə öyrədib,
Hara gedirsən, dağ çayı?

Sularında hamarlanıb,
Sularında yuyunmuşuq.
Ləpələrin şirin-şirin
Layla çalıb, uyumuşuq…

Dərdimizə tən olmusan,
Sularının sirdaşıyıq.
Biz adicə daş deyilik,
Daşa dönən göz yaşıyıq…

Yatağını dəyişməyin
Çəkdi hamıya dağ, çayım!
Bizi özünə öyrədib,
Hara gedirsən, dağ çayı?

**1988**

## BOYLANDIQCA

Körpə bir çinar əkmişəm,
Dostlarımı mat qoyub.
Günə, Aya boylandıqca,
Uzanır onun boyu.

Ay ötəcək, il ötəcək,
Elə deyil, ay baba? –
Kölgəsinə yığılacaq
Bu ağacın el-oba.

Bircə zərrə yalan yoxdu
Söhbətimdə, sözümdə.
Boylandıqca gələcəyə,
Boy atıram özüm də…

**1988**

## DÜNYAMIZI BƏZƏYƏK

Qupquru səhraların
Gözlərinə ağ salaq.
Qolumuzu çırmayıb,
Ağac əkək, bağ salaq…

Boz çöllər meyvəli bağ,
Səhralar meşə olsun!
Dünyamızın bəzəyi
Nərgiz, bənövşə olsun!

Yurdumun torpağına,
Daşına sığal çəkək.
Körpəcə fidanların
Başına sığal çəkək.

Əgər könül bağlasaq,
Dağlar, daşlar dil açar.
Mehriban əl toxunsa,
Quru torpaq gül açar.

Ətirli çəmənlərdən
Arılar bal daşısın.
Mehriban dünyamızda
Hamı xoşbəxt yaşasın…

Yamaclara, düzlərə
Yağış xalı toxusun.
Çiçəkli budaqlarda
Quşlar nəğmə oxusun…

**1999**

## YER KÜRƏMİZ

Biz insanıq, dünyanın
Baharıyıq, yazıyıq.
Bircə vətənimiz var,
Yer oğlu, yer qızıyıq…

Öz qoynunda hamıya
Yer verib Yer kürəmiz.
Gülüstana dönər o
Bir gül əksək hərəmiz…

Sudu, ağacdı, otdu,
Havadı, torpaqdı o.
Anamız kainatda
Bir yaşıl yarpaqdı o.

Əgər istəmiriksə
Bulaq kimi quruyaq,
Gərək göz bəbəyi tək
Təbiəti qoruyaq…

**1999**

## BALACA ƏSGƏR

Necə papaq alsan
gəlməz xoşuna,
Əsgər papağını
qoyar başına.
Danışmağı sevməz,
çox vaxt susar o.
Çiynindən oyuncaq
tüfəng asar o.
Hələ arzuların
beşiyindədi,
Hələ xəyalında
çatıır ocaq o.
Hələ gül-çiçəyin
keşiyindədi,
Böyüyüb Vətəni
qoruyacaq o…

## FAYDA VƏ QAYDA

Hər işin bir
Qaydası var,
Hər işin bir
Faydası var.
Öyrənməsən
Qaydasını,
Görəmməzsən
Faydasını…

**1994**

## İYNƏ

Hər cür parçanı
Deşib keçəcək,
Onun önündə
Yox bağlı qapı.
İynə elə bil
Lokomotivdi,
Ardınca çəkib,
Aparır sapı…

**1994**

## UŞAQ ŞEİRİNƏ AĞIZ BÜZƏNLƏRƏ

Məni yazmağa çağırır
Ürəyimdən gələn səslər,
Baxışlarım bir çiçəkli,
Kövrək budağa dirənir.
Uşaq şeirini sevməyib,
Sevgiyə üz tutan kəslər,
Sevginin müqəddəs yolu
Gəlib uşağa dirənir…

**1994**

## KÖLGƏNİ İSTƏMİRƏM

Ağac dedi pöhrəyə:
– Eh, sənin nə dərdin var? –
Yaşa mənim kölgəmdə
Azad, xoşbəxt, bəxtiyar.

Nə qardan qorxun olsun,
Nə tufanı saya sal!
Pöhrə dedi: – Üstümə
Kim dedi ki, sayə sal?

Sözlərimdən incimə,
Mən sənə pis demirəm.
Sən üstümə yıxılma,
Kölgəni istəmirəm…

**1985**

## QOCA AĞAC QURUYANDA

Paxıl yaxşılıq görəndə
Elə bil ki, canı çıxır.
Qoca ağac quruyanda,
Yanından cavanı çıxır.

Budaqlar ucalır göyə,
Budaqlar əyilir yana.
Mərdin üzü, gözü gülür,
Namərd qalır yana-yana…

## ÇOBANYASTIĞI

Bir gör necə gözəldi,
Çobanyastığına bax!
Gözləri sapsarıdı,
Kirpikləri ağappaq…

## SARMAŞIQ GÜLÜ

Açılan çiçəklərə
Baxanda göz qamaşır.
Sarmaşıq gülünə bax,
Elə bil alpinistdi,
İpdən tutub dırmaşır…

**1985**

## NÖVBƏ

Mən iki cür gül əkmişəm,
Biri alçaq, biri hündür.
Oğlum ona baxıb deyir:
– Biri aydır, biri gündür.

Biri günəş şüasından,
Biri qaranlıqdan qaçır.
Biri gözünü yumanda,
O biri təzəcə açır…

Növbə çəkir sanki onlar,
Heyran-heyran baxıram mən.
Açılmış gül əskik olmur
Gecə-gündüz pəncərəmdən…

**1985**

## BİZİM TORPAQ

İnsanı tanıyırlar
Gördüyü işə görə.
Torpağı yoxlamaqçın
Bir şey əkəsən gərək…
Yüz səpmişdim, min bitdi,
Bizim torpaq münbitdi…

## DÜNYA

Babaların qızıl-qızıl
Qanıyla yoğrulan dünya.

Ölən ilə ölüb gedən,
Gələnlə doğulan dünya.

Oğlan gözündə nazlı qız,
Qız gözündə oğlan dünya…

**1985**

## YAŞAMAQ UĞRUNDA MÜBARIZƏ

O kolların dibini
Nədir elə tərpədən? –
Siçan pişikdən qorxur,
İlan isə kirpidən…

Siçan yaranmayıb ki,
Taxıl daşımaq üçün.
O, sünbülü aparır
Yeyib yaşamaq üçün.

Ağzı yaman sulanıb,
Acgöz-acgöz baxır o.
Pişik siçan tutanda
Düşünmür ki, taxılı…

Özünü düşmənlərdən
Qorumaq üçün bil ki,
İlanın zəhəri var,
Kirpinin oxlu kürkü…

**1985**

## BABA

Gərəkdir ki, babanın
Ola saç-saqqalı ağ.
Deyir ki, mən babayam,
Sən bunun sözünə bax!

Soruşuram: – Ay Baba,
Sənin neçə nəvən var?
Deyir ki, nəvə nədir? –
Nəvəsiz baba olar?

Boyu beşcə qarışdı,
Saçına bax, şəvədi.
Onun adı Babadı,
Özü hələ nəvədi…

## QƏMƏRİN NƏMƏRİ

Qəmərə bax, Qəmərə,
Qulluq edir kəhərə.
Elə bilirsən aydı
O qalxanda yəhərə…
Qəmərə bax, Qəmərə,
Belindəki kəmərə.
Kəməri hardan alıb? –
Üz vurmayın, deməsəm…
Qəmərin gərgin məşqi
Verib gözəl səmərə.
Cıdırdan qalib çıxıb,
Bax aldığı nəmərə.
Nəmər yaxşı nəmərdi,
Nəmər – gümüş kəmərdi…

## QANAD, ÜZGƏC

Təbiətin sirrini,
Oğlum, bilməyə can at.
O, kimə ağıl verib,
Kiməsə üzgəc, qanad.

Qanad olmasa quşlar
Havada süzə bilməz.
Üzgəc olmasa, balıq
Dəryada üzə bilməz.

Neyləyirəm üzgəci,
Neyləyirəm qanadı?
Mən ağlımla həyatın
Mənasını anladım.

Öyrəndim yavaş-yavaş
Günəşdən nur saçmağı.
Balıqlardan üzməyi,
Quşlardansa uçmağı…

**1983**

## BALIĞIN SÖZÜ

Zirvələrdə keçir günü,
Öyünməsin qartal deyin!
Hərəyə bir ömür düşüb,
Öz bölgüsü var taleyin.

Bu dünyada hər canlının
Bir arzuyla vurur qəlbi.
Onun zirvəsi dağlardı,
Mənim zirvəm suyun dibi.

Lağ edirəm mən qartala? –
Sanmayın yox qanacağım.
O dəryaya baş vuranda,
Mən zirvəyə qonacağam.

Gülməyin bu həvəs üçün,
Deməyin bu arzu nədi?
Bu dünyada hər kəs üçün
Doğulduğu yer zirvədi…

**1983**

## HEYKƏL

Sanki hər şeyi görür,
Bu nə canlı heykəldi!
Gülümsədim üzünə,
Dizlərinə hey gəldi.

İstədi  ki, o bizə
Qoşulub gəzsin bir az.
Nə olsun ki, heykəldi,
Ona tərpənmək olmaz?

Gözlərinin önündən
Adamlar gəlib keçər.
Əli var, ayağı var…
– Ağlı ürəyi necə?!

## HEYKƏL RƏQQASƏLƏR

Dindi oynaq musiqi,
Rəqqasələr fırlandı,
Elə bil isti oldu.
Sanki rəqqasələrin
Donlarının ətəyi
Dairəvi stoldu…
Ata, nə yaxşı olar
Bizim ustalar əgər,
Sahil bağında belə
Stollar düzəltsələr!
Biz dondurma yeyərdik,
Su içərdik səpsərin –
Donunun ətəyində
Heykəl rəqqasələrin…

## BORUNUN HARAYI

Ermənilər Spitakda valideynlərini güllələyəndən Sonra yetmiş türk balasını boruya doldurub hər iki tərəfini qaynaqla bağlayıblar.

**Şahid Mədinə Şərəfin sözlərindən**

İnsan cildinə bürünmüş
Yağıya bax, düşmənə bax!
İçimdə su çağlamadı,
Qismətimə düşənə bax!

Sürüməkçin dalda yerə
Tez məni yedəklədilər.
Neçə qanlı cinayəti
Kürəyimə yüklədilər…

Gözlər çıxıb həlqəsindən
Bir gör necə çılğındılar!
Körpə-körpə qaranquşlar
Ağuşuma sığındılar.

Vəhşilər ağ elədilər,
Tez əl-ayaq elədilər.
O yanımı, bu yanımı
Tutub qaynaq elədilər.

Görüm bu azğın gədalar
Ürcah olsun bəlalara.
Boru idim, qəbir oldum
Çiçək-çiçək balalara.

Necə insan söyləyəsən
Heç bilmirəm beləsinə?
Dözəmmirəm qoynumdakı
Körpələrin naləsinə.

Öz içimdən gərilmişəm,
Elə bil çəkilən yayam.
İstərəm bu cinayəti
Kainata yayam, yayam!

Deyəm: – Bilin, ay insanlar,
Bunlar kimi azğın yoxdu.
Danışardım odlu-odlu.
Heyf, dilim, ağzım yoxdu…

Qaynaqçı işini görüb,
Arsız-arsız öyünürdü.
Dəmir olsam da, köksümdə
Yetmiş ürək döyünürdü…

O günahsız ürəklərə
Ürəksizlər qəsd elədi.
Allahın qəzəbi tutdu,
Şəhəri alt-üst elədi.

Bağrı yarılan körpələr
Bir borunun içindəydi.
Hər ürəyin döyüntüsü
On iki bal gücündəydi…

**1990**

## ÇİÇƏK YAĞIŞI

Yazda Qubaya
Düşdü yolumuz.
Almalıq idi
Sağ və solumuz.

Biz getkcə yol
Çözələnirdi.
Elə bil dünya
Təzələnirdi.

Zümrüd donluydu
Quba dağları.
Çiçəkləmişdi
Alma bağları.

Yola baxdıqca
Gözlər gülürdü.
Dodaqlardakı
Sözlər gülürdü.

Bir azdan üzü
Yoxuşa düşdük.
Qəçreşdə əcəb
Yağışa düşdük.

Hər çiçəkli kol
Bir əlçim bulud.
Bu mənzərəni
Oğulsan unut.

Elə ki asta
Külək qalxırdı,
Göydən üstümə
Çiçək yağırdı…

Belə "leysan"da
Yuyunan, çimən
Xoşbəxtdir, xoşbəxt –
Düşündüm ki mən.

Yağdıqca göydən
Ağappaq ləçək,
Çiçəkləyirdi
Köksümdə ürək…

**1991**

## QANIM

Qanım, yorulmadınmı
Ora-bura ötməkdən?
Başın gicəllənmirmi
Bədəni dövr etməkdən?

Ömrümün bu başından
O başına axırsan.
Ancaq elə bilmə ki,
Özbaşına axırsan!

Damarlarım səninçün
Əbədi yol olubdur.
Arzumun çiçəkləri
Rəngindən rəng alıbdır.

Yorulmaz səfərinlə
Sən məni mən etmisən.
İllər boyu görəsən
Nə qədər yol getmisən?

Dağ çayı tək axmaqdan
Yaxşı ki, doymayırsan.
Həyat çiçəklərimi
Solmağa qoymayırsan…

**1991**

## GİL-GİL ÇAY

Bulud tək dolmuşam,
Sahildə qalmışam,
Çevrilib olmuşam
Bir şeyda bülbül, çay,
Gil-gil çay.

Dağlara yağıb qar,
Coşsan da bu bahar,
Sahildə kəndlər var,
Həddini bil, bil, çay,
Gil-gil çay.

Sevinc var üzlərdə,
Od yanır gözlərdə,
Yaz gəlib, düzlərdə
Açılıb gül, gül, çay,
Gil-gil çay.

Dənizə tələsdin,
Yolunu qum kəsdi.
Ağlama, ta bəsdi,
Bir az da gül, gül, çay,
Gil-gil çay.

Çox yorma özünü,
Bulandır üzünü,
Namərdin izini
Bu yerdən sil, sil çay,
Gil-gil çay,
Gil-gil çay…

**1989**

## ATAM MAHNI OXUYUR

Xəbəri yox xəbərdən,
Hər bir şeyi unudub,
Ömrün tarixə dönən
Günlərini unudub, –
Atam mahnı oxuyur.

Heyrətdən mat qalmışıq,
Dizi üstə çökmüşük.
Hamımız səsimizi
İçimizə çəkmişik, –
Atam mahnı oxuyur.

Sözlər qanad çaldıqca,
Anam həyəcanlanır.
Gözümüzün önündə
Dağlar, daşlar canlanır, –
Atam mahnı oxuyur.

Təbiət gülümsəyir,
Çiçək açıb badamlar.
Xəyalımda canlanır
Əziz, doğma adamlar, –
Atam mahnı oxuyur.

Elə bil bizi görmür,
Dayansaq da üz-üzə.
Görməmişdim dünyada
Hələ belə möcüzə –
Atam mahnı oxuyur…

**1992**

## İNQİLAB

Oğrun-oğrun baxırdı
Oğlum çiçəyə, ota.
Birdən məndən soruşdu:
– İnqilab nədir, ata?

– Hardan ağlına gəldi
Axı sənin bu sual? –
Qabda suyu daşdıran
Son damlaya nəzər sal.

Zirzəmiyə şəfəqin
Düşməsini görmüsən?
Sən otların asfaltı
Deşməsini görmüsən?

Bahar qışın əlində
Dustaq qalarmı axı? –
Elçisi novruzgülü
Qarın altından qalxır.

Həyat mübarizədi,
Çarpışmadı, döyüşdü.
İnqilab qələbədi,
Çevrilişdi, döyüşdü…

**1986**

## HABİLİN KAMANÇASI

Dalıb öz dünyasına
Hey çalır, çalır Habil.
Kamançanın dörd simi
Dörd fəsildi elə bil.

O hər bir səsə uyğun
Pərdə seçir, sim seçir.
Kəmanə zaman kimi
Fəsillər üstdən keçir.

Hamımız qurumuşuq,
Heykələ oxşayırıq.
Bir saatın içində
Dörd fəsil yaşayırıq...

**1991**

## GÜZGÜ

Bu güzgünün önündə
Nə qədər üzlər durub.
Nə qədər qaşlar durub,
Nə qədər gözlər durub.

Bu güzgü çox bədbəxtdi,
Kimsəyə könül vermir.
Bizi bizə göstərir,
Özü-özünü görmür.

Önündən çəkilənlər
O dəqiqə yadlaşır.
Nahaqdan pıçıldama,
Yoxdu onun yaddaşı.

Bu dünyanın ən gözəl
Sözü yadında qalmır.
Heç kəsin boy-buxunu,
Üzü yadında qalmır…

**1999**

## İT VƏ GECƏ

Sual verib yoxlamaq
İstədim mən Gündüzü:
– İt gecəni çox sevir,
Oğlum, yoxsa Gündüzü?

Qaranlıq düşən kimi
İtin qəlbi şad olur.
Gecəni sevir, çünki
Zəncirdən azad olur...

## DAŞAĞIL ÇAYI

Çay girdi ki, daş ağıla,
Bəlkə gələ daş ağıla.
Söz söylədi qulağına,
Gördü ki, eşitmir, daşdı.
Dözmədi bu haqsızlığa,
Axırda kükrədi, daşdı. –
Burda qədir-qiymət yoxdu,
Yol gözləyir aşağılar.
Çağlamaqçün yaranmışlar
Necə sığsın daş ağıla?!

**1993**

## MİŞAR ÇAY

Sən hara tələsirsən,
De, nə qədər daşar çay?
Yeri sanki kəsirsən,
Adın qalıb Mişar çay.

**1994**

## DƏRS

Tələbələr maraqla
Dinləyirlər dərsimi.
Pəncərədən içəri
Dolur bahar nəsimi.

Unuduram özümü,
Gəzirəm ağır-ağır.
Sarıköynək oxuyur,
Ağlım başımdan çıxır.

Gözüm dikilib qalıb,
Çiçəkli budaqlara.
Quşlar mənə dərs deyir,
Mən isə uşaqlara…

**1994**

## MUNCUQLU KOL

Yola baxın, yola baxın,
Oy, muncuqlu kola baxın!
Atam maşını saxladı,
Sevinə-sevinə qaçdım.
Qıpqırmızı muncuqları
Mən kolun boynundan açdım.
Qardaşım baxıb soruşdu:
– Nə yığmısan, söylə, Tərgül?
Gülə-gülə cavab verdim:
–Bir torba qırmızı dərgil.
– Dərgil nədir?
– Bax, bax, budur! –
Həmərsindir –
İtburnudur…

**1998**

## SOLMAZ ÇİÇƏYİ

Sevməyənlərin olmaz çiçəyi,
Sanki ulduzdu Solmaz çiçəyi.
Kimin qəlbində məhəbbət varsa,
Qəlbi nurlanar, solmaz çiçəyi…

**1998**

## QURU AĞACIN SÖZÜ

Quru dedi yaşıla:
– Kaş sənin tək yaş olam!
Yarpaqlayam yenidən,
Ağaclara qoşulam…

**1998**

## ANANIN SƏSİ

Necə gözəldi, necə təmizdi
Səni axtarıb ananın səsi.
Ən şux nəğmədən doğma, əzizdi,
Ananın səsi, ananın səsi…

**1998**

## ANAM

Elə ki, anam gəlir,
Qəlbimə inam gəlir.
Anam nənə olubdur,
Qəlbi nanə olubdur.

## SƏBƏB

Yarpaqlar bütün yayı
Gün altında qalırlar.
Ona görə payızda
Qızılı rəng alırlar.

**1998**

## BÖYÜRTKƏN KOLU

Mən böyürtkən koluyam,
Meyvə ilə doluyam.
Dəymişlərin kömür tək,
Qırmızılar köz kimi.
Üstümdəki meyvələr
Sayrışır ulduz kimi.
Tikanlar düzülsə də,
Donuma, üst-başıma.
Uşaqlar pərvanə tək
Dolanırlar başıma…

**1999**

## QORUQÇU KOL

Çəpərin kənarında
Mən böyürtkən tapmışdım.
Meyvə dərmək istədim,
Kol yaxamdan yapışdı…

**1999**

## GƏNDƏLAŞ

Qapqara, dənə-dənə
Meyvələr baxır mənə.
Ürəyimdəki tamah
Güc gəldi axır mənə.

Əl uzatdım dərməyə,
Üstüm-başım bulaşdı.
Meyvəsi əzilən kol
Elə bil ki, dil açdı:

– Qol-qanadımı əzmə,
Dostum, məndən gen dolaş!
Mən böyürtkən deyiləm,
Gəndəlaşam, gəndəlaş…

**1999**

## KÜLƏK YATIB

Külək yatıb, külək yatıb,
Bunu hardan bilək yatıb?!

Oyananda əsnəyəcək,
Öz yerini bildirəcək.
Dəryaları, dənizləri
Qıdıqlayıb güldürəcək.

Ləpələr dalğaya dönüb,
Ucalacaq, boy atacaq.
Budaqdakı yarpaqları
Yuxusundan oyadacaq.

Çoban kimi buludları
Qabağına qatacaq o.
Yorulub əldən düşəndə,
Mürgüləyib yatacaq o.

O gizlənib hayandasa,
Sakit durmaz oyandısa.
Külək yatıb, külək yatıb,
Qəlbində min dilək yatıb…

**1998**

## CELLİ CEM

Keçib Kürdən, Arazdan
Qonaq gəldin Xəzərə.
Gözlərini oxşadı
Neçə gözəl mənzərə.

Göygölümü görəndə
Sevinmisən, gülmüsən.
Bizim Azərbaycana,
Əziz dost, xoş gəlmisən!

Gəlişinlə sevindi
Otum, gülüm, yarpağım.
De, xoşuna gəldimi
Havam, suyum, torpağım?

Qoşul bizim Cırtdana,
Qoşqara, Kəpəzə qalx.
Meşələrə, düzlərə,
Çaylara, göllərə bax.

Celli Cem, Celli Cem,
Öz işində ustasan.
Təbiəti qoruyan
İnsanların dostusan…

**1999**

## YARAŞARMI?

Atdığın tullantılar
Yığılsa qalaq-qalaq,
Gərək ömrümüz boyu
Zibil içində qalaq.

Bu gözəl dünyamızdan
Sən gözəllik umsana!
Təbiəti korlamaq
Yaraşarmı insana?!

Bəs sənə söyləməyib
Müəllim, anan, atan:
Elə özü zibildi
Zibili yerə atan?!

Gəlin verək əl-ələ,
Dünya tər-təmiz olsun.
Qəlbimizdə məhəbbət
Kükrəyən dəniz olsun…

**1999**

## DÜNYANIN GÖZÜ

Səhər-səhər, axşam-axşam
Gözəlləşir üfüqlər.
Günəş dünyanın gözüdü,
Kirpikləri şəfəqlər…

**1985**

## SƏHƏRİN GÖZÜ

Yenə durmusan
Yuxudan, Aydan,
Səhərin gözü
Açılmamışdan.
– Şəfəqlərini
Düzlərə yaydı,
Mənim sözümü
Gün eşidir, ata!
Gecənin gözü
Ulduzdur, aydır,
Səhərin gözü
Günəşdir, ata!

## GÜNƏBAXAN

Tarlalarda sarı saçlım
sayrışır indi,
Bərəkətli torpağın da
barı günəşdi.
Günəbaxan elə bil ki,
arı şanıdı,
bu şanlara bal dolduran
arı günəşdi…

**1984**

## AĞACLAR

Xiyabanlar, parklar boyu
Düzülüblər cərgə-cərgə.
Yerin şəhdi-şirəsini
Sorurlar su ilə birgə.

Ağac sanki bir uşaqdır,
Torpaq onun qundağıdır.
Kök ağacın ürəyidir,
Budaqlara qan dağıdır…

**1981**

## OCAQ BAŞINDA

Meşədə yanır ocaq,
Dövrəsində üç uşaq...

Nə durmusan kənarda,
Üşüyürsən, sən də gəl.
Oda sarı qıf kimi
Uzanıbdır altı əl.

Odunlar ürəyinin
Şirəsini hey sıxır, –
Qollar sanki borudur –
Onlarla isti axır,
Onlarla "şirə" axır…

**1983**

## OCAĞIN KÖZLƏRİ

Bir zaman onlardan
Od-alov damardı,
İndisə ocağın
Gözləri xumardı.
Közə bax, elə bil
Yuxulu gözlərdi.

Azalıb istisi,
Bir az da gəl yaxın.
Əyilib üfürdüm,
Bir anda közərdi,
Yumulu gözləri
Açıldı ocağın…

**1983**

## GÜLƏN QAZAN

Qıdıqlayır qazanı,
Görürsən bu ocağı?
Qazan elə bil gülür,
Enib-qalxır qapağı…

**1983**

## DAN ULDUZU

Öz nuruyla elə bil
İşığa yol açır o.
Səhərin mayağı tək
Göydə işıq saçır o.

Günəşin elçisidi,
Sən ondan işıq istə.
Səhərin yumruğu tək
Qalxıb gecənin üstə…

**1980**

# BAHARIM, SEVİNC PAYIM, QIŞIM, PAYIZIM, YAYIM…

## DİLİ AÇILIR

Ürək yamanca sevinir
İlk baharın gəlməsinə.
Vurulmuşam təbiətin
Hər sözünə, kəlməsinə.

Bahar körpə tumurcuğun,
Yarpağın dilini bilir.
Sinəsində inci yatan
Torpağın dilini bilir.

Danışır dərələr, dağlar,
Danışır düzlər, yamaclar.
Torpağın sözü deyilmi
Otlar, çiçəklər, ağaclar?

Günəş güldükcə bağların
Çiçəyi, gülü açılır.
Nəvaziş görəndə daşın,
Torpağın dili açılır…

**1991**

## BAHAR

Sən gəlirsən, nəfəsinlə
Yatanları oyadırsan.
Böyüyürsən yarpaq-yarpaq,
Çiçək-çiçək boy atırsan.

Ağacların budaqları
Olub puçur-puçur, bahar.
Dirəklərin də könlündən
Yarpaqlamaq keçir, bahar!

**1988**

## ÖPƏ-ÖPƏ

Yaz yağışı budaqların
Çoxunu yuyur,
Qarlı qışdan miras qalan
Qoxunu yuyur.
Tumurcuğun qulağında
Sırğaya dönür,
Budaqların ürəyindən
Qorxunu yuyur.
Oyan deyir, – qış uzunu
Yatdığın yetər.
Ağacların gözündəki
Yuxunu yuyur.
Yağış yağır, gülümsəyib
Boy atır Günəş.
Təbiəti öpə-öpə
Oyadır Günəş...

**1991**

## YAZ QARI

Gözəlləşib badamlar,
Gözəlləşib alçalar.
Baxıram sevinc ilə,
Budaqlara yağıb qar.

Səma necə aydındı,
Göydə bulud görünmür.
Günəş öz işindədi,
Bəs niyə qar ərimir?

Ağ don geyən budaqlar
Bir-birindən göyçəkdi.
Onların əynindəki
Qar deyil ha, çiçəkdi.

**1987**

## AĞ ÇİÇƏKLƏ SÖHBƏT

– Ləçəyin qara oxşayır.
– Qar nədi ki?
– Bəs bilmirsən?
Qış gələndə dümağ qarla
Örtülür dağ, təpə, düzən.
– Bəs qış nədi?
– Qış fəsildi.
– Elə fəsil tanımıram.
– Çiçək hara, qar-qış hara? –
Yox, mən səni qınamıram…

**1987**

## BAHARIN MƏKTUBU

Bahar məktub yazıbdır,
Xətti necə qəşəngdi.
Bu məktubun hər sözü,
Hər kəlməsi çiçəkdi.

O, quru budaqların
Üstündən yarpaq asıb.
Bizə öz məktubunu
Yaşıl qələmlə yazıb.

## BU BAHAR

Bu bahar o bahara
Bənzəməz bir gilə də.
O, ayrı bir don biçib
Çiçəyə də, gülə də.

Bu yaz dərdiklərimi
Dərməmişdim keçən yaz.
Bu yaz gördüklərimi
Görməmişdim keçən yaz.

"Bahar elə bahardı" –
Kim deyirsə, düz deyil.
Nə bu yarpaq o yarpaq,
Nə bu göz o göz deyil.

**1987**

## İLK BAHAR KİMİ

Yaz gələndə yamaclar,
Çəmənlər gülür üzə.
Zəminin ortasında
Lalələr dönür közə.

Çiçəklər budaqlara
Səpələnir qar kimi.
Məhəbbət də gələndə
Gəlir ilk bahar kimi.

İnsan bəxtəvər olur
Xəyallara dalanda.
Arzular qönçələyir
Qəlbə sevgi dolanda.

**1992**

## GÜL VƏ ÇİÇƏK

Məni qımıldandırır
İlıq bahar yelləri.
Görəndə gözüm gülür
Çiçəkləri, gülləri.

Uzaqdan qızınıram,
Əl vururam, soyuqdu.
Çiçək meyvə yaradır,
Gülün meyvəsi yoxdu…

**1992**

## BUDAQLAR BAR GƏTİRƏNDƏ

Çiçəkdən meyvə, meyvənin
İçindənsə toxum çıxır.
Budaqlar bar gətirəndə
Bir-birinə qohum çıxır.

Uludur qoca təbiət,
Sabahın dərdini çəkir.
Nəsil artıran tumları
Çiçəyə, meyvəyə "bükür".

Deyir: – Meyvələri sən ye,
Toxumlarsa yerin olsun.
Elə yaşa, sən köçəndə
Boş görünən yerin olsun.

**1992**

## ALMANIN İKİ ÜZÜ

Alma – ağacın
Qəpqəşəng qızı.
Bir yanağı ağ,
Biri qırmızı.

Uca budaqda
Yırğalanır hey.
Bir üzü quzey,
Bir üzü güney.

Ayrı rəngdədir
Hər bir yanağı.
Niyə belədir
Görəsən axı?!

Kölgəli yanaq
Saralıb, solub.
Gün tutan tərəf
Qırmızı olub…

**1992**

## DEKABR – YANVAR

İki ay var dünyada
Bir-birinə ən yaxın,
Bir-birinə ən uzaq;
Bu dekabr, o yanvar –
Sanki üz-üzə durub
İki əzəmətli dağ…

Çəkib aralarına
Ayrılıq qalın pərdə.
O birisi başlanır
Biri qurtaran yerdə.

Dayanıblar üz-üzə,
Dayanıblar göz-gözə.
Bir ikən, ayrılığa
Ürək çətin ki, dözə.

Onlar eyni dəvənin
İki qoşa hürgücü.
Aradan şırım açıb
Zamanın sərt ülgücü.

İki il arasına
Bir il sərhəddi düşüb.
Hər birinin ömrümə
Qoşaca rəddi düşüb…

**1992**

## QARLI GÜNLƏRİN İŞIĞI

Ağardardı gecələri
Səhərəcən qar işığı.
Gün çıxanda yamacların
Açılardı qırışığı.

Dağlar məni səsləyərdi,
Olardım bir quş elə bil.
Ayın, günün işığını
Artırardı qış elə bil.

Göylərdə təbəssüm görüb
Qarlı düzlər qımışardı.
İşıqların bolluğundan
Gözlərimiz qamaşardı.

Sönməyib qəlbimdə həvəs,
Yenə alovlu, şux qalıb.
Kəndimizin hər qışından
Qəlbimdə bir işıq qalıb…

**1992**

## QAR VƏ YAĞIŞ

Yağış hay-harayı sevir,
Şırıl-şırıl şırıldayır.
O yağanda şimşək çaxır,
Ucadan göy guruldayır.

Qar isə səssizcə yağır,
Asta-asta qonur yerə.
O yazıq heç guruldatmır
Göyləri də əbəs yerə…

**1992**

## BUDAQLARIN AĞ İŞIĞI

Yaz gələndə çiçəkləri
Qısqanıram çiçəklərə.
Budaqların ağ işığı
Dolur sevən ürəklərə.

Məşşatəyə dönür bahar,
Bağçanı, bağı bəzəyir.
Çiçəklənən hər bir ağac
Bir ağ yelkənə bənzəyir.

Bu yazın odlu nəfəsi
İçimdən gəlib keçəcək.
Ağ don geyinən ağaclar
Elə bil gəlin köçəcək…

**1992**

## TORPAQ ANANIN PAYIZ NƏĞMƏSİ

Ay mənim yarpaq balam,
Bir gör hara qalxmısan?
Gözlərini açandan
Ulu göyə baxmısan.

Bəbəyimin nurunu
İçirtmişəm mən sənə.
Bəsdir budaqda qaldın,
Ağuşuma dönsənə!

Payız kəsib qapını,
Əsirsən əsim-əsim.
Daha qızdıra bilmir
Budaqları nəfəsim.

Qorxma, qayıt qoynuma,
Qəlbimdə yansın çıraq.
Sənə ögey olarmı
Səni ucaldan torpaq?

**1992**

## YÜKÜ AZALAN MAŞINLAR

Nəfəslərinə dəycək
İlk baharın qoxusu,
Paltodan, kürkdən çıxır
Adamların çoxusu.

Qışın ömrü tükənir,
Sozalır yavaş-yavaş.
Avtobusların yükü
Azalır yavaş-yavaş…

**1992**

## ÇIRTMA

Biçilən biçənəklər
Yəqin gəlir xoşuna.
Buludlar çırtma vurur
Yerin qırxıq başına…

Balaca damcının da
Sanbalı var, sanbalı.
Hər çırtma dəyən yerdən
Bir göbələk dombalır…

**1990**

## UÇMAQ İSTƏYƏN AĞAC

Bu ağac yarpaqlayar
Yəqin ki, dörd-beş günə.
O, hər il yaz gələndə
Düşər uçmaq eşqinə…

Elə ki, külək oldu
Yarpaq qanadlar əsər.
Ağac uçub, quşlara
Qoşulmağa tələsər…

Qanadlar hey çırpılar,
Budaqlar baxmaz sözə.
Onların gücü çatmaz
Ağacı yerdən üzə.

Hey çırpınar, payızda
Yarpaqlar özü uçar.
Yaz gələndə bu ağac
Yenidən qanad açar…

**1989**

## O ÇƏMƏN

O çəmənin gülü rəng-rəng,
O çəmənin otu yaşıl.
O çəməni seyr edənin
Bir anlığa gedir huşu.

Çırmalayıb şalvarını
Dağ çayını adlayasan.
Quzu olub o çəməndə
Quzularla otlayasan…

**1988**

## ÜÇ ANA

Körpə çiçəklər, otlar
Buludları əmirlər.
Narın yağış altında
Yuyunurlar, çimirlər.

Elə ki, günəş gülür,
Parçalanır buludlar.
Günəşin işığını
Əmir çiçəklər, otlar.

Yerin şirəsini də
Əmib yaşayır onlar.
Bitkilərin boyunda
Torpağın öz payı var.

Bulud, günəş və torpaq
Yaşamağa səsləyir.
Otları, çiçəkləri
Bu üç ana bəsləyir…

**1988**

## YAŞIL YUXU

Qış şaxta milləriylə
Ağappaq örtük hörür.
Çöllər ağ yorğan altda
Yaşıl yuxular görür…

**1987**

## AĞ BULUDLAR

Seyr edirəm səmanı,
Gör nə qədər bulud var.
Sanki qar topasıdır
Göydəki ağ buludlar.

Görüb işi şuluqdu,
Aradan əkilib qış.
Yerdən qarını yığıb,
Göylərə çəkilib qış…

**1987**

## ÇƏMƏNDƏ ÇİÇƏK OLDU

Birdən göylər hönkürdü,
Yağdı bahar yağışı.
Çəməndə çiçək oldu
Buludların göz yaşı…

## SEHRLİ DƏRMAN – DUMAN

Dərələrdən yüksəlir
Tüstü tək topa-topa.
Əriyib azalır o,
Torpağa hopa-hopa.

Yox, belə tüstü olmaz,
Görmürsən, dumandı bu.
Sanki yeri yumşaldan
Sehrli dərmandı bu.

O gələndə elə bil
Dağa yaraşıq gəlir.
Soluxmuş çiçəklərin
Gözünə işıq gəlir…

**1987**

## BAHARIN SƏFİRİ

Qar içindəki küknar
Yamyaşıldı, iridi.
Elə bil ki, bu ağac
Qışın məmləkətində
Baharın səfiridi…

**1986**

## GÜNƏŞ XOŞ ÜZ GÖSTƏRDİKCƏ

Günəş xoş üz göstərdikcə,
Yer altından gəlir hənir.
Qara torpağın şirəsi
Ağacın içindən keçib,
Ağ-ağ çiçəklərə dönür…

**1987**

## YAZDA

Bulud buluda dəydi,
Gözlərindən
od çıxdı.
Bulud zar-zar ağladı,
Harayına
ot çıxdı…

**1986**

## DOLU

Baxıram dörd tərəfə,
Ay aman, dolu düşüb.
Çağrılmamış qonağın
Bağıma yolu düşüb…

## QIŞDA VƏ YAYDA

Qışda çırpdım ağacı,
Qar töküldü üstümə.
Yayda çırpdım ağacı,
Bar tökldü üstümə…

## QAR GƏTİRƏN QARA GÜN

Uçub beledən belə
Qarıldaşır qarğalar.

Qara günlər gətirib,
Olmasa da qar qara.

Hey ələnib noğul tək
Qalaqlanır qar qara.

Şaxtanın gücü çatmır
Kəmənd vura Qarqara.

Günəş gülsə bircə yol,
Yerdə çətin qar qala!

**1990**

## GÖBƏLƏK SEVİNCİ

Biz çiskinli havadan
Nahaq yerə incidik.

Bu payız yağmurunun
Hər damlası incidi.

O adi yağış deyil,
Göbələk sevincidi…

**1990**

## TUT AĞACININ NƏĞMƏSİ

Yarpağımdan ipək olub,
Tutumdan el-oba dadıb.
Qurumuşam, daha mənim
Saza dönmək vaxtım çatıb.

Bir də çətin yarpaqlayam,
Üzümüzə gələndə yaz.
Sazbənd çağır, məni kəsib
Düzəltsin bir sədəfli saz.

Sonra sıxsın ağuşuna,
Quru sinəm oda düşsün.
Simlər ötsün həzin-həzin,
Ötən günlər yada düşsün…

**1989**

## PAYIZIN KÖLGƏSİ

Payız gəldi, özüylə
Sərin hava gətirdi.
Ağacların hamısı
Kölgəsini itirdi.

Hirsləndi, cin atının
Üstünə mindi külək.
Payızın əllərində
Qayçıya döndü külək.

Kolların zərif donu
Paralandı, kiçildi.
Meşələrin ümidi
Yarpaq-yarpaq biçildi.

Birdən ildırım çaxdı,
Sanki göylər ah çəkdi.
Ağacların gözünə
Payız kölgəsi çökdü…

**1989**

## QARI NİYƏ ƏRİTDIN?

Bacısını cırnadıb,
Piri deyir Pəriyə:
– Mənim gözümdə od var,
Qara baxsam, əriyər...
Pəri də ki nə Pəri,
Ölür qardan ötəri…
Elə ki, günəş güldü,
Qar əridi həyətdə.
Pəri öz qardaşına
Dönüb baxdı heyrətlə, –
Doluxsundu, Pərini
Hünərin var kirit di!
Ağlayır ki, sən baxıb,
Qarı niyə əritdin?

## YARPAQ ƏVVƏL AÇILIBSA

Bir gün bağa gedəndə
Soruşdum ki, Saradan:
Nə üçün bu ağaclar
Əvvəlcə çiçəkləyir,
Yarpaqlayır sonradan?!

– Belədə gözəl olur
Ağacların budağı.
Yarpaq əvvəl açılsa,
Çiçək görünməz axı?!

## BU ÇƏMƏNDƏN BULUD KEÇİB

Bu çəməndən bulud keçib,
Ayağının izi qalıb.
O buludun arxasınca
Çiçəklərin gözü qalıb…

## DOLU, YAĞIŞ, QAR

Şırıl-şırıl
Yağış yağır,
Küçələrdən
Sel-su axır.

Yağır dolu,
Dəli-dolu.
Ağacların
Sınır qolu.

Səssiz-küysüz
Ələnir qar,
Ağ geyinir
Düzlər, dağlar.

Yağışın yoxdu
Əvəzi,
Yağanda gəlir
Həvəsim.

Bağlasa da
İzi, yolu,
Qar yaxşıdı,
Pisdi dolu…

## BAHARDA SARI YARPAQ

Yamyaşıl budaqların
Arasına yaxşı bax.
İlin bu vədəsində
Nədir bu sarı yarpaq?

Özü də yarpaqların
Hamısından qəşəngdi.
– Heç belə yarpaq olar,
Bu ki sarıköynəkdi...

**1987**

## PAYIZDAN BAHARACAN

– Ağaclar üşüyürlər,
Gələcək bahar haçan?
– Oğlum, ağaclar yatır
Payızdan baharacan.

– Bəs bu çılpaq ağaclar
Qorxmur qardan, yağışdan?
– Onların çoxusunun
Xəbəri olmur qışdan…

## TƏLƏSƏN QIŞ

Qar elədi dağa-düzə,
Gəlmək üçün qış tələsdi.
Öz ömrünü uzatmaqçın
Payızın ömründən kəsdi...

Neçə payız çiçəyinə
Şaxtasını qənim etdi.
Ömrü uzandı beş-on gün,
Dedi: – Bu da qənimətdi…

## QAR QIZ

**Musiqisi Elnarə Dadaşovanındır**

Hardasan, sevimli Qar qız,
Gəl, evim nura boyansın.
Od alıb gülüşlərindən
Yolkamın işığı yansın.

Sənə tay olarmı
Hər qız,
Qar qız, Qar qız?!

Gözümün nuru, işığı,
Ulduzum, çırağım olsun.
Get çağır Şaxta babanı,
Qoy gəlib qonağım olsun.

Sənə tay olarmı
Hər qız,
Qar qız, Qar qız?!

**1985**

## ŞAXTA BABA

**Musiqisi Elnarə Dadaşovanındır**

Yolkamızın üstündə
Yenə yandı işıqlar.
Hardasan, Şaxta baba,
Yol gözləyir uşaqlar.

Zirvələrdən enib gəl,
Dərələrdən keçib gəl.
Yamaclara, çöllərə
Dümağ libas biçib gəl.

Gözündə ulduz gətir,
Nəfəsində buz gətir.
Saçlarında dümağ qar,
Dilində xoş söz gətir.

**1985**

## SÜLH MƏŞƏLİ

**Musiqisi Elnarə Dadaşovanındır.**

Bir arzu düşündürür
Cənubu, Şərqi, qərbi.
Sülhün qadir addımı
Tapdasın gərək hərbi.

Taleyimiz zamanın
Əlləriylə yazılıb.
Ümidimiz göyərçin
Qanadından asılıb…

## TƏZƏ İL

Arzular tələsir,
Ürəyim çırpınır.
Zaman yel qanadlı,
İl bir göz qırpımı.

Tarixə döndərdik
Ömrün bir ilini.
Təzə il, xoş gördük,
Gəl sıxaq əlini.

Ellərin sülh deyən
Səsini dinlə sən.
Zəfərlər yolunda
Sən də bir pilləsən…

**1985**

## QAR ALTINDA

Sanki gəlin köçəcək,
Ağ libas geyib dağlar.
Qar altında ya çəmən,
Ya səhra, nə fərqi var?

Baxırsan: hər yan dümağ,
Qar yağıb dizə çıxdı.
Yaz gəldi, qar əridi,
Kəm-kəsir üzə çıxdı…

## QAR YAĞDI BİR QARIŞ

Havalar soyudu,
Qar yağdı bir qarış.
Gecənin üzünü
Ağartdı qarlı qış…

**1985**

## ELÇİN NİYƏ ÜŞÜYÜR

Üstü açıq olanda
Üşüyür borular da.
Bağlayanda kranı,
Su donur borularda.

Çağlayıb axdığından
Buz bağlamır axar su.
Qardan heykəl düzəldir,
Heç üşümür bax, Arzu.

Qaç qoşul uşaqlara,
Nə durmusan, ay Elçin?
Bir yerdə dayanmısan,
Üşüyürsən onunçün…

## BU AĞACIN ÜRƏYİ

Ucaldıqca göylərə
Budaqlar hey öyünür.
Kök torpağın köksündə
Ürək kimi döyünür.

Bu ağac hey can atır
Göyün yeddi qatına.
Bu ağac ürəyini
Niyə alıbdır görən
Ayağının altına?!

**1985**

## ƏN UCQAR YARPAQLAR

Payız əl gəzdiribdir
Aşağı budaqlara.
"Payız gəlir", – bu xəbər
Çatmayıbdır hələlik
Ən ucqar yarpaqlara.

Onlar hələ yaşıldı,
Hər şeyin öz vaxtı var.
Bu yarpaqlar torpaqdan
Bir köynək uzaqdılar…

**1985**

## DONMUŞ SUYUN NƏĞMƏSİ

Gəlib burdan keçəndə
Soyuq tutdu qolumdan.
İlişib qaldım,
Şaxta
Qoydu məni yolumdan.

Çevrilib döndüm buza,
Yumşaq idim, bərkidim.

Yaz gəlib…
Bu yerləri
İstəyirəm tərk edim.

Qışın buz zəncirindən
Açın, açın qolumu!
Axıb getməliyəm mən,
Gözləyən var yolumu…

**1989**

## BAHAR ŞƏKLİ ÇƏKİRƏM

Yamanca xoşum gəlir
Gül-çiçəkdən, xəzəldən.
Qış lövhəsi çəkməyi
Xoşlamıram əzəldən.

Elə ağ kağız özü
Qarlı qışa bənzəyir.
Rəngli karandaşlarım
Vərəqləri bəzəyir.

Kağızlar çiçəkləyir
Köhnə mizin üstündə.
Bahar şəkli çəkirəm
Qarlı düzün üstündə…

**1990**

## QAR TƏNZİF

Payız soldurdu gülləri,
Yarpaqlar, otlar sarıdı.
Təbiətin “yara”sını
Qar tənziflə qış sarıdı.

Bahar gəldi, yer isindi,
Kövrəldi, doldu təbiət.
Sarğısını açıb atdı,
Sapsağlam oldu təbiət…

**1990**

## YAZ

Yaz tələsə-tələsə,
Əlləri əsə-əsə
Dağlara məktub yazdı.

Çiçəkləndi ağaclar,
Yaşıllaşdı yamaclar –
İndi hər yerdə yazdı…

**1990**

## ARZUNUN ARZUSU

Yay ola, çay ola.
Qonşuda toy ola! –
Çayda üzəsən,
Toyda süzəsən…

**1990**

## YAZ GƏLƏNDƏ

Bənzəyir biri-birinə
Lüt gövdə, yarpaqsız budaq.
Bilinmir hansı quruyub,
Hansı təzdən oyanacaq?

Baharın yelləri əsir,
Hava bir az ilinəcək.
Budağın yaşı, qurusu
Yaz gələndə bilinəcək…

**1990**

## SİRR AÇAN PAYIZ

Son bahar yelləri əsir,
Torpağı bəzəyir xəzəl.
Budaqlarda gizlədilmiş
Yuvalar görünür gözə.

Yarpaq düşən kimi quşlar
Xəzələ qoşulub uçur.
Çünki payız gələn kimi
Onların sirrini açır…

**1990**

## SEHRLİ AÇAR

Şaxta buz qılıncıyla
Suları qəfil vurdu.
Nəğməkar bulaqların
Dilinə qıfıl vurdu.

Əsdi vədə yelləri,
Qış getdi, bahar oldu.
Günəşin şəfəqləri
Sehrli açar oldu.

Sevindi dağlar, düzlər,
Hər yana nur saçıldı.
Nəğməkar bulaqların
Buz kilidi açıldı…

## "BEÇƏ VERƏN ARILAR"

Yerə ələnir
Lopa-lopa qar.
Göyün nə gözəl
Mənzərəsi var.

Qar dənələri
Burulur necə?
Sanki arılar
Veriblər beçə…

**1990**

## YAYDA VƏ QIŞDA

Buludlu göylər
Sərinlik yayır.
Açıq səmanın
Sərt olur yayı.

Durub sakitcə
Göylərdən baxır –
Günəş adamı
Yandırıb-yaxır…

***

Qar yağan zaman
Kefim saz olur.
Tutqun havada
Şaxta az olur.

Açıq olanda
Göylərin üzü,
Ayaz qılınc tək
Doğrayır bizi…

**1990**

## PAYIZ LÖVHƏSİ

Havanın qanını
Qaraldır payız,
Yaşıl yarpaqları
Saraldır payız.

Yağışdan,
küləkdən
Bezardı iydə.
Payıza üzünü
Bozardıb iydə…

**1988**

## PAYIZ SARI BOYAYIB

Bu ağacın üstündən
Yaz götürcək əlini,
Payız sarı boyayıb
Onun yaşıl telini…

**1987**

## QARAĞAC

Sevinclə qarşılayır
İlk bahara hər ağac.
Dostlarının çoxundan
Gec oyanır qarağac.

Payız gəlib, xiyaban
Daha da gözəl olub.
O biri ağacların
Yarpağı xəzəl olub.

Qarağacın yarpağı
Baxın, yaşıldır yenə.
İnanmaq istəmir o
Payızın gəldiynə…

**1987**

## YARPAQ BOYU

Payız gəldi, xəzəl ilə
Doldu çöllər, yamaclar.
Bir-birindən yarpaq boyu
Uzaqlaşdı ağaclar.

Bahar gəldi, şən budaqlar
Oldu yenə qolboyun.
Yaxınlaşdı bir-birinə
Ağaclar yarpaq boyu…

**1987**

## ÇÖL SİÇANININ NƏĞMƏSİ

Hey yedim qış uzunu,
Axır qurtardı dənim.
Evdən çıxmaqdan başqa
Əlacım yoxdu mənim.

Çölə çıxıb nə gördüm,
Gördüm ki, əriyib qar.
Torpağı qarlı qışdan
Təhvil götürüb bahar.

Gözünə döndüyüm yay
Görən gələcək haçan?
İşim çətin olacaq
Sünbül dən tutanacan…

**1987**

## TEZ ELƏ, ALMA GƏTİR

"Gəlib alma dərərsən,
Payızacan gözlə bir!" –
Bağbana bax, bağbana,
Alma vermir, söz verir.

Neyləyirəm mən sözü,
Dilimdədir söz elə.
Bağban əmi, di bəsdir,
Alma gətir, tez elə!

**1984**

## KOR DUMAN

Dərələrdən qalxaraq
Tutmuşam dağı, düzü.
Mən özüm kor deyiləm,
Kor eləmişəm sizi…

**1987**

## İŞIQ KÖRPÜSÜ

Babam baxıb bu körpüdən
Dedi mənə: –Bahar gəlir.
O körpünün o üzündən
Bu üzünə yollar gəlir…

Böyük keçir bu körpüdən,
Uşaq keçir bu körpüdən.
Gözümüzün yaraşığı
İşıq keçir bu körpüdən.

Şüşəsindən süzülən nur
Gözlərimin qarasında.
Gözlük – işıq körpüsüdü
Dünyayla göz arasında…

**1987**

## BİRİNCİ CÜMLƏ

Gözəl-gözəl fikirlərə
Yol açdı birinci cümlə.
Suyun ağzından çəkilən
Ağacdı birinci cümlə…

**1987**

## KÖK

Küləklərin əlində
Hər ağac sanki simdi.
Hamı gövdəyə baxır,
Hamı budağa baxır,
Kökləri görən kimdi?!
Köklər gözlə görünməz
Yeri – yerin altıdı.
Onlar da ağacların
İçi, içalatıdı…

**1988**

## QOY SOYUSUN HAVALAR

Qoy soyusun havalar,
Hey yağsın, çisəkləsin.
Adamların üzündə
Təbəssüm çiçəkləsin.

Şaxta baba, dağları
Yenə qarla bəzə sən.
Saqqalından qartopu
Düzəldib at bizə sən…

## CƏNUB QIŞI

Hayladım uşaqları,
Yer ağarıb, bu da qış.
Gecələr yağan qarı
Gündüz əritdi yağış…

**1984**

## ƏLDƏN ÇIXAN QAR PAYI

Asfaltın üzərində
Qanad çalan qara bax!
Əgər külək olmasa,
Yer olmuşdu ağappaq.

Əsir belədən-belə,
Hay-haray qoparır o.
Torpağın qar payını
Dənizə aparır o.

**1982**

## QAR YORĞAN

Göydə qar lopaları
Bir-biriylə öpüşür.
Elə bil paraşütlə
Qış göydən yerə düşür…

Bilir ki, şaxta gəlir,
Qar macal vermir ona.
Tez zəminin üstündə
Dönür dümağ yorğana…

**1994**

## QIŞ SƏSİMİ EŞİTDİ

Qarasına danışdım,
Qış səsimi eşitdi.
Qarını ayaqladım,
O da məni üşütdü…

**1994**

## QAYANIN BUZ SAQQALI

Bu qocaman dünyanın
Yaşıdı – bu qayalar.
Elə bil ki, dağların
Başıdı bu qayalar.

Qışın oğlan çağında
Onlara saldım nəzər.
Nəhəng buz salxımları
Gümüş saqqala bənzər.

Bahar gələndə günəş
Üfüqlərə qalxacaq.
Nurlu qayçısı ilə
Buz saqqalı qırxacaq…

**1994**

## QOŞQAR

Qoşqara bax, Qoşqara,
Gözlər ala, qaş qara.
Göylərə baxıb deyir
O qışqıra-qışqıra:

– Göndər qar payımızı,
Həsrətik bu qış qara…

**1977**

## QARLI GÜNDƏ

Sanırsan ki, toy-bayramdı
Qar yağanda bizim elə.
Tez çıxarıb əlcəyini,
Qar götürdü qızım ələ.

Top düzəldib atdı mənə,
Hey oynadı gülə-gülə.
Bir az keçdi, gözlərindən
Yaş süzüldü gilə-gilə.

Söylədi ki, barmaqlarım
Açıq qalıbdır, yığışmır.
Ay ata, əllərim şişib,
Əlcəklərimə sığışmır…

**1980**

## SUMQAYITDA QIŞ

Şəhərə qar yağdı bu gün,
Hara baxsan ağdı bu gün.
İstəyirəm küçəmizdə
Yığıla qar qalaq-qalaq.
Eh, nə deyim bu küləyə,
Qoyur ki, yerdə qar qala?!

**1980**

## YAZ GƏLİR

Yaz gəlir, hava qızır,
Yaşıllaşır yamaclar.
Adamlar soyunanda
Paltar geyir ağaclar…

**1994**

## YAZ GƏLDİ

Yaz gəldi, qar əridi,
Torpaqdan açıldı don.
Çiçəklədi ağaclar,
Çöllər geydi yaşıl don.

Təbiətin qoynuna
Açıldı bir pəncərə.
Quzular ota cumdu,
Uşaqlarsa pencərə…

**1994**

## GÖY ÇOBANI

Buludları sürü kimi
Qabağına qatıb külək.
Harasa qovur, əlində
Şaqqıldayır odlu şimşək.

Silkələyir qamçısını,
Qışqırır, haray qoparır.
Qara-qara qoyunları
Sanki sağıma aparır.

**1994**

## PAYIZLA QIŞIN GÖRÜŞÜ

Göy bulud ələyiylə
Ələyir dümağ qarı.
Hələ canı istidir
Əridir torpaq qarı.
Bir şey başa düşmürəm,
Bu qar, yoxsa yağışdı?
Yerə baxıram payız,
Göyə baxıram qışdı…

**1997**

## YERƏ XƏZƏL DÖŞƏYİR Kİ

Yenə çəkib payız qoşun,
Elçisidi payız qışın.
İstəyir göydən düşəndə
Qış qorxudan üzülməsin.
Yerə xəzəl döşəyir ki,
Qar dənəsi əzilməsin…

**1997**

## YEL ƏSƏNDƏ

Qış üstünə yorğan salıb
Təpələrin, dərələrin.
Yel əsəndə qoz tökülür
Yuxusuna dələlərin…

**1997**

## SƏMƏNİ

Yaşıl alova döndüm,
Nəlbəkidən boylanıb.
Zəmi ola bilərdim
Mən vaxtında oyanıb.

Üç-dörd günün içində
Bir ovuc çəmən oldum.
Bu baharın, bu yazın
Qurbanlığı mən oldum.

**1995**

## YAZ NƏNƏ

Üşüyən yuvasız qışlar
Şaxtaya qarğış elədi.
Axşamdan səpilən qarı
Yaz nənə yağış elədi…

**1995**

## NOVRUZ TONQALLARI

Çatıb novruz tonqalları
İlk baharı gözləyirik.
Biz günəşə ocaqlarla
Kömək etmək istəyirik…

**1996**

## DƏNİZ HARDA ÇİMİR

Bir dəfə çimərlikdə
Belə söylədi Samir:
– Biz dənizdə çimirik,
Bəs dəniz harda çimir?

Fikrə getdi atası,
Nə cavab versin axı?
Hava birdən qaraldı,
Yağış yağdı şıdırğı…

– Dənizə yağış yağır,
Oğlum, sulara bax bir!
– Ata, tapdım, dəniz də
Yağış yağanda çimir...

**1984**

## DƏNİZDƏ ÇİMƏN GÖZLƏR

– Bu soyuqda dənizdə
Çimmisənmi, ay qoçaq?
– Yox, özüm çimməmişəm,
Gözlərim çimib ancaq…

– Bu necə olan işdi,
Dolamısan məni sən?
– Yox, sahildə dayanıb
Hey baxmışam dənizə…

## DƏNİZ ÇİÇƏKLƏYİB

Durub seyr edir Xəzəri,
Gülür oğlumun gözləri.
Ara vermir, külək əsir,
Suların yuxusu qaçıb.
Oğlum deyir: – Dənizə bax,
Elə bil ki, çiçək açıb…

## MÖHÜR

Qələmiylə qol çəkir,
Yoxdur başqa bir işi.
Sonra da kağızlara
Möhür vurur bu kişi.

Vərəqlərdə əlinin
Qapqara izi qalır.
Elə bil kağızların
Belinə banka salır.

**1988**

## AN

– Çox qısadır an sözü.
– Uzundurmu an özü?
An deməmiş an keçir,
İnsan dünyadan köçür…

**1988**

## PƏNCƏRƏ ŞÜŞƏSİ

Dayanıb önündə küləyin,
Başını birtəhər girləyər.
Soyuq bir üzündən,
İsti bir üzündən
Öpəndə,
Utanar, tərləyər.
Həmişə dursa da arada,
Heç kəsin gözünü bağlamaz.
Buraxmaz içəri yağışı,
Yol verər, işığı saxlamaz.
Hamıya, hamıya gərəkdi,
Təmizdi, şəffafdı, kövrəkdi…

**1985**

## GÖZLÜK

Gözə gözlükdən yaxın
Nə ola bilər axı?!
Göz onun köməyiylə
Görür yaxın-uzağı.

Heç nə, heç nə gözlüyün
Yerini verə bilmir.
Göz çox şey görür, təkcə
Gözlüyü görə bilmir…

**1986**

## YUXARI QALXAN ŞƏLALƏ

Qardaşım tonqal çatıb,
Mənə də əl elədi.
Alovun dilimləri
Elə bil şəlalədi.

Canındakı istini
Odunlar nar tək sıxır.
Belə şəlalə olar,
Bu ki yuxarı qalxır?!

**1986**

## MƏNƏ YARPAQ GÖSTƏRİN

Dünən budaqda yellənən
Yaşıl ümid xəzəl olur.
Yarpaqların açmağı da,
Solmağı da gözəl olur.

Payız gələndə güllərin,
Çiçəklərin gözü dolur.
Budaqda titrəyən yarpaq
Fəsillərin sözü olur.

Onların açıb solması
Əbədidi, müddəsildi.
Siz mənə yarpaq göstərin,
Söyləyim hansı fəsildi…

**1991**

## YARPAQ MƏKTUBLAR

Məktub yazmışdı
Sevinclə bahar.
Qışa çatmadı
Yarpaq məktublar.

Saraldı, soldu,
Düşdü əllərə.
Payız onları
Verdi yellərə.

**1991**

## KÖLGƏ

Elə ki, günəş qalxıb,
Göydən yerə od tökür,
Kölgə maqnitə dönüb,
Qoyun-quzunu çəkir.

**1992**

## QARANQUŞUN DÖŞÜNDƏ

Yaz gələndə özüylə
İlıq külək gətirir.
Qaranquş öz döşündə
Bizə çiçək gətirir.

Onun zərif köynəyi
Gör necə saralıbdır?
Günəşin işığından
Elə bil nur alıbdır.

Çiçəklərin dalınca
Budaqlara bar gəlir.
Qaranquşun döşündə
Yurduma bahar gəlir…

**1992**

## QOZALAR

Ağacların hamısı
Dönüb dolan buluda.
Payız qonaq gəlibdir
Dünyagörmüş palıda.

Hey diqqətlə baxıram
Üstü dolu budağa.
Qozalar oxşayırlar
Üskük taxmış barmağa.

Bu balaca üsküklər
Qapağa da bənzəyir.
Qozaların başında
Papağa da bənzəyir.

Yel əsir, kömək yoxdur
Budaqda quruyana.
Papaq düşür bir yana,
Qoza düşür bir yana.

Qoca palıd bu dərdi
Qəlbində daşıyacaq.
Papağı yerə düşən
Nə üzlə yaşayacaq?

**1992**

## OĞUZ QIŞI

Qar –
üstündə yorğan olub
Yamacların, dərələrin.
Yel əsəndə qoz tökülür
Yuxusuna dələlərin…

**1992**

## QIŞ

Yenə düşüb soyuqlar,
Səpilib hər yerə qar.
Çöllər süd dənizidir,
Dağlar nəhəng dalğalar.

Qayalardan sallanan
Buzlar necə iridir.
Sanki buz salxımları
Qışın məmələridir.

**1976**

## AÇAR

Bapbalaca xırda açar,
Yekə qapıları açar.
Hər qıfılın öz açarı,
Hər ürəyin söz açarı…

**1992**

# UŞAQSIZ EV, UŞAQSIZ EL SUSUZ DƏYİRMANA BƏNZƏR…

## UŞAQ

Körpələri incidəndə
Xeyir-şər qarışıq düşür.
Uşaq görəndə adamın
Çöhrəsinə işıq düşür.

Ağacların budağında
Açılan çiçək – körpədi.
Köksümüzdə gecə-gündüz
Döyünən ürək – körpədi.

Cocuq – həyatın bəhrəsi,
Cocuq – həyatın duzudu.
Cocuq – yolumuz üstündə
Parlayan dan ulduzudu.

Ömrümüzü, günümüzü
Uşaq təbəssümü bəzər.
Uşaqsız ev, uşaqsız el
Susuz dəyirmana bənzər…

**1992**

## ADAM BALACA OLANDA

Adam balaca olanda
Çiçəyin dilini bilir.
Kəpənəyin, qarışqanın,
Böcəyin dilini bilir.

Ağacı, otu, sünbülü,
Dağı, daşı danışdırır.
Yerdə çəpişi, quzunu,
Göydə quşu danışdırır.

Adam balaca olanda
Uçmağa qanadı olur.
Adam böyüdükcə, həyat
Gözlərində adi olur.

**1992**

## ADAM KİÇİK OLANDA

Həyat boyu qayğılar
Çiynimizdə yük olur.
Adam kiçik olanda
Arzusu böyük olur.

Qızılı şimşəklərdən
Qamçı hörmək istəyir.
Ulduzları gül kimi
Bir-bir dərmək istəyir.

Həyatın sərt üzünü
Görüb çaşır adamlar.
Böyüdükcə, torpağa
Yaxınlaşır adamlar…

**1992**

**BABA MƏKTƏBƏ GEDİR**

Baba məktəbə gedir,
Uşaqlara qarışır.
Əlindəki xırdaca
Çanta ona yaraşır.

Açıbdır yaxasını,
Elə bil istilənir.
Damağındakı qəlyan
Arabir tüstülənir.

Uşaqlar arasında
Saqqallı uşaq gedir.
Dodağında təbəssüm,
Gözündə işıq gedir.

Məktəbin qapısından
Geriyə dönür ancaq.
Əlindəki çantanı
Alır kiçik bir uşaq.

Sağ ol deyib ayrılır,
Dostlarına qoşulur.
Baba gülür, sevincdən
Bir qanadlı quş olur…

**1992**

## SÜD

Ən çıxılmaz dəqiqədə
Ürəyə bir ümid gəlir.
Balası doğulan kimi
Ana döşünə süd gəlir.

Qoyun xoşbəxtdir ki, onu
Əmib dirçəlir quzusu.
Bu dünyaya gələnlərlə
Ekizdir onun ruzusu…

**1992**

## CÜCƏLƏR VƏ UŞAQLAR

Cücələr yumurtadan
Çıxınca dil-dil ötər.
Körpələr dil açınca,
Ay dolanar, il ötər.

Yumurtadan çıxan tək
Yeriyə bilər cücə.
Uşaq ayaq tutunca,
Ay dolanar, il keçər.

Cücə toyuq olanda,
Uzağı, qaqqıldayar.
Xoruza dönsə əgər,
Banlayar, quqquldayar.

Uşaqsa danışmağı,
Gəzməyi gec öyrənər.
Ancaq elə belə yox,
Öyrənər, güc öyrənər…

Dodağında nəğmələr,
Sözlər düzülər səfə.
Gəzəndə uzaq-uzaq
Ellərə edər səfər…

**1994**

## EVDƏ YOXDU

Yenə hardansa
Zəng elədilər,
Ta bunlar bizi
Dəng elədilər.
Qaçıb dəstəyi
Götürdü Bağır.
– Alo!
– Ay oğul,
Atanı çağır!
– Kimdir danışan? –
Bağır şitəndi…
– Uzun danışma,
De ki, işdəndi…
Uşaq həm çaşdı,
Həm də ki, qorxdu:
– Atam deyir ki,
O, evdə yoxdu…

**1993**

## BÖYÜK

Özünü böyük sayır
Bizim balaca Elman.
Ona uşaq deyəndə
Xətrinə dəyir yaman.

Xörək paylanan zaman
Cumur yekə qaşığa.
Anası danlayanda,
Deyir ki, mən uşağam.

Cizgi filmi görəndə,
Böyüklüyü “laxlayır”.
Televizor sönəndə
Hönkür-hönkür ağlayır…

**1994**

## İKİ ÇAY,
## İKİ ŞƏHƏR

– Aqşin, bu Sumqayıtçaydı.
– Bıy, belə çay olar, dayı?
Sumqayıt özü böyükdü,
Niyə balacadı çayı?!

– Bəs sizin çay nə boydadı?
– Dağa düşür hay-harayı.
Qubadlı kiçik olsa da,
Böyükdü Bərgüşad çayı…

## NƏRDİVAN

Tətildə atam məni
Rayona yola saldı.
Avtobus tərpənəndə
Üzümü bulud aldı.

Qəribsədim, yanımda
Yox dostum, yox tanışım.
Bəs kiminlə dərdləşim,
Bəs kiminlə danışım?

Pəncərədən boylanıb,
Daldım şirin xəyala.
Birdən kimsə soruşdu:
– Hara gedirsən, bala?

– Rayona, nənəmgilə.
– Adın nədir, ay qoçaq?
– Samirdi.
– Samir bala,
Yola nərdivan qoyaq.

– Nərdivan hanı? – Sizi
Başa düşmədim, xala.
– Yolun da nərdivanı
Söhbətdi də, ay bala!

…Bax beləcə danışdıq,
O yandan, gah bu yandan.
Bir də baxıb gördüm ki,
Rayondayam, rayonda…

**1994**

## YOX, KƏSMƏ

Bizim kiçik Samirə
Təzə köynək aldılar.
Geyindirib əyninə,
Baxa-baxa qaldılar.

– Qolu bir az uzundur,
Gərək kəsdirək, oğlum.
– Kəsdirməyək, bir ilə
Uzanacaq öz qolum…

**1993**

## GÖZLƏ

Kəndimizdə darıxdı,
Üzünü bulud aldı.
– Məni evə göndərin, –
Samir hay-haray saldı.

Nənəm dedi: – Ay dəcəl,
Az haray-həşir qopar.
Gözlə alma yetişsin,
Anangilə pay apar…

**1994**

## YÜNGÜLLƏŞƏCƏK

Öz atasını
Samir çağırdı:
– Təzə palto al,
Bu çox ağırdı.

– Döz, bu ağırlıq
Qorxulu deyil.
Yüngülləşəcək
Palton gələn il…

**1994**

## BELƏ OXUMAQ OLMUR

Uşaq tək nağıl sevir,
Oxumağından qalmır.
Xırdaca hərfləri
Nənəmin gözü almır.

Eynəyini taxır ki,
Kəlmələri böyütsün.
Sözləri bircə-bircə
Dəyirman tək “üyütsün”.

Bizim “Əlifba”mızda
Çox böyükdü hərflər.
Ad günümdə dostlarım
Mənə kitab veriblər.

Yazıları xırdadı,
Mənim gözüm də almır.
Nənə, eynəyini ver,
Belə oxumaq olmur…

**1994**

## AĞACLARIN İDMANI

Yellənən budağa baxıb,
Qardaşım deyir Süsənə:
– Ağaclar idman eləyir
Külək əsəndən-əsənə…

**1994**

## QARĞA, KÜÇÜK, QUZU VƏ BALACA GÜLTƏKIN

Qarğa deyil, qarıldayır,
Küçük deyil, mırıldayır.
Quzu deyil, mələyir o,
Əmiyə əl eləyir o.
Aylar, illər ötüşəcək,
Quzu qurbanı olacaq.

Adam dili öyrənəcək,
Böyüyüb yaşa dolacaq.
Qarğa keçəndə əlinə
Yolunacaq, lüt olacaq.
Böyüyəndə küçük onun
Qapısında it olacaq…

**1994**

## HƏLƏ ÖLMƏ

Nənə deyir ki, ölürəm,
Nəvə salır haray-həşir.
Axı gəzmək istəyirəm,
Tez məni həyətə düşür.

Özünü bicliyə vurma,
Məni aldada bilərsən?
Hələ ölmə, qoy yekəlim,
Sonra rahatca ölərsən…

**1996**

## ROZANIN XAHİŞİ

Balaca Roza əl edir,
Məni çağırır həyətdən.
– Şeirini əzbər bilirəm,
İstəyirsən danışım mən.

Bir yol da şeir yazanda
Bu yellənən ağaca yaz.
Əzbərləmək çətin olur,
Şeiri bir az balaca yaz…

**1994**

## XATİRƏ

– Oğlum, nənən xatirəylə
Nəfəs alan bir nənədi
Görürsən, xəyala dalıb?
– Atacan, xatirə nədi?

– Nənə qəlbini isidir
Ötən günün sönməz odu.
Xatirə yalnız adamın
Özü gördüyü kinodu…

**1994**

## YUSİFİN TƏƏCCÜBÜ, YAXUD ŞİRİN ÇAY

Nənə deyir: – Qışqırmayın,
Dəyən yoxdu payınıza.
Ay uşaqlar, az qənd salın
Səhər-səhər çayınıza.

Çay qurtarıb, qalıb yaxmac,
Yusif yeyə bilərmi heç?
Nənə rəhmə gəlir: – Bir az
Götür mənim çayımdan iç!

Nənənin çayından içib,
Salıb haray-həşir indi.
Yusif gülüb deyir: –Nənə,
Sənin çayın nə şirindi?!

**1994**

## ANA SOXULCANIN CAVABI

Bala soxulcan gəzib,
Güman gələn hər yanı,
Anasından soruşdu:
– Bəs mənim atam hanı?

Ana belə söylədi
Oğlunu sakit edib:
– Atan balıqçılarla
Balıq tutmağa gedib…

**1995**

## SİÇAN VƏ ÖKÜZ

Öküz sevirdi siçanı,
Başına oyun açanı.
Öz sevimli gözəlinə
Bir məktub da yazmışdı o:
– Dərdindən öküz olmuşam,
Siçan, inanmırsansa:
– Mooo!!!

**1994**

## AYGÜN

Baxıb kiçik Aygünə,
Belə deyir Ay Günə:
– Bu balaca qıza bax,
Elə bil ki, çiçəkdi.
Xalasından ağıllı,
Bibisindən qəşəngdi…

**1995**

## AYGÜNÜN BİBİSİ

Aygün bir ilahi qızdı,
Xəbəri yoxdu özündən.
“Bibimə şeir yaz!” – deyib,
Çıxmaq olarmı sözündən?

Bibisi də nə bibidi,
Uşaq şeirini bəyənmir.
Ürəyindən keçənləri
Mərdi-mərdanə deyəmmir.

Aygün bir gözəl baladı,
Heç nə almaz yad əlindən.
Xalasını tanımıram,
Bibisinin dad əlindən!

**1995**

## GÜL SATANIN NƏĞMƏSİ

Gülümə söz ola bilməz,
Sevməyən gül ala bilməz.
Ucuz nədi, baha nədi? –
Almırsansa, bəhanədi…

**1995**

## DÜYƏ

İstədi ki, çəltik döyə,
Düyülüyə girdi düyə.
Dürrə onu görüb qaçdı,
Yumruğunu düyə-düyə.
Gəlib düyəni çıxartdı
Düyülükdən döyə-döyə…

**1997**

## KÖKƏ

– Ya sacı as, kökə sal,
Ya da mənə kökə al!
Kişmişli, ballı kökə,
Küncütlü, xallı kökə.
Nənəyə qulaq asdı,
Nəvəsi sacı asdı.
Bişirdi kökə, fətir,
Dörd yanı tutdu ətir.
Hazırdı fətir, kökə,
İsti-isti ye, kökəl!

**1997**

## CIRIRAM Kİ…

Gursel danladı Gülünü:
– Gör necə pis adətin var?!
Ay yaramaz, bu nə işdi,
Adam heç kitabı cırar?!

Sənin kimi dəcəl qızı
Gərək yaxın qoymayasan.
– Kitabını cırıram ki,
Sən mənimlə oynayasan…

**1996**

## PİLLƏKƏNDƏ KONSERT

Bir gün evə gələndə
Gördüm əcəb mənzərə.
Baxışlarım sataşdı
Təbəssümlü gözlərə.

Ay maşallah, blokda
Gör nə qədər uşaq var!
Pillələrin üstündə
Əyləşmişdi uşaqlar.

Elə bil ki, pilləkən
Bir tamaşa zalıydı.
Heç bir uşaq dinmirdi,
Sanki hamı lal idi.

Müğənnilik edirdi
Aşağıda bir dəcəl.
Dedi mənə: – Ay əmi,
Utanma, konsertə gəl.

Bu balaca artistin
Nəğməsini xoşladıq.
Mahnı qurtaran kimi
Biz onu alqışladıq…

**1995**

## ŞOKOLAD KAĞIZI

Gözəlsən, göz oxşayırsan,
Ay şokolad kağızı.
Şirin eləyə bilmirsən
Ancaq dili, ağızı…

**1995**

## ACI, ŞİRİN,TURŞ

–Hünərin var, ay Dilbər,
Bir acı söz de:
– Bibər.
– İndi isə sən, Bülənd,
Bir şirin söz de:
– Bal, qənd…
– Sağ ol, indi də Qonça,
Bir turş söz desin:
– Alça…

**1995**

## ZÖHRƏ

Zöhrəyə bax, Zöhrəyə,
Gedib girib pöhrəyə.
Ağaclar tərs-tərs baxır
Əlindəki dəhrəyə.

Zöhrəyə bax, Zöhrəyə,
Məhəl qoymur dəhrəyə.
Onu atıb kənara,
Sığal çəkir pöhrəyə…

**1998**

## QUZUM

Quzum necə sevimli,
Quzum necə qəşəngdi.
Gözləri bir cüt ulduz,
Tükü sanki ipəkdi.

Razı olmaram onun
Ömründə oyun ola.
İstəmirəm ki, quzum
Böyüyüb qoyun ola…

**1998**

## MƏN BAL DEYİLƏM

– Bal balanın yanağından
Dadlı bir öpüş alacam.

– Mən bal deyiləm, arıyam,
İndicə səni çalacam. –

Deyib gülür bu şeytan qız:
–Vız… Vız… Vız… Vız…

**1998**

## GÜLÜ VƏ GÜL

Gülü dedi ki, mənə
Dodaqlarını büzüb:
– Gülə su verməmişəm,
O da inciyib, küsüb.

Gülün qədrini bilin,
Gül incidi, gül dürrdü.
Gülü gülə su verdi,
Gülü gülü güldürdü…

**1998**

## AYNURLA SÖHBƏT

– Baba, Ay sanki
kökədi.
– Nə deyirəm,
Aynuş, olsun!
– Baba, acmısan?
– Acmışam.
– Onda sənə
Ay nuş olsun!

**2000**

## ACGÖZ

Bu uşaq yaman acgözdü,
Qarnı doyur, gözü doymur.
Qazanı çəkir ortaya,
Özü yeyir, bizi qoymur.

Atasına, anasına
İstəyir ki, gəlsin kələk.
– Siz onsuz da yekəsiniz,
Qoyun biz yeyib yekələk.

**1999**

## DALIMCA GƏLİR

Samirə bax, Samirə bax,
Ayağı yalınca gəlir.
Sevinə-sevinə deyir:
– Kəpənək dalımca gəlir…

**1992**

## SAMİRLƏ SÖHBƏT

– Qulağını çəkəcəyəm.
– Gedib anama deyəcəm.
– Başında turp əkəcəyəm.
– Mən də çıxardıb yeyəcəm…

**1992**

## ELƏ BİL SİMDİ

Elə bil simdi bu cığır,
“Çalmasan” qovrula bilər.
Ayaq mizrablar dəyməsə,
Paslanıb qırıla bilər…

**1992**

## BULAĞA GEDƏN CIĞIR

Ay bulağa gedən cığır,
Ətə-qana dolacaqsan.
Getdiyin yer gözəldisə,
Böyüyüb yol olacaqsan…

**1992**

## QULUN

Bu dağların mənzərəsi
Adamın könlünü açır.
Meşəbəyi atı çapır,
Qulunsa yanınca qaçır.

Dəcəl gah qalır arxaya,
Gah da ki, qabağa keçir.
Bilirəm ki, ürəyindən
Köhlənlik arzusu keçir.

Duruşuyla, baxışıyla
Adamları heyran edir.
Sürücü atın belində,
Onunsa qəlbində gedir…

**1992**

## QUZULAR ƏMİŞƏNDƏ

Dağları ot bürüməsə,
Örüşün nə ləzzəti var?
Əgər ayrılıq olmasa,
Görüşün nə ləzzəti var?

Yamacın daşı, çınqılı
Tərpənər, quzular gələr.
O yandan qoyun sürüsü,
Bu yandan quzular gələr.

Heç biri dəyişik düşməz,
Duy bu eşqin mənasını.
Hər kəs tapar balasını,
Hər kəs tapar anasını.

Həzin mələrti səsləri
Sevinc verər dağa, daşa.
Quzuların əmişməsi
Könül açan bir tamaşa…

Məmələri dolu gələn
Qoyun quzuya süd verər.
Kənarda ixtiyar çoban
Quzuçuya öyüd verər…

**1992**

## TƏKƏRLİ BEŞİK

Təkərlərin üstündə
Gəzən beşiyə baxın.
Beşiyin içindəki
Körpə kişiyə baxın.

Hələlik qulaq asmır
O, heç kimin sözünə.
Gözləri diklibdir
Uzağa – göy üzünə…

Karvan tutub yeriyir
Buludlar ağır-ağır.
Körpə gülür, ananın
Üz-gözünə nur yağır.

Təkərlər hey fırlanır
Bu gündən gələcəyə.
– Ey, yolumu gözləyin,
Mən mütləq gələcəyəm!

Elə bil qanadlanıb,
Süzür bu arabacıq.
Nağıllar dünyasında
Üzür bu arabacıq…

**1991**

## KOMPOT

İnçində dadlı kompot
Neçə banka bağladıq.
Yayın meyvə payından
Qışa sovqat saxladıq.

Ancaq bir az keçməmiş
Əməyimiz puç oldu.
Bankaların bəzisi
Öz-özünə açıldı…

Hər qapaq bir güllə tək
Tappatapla atıldı.
Bizim üzümüz güldü,
Anam narahat oldu.

Dedik: – Canın sağ olsun,
Acıqlısan niyə sən?
Tez içilmək istəyir
Bu kompotlar deyəsən…

**1991**

## QUYUYA QARPIZ ATDIM

Səpsərin olsun deyə
Quyuya qarpız atdım.
Qaldı suyun üzündə,
Elə bilmə ki, batdı.

Quyudan su çıxarıb,
Onu ləzzətlə içdim.
Su elə bil kompotdu,
Bu necə olan işdi?

Darıxmayın, hər şeyi
Başa salım indi mən.
Qarpız əzilib, suya
Qarışıbmış sən demə…

**1985**

## EVCİYİM BÖYÜMƏDİ

Ömrün ötən günləri
Yadıma düşür hərdən.
Qəşəng evcik tikmişdim
Balaca olanda mən.

Heyf, uşaqlığımdan
Bir nişanə qalmadı.
Mən böyüdüm, evciyim
Böyüyüb ev olmadı.

O balaca evciyin
Kiçik pəncərəsindən
Boylanan uşaqlığa
Həsrətlə baxıram mən…

**1985**

## ÜRƏYİMİN İÇİNDƏ

Qulağını sinəmə
Söykəyib, asır qulaq.
Ürəyim çırpındıqca,
Mənə qısılır uşaq.

Sonra qalxıb söyləyir
O, əl-qol ata-ata:
– Ürəyinin içində
Göyərçin var, ay ata!

**1985**

## YEDDİNCİYƏ KEÇƏN ÇANTA

Qardaşım çantamızı
Bu gün dəyişik salıb.
Açanda kitabları
Duruxub, çaşıb qalıb.
Gülüşüb deyiblər ki,
Daha iş-işdən keçib.
Qardaşının çantası
Dördüncüdən birbaşa
Yeddinci sinfə keçib…

**1989**

## TƏƏCCÜB

Heç belə də şey olar,
Bu işə qalmışam mat –
Buz tək soyuq su içdim,
İstim qalxdı o saat.

**1989**

## MIX VURANDA

Mıx vuranda taxtaya
Çəkic dəydi əlimə.
Heç bilmirəm nə olub
Gözlərimə, dilimə?

Ağzım hey ufuldayır,
Sızıldayır sözlərim.
Ağrıyan əllərimdi,
Ağlayansa gözlərim…

**1987**

## YARPAQ ARASINDA BAŞ

Ayaz birdən qışqırdı,
Söz əsdi dodağında:
– Adam başı bitibdir
Bu tutun budağında…

Gülüşdülər uşaqlar:
– Görünməyib belə iş!
Sən demə ağacdakı
Qonşunun oğlu imiş.

Çıxıbmış tut yeməyə, –
Ayaza o da güldü.
Ağacdan yerə düşüb,
Düz yanımıza gəldi.

Əl uzatdı dostuma,
Dedi: –Tanış olaq gəl,
Aqşingillə qonşuyuq,
Sən bizə də qonaq gəl…

**1987**

## QİYMƏT

Altında tarix qoydum
Yazdığım təzə şeirin:
5 iyun…
Tural baxıb
Dişin ağartdı xeyli.
Bir də baxdı kağıza,
İnanmadı gözünə.
Gülüb dedi: –“5” yazıb
Əmim özü özünə…

**1987**

## VURAĞAN QOÇ

Cumub gəldi üstümə,
Vurdum vurağan qoçu.
Gözünü qorxutmuşam,
Indi o, məndən qaçır.

Hədələyib demişəm:
– Gəl uşaqları az vur!
Sən qoçsan, mən qoçuyam,
Yerində farağat dur!

**1988**

## İKİ QARDAŞ

Dalaşdılar, özündən
Çıxdı balaca qardaş.
Güləşdilər, böyüyü
Yıxdı balaca qardaş.

Rəqibinin üstündə
Başladı ağlamağa.
Soruşduq ki, nə üçün
Ağlayırsan, ay qağa?

Sən ki, yıxılmamısan,
Bəs nədir bu göz yaşı?
Dedi: – Duranda məni
Öldürəcək qardaşım…

**1988**

## TƏNƏFFÜS

Zəng çölə vurulubdur,
Sinifdə hay-küyə bax.
Elə bil çiynimizdən
Götürülüb ağır dağ.

Qaçırıq, oynayırıq,
Yorğunluq düşmür yada.
Fasiləni sevməyən
Uşaq varmı dünyada?

Heyf ki, tənəffüslər
Qısa olur yamanca.
Zəng içəri vurulur
Biz göz açıb yumunca…

**1988**

**İTMİŞ PALTARLAR**

Çayda çimib o ki var,
Tural yorulub daha.
İstəyir ki, geyinsin,
Paltarı çıxıb yoxa.

– Bax, burda
soyunmuşdum –
Tural eləyir israr.
Hamı çaşıb qalıbdır,
Bəs onda hanı paltar?

Qaçır o baş-bu başa,
O hay-haray qoparıb.
Deyir ki, paltarımı
Yəqin ki, çay aparıb.

Gedirik çay aşağı,
Gedirik çay yuxarı.
Tapılmır ki, tapılmır
Dostumun paltarları.

Xahiş eləyir bizdən:
– Gözləyək, düşsün gecə.
Küçə ilə paltarsız
Evə qayıdım necə.

Çay aşağı yüyürüb,
Birdən qışqırdı Aqşin:
– Paltarını tapmışam,
Tural, düzəldi işin.

Muştuluğu hazırla! –
Hamının gülür üzü.
Sevincdən parıldayır
Turalın yaşlı gözü…

**1988**

## PARA ÇÖRƏK

Oğlumdan soruşdum ki,
Çörək ala bilərsən?
– Niyə almıram, ata!
– Bax, evə tez gələrsən!

Məndən pul alıb getdi
Mağazaya sevincək.
Bir azdan geri döndü
Əlində para çörək.

Dedim: – Bu nədir belə? –
O, uddu sarısını.
Demə yolda yeyibmiş
Çörəyin yarısını…

**1988**

## SU İÇMƏYİ SEVİRLƏR

Qara bax, süd tək ağdı,
Əriyib su tək axdı.
Oğlum bir dönüb qara,
Bir də ki, mənə baxdı.

Dedim ona: – Fikirləş,
Sənə bir sualım var.
Əriyəndə nə üçün
Rəngini dəyişir qar?

Mənə belə söylədi
O, düşünüb bir qədər:
– Çünki ağaclar süd yox,
Su içməyi sevirlər…

**1988**

## SARI BADIMCAN

Səsini kəsmir
Balaca Aytən:
– Sarı badımcan
İstəyirəm mən.

Babası onu
Tez başa düşür.
Dediyi sözü
Düz başa düşür.

Deyir: –Ağlama,
Sakit ol bir az.
Bilmirsən sarı
Badımcan olmaz?

İstədiyini
Anan gətirər,
Sənə ətirli
Banan gətirər…

**1991**

## DİNLƏYƏN YOXSA

Sən bu sinifdə
Hay-həşirə bax.
Ağız deyəni
Eşitmir qulaq.

Hamı qışqırır,
Danışan çoxdu.
Ancaq heç kəsi
Eşidən yoxdu.

Bu nə səs-küydür,
Axı, ay uşaq?
Dinləyən yoxsa,
Niyə danışaq?!

**1991**

## TƏLƏSMƏ

Kökə tutub əlində,
Sevinir, bir ona bax.
Çağırıram Ayseli,
Yaxına gəlmir ancaq.

– Əmi, sənə nə olub,
Tələsirsən deyəsən?
Qoy mən kökəni yeyim,
Sən də məni yeyərsən…

**1989**

## DÜNYANIN YÜZ CÜR İŞİ VAR

Dünyanın yüz cür işi var,
Suyu ruziyə döndərir.
Daşı yonub qum eləyir,
Qurdu quzuya döndərir…

**1985**

## AĞ QÖNÇƏ, SARI ÇİÇƏK

Qırt toyuğun altında
Yumurta qönçə-qönçə.
Bıy, qönçə pardaxlandı,
Açıldı sarı çiçək! –
Xoş gördük, sarı cücə!

## TOZ

Toz buraxıb arxada
Maşın sürətlə getdi.

Yoxuşa dırmananda
Toz gəlib bizi ötdü.

Sürücümüz tələsik
Pəncərələri örtdü…

**1985**

**“NƏM-NƏM”,**
**“ÇAY-ÇAY”,**
**“BAY-BAY”**

Üççə söz bilir
Balaca Gültəm.
Yemək görəndə
Qışqırır:
–“Nəm-nəm”.

Yeyib qurtarır,
“Çay-çay” istəyir.
Yorulan kimi
“Bay-bay” istəyir…

**1990**

**“MAÇ”**

Yayılsa da dörd yana
Öpüşünün gur səsi,
Nə qədər eləsən də,
Samir öpməz heç kəsi.

Yalvarsan ki, öp məni,
O bir “əlac” eləyər;
Dodağını uzadıb,
Yalandan “maç” eləyər…

**1990**

## DIRMIĞIN YUMRUĞU

Bostanın qapısında
Dırmıq çıxdı qarşıma.
Ayaqladım, çevrilib,
Sapı dəydi başıma.

Qəfil, güclü zərbəsi
Salıbdır oda məni.
Mən onu tapdamasam,
Vurmazdı o da məni.

**1990**

## BELƏ GETSƏ

Uzanır hər gün boyum,
Ucalıram mən göyə.
Ancaq bilmirəm kuklam
Niyə böyümür, niyə?

Elə bil ki, bəbədi,
Sən bunun boyuna bax.
Belə getsə, onunla
Sözümüz tutmayacaq…

**1990**

## QARDAŞIMIN “KƏŞF”İ

Çay içmək istəyirdim,
Alışdırdım qazı mən.
Su qaynadı, çaydanın
Buğ çıxdı lüləyindən.

Qardaşım baxıb dedi:
– Əsl möcüzədir bu.
Dönüb buxara uçur
İstiyə dözməyən su…

**1989**

## AĞZIM

Ürəyin nə istədi
Budaqdan dərdim, yedin.
Xatalı olmadı ki,
Yanında alça dedim.

Ağzım, bəsdi sulandın,
Korlayarsan işləri.
Sakit duran deyilsən,
Qamaşmasa dişlərim…

**1989**

## HAVAYA UYĞUN

Gileylənmə ki,
Hava soyuqdu,
Pis paltar olur,
Pis hava yoxdu…

Geyim, əslində
İsitmir bizi.
İtməyə qoymur
Öz istimizi…

Geyinsən əgər
Havaya uyğun,
Heç bir qorxusu
Olmaz soyuğun…

**1991**

## TOP

Futbol oynamaq gəlir
Hamımızın xoşuna.
Bir top
Bir top uşağı
Toplayıbdır başına…

**1988**

## İLK OV

Bərgüşadın sahili,
O yan çay, bu yan çəmən.
Şəfa tapır deyirlər
Şəffaf sularda çimən.

Heç bilirsən bu çayda
Neçə cürə balıq var?
Ancaq tutmaq çətindi,
Çoxbilmişdi balıqlar.

Tilovu tez-tez atıb,
Çəkirəm birnəfəsə.
Balıq düşmür ki, düşmür
Qarmağıma nədənsə.

Soxulcanmı arıqdır,
Tilovummu gödəkdir?!

Əmim dedi: – Tələsmə,
Ovda səbr gərəkdir.

Suya baxdım, tilovu
Bərk-bərk tutub ovcumda.
Sanki ürək döyündü
Qarmağımın ucunda.

Ovu sahilə çəkib,
Haray saldım sevincək.
Köksümdə ürəyim də
Çırpınırdı balıq tək…

**1988**

## TƏTİL

Biz tətilə çıxmışıq,
Dincəlmək vaxtı çatıb.
Ancaq televizorun
İşi yamanca artıb…

**1990**

## ŞÜŞƏSİLƏN

Maşınımız getdikcə
Yollara baxıram mən.
Sel-suyun içindədi
Dərə-təpə, çöl-bayır.
Bu şıdırğı yağışdan
Narazıdı deyəsən,
Şüşəsilən səhərdən
Hey başını bulayır…

**1986**

## MƏN YAXŞI OĞLANAM

Mən bacımın əlindən
Gəlinciyi almıram,
Tapançamı götürür,
Haray-həşir salmıram,
Mən yaxşı oğlanam e…

Pişiyin quyruğuna
Daha ip bağlamıram,
Həyətə düşənlərin
Dalınca ağlamıram –
Mən yaxşı oğlanam e…

Stəkan-nəlbəkini
Sındırmıram, qırmıram.
Divarları cızmıram,
Kitabları cırmıram –
Mən yaxşı oğlanam e…

Boş-boş şeyin üstündə
Ta salmıram qalmaqal.
Ata, axı nə olar,
Get mənə dondurma al –
Mən yaxşı oğlanam e…

**1991**

## LİFTİN QAPISI AĞZINDA QALAN ÇƏKMƏLƏR

Atasıyla şəhərə
Qonaq gəlib Nəriman.
Bu vaxtacan o, liftə
Minməyibmiş heç zaman.

Ata düyməni bascaq,
Uşaq maraqla baxdı.
Qapısı bağlanan tək
Sehrli qutu qalxdı.

Beşinci mərtəbədə
Biz liftdən çıxan zaman
Təəccüblə soruşdum:
– Çəkmən hanı, Nəriman?

Gülümsündü balaca,
Süzdü sevincək məni:
– Qapınızın ağzında
Çıxartmışam çəkməmi.

Dayım oğluna baxdı,
Belə söylədi gülüb:
– O, liftin qapısını
Evin qapısı bilib.

Məni də gülmək tutdu
İşdən halı olunca.
Onlar bizə qalxdılar,
Mən endim Nərimanın
Çəkməsinin dalınca…

**1985**

## AYSEL SÜD İSTƏYİR

Aysel dedi səhər-səhər
Nənəsinə gəlib yaxın:
– Mənə süd sağ.
– İnəyə de, qoysun, sağım.
– İnək, süd ver.
– Ot yeməsəm, olmaz südüm.
– Ot, dizə çıx.
– Yağışa de, yağsın, bitim.
– Yağışım, yağ.
– Buluda de, dolsun, yağım.
– Buludum, dol.
– Sözlərinə gərək baxım,
Sənin tək yağşı uşağın…
Dolubdu qara buludlar,
Ta başqa nə sözünüz var?!
Hirsli-hirsli dindi uşaq:
– Yağış, di yağ!
Ay ot, di bit!
İnək, di ye!
Nənə, di sağ!
Bəsdirin, nə qədər
Susaq?!

**1985**

## GÜL ƏKƏRSƏN

– Hər kəlmədən inciyən,
Hər sözdən küsən balam.
Gedək saçını qırxım,
Ay mənim Süsən balam.

Telin qəşəng bitəcək,
Razı olsan əgər sən.
– Ata, saçımı qırxıb,
Yerində gül əkərsən!

**1985**

## KARANDAŞ

– Karandaş verin mənə.
– Qələmin yoxdu, Baxşı?
– Qələmim olsa idi,
Neynirdim karandaşı?

**1985**

## BULUD GÖYDƏ OLAR

Könül boylanıb baxır
Təyyarədən aşağı.
Buludları görəndə
Heyrət alır uşağı.
– Bunlar nədir, atacan?
– Görmürsənmi buludu? –
Könülü gülmək tutdu.
Buluda bax, buluda,
Elə bil ki, pərdədi.
Buludlar göydə olar,
Bunlar niyə yerdədi?

**1985**

**UY…UY…**

Nigar yeriyir, ancaq
Danışa bilmir hələ.
Bu gün evdə qalıb o,
Bacısı Sevinc ilə.

Nəsə demək istəyir,
Sevinc qalıb nigaran.
Ufuldayır, görəsən
Nə olubdur Nigara?

Qarnını qucaqlayıb,
Xısın-xısın ağlayır.
– Seva, uy, uy… eləyir, –
Yəni buram ağrıyır…

**MAŞININ BAŞI VARMI?**

– Deyirsən ki, mühərrik
Maşının ürəyidi.
Maşının başı varmı,
Bizə de görək indi?

Fikirləş yaxşı-yaxşı.
– Maşının yoxdur başı. –
Sürücünün başıyla
İşləyir axı maşın…

**1985**

## OXŞADI

Atam bağa margin enincə
Süzdüyüm məxməri çay
Soyumasa yaxşıdı.
Nəlbəkini çevirdim
Stəkanın ağzına,
Göbələyə oxşadı…

**1985**

## STƏKAN

Sakitcə dur yerində,
Stəkan, olma dəcəl.
Əlimdən yerə düşdün,
Qırıldın, indi dincəl!

## TELEVİZORA BAXANDA

Keçi tək dırmaşsam da
Burda dağa, yamaca,
Qonaq getmişəm, kənddə
Utanıram yamanca.

Özgə evə uyuşmaq
Elə bilmə asandı.
Televizora baxdım,
Hər şey yadımdan çıxdı,
Özümü evdə sandım…

**ÇƏYİRDƏK**

Gülsabah girəndə bağa,
Tapdı bir çanaqlı bağa.
Dedi: – Bu ki, çəyirdəkdi,
Böyüklüyünə bir bax ha!

Tısbağa qından çıxanda
Təəccübləndi Gülsabah.
Güldü: – Çəyirdək cücərir,
Böyüyəcək bu gün-sabah…

**AT, MAŞIN**

–Yaxın getdi, ya uzaq,
Mindin, minmədin atı, –
Gərək əskik olmasın
Onun arpası, otu…

Maşınsa ayrı şeydi,
Unutmayasan gərək.
O, benzini işlədir
Getdiyi yola görə…

**OCAQ**

Közərir ocaq,
Alova bir bax,
Yanmasa özü,
İsitməz bizi…

## BƏDƏN

Bədən – “vətən torpağı”, –
İnsan üçün əzizdi.
Damarlar dağ çayları,
Ürəklərsə dənizdi…

## QAN

Bədəndəki
qıpqırmızı
Qızıl qan,
İnsan üçün
qiymətlidi
Qızıldan…

## YASTIQ

Qucaqlayıb yatıram
Mən gecələr balışı.
Yastığım səhərəcən
Mənə nağıl danışır…

## YAY

Hayandan yağır
Bu od, bu atəş? –
Yaman istidi,
Yandıq, ay nənə.
Od qılıncını
Sıyırdı günəş,
Pərdə qalxanı
Tutduq önünə…

## ŞİRİN ÇAYIN XƏTRINƏ

Dedim ki, ana, çay ver,
Toxam, gətirmə çörək. –
Tərs-tərs üzümə baxdı.
Şirin çayın xətrinə
Yaxmac yeyəsən gərək,
Ayrı əlacın yoxdu…

## ÇƏKMƏ

Çəkməmin burnu qopub,
Çəkməm ağzını açıb.
Gülüşürlər uşaqlar
Deyirlər: – Çəkmən acıb…

## NİYƏ XƏSTƏLƏNMİSƏN

– Söylə, nə olub sənə,
Dəcəl oğlum, Büləndim?
– Mənə konfet vermədin,
Onunçün xəstələndim…

## QORXURAM YAĞIŞ YAĞA

– Əziyyətlə yumusan,
Paltarları sər indi.
– Sərməyinə sərərəm,
Amma hava sərindi.

Mən bunları yuyunca
Az əziyyət çəkmədim.
Qorxuram yağış yağa,
Hədər gedə zəhmətim.

## YERİN DİŞİ

– Nə üçün mən sənin
Gözündə yaş görüm?
Kişisən, ağlama,
Di durub qaç görüm!

– Yıxıldım üstünə,
Dişlədi dizimi,
Ay ata, elə bil
Dişidir daş yerin…

## QAR MƏNƏ ÇATMAZ

Həyətdə qara bax,
Lap çıxır o, dizə.
Sopsoyuq, ağappaq,
Tərtəmiz, təptəzə.
Sanki ağ vərəqdi,
Düzə bax. –
Bir sözdü üstündə
Hər uşaq.
Qaçırlar o yana,
Qaçırlar bu yana.
Geyindir paltomu,
Tez elə, ay ana!
Həyətə düşsəm gec,
Qar mənə çatmaz heç…

## NƏNƏ – BALA

Nəvə dedi nənəyə
Baş qoyanda balınca:
– Mənimlə bağçaya get
Sən evdə tək qalınca.

Oturub gözləyirsən,
Düşəcək axşam haçan?
Neynirsən tək-təkana
Səhərdən axşamacan?

Darıxmazsan mənimlə
Birgə getsən əgər sən.
Yığaram uşaqları,
Bizə nağıl deyərsən.

Dinlədikcə onları
Şənlənərik, gülərik.
Axşam da nənə-bala
Evimizə gələrik…

**1980**

## ƏLVİDA, GƏLİNCİYİM

Gəlinciyim, gəlinciyim,
Ayrılırıq, gəl görüşək.
Mən yekə bir qız olmuşam,
Sən qalmısan əzəlki tək.

Darıxma, yenə kiminsə
Sevimlisi olacaqsan.
Mən məktəbə gedəcəyəm,
Sən bağçada qalacaqsan…

**1980**

## "APPA", "OPPA"

Yeməyə "appa" deyir,
Gəzməyə "oppa" deyir.
"Appa" istəmir,
"Oppa" istəyir. –
Kim yeməsə "appa",
Olmaz ona "oppa"…

**1981**

## XOKKEYÇİ PAPAĞI

Atasına yalvarır
Bizim balaca Vüsal:
– Ata, nə olar, mənə
Xokkeyçi papağı al!

– Neyləyirsən onu sən?
– Qoymasam o papağı,
Həyətdə yıxılanda
Başım yarılar axı?!

## GECƏ NƏNƏ

– Laylay, mənim gözəl nəvəm, –
Nənə dinir, səs ucalır.
– Ay nənə, bəs nənələrə
Yatanda kim layla çalır?

– Böyüklərin hamısına
Gecə nənə çalır laylay.
Adamların üzündəki
Yorğunluğu yuyur lay-lay…

– Gecə nənə, gecə nənə,
Sən nənələr nənəsisən.
Bir laylay çal, nənəm yatsın,
Bəs sən nə vaxt dinəsisən?!

**1984**

## AY PALTAR SƏRİR

Göylərə bax, aydınlıqdı,
Ulduza bax, halay-halay.
Zivədəki paltarları
Ziyasına qərq edib Ay.

Pəncərədən göyə baxıb,
Belə deyir bizim Pəri:
– Ata, bir bax,
Ay balkonda
Ana kimi paltar sərir…

**1984**

## GECƏ LÖVHƏSİ

Yel əsir yavaş-yavaş,
Titrədir budaqları.
Ay nurunda yer çimir.

İşıq düşür, ağarır
Qovağın yarpaqları
Balığın qarnı kimi…

**1984**

## SÖZƏ BAXSAYDIN

Qəfəsdəki pələngə
Belə deyir Maisə:
– Sözə baxsaydın, səni
Salmazdılar qəfəsə…

## XƏYYAM

İt hürəndə
deyir Xəyyam:
– Ana, qorxma,
yanındayam!

## QARAĞAT

Hələ kaldı qarağat,
Yerində dur farağat.
Yetişəndə gələrsən,
Səbət-səbət dərərsən.

**1983**

## DADLI YUXU

– Ay ana, bacı hanı?
– Bacı yuxu bişirir.
Elçin bunu eşitcək
Harayladı Bəşiri. –

Qaçdı təzə xəbəri
Qardaşına deməyə.
– Bəşir, Bəşir, tez elə,
Gedək yuxu yeməyə.

Anam deyir ki, bacı
Dadlı yuxu bişirir. –
Eşidəndə bu sözü
Gülmək tutdu Bəşiri.

## YAY YUXUSU

Ata yuxudan durcaq
Söylədi: –Ay uşaqlar,
Yuxumda görmüşəm ki,
Hər tərəfə yağıb qar.

Qar sözünü eşitcək
Dilləndi kiçik Aydın:
– Ata, gərək məni də
Həyətə aparaydın…

**1983**

## YASTIĞA DE

Ata deyir anaya:
– Çox pis yuxu görmüşəm.
Çarpayının yanına
Gəlib balaca Rövşən
Söyləyir ki, ay ata,
Gecə qorxarsan axı?!
Yastığa de, səninçün
Danışsın şirin yuxu…

**1984**

## NARINC

Təzəcə iməkləyir,
Narınca bax, Narınca.
Çarpayının altına
Girib topun dalınca.

Başı dəyir taxtaya,
Dikəlir, qalxa bilmir.
Topu götürüb, ancaq
Geriyə çıxa bilmir…

**1980**

## BAŞMAQDAN ŞİKAYƏT

Hey axtardı sağı, solu,
Gileyləndi yenə Süsən:
– Mən tapıram, o tapılmır,
Ata, başmağı görürsən?!

**1980**

## SİZƏ MEYVƏ DƏRƏRDİM

Uşaqları yığdı bağa,
Belə dedi bizim Ağa:
– Dərərdim hamınız üçün
Alma, armud, gilas, alça,
Ancaq küsün bəxtinizdən,
Çıxa bilmirəm ağaca…

**1978**

## OYUNCAQ

Gursel hələ düşməyib
Oyuncaq həvəsinə.
Ayağını oynadır
Oyuncaq əvəzinə…

**1979**

## AYI BALASI

Arzu qışqırdı:
– Ayı balası,
Ayı balası!
Səsə tökülüb
Gəldi anası,
Gəldi xalası.
Dedilər: – Söylə,
Bəs ayı hanı?
Arzu göstərdi
Bir qurbağanı.
Qurbağa qorxub,
Atıldı suya.
Hamı gülüşdü
Kiçik Arzuya.

**1977**

## ALMA ALMAYA BƏNZƏR

Belə söyləyirlər ki,
Alma almaya bənzər,
Əlindəkini alıb,
Ayrısını verəndə
Niyə almadı Mənzər?

**1977**

## AĞACIN TƏŞƏKKÜRÜ

Mən ağacı sulayanda,
Ağac mənə baş əyirdi.
Sanki yarpaq dilləriylə
O, mənə “sağ ol” deyirdi…

**1977**

## BAĞÇAYA GEDƏNDƏ

Qardaşımı bağçaya
Aparıram mən özüm.
Qardaşımın yanında
İki olmaz bir sözüm.

Get deyəndə gedər o,
Dayan desəm dayanar.
Əlini ver əlimə,
Yolu keçək, ay Anar.

Tez elə, yolumuzda
Yaşıl işıq da yandı.
Küçədən keçək deyə,
Bax, maşınlar dayandı…

**1977**

## SAMOKAT

Fırfıra bağlamışam
Samokatın önünə.
Təkərlər hərləndikcə,
O, fırlanır, ay nənə.

İstəyir qanad açsın
Mənim bu taxta atım.
Təyyarə tək havaya
Qalxacaq samokatım…

**1977**

## PARAYA DƏYMƏ, BÜTÖVÜ KƏSMƏ

– Doğra doyunca
ye görüm, Əsmər, –
Paraya dəymə,
bütövü kəsmə.
– Necə eləyim,
atacan, bəs mən?
– Qızım, çobanın
nağılını sən
Eşitməmisən
axı deyəsən?!
Vermək istəmir
bəy çörək ona,
“Paraya dəymə,
bütövü kəsmə” –
deyir çobana.
Çoban düşünür,
çoban tələsmir,
Paraya dəymir,
bütövü kəsmir.
Ortalarını ovur çörəyin,
Qıraqlarına toxunmur ancaq.
Üzünə baxıb o, xəsis bəyin
Dadlı doğramac yeyir doyunca…

**1977**

## TÜLKÜ, QAZLAR VƏ QIZLAR

Tülkü maskası geydi,
Tərlan özünü öydü.

Vaqqıldayıb tülkü tək
O, qorxutdu qızları.
Dedi ki, mən bu saat
Yeyəcəym qazları.

Hinə sarı yüyürcək,
Tərlana cumdu qazlar.
Tərlan qışqırıb qaçdı,
Gülüşdü ona qızlar…

**1977**

## İLQAR VƏ QAZLAR

Çiynində avtomatı
Cumdu qazlara sarı.
–Ta, ta, ta…

Qazlar “sıss” eləyərək
Qovaladı İlqarı:
–Qa, qa, qa…

Qorxudan yerə atdı
İlqar avtomatını.
Qazlardan uzaqlaşdı
Çapıb qarğı atını…

**1977**

## ALMA

Allanıbdır yanaqları,
Yetişibdir alma, ata.

Əlimdəki bu daşları
Sən əlimdən alma, ata.

Mən ağaca daş atıram,
Ağac mənə alma ata…

**1978**

## ELSEVƏR

Bizim dəcəl Elsevər,
Külək sevər, yel sevər.
Niyə sevir küləyi? –
Deyim, birlikdə gülək.
Onun fırfırasını
Fırladan nədir?
– Külək…

**1977**

## FƏRQ

Ağacın üstündə
Alma var, alma var.
Hərəsi bir dadda:
Alma var, alma var…

## ALÇA

Bu nə kiçik alçadır,
Budağına əl çatır.
Sırğa-sırğa sallanar
Budağından alçalar.
Budaq budağı əyər,
Budaq yerə alçalar.
Yarpaqların üstündən
Üstümüzə şeh yağar.
Budaq budağı saxlar,
Uşaqlar alça yığar…

**1977**

## MƏN OLMASAM

Nənəsinə deyir ki,
Bizim balaca Gülgəz:
– Mən olmasam,
sən kimin
Nənəsi olarsan bəs?

**1977**

## DÜRDANƏ

Göydə Ayı göstərib,
Haray salır Dürdanə.
Ağlayır ki, o topu
Gedib gətirin mənə…

**1977**

## KONFET

Ondan konfet istədim,
Əlində biri vardı.
Qoydu ağzına, dedi:
– Yoxdu,
pişik apardı…

**1977**

## KOR BIÇAQ

Mətbəxdəki bıçaqlara,
Ay uşaqlar, siz də baxın.
Bacım deyir: – Bıçaq kordur, –
Gözü olar heç bıçağın?!

**1978**

## MEYVƏNİN SÖZÜ

Cavanlığım indikindən
Təravətli, göyçək olub.
Ətirliyəm, çünki mənim
Uşaqlığım çiçək olub…

**1978**

## GÜL

İnsanlar ürəyimdən
Keçənləri duyublar.
Həmişə güldüyümdən,
Adımı gül qoyublar…

## SAÇI UZANSIN DEYƏ

Qırxdırmışıq saçını,
Cırnadırıq bacını.

Çırtma vurub deyirik,
Qarpız yetişib görək?

Ağlayır, yanağında
Göz yaşı çiçək-çiçək.

"Suvarsan, ot tez bitər" –
Ona görə Nuriyyə

Başını tez-tez yuyur,
Saçı uzansın deyə…

**1984**

## KƏSMƏKDƏN BAŞQA

"Mən hamıdan qoçağam", –
Lovğalanır bu çağa.
Sən onun əlindəki
Bıçağa bax, bıçağa.

– Birdən əlini kəsər,
Boşla bu boş həvəsi.
– Kəssin, elə kəsməkdi
Bıçağın vəzifəsi.

İstehzayla bıçağı
Mənə göstərib Qoşqar,
Deyir: – Kəsməkdən başqa
Bu hər şeyə yarayar…

**1984**

## PƏNCƏRƏNİ AÇMAYIN

Duman gəlibdir dağa,
Duman gəlibdir bağa.
Pəncərəni açmağa
İcazə vermir Ağa.
Deyir: – Birdən açarsız,
Duman dolar otağa.
Pəncərədən içəri
Buraxmayın dumanı.
İtirərəm məstanı,
İtirərəm toplanı…

**1977**

## İKİ BABANIN BİR NƏVƏSİ

Bu nəvənin iki evdə
Yeri ucadı,
Bu nəvənin özü körpə,
Adı "qoca"dı.
Bir babası Cəbrayıldı,
Biri Ağəddin,
Bu nəvəyə söz deyənlər
Aşmasın həddin.

Doğulanda xoşbəxt-xoşbəxt
Babalar gülüb,
Körpə Mansur Sumqayıta
Qodmandan gəlib.
Bu həyətə, bu bağçaya
Bil, yiyədir o,
Babasına ad günündə
Hədiyyədir o.
Mansur, boy at, babaların
Boyunu görsün,
Arzum budur onlar sənin
Toyunu görsün!

## PİYADA KEÇİDİNDƏ

Maşın yolunda yanan
İşıq deyil ki, yaşıl.
Adamların dalınca
Hara gedir bu maşın?

Piyada keçidində
Şütüyür saymazyana.
Müfəttiş gülə-gülə
Baxıb əl edir ona.

Çünki pozmur qaydanı
Bizim kiçik sürücü.
Əlindədi maşına
Bağlanmış ipin ucu...

**1986**
**Moskva**

**PƏNCƏRƏSİZ YAŞAMAQ**
**BİL Kİ, ƏFSANƏ SÖZDÜ.**
**ÜRƏYİN PƏNCƏRƏSİ**
**BİR CÜT İŞIQLI GÖZDÜ…**

## LAYLALI AXŞAMLAR

Otağa yaz gətirir
Anamın danışığı.
Körpəmin gül üzünə
Düşür layla işığı.

Oxuyur mənim balam,
Onu yuxu aparır.
Günün qapısı kimi
Kirpikləri qapanır.

Yavaş-yavaş açılır
Dolaşıqlar, düyünlər.
Vərəq kimi çevrilir,
Göz yumulduqca, günlər…

**1992**

## GÜNƏŞ, AY

Gündüz Günəş, gecə Ay
Şəfəqlərini yaydı.
Gündüzün qızı Günəş,
Gecənin qızı Aydı.

Yer qızı göyə baxıb,
Əlində çiçək gəzir.
Deyir: – Ay ulduzlarla ,
Gecə isə tək gəzir.

Dərdi varsa Günəşin,
Onun əlacı olaq.
Ay qızlar, gəlin biz də
Günəşə bacı olaq.

Qoymayaq tək darıxsın,
Yalqızdı Günəş bacı.
Qoşularaq biz ona
Gəzək çölü, yamacı…

## AXŞAM, SƏHƏR

Səhər Şərqdən,
axşam Qərbdən
Günəş boylanır.
Dağlar, düzlər
xumarlanır,
nura boyanır.
Axşam-səhər qızıl rəngə
çalır üfüqlər,
Qan çilənir çöhrəsinə
dağda qarın da.
Bir-birinə əks olsa da,
axşamla səhər,
Yenə də bir oxşarlıq var
aralarında…

**1982**

## OTLAQ

İnəklər yem dalınca
Dolandı kövşən-kövşən.
Azaldım qırpım-qırpım,
Azaldım gövşək-gövşək.
Məni məmələrində
Daşıyıb körpələrə
Apardı qızıl inək…

**1982**

## GÜNƏŞ SANKİ OCAQDI

Günəş sanki ocaqdı
Yanmayır boş-boşuna.
Planetlər fırlanır
Bu ocağın başına.

Günəş yanır, oduna
Hamımızı isidir.
Elə bil ki, buludlar
Günəşin tüstüsüdür…

**1981**

## BULUDLARA TOP ATIRAM

Buludlara top atıram,
Caynağından qopardıram
yağışı.
Sevindirir çölü, düzü,
Bu yağışın yağışı…

Lalələrin, nərgizlərin
Rəngi gəlir üstünə,
Sağ ol deyir qüdrətimə
Çiçəklərin baxışı…

**1978**

## BULUDA BAX, BULUDA

Buluda bax, buluda,
Elə bil ki, yumaqdı.
Çözələnib töküldü,
Yağış ilmələr axdı.

Bir azca bundan əvvəl
Bu gözəllik yoxudu.
Bulud yağış əliylə
Xalça – çəmən toxudu…

**1978**

## ULDUZLARIN BAXIŞI

Ulduzların hərəsi
Elə bil ki, bir közdü.
Ulduzların hərəsi
Sanki bir həsrət gözdü.

Yuxulu dünyamıza
Baxmaq istəyir onlar.
Ancaq dünya xanımın
Əynində zülmət rəngli
Bir gecə köynəyi var…

O gözlərdən ələnir
Odlu həsrət yağışı.
Gecənin köynəyini
Dəlmədeşik eləyib
Ulduzların baxışı…

## HƏR GÖZÜN ÖZ YUXUSU

Gözümə bax, gözlərin
Səssiz mahnı oxusun.
Hər gözün öz işığı,
Hər gözün öz yuxusu.

Yuxu səni düşürər
Yorğunluğun atından.
Yuxu gəldimi, hər şey
Çıxar sənin yadından.

Gözlər yorulan kimi
Harayına yetər o.
Gecə qayıdıb gələr,
Gündüz uçub gedər o.

Gözünü yum, gül bala,
Yatmaq vaxtıdır axı?!
Hava kimi, su kimi
Gərəkdir bizə yuxu…

**1986**

## AY ARIQLAYIB

Ay haray, ay haray,
Arıqlayıb göydə Ay.

İncəlib, dönüb çöpə,
Bənzəyir nazik ipə.

İşığı azalıb lap,
Olacaq iynəyə sap.

Amandır, Günəş ana,
Nurundan pay ver ona!

İşıq əmib yekəlsin,
Cana gəlsin, kökəlsin!

**1988**

## YUXU

Dolur bəbəklərimə
Yorğunluq duman kimi.
Yuxu məni aparır
Gözümü yuman kimi.

Gah dağları görürəm,
Gah bağları görürəm.
Çəmənlikdə oynayan
Uşaqları görürəm.

Səhərəcən yuxuma
Nə qədər adam girir.
Gah əmim, gah qardaşım,
Gah da ki, atam girir.

Yuxuda sifətimi,
Üzümü görəmmirəm.
Mən hamını görürəm,
Özümü görəmmirəm…

**1988**

## BİZİM QAPININ ZƏNGİ

Susuz bir dəyirmandır
Qonaqsız ev, deyirlər.
Nə yaxşı qapımızı
Səhər-axşam döyürlər.

Evə qonaq gələndə
Sanki olur sevincək –
Bizim qapının zəngi
Cəh-cəh vurur bülbül tək.

**1990**

## SƏS ŞLAQBAUMU

Sanki asma körpüdü
Telefonun dəstəyi.
Səslər onun üstündən
Hara keçmək istəyir?

Yox, o, şlaqbaumdu –
Yolbağlayandı, Püstə.
Dayanır gecə-gündüz
Səsin yolunun üstə.

Zəng çalınır dalbadal,
Götür dəstəyi, tələs.
“Şlaqbaum” qalxmasa,
Səs keçib gələ bilməz…

**1990**

## ÇAXMAQ DAŞI

Çaxmaq daşım, çaxıl, çaxıl!
Qov alışsın, bir ocaq ol!

Sən lap qədim zamanlardan
İnsanların umuduydun.
Üşüyənin əllərində
Balaca od buluduydun.

Çaxmaq daşı, çaxıldığın
Yerdə bir zərrə günəş var.
Özün buz kimi soyuqsan,
İçində od var, atəş var…

**1990**

## HAMAR DƏNİZ

Kater üzüb getdikcə
Qabarır suyun üzü.
Elə bil kotan salıb,
Şumlayırlar dənizi.

Ancaq dəryanı əkmək
Cəhdi hədərdir, hədər.
Haphamar olur dəniz
Şumlansa da nə qədər.

**1989**

## DANIŞAN BUTULKALAR

Butulkalara baxın,
Yamanca sərbəstdilər.

Atam maşını sürcək,
Titrədilər, əsdilər.

Bir-biriylə söhbətə,
Höcətə tələsdilər.

Mən onları ayırdım,
Səslərini kəsdilər.

Kiridilər, susdular,
Yəqin məndən küsdülər…

## GECƏLƏR İTLƏR HÜRÜR

Quzular yuxusunda
Yamyaşıl xəsil görür.
Hamı gedib mürgüyə,
Arabir itlər hürür.

Cırtdan, qorxma köpəkdən,
İşlərin olar asan.
Getsən it hürən yerə,
Mütləq xeyir taparsan.

İnsanın yaxın dostu
Gecələr oyaq olur.
Səsi oğruya zərbə,
Doğruya dayaq olur.

O səs  tikanlı məftil,
Ondan qorxur yalquzaq –
Aclıqdan üzülsə də,
Dolanır kənddən uzaq.

Qaranlıqda köpəyin
Hürməyi deyil əbəs.
Gecələr keşik çəkir
Uyuyan kəndə o səs…

**1989**

## EHTİYAT AÇARIN NƏĞMƏSİ

Açaram mən,
açaram mən,
Bağlı qapı
açaram mən.
Unuduldum,
yada düşsəm,
Sevincimdən
uçaram mən.
Siyirmənin bir küncündə
Ağlayıram acı-acı.
Qıfıla girməkdən ötrü
Göynəyir burnumun ucu.
Açaram mən,
açaram mən,
Bağlı qapı
açaram mən…

**1989**

## SINAQ

At oynayır oyur-oyur,
Əlləriylə yeri oyur.
Könlünə nəmər düşübsə,
Tut cilovu, dostum, buyur!
Al qamçını, qalx yəhərə,
Atı yolda sınayarlar.
Atdan gen qaçan igidi
Huylayarlar, qınayarlar.
Niyə duruxdun?
Köhlənin
Belinə atıl.
At səni
sınağa çəksin,
Sən də atı…

**1989**

## İŞIQ VƏ DOVŞAN

Düşüb işıq cığırına
Dovşan qaçır, dovşan qaçır.
Təpəsindən, kürəyindən
Tər süzülür puçur-puçur.

Elə bil ki, sehrlənib,
Çıxmır işıq zolağından.
Hey qaçsa da, uzaqlaşmır
Motor səsi qulağından.

Yazıq dovşan, bilirsənmi
Nə deməkdi maşın, təkər?
Yoldan çıx, yoxsa gözünə
Həmişəlik zülmət çökər…

**1989**

## YASTIQ

Başımla üstdən basdım,
Balışım oldu yastı.
Yəqin ki, buna görə
Ona deyirlər yastıq…

## TƏK OLANDA

Tək olanda ilham coşur,
Qələmimdən sözlər axır.
Hər kəlmə bir qaranquş tək
Qənşərimdə durub baxır.

Üstünə fərli söz qonsa,
Kağız sevinir, şadlanır.
Bir misra babat alınsa,
Şair quş tək qanadlanır.

Elə ki, adamlar gəlir,
Hərəsi bir söhbət açır.
Hay-küy qopdumu, mövzular
Otaqdan perikib qaçır…

**1989**

## KÜNCÜTLÜ KÖKƏ

Anam mənə dükandan
Kökə alıb, xala, bax!
Sən bir bunun üstünə
Səpələnmiş xala bax!

Adama gəl-gəl deyir
Kökənin hər küncüdü.
Ancaq qoymur ki, yeyəm,
Bacı məni incidir.

Deyir: – Bölək, kökədən
Mənə də pay yetəcək.
Sən onu təkcə yesən,
Üzündə xal bitəcək.

**1989**

## CƏRƏYAN

Qoxusu yox, dadı yox,
Heç vaxt görünməz gözə.
Ancaq təbəssümüylə
Sevinc bəxş edir bizə.

Xasiyyəti belədir,
Yandırmasan, alışmaz.
Durar səssiz-səmirsiz,
Dindirməsən, danışmaz.

Qışın qarlı çağında
İstəsən, olar ocaq.
Dilini bilsən əgər,
Dönüb qulun olacaq.

Nə yemək soruşacaq,
Nə içmək, nə də geymək.
Haçan könlün istəsə,
Sənə edəcək kömək.

Neçə filin gücü var
Nazik biləklərində.
Sehrli nur gizlənib,
Onun bəbəklərində…

**1989**

## SƏS

Bulaq kimi çağlayar,
Ha qışqırsan, tükənməz.
Qopub dodağımızdan
Quş tək qanad açar səs.
Neçə bağlı qapının
Qıfılını açar səs.
Gözə görünməsə də,
Ürəyə nur saçar səs.
Sərhədləri adlayar,
Ölkələrə uçar səs.

## ÇİÇƏK AÇAN İŞIQLAR

Seyr edirəm, şəhərdə
Gör nə qədər işıq var!
Axşam pəncərələrdə
Çiçəkləyir işıqlar.
Ulduzlara baxın bir,
Yox, onlar ulduz deyil.
Göydəki adamların
Evinin işığıdı
Bu ulduzlar elə bil…

**1986**

## BU ƏMİNİN SAÇLARI

Bu əminin başında
Gur saça bax, gür saça.
O qədər dümağdı ki,
Az qalır ki, nur saça.

Bu əminin başına
Baxıb söyləyir Emil:
– Bu əminin saçları
Pambıqdandı elə bil…

**1985**

## QOCALAR DA UŞAQDI?

– Qoy əsgərliyə gedim,
Böyümüşəm mən axı!
– Ay bala, əsgərliyə
Aparmırlar uşağı.

– Onda qoy baba getsin.
– Babanın saçı ağdı,
Qocadan əsgər olmaz.
– Qocalar da uşaqdı?!

**1985**

## KÖNÜL ŞEİR DEYƏCƏK

Hamı Könülə baxır,
Könül şeir deyəcək.
Lalə kimi qızarıb,
Könül əlində çiçək.

Bilmir ki, heç neyləsin,
İtiribdir özünü.
Dörd tərəfi adamdı,
Hara tutsun üzünü?

## PİŞİYİN GÖZLƏRİ

Zülmətə dönüb
Həyət, ev-eşik.
Zil qaranlıqda
Zil qara pişik
Dolanır, gəzir
Bağı, bostanı.
İndi tap görüm
Sən bu məstanı?
Görünməsə də
Pişiyin özü,
Fonar tək yanır
Bərəlmiş gözü.
Kəpənək kimi
Uçur o gözlər.
Yamyaşıl işıq
Saçır o gözlər…

**1985**

## QIN VƏ GÖZLÜK

Əgər ürək yanmasa,
Gözün yaşı quruyar.
Qılıncı qın saxlayar,
Gözü gözlük qoruyar.

Qılınc qından sıyrılsa,
Ora-bura dürtülər.
Qın qılıncı korşaldar,
Gözlük gözü itilər…

**1985**

## DAŞ VƏ TORPAQ

Yaşıd olsalar da, sanki
Daş qoca, torpaq uşaqdı.
Bu dünyaya gələn gündən
Daş bərkdi, torpaq yumşaqdı.

Yerin qəlbi çox kövrəkdi,
Ovunur çiçəklə, güllə.
Torpağa dəycək səngiyir,
Daşı dəlib keçən güllə…

**1990**

## CANLI PAROVOZ

Gözlərində şimşək gəlib,
Cilov gəmirir, gövşəyir.
Uzaqlardan çapıb gəlib,
Bərk yorulub, at tövşüyür.

Tər süzülür kürəyindən,
Ocaqmı yanır qarnında?
Sanki canlı paravozdu,
Hey buxar çıxır burnundan…

**1990**

## KƏSİLMƏYƏN ŞÜŞƏ

Yağış yağır, maşınlar
Ötür belədən belə.
Dayanıb pəncərədən
Baxıram diqqət ilə.

Hamı, hamı tələsir,
Maşınlar süzüb keçir.
Cızıldayan təkərlər
İri şüşəsilən tək
Asfaltı cızıb keçir.

Yollarda gediş-gəliş
Əskilmir ki, əskilmir.
Ayna tək dümdüz küçə
Kəsilmir ki, kəsilmir…

**1990**

## İŞIQ SEVGİSİ

Gecə sahilə gedib,
Sən çaya tutsan fənər,
Balıqların hamısı
İşığa üzüb gələr.
Tez tilovu atıb çək,
Mütləq balıq düşəcək.
Sevinirsən yamanca,
Sənin ov torban dolur.
Balığı işə salan
İşıq sevgisi olur…

**1990**

## QAZAYAĞI

Qazayağı o qədərdi,
Zəmini başına alıb.
Qazlar özləri gediblər,
Ayaqları burda qalıb…

**1991**

## QAÇAN AĞ TURP

“Möcüzədir, möcüzə,
Gör bir nə pəstah açır? –
Ağ turp torpaqdan çıxıb,
Hey ora-bura qaçır.

Gah açılır, gah da ki,
Yumulur yumruq kimi.
Uzun zoğu sürünür
Arxada quyruq kimi…”

İnandım bu sözlərə,
Mən aldandım, uduzdum.
Baxdım ki, turp sandığım
Ağ dərili qunduzdu…

**1990**

## YUXUDA GÖRDÜYÜM NAĞIL

Yatağıma girən kimi,
Kirpiyimi yuman kimi,
Şirincə bir yuxu girir
Gözlərimə duman kimi.

Ürəyim bal istəyəndə
Yuxuma ac arı girər.
Deyirlər ki, ac toyuğun
Yuxusuna darı girər.

Bu gördüyüm əhvalatlar
Gözümdən asılı deyil
Yuxumun yaxşısı, pisi
Özümdən asılı deyil…

Gah qorxulu qurd, əjdaha,
Gah körpə quzu görürəm.
Gah dağları, yamacları,
Gah çölü, düzü görürəm.

Ağlıma gəlməyən işlər
Yuxumun qonağı olur.
Gecə gördüklərim, səhər
Çevrilib bir nağıl olur.

Çağırıram, nənəm gəlir,
Danışıram aram-aram.
Axşam dediyi nağılın
Əvəzini qaytarıram.

**1990**

## QƏRİB DAYANACAQLAR

Qonağı olmayanda
Olur dünya dar ona.
Sanki təskinlik verir
Gələn adamlar ona.

Nə yaxşı ki, qalmayır
Tənha dayanacaqlar.
Həmdəmi olmayanlar
Tənha dayanacaqlar.

Üzümüzə qəriblik
Qanadını gəribdi.
Qərib dayanacaqda
Elə hamı qəribdi…

Bir mehriban danışıq
Sanki ərşə çəkilib.
İntizarlı baxışlar
Uzaqlara dikilib.

Avtobus gecikəndə
Üzə duman, çən gəlir.
Tanış maşın gələndə
Elə bil vətən gəlir…

**1991**

## OD

Odsuz, ocaqsız heç nəyik,
Od xeyirdi, bərəkətdi.
İnsan odsuz yaşayammaz,
Od həyatdı, hərəkətdi.

Benzin alışıb yanmasa,
Mühərrik haray qoparmaz.
İçində alov olmasa,
Maşın da bizi aparmaz…

**1991**

## GÖZ QƏFƏSİ

Həyatlərdə oynasaq da,
Böyüklər izləyir bizi.
Üstümüzdən əskik olmur
Ata-anamızın gözü.

Yəqin ki, yekələn zaman
Azad bir həyat başlayır.
Uşaq böyük olanadək
“Göz qəfəsi”ndə yaşayır…

**1991**

## QAVAL

Muğamat dilə gəldi,
Səs bulaq tək qaynadı.
Xanəndənin əlində
Qaval sanki aynadı.

Bu aynanın üstündə
Bir körpə çiçək dərər.
Bu aynanın üstündə
Xanəndə yollar görər.

Bu aynanın üstündə
Tumurcuqlar, xəzəllər.
Bu aynanın üstündə
Güzgülənər gözəllər.

Zəngulə vurulduqca
Çağlayar, daşar sular.
O ayna aya dönüb,
Üzümüzə nur salar…

**1991**

# ÇAY VƏ BULAQ

Bulaq dedi ki, çaya
Biz ki, qohum-qardaşıq,
Bu dünya yaranandan,
Bir ayrılmaz sirdaşıq.

Gəlib tez-tez yoluxur
Hər yoldan ötən məni.
İtirib-axtarmırsan
Ancaq heç vaxt sən məni.

Bir gün də bizi yad et,
Sevindir dost-tanışı.
Qonaq gəlsən düşməz ki,
Dost, üzüyünün qaşı?!

Çay güldü, uğuldadı,
Qucaqladı bulağı.
Dedi ki, neyləyirsən
Mənim kimi qonağı?

Ürəyimdən keçir ki,
Əziz dostum sevinə.
Ancaq mən necə sığım
Sənin kiçik evinə?

Dost, sənə qonaq gəlsəm,
Uzun ömrün bitəcək.
Gözün tutulmasa da,
Duruluğun itəcək…

**1993**

## ÇİÇƏK PƏNCƏRƏSİ

Parkda gəzib düşünürəm
Görüb küçədəki çatı.

Yazıq bitkilər darıxır,
Qaranlıqdır yerin altı.

Özünə pəncərə açıb,
Çiçəklər deşib asfaltı…

**1994**

## PÖHRƏLƏR VƏ KÜLƏK

Pöhrələr çalışır ki,
Yelin yolunu kəssin.
Onlar istəmir külək
Keçib gülləri əzsin.

Acıqla siləkələyir,
Yorulmayır qolları.
Külək şapalaqlayır
Elə bil ki, kolları…

**1994**

## GÜLƏN DALĞALAR

Dənizə bax, dənizə bax,
Hər tərəf dümağ dalğadı.
Bizi görəndə sevinir,
Dalğa dişini ağardır.

**1994**

## TORPAĞIM

Tab elədin ağrılara,
Torpağım, gəl səni öpüm.
Köksündə şırım açmasam,
Ora necə toxum səpim?

**1994**

## SEHRLİ PƏTƏKLƏR

Bu şəhər evlərində
Gör nə qədər pətək var.
Ancaq gözə görünmür
Vızıldaşan arılar.

Bu sehrli qutular
Süst havanı itirir.
Sümürüb otaqlara
Dağ havası gətirir.

"Çırmayıb qollarını"
Möcüzəli pətəklər,
Mənzildəki natəmiz
Havanı hey "kötəklər"…

Qadir insan özüdür
Bu pətəyin arısı.
Bal tək şirin havanı
Udur qızı, qarısı…

**1996**

## SEHRLİ PİLLƏKƏN

Hər ucalan xoş səda
Elə bil ağ yelkəndi.
Pianonun hər dili
Sanki bir pilləkəndi.

Onlar üstə gəzdikcə
Sehr dolu barmaqlar,
Elə bil ki, çağlayır
Kol dibində irmaqlar.

Dinir şirmayı tellər,
Danışır şirin dillə.
Qanadlanır ruhumuz,
Ucalır pillə-pillə.

Qulaq asıb barmağın
Titrək "addım səsinə",
Hamımız yüksəlirik
Gözəllik zirvəsinə…

**1991**

## ÇAŞQINLIQ

Hey mələyir yazıq-yazıq,
Bu qumral quzuya baxın.
Yaman acıb, bəs nə üçün
Anasına düşmür yaxın?

Qoyun mələyir, çağırır,
Ancaq ondan qaçır quzu.
"Nə olub mənim balama?" –
Anasının dolub gözü…

Yaxın gəlib körpəsini
İstəyir alsın qoynuna.
"Sən mənim anam deyilsən!" –
Bu söz dağ çəkir qoyuna.

İnciməsin gərək qoyun,
Quzunu yenə yalasın.
Yununu qırxıblar deyə
Onu tanımır balası…

**1987**

## SƏSİNİN DALINCA GƏLƏN MAŞIN

O dərədən bir səs gəlir,
Səbrim qalmayıb daha.
Düşüb o səsin dalınca,
Bir maşın qalxır dağa.

Tez elə, çıx alaçıqdan,
Yığaq bir dəstə çiçək.
O maşınla yanımıza
İndi atam gələcək…

**1987**

## AĞAC ÖMRÜ

Ağacam, ağac,
Yerə bağlıyam.
Torpaq anamdır,
Onun oğluyam.

Fayda verirəm
Obaya, elə.
Ömrüm tükənməz
Qurusam belə.

Ya taxta, ya da
Odun olaram.
Yanıb evlərə
Şölə salaram…

**1992**

## ÇƏPƏRLİ BAĞDAKI GÜL

Hər nazımı çəksələr də,
Arzularım gözdə qalıb.
Mən bağçada darıxıram,
Könlüm çöldə, düzdə qalıb…

Özüm gedə bilməsəm də,
Xəyalım dağlarda gəzər.
Çəpərli bağçadakı gül
Qəfəsdə bülbülə bənzər…

**1992**

## ŞİMŞƏK

Göydə çaxan ildırım
Buludların varıdı.
Elə bil ki, onların
Qızıl qan damarıdı.

Yağdırdığı yağışla
Fəxr eləyir, öyünür.
Şimşəyə bax, göylərin
Nəbzi kimi döyünür.

O, buludları biçən
Qayçıya da bənzəyir.
Küləklərin əlində
Qamçıya da bənzəyir.

Odlu damarlarında
Səpsərin su daşıyır.
Əgər şimşək çaxırsa,
Demək bulud yaşayır…

**1991**

## NUR YAĞIŞI

Yağış yağar şıdırğı,
Hey özünü öyər o.
Dənizlərin, göllərin
Qapısını döyər o.

Deyər:
– Açın qapını,
Qəbul edin qonağı.
Yağışdan çil-çil olar
Dəryaların yanağı.

Damcı suya qarışar,
Heç nəfəs dərə bilməz.
Səsə gələn balıqlar
Qonağı görə bilməz.

Hamısı qalar çaşbaş,
Oyanarlar yuxudan.
Kim seçə bilər axı
Dəryada suyu sudan?

İtər qara buludlar,
Göyün üzü açılar.
Dənizlərin üstünə
Yağar nurlu damcılar.

…Göydə günəş güləndə
Suyun da üzü güldü.
Damcıların gözünə
Elə bil işıq gəldi.

Balıqlar tez qonağın
Üzüb önünə çıxdı.
Təbəssümlə gələnə
Hər vaxt qapı açıqdı…

**1991**

## DƏNİZ YOLU

Ürəklərdə baş qaldırdı
O üzə keçmək arzusu.
Neçə cür qayıq yaratdı
Sulardan keçmək arzusu.

Dəniz coşdu, dəniz daşdı,
Ağrı oldu, azar oldu.
Dilini bilənlərə yol,
Bilməyənə məzar oldu…

**1992**

## DƏNİZDƏN KEÇƏN YOLLAR

Dəniz ipiri bir ayna,
Gəmi yepyekə bir almaz.
Üstündən keçən qayığı
Balıqlar vecinə almaz.

Vurnuxarlar ora-bura,
Yaşayarlar üzə-üzə.
İçində həyat qaynayır, –
Suların qoynu möcüzə…

İri-iri gəmilərin
Yolları dənizdən keçər.
Dərindən xəbəri olmaz,
Üzüb elə üzdən keçər…

**1992**

## DƏNİZİN ÜZÜ

Bu dəniz dərin olsa da,
İnsanın "dizinəcən"di.
Bu balıqların dünyası
Dənizin üzünəcəndi.

Qanad çalar sular üstə,
Xoşbəxt-xoşbəxt süzər quşlar.
Qağayıların dünyası
Dənizin üzündən başlar.

Qoynunda balıqlar üzür,
Üstündə qağayı süzür.
Bu dənizlə bu səmanın
Sərhədi – dənizin üzü…

Həyatları yetər sona,
Çıxsalar üzə balıqlar.
Sərhədçi quşlar qoyarmı
Sərhədi poza balıqlar?!

**1981**

## DƏNİZ KƏLƏMİ

Mən dəniz kələmiyəm,
Mən dənizdə bitirəm.
Uzunam, bəzən boyum
Çatır on beş metirə.
Dənizlərin qoynunda
Çoxalmışam, artmışam.
Suyun dərinliyində
Bir çəmən yaratmışam.
Yarpağım yaşıl, qonur,
Yupyumşaqdı, bir əl vur.
Gərəksiz olsam məni
Yığardımı adamlar?
Axı yarpaqlarımda
Neçə cür vitamin var?
Mənim kimi faydalı
Bitkini sən də tanı.
Neçə-neçə dərdlərin
Dərmanıyam, dərmanı…

**1977**

## DƏNİZ QOXUSU

Aparıram bağçaya
Qızımı səhər-səhər.
Külək əsir, yenə də
Kükrəyir mavi Xəzər.

Belə çovğunda quş da
Çıxa bilməz yuvadan.
Dəniz qoxusu gəlir
Elə bil ki, havadan…

**1980**

## DƏNİZİ OYADAN QIZ

Qızım hər səhər durub,
Söyləyir ki, ay ata,
Tez ol gedək dənizi
Yuxusundan oyadaq.

Qoşulub mənə gedir
Xəzərin sahilinə.
Balıqqulaqlarını
Götürərək əlinə

Atır suyun içinə,
Belə deyir Aybəniz:
– Tez ol, oyan yuxudan,
Tez ol, tez ol, ay dəniz…

**1977**

## DƏNİZƏ GEDƏNDƏ

Mən dənizə gedəndə
Qızım yatmışdı hələ.
Qıymadım oyatmağa,
Endim qumlu sahilə.

Mən dənizdən gələndə
Belə dedi Gülsabah:
– Mən sənin dənizinə
Getməyəcəm bil, sabah!

Dedim: – Niyə, ay qızım?
Dedi: – Küsmüşəm səndən.
Əmimin dənizinə
Gedəcəyəm sabah mən…

**1977**

## DƏNİZ DÖŞƏYİ

Üfürüb döşəyi
Şişirtdim,
Dənizin üstünə
Düşürtdüm.
Döşəyin üstə
Atlandım,
Atımı minib,
Atlandım.
Döşək suda üzdükcə,
Hey artırdı həvəsim.
Məni qoymadı batam
Sularda öz nəfəsim…

**1977**

## ATA DƏNİZDƏN GƏLƏNDƏ

– Üzümə baxıb
Gülürsən, ata,
Bəlkə dənizdən
Gəlirsən, ata?

Bəs niyə məni
Oyatmamısan? –
Deyib ağladı
Balaca Vüsal.

– Belə soyuqda
Çimməkmi olar?
Görmürsən necə
Coşub dalğalar?

Küək hey əsir,
Havaya bax sən.
Oğlum, dənizdən
Gəlmirəm ki, mən.

Gözünü ovur,
Yuxusu gəlir.
Əsnəyib deyir:
– Yox, səndən dəniz
Qoxusu gəlir.

Sözü dəyişir
Ata axırda:
– Sən nə görmüsən,
Oğlum, yuxuda?

– Gördüm ki, səhər
Qalxdın yerindən.
Məni dənizə
Aparmadın sən…

**YUXUMA DƏNİZ GİRİR**

Dənizə getdik
Səhər atamla,
Üz-üzə gəldik
Xeyli adamla.

Ləpədöyəndə
Gəzirdi onlar.
Mavi Xəzərdə
Üzürdü onlar.

Soyunub mən də
Girdim dənizə.
Səslədi məni
Xalam Ənisə:

– Uzağa getmə,
Batarsan, İlqar.
…Ayaqlarımdan
Öpdü dalğalar.
Başıma inci
Səpdi dalğalar.

***

Rayona getdik
Axşam qatarla,
Yol boyu ağac,
Yol boyu tarla.

Uzaq düşsəm də
Bir ay dənizdən,
Onu həmişə
Xatırladım mən.

Mavi Xəzəri
Unudum necə?
Yuxuma girir
Kənddə hər gecə…

**1977**

## HƏLƏ DƏNİZ YATMAYIB

Hələ dəniz yatmayıb,
Biz də ləpələr kimi
Deyək, gülək, atacan.
Yırğalayıb dənizi
Yatızdırmaq istəyir
Yoxsa külək, atacan?
Neçə ki, dəniz yatmır,
Hey əsəcək, əsəcək, –
Dəniz mürgüləyəndə
Yəqin külək kəsəcək…

**1977**

## DƏNİZƏ YAĞIŞ YAĞIR

Göy yağış əlləriylə
Dənizi çimdikləyir.
Elə bil sehrli quş
Suları dimdikləyir.

Dənizə yağış yağır,
Sulara baxıram mən.
Balaca fontan qalxır
Hər damla düşən yerdən…

**1977**

## DƏNİZ NİYƏ NİGARANDI

İri, xırda balıqların
Dəniz yetibdir dadına.
Kürt toyuq kimi onları
Alıb qanadı altına.

"Cücələr"dən nigarandı,
Coşub haray qoparır o.
Dalğalanır, aşıb-daşır,
Üstümüzə qabarır o…

**1991**

## ÇƏLƏNG

Çəmən sanki çələngdi,
Gülləri rəngbərəngdi.
Qırmızı gül, sarı gül,
Məhəbbətin barı gül.

Ağ gül bir topa qardı,
Gül açıbsa, bahardı.
Çiçəklər əlvan, qəşəng,
Yarpaqlar yaşıl-yaşıl.
Don geyinib əyninə
Budaqlar yaşıl-yaşıl.
Ağappaq qar kimidi
Həmərsinin çiçəyi.
Gözəllik dənizində
Yelkəndi hər ləçəyi.
Qıpqırmızı lalələr
Heyran qoyur adamı.
Çəmənə bax, çəmənə,
Yanağından od damır.
Çəmən sanki çələngdi,
Gülləri rəngbərəngdi.
Rənglər sevir baharı,
Hər rəngin öz çaları.
Hər çəmənin öz gülü,
Gülə baxıb göz gülür…

**1998**

## RƏNGLƏRİN İSTİ-SOYUĞU

Rəssam atam mənim üçün
Bir peyzaj çəkmək istədi.
Dedi ki, ağ rəng soyuqdu,
Qırmızı, sarı istidi…

Düzü bir şey anlamadım,
Beynimi yordu suallar.
Soruşdum ki, heç rəngin də
İstisi, soyuğu olar?

Atam güldü:
– Niyə olmur,
Məzən olsun sənin, Araz.
Qar çəkmişəm, üşüyürsən,
Günəş çəkim qızın bir az…

**1995**

## GÖZLƏR NƏ RƏNGDƏ OLSA

Gözlərin qarşısında
Bəşər gedər xəyala.
Gözlər gah qara olar,
Gah qonur, gah da ala…

Gözlər baharı yaşıl,
Payızı sarı görər.
Gözlər yamacda gülü,
Zirvədə qarı görər.

Gözlər nə rəngdə olsa,
Ürəyə işıq verər.
Hər şeyi öz rəngində,
Öz ölçüsündə görər.

Ancaq qəlbi yandıran
Həsrət közünü görməz.
Gözlər hər şeyi görər,
Gözlər özünü görməz…

**1992**

## RƏNG VƏ SƏS

Oğlum, hər rəngin
Doğma səsi var.
Hər səsin rəngi,
Rayihəsi var.

Ağ sim fikrimi
Dərddən ayırdı.
Sarı simlərin
Səsi ayrıdı.

Qırmızı isti,
Bəyaz soyuqdu.
Ana laylası
Yaşıl işıqdı.

Sevən ürəyim
Göyüm-göyümdü,
Onu yaşadan
Ulu göyümdü…

Ala gözlərdə
Qar ağlığı var.
Bəbəkdə torpaq
Qaralığı var.

Bu güllərə bax,
Çiçəklərə bax,
Nəğmə oxuyan
Böcəklərə bax.

Səsə qovuşub
Rənglər elə bil.
Bəs gördüklərin
Möcüzə deyil?

Rənglər olmasa,
Gözlər yorular.
Səslər olmasa,
Sözlər yorular.

Rəng ilə səsin
Qovuşuğundan
Möcüzəli bir
Aləm yoğrular…

**1992**

## PƏNCƏRƏ

Dünyamıza açılan
Nə qədər pəncərə var.
Birinin önündə dağ,
O birində dərə var.

Eləsi var meşəyə,
Ya dənizə açılır.
Eləsi var çəmənə,
Çölə, düzə açılır.

Hər biri nur bəxş edir
Ağsaqqala, uşağa.
Gündüzlər qapı olur
Çöldən gələn işığa…

Gecələr gülümsəyən
Təbəssümlü pəncərə,
Qaranlığın köksündə
Dönür iti xəncərə.

Pəncərəsiz yaşamaq
Bil ki, əfsanə sözdü.
Ürəyin pəncərəsi
Bir cüt işıqlı gözdü…

**1992**

## QAMIŞLIQ

Gör yolun qırağında
Nə qədər qamış bitib?!
Yaşıl örtük altında
Bataqlıq gözdən itib.

Gölməçə gözəlliyi
Alıbdır öz qoynuna.
Təbiət qamış ölçüb
Bataqlığın boyuna…

**1992**

## DALĞA PİLLƏKƏN

Ağ köynəkli ləpələr
O yan, bu yana qaçır.
Külək əsəndə dəniz
Ağ-ağ çiçəklər açır.

Dalğalar şırım-şırım,
Baxanın gülür üzü.
Elə bil kotan salıb,
Yel şumlayır dənizi.

Hər damla Xəzərimin
Üzündə ağ yelkəndi.
Sıralanıb, elə bil
Yeriyən pilləkəndi.

Nəhəng bir eskalator
Yorulmadan fırlanır.
Dənizə baxınların
Sir-sifəti nurlanır.

Yel əsdikcə, Xəzərin
Qollarına güc gəlir.
Dalğa pilləkənlərlə
Sahilə sevinc gəlir…

**1992**

## GƏL

Bu çayı görəydilər
Sənin dostların keşkə.
Addamaca addım bas,
Oğlum, yanıma keç gəl!

Sanki rəssamdı bahar,
Gör nə qədər buta var!
Laləzardı bu tala,
Özün üçün gül seç gəl.

Çəməndə pencərə bax,
O yarpız, bu quzqulaq,
Nəğmə deyir buz bulaq,
Onun gözündən iç gəl.

## DƏYİŞMƏ

Zoğala baxın, zoğala,
Dəyişirəm bir "sağ ol"a.
Gəlin bağa, zoğal yeyin,
Sonra mənə sağ ol deyin.

## SÜNBÜL HÖRÜKLƏR

Yaraşıqlı sünbüllər
Zəmiləri bəzəyir.
Onlar kiçik qızların
Hörüyünə bənzəyir.

Bitkilərə gözəllik
Veribdir torpaq ana.
Sünbülləri saç kimi
Hörübdür torpaq ana…

**1992**

## LÖVHƏ

Səmaya bənzər dənizin
Suları sakitdi, laldı.
Onun üstündə titrəyən
Qayıq elə bil hilaldı…

**1994**

# SEVİMLİ ÇİÇƏKLƏR, GÖZƏLLƏR, GÖYÇƏKLƏR

## ÇƏLƏNG

Bizim çəməndə
Güllər rəngbərəng,
Dərib onlardan
Düzəltdim çələng.

Onu qızımın
Boynuna taxdım,
Durub kənardan
Ləzzətlə baxdım.

Çiçəklə doldu
Yaxası, qoynu,
Gül saplağına
Çevrildi boynu.

Mənim balamı
Güllər bəzədi.
Onun özü də
Çələng üstündə
Gülə bənzədi…

**1990**

## NOVRUZGÜLÜ

Adım Novruzgülüdü,
Elçisi mənəm yazın.
Qaranquş lələyiylə
Siz mənə məktub yazın.

Uşaqların gözləri
Yollarıma dikilib.
Bilib ki, mən gəlirəm,
Qış dağlara çəkilib.

Orda-burda qalan qar
Bir gör necə xarlanıb!
Qışla döyüşmək üçün
Ləçəyim ovxarlanıb.

Bumbuz qarın altından
Sıyrılıb çıxan mənəm.
Məhəbbətlə, sevinclə
Dörd yana baxan mənəm.

Məni dərən kəslərin
Əlini titrədənəm.
Mizrab kimi qəlblərin
Telini titrədənəm.

Adım Novruzgülüdü,
Elçisi mənəm yazın.
Qaranquş lələyiylə
Siz mənə məktub yazın…

**1998**

## BULUD ANA

Torpaq yanıb qovrulanda
Dağın üstdən ötdü bulud.
Yerə kölgə düşsün deyə
Göy üzünü örtdü bulud.

Çiçəklərin yuxusuna
Elə bil noğul əlіdi.
Köynəyindən keçirdərək
Yağışı oğul elədi.

Dedi: – Günəş, vaxtım yoxdur
İndi sənlə deyişməyə…
O, öz oğlunu göndərdi
Quraqlıqla döyüşməyə…

**1991**

## YER VƏ GÖY

Yer göyə yandıq verirdi:
– Bulağıma, gölümə bax!
Çəmənlərə rövnəq verən
Çiçəyimə, gülümə bax!

Səninsə qoynun bomboşdu,
Halına yanıram düzü…
Göy güldü, yarımçıq qaldı
Yerin dodağında sözü.

– Günəşim, Ayım, ulduzum
Mənim hüsnümə bəzəkdi.
Lovğalanma güllərinlə,
Hər ulduzum bir çiçəkdi…

Güllərini qoymur sola
Mənim yağan yağışlarım.
Sənə həyat bəxş eləyir
Nur çiləyən baxışlarım…

**1991**

## GÜLLƏRİN BAYRAMI

Yağış yağır astaca,
Güllərin bayramıdı.
Saralan çəmənlərin,
Çöllərin bayramıdı.

Bulud nəğmə oxuyur,
Dağlar, düzlər dinləyir.
Çiçəklər quşa dönüb
Damlaları “dənləyir”…

**1991**

## SEVİNƏN GÜLLƏR

Xırdaca dibçəklərdə
Çoxlu güllərimiz var.
Əbədi sakin olub
Evimizə ilk bahar.

Pəncərədən onların
Üstünə nur saçılır.
Çiçəklər açılanda
Ürəyimiz açılır.

Onların birini də
Dərməyə əlim gəlmir.
Yaxın qonşumuza da
Verməyə əlim gəlmir.

Ancaq iş ayrı cürdü,
Getməliyik yaylağa.
Güllərimdən ayrılmaq
Vaxtı çatıbdır daha.

Aparıb hamısını
Qonşuya verək gərək.
Qoyub gedə bilmərik
Biz evdə onları tək.

İnsan həniri yoxsa,
Bulud kimi dolarlar.
Susuzluqdan, həsrətdən
Saralarlar, solarlar.

…Daşıyıb dibçəkləri
Apardım qonşugilə.
Yalvardım: – Biz gəlincə
Muğayat ol bu gülə!

Ürəyimdə söylədim:
– Güllərim, darıxmayın!
Yenə sizi oxşayar
Əllərim, darıxmayın!

Ayrılanda onlardan
Kövrəldim, gözüm doldu.
Mən yollandım yaylağa,
Güllər qonşuda qaldı…

Dağlarda keçirdiyim
Bir ay bir ilə döndü.
Göz yaşlarım gözümdə
Qaynadı, selə döndü.

Şəhərə qayıdanda
Sevinirdim yamanca.
Atam dedi: – Bu qızın
Qanadı yoxdur uça!

Düyməni basan kimi
Qonşu qapını açdı.
Məni narahat görüb,
Onun dodağı qaçdı…

Gülüb dedi: – Xəyanət
Olarmı amanata?!
Qoşulub qonşumuza
Gülürdü anam, atam…

Dibçəkləri götürdüm,
Əllərim sevindilər.
Qayıtdığımı görüb,
Güllərim sevindilər.

Xoşbəxt idim yamanca,
Hər şey gülürdü üzə.
Küsüb getmiş baharı
Qaytardım evimizə…

**1991**

## KƏPƏNƏYİN GÜL DÜKANI

Göbələk papağının
Altı olub məkanı.
Kəpənək özü üçün
Açıbdır gül dükanı.

Çoxbilmişə aldanır,
Xamları hərifləyir.
Hey müştəri çağırır,
Malını tərifləyir.

Deyir: – Tələsin, çiçək
Qalmayacaq sabaha.
Ancaq əli gəlməyir
Bircə gül də satmağa…

**1992**

## QƏRİB ÇİÇƏK

Qərib çiçək,
Qərib çiçək!
De, səni kim
Dərib, çiçək?

Dağlarda
Şərə düşmüsən,
Gəlib,
Şəhərə düşmüsən.

Bir kimsəyə
Uyuşmursan,
Niyə quş olub
Uçmursan?

Ayrı düşmüsən
Çəməndən,
Nə istəyirsən
De, məndən?

Əvvəl-axır
Solacaqsan,
Qəlbimə
Dərd olacaqsan…

**1992**

## OĞLUM GETDİ ÇƏMƏNƏ

Oğlum getdi çəmənə,
Şehli otlara baxıb,
Belə dedi: – Ay ata,
Deyəsən yağış yağıb.

– Yağış nə gəzir, oğlum,
Heç gör göydə bulud var?
– Hə, bildim, tərləyibdir
Yəqin çiçəklər, otlar.

– Bu nə tərdi, nə yağış,
Parıldayır gör necə?
Şehdi, çiçəyin, otun
Üstünə qonub gecə…

## ŞEH

Gecələr gül-çiçəyə
Yaxın bir sirdaş olur.
Hər birinin gözündə
Bircə gilə yaş olur.

Billur kimi bərq vuran
Kiçik muncuğa dönür.
İçində ümid yanan
Bir tumurcuğa dönür.

Səhərlər bəbəyində
Sayrışır gün işığı.
Üşüyən çiçəklərin
Açılır qırışığı.

Günəş şehi qısqanır
Çiçəklərə yamanca.
Əsib, onu dağıdır
Çölə, düzə, yamaca…

**1992**

## ATLI

Yağışa bax, yağışa bax,
Əlində bir odlu şallaq.

Bulud atı minib çapır,
Yalmanına sinib çapır.

Dedim: –Yağış, gəl sözə bax,
Atdan düş, ol bizə qonaq.

Çöllər sənsiz qəribsəyib,
Güllər sənsiz qəribsəyib.

Nə yaxşı ki, sözə baxdı,
Yağış ən əziz qonaqdı…

**1988**

## DUMAN YOLU

Bu dərədən o dağa
Duman asanca qalxır.
Ancaq özündən sonra
Qalmır bir sapca cığır.

Bu dağın başına bax,
Şişə çəkir buludu.
Bu yolla qalxammarıq,
Bu yol duman yoludu…

**1987**

## BU ŞƏHƏRƏ GƏLƏN QATAR

Bu şəhərin qoynunda
Yetdik arzu-murada.
Bu şəhər bir dənizdi,
Hər dalğası bir adam…

Hər ləpə bir bulağın,
Kəndin əziz payıdı.
Bura gələn hər qatar
Sanki bir dağ çayıdı.

Dənizə töküldükcə
Bu çaylar şahə qalxır.
Dəryanın damarında
Çeşmənin qanı axır…

**1987**

## QUŞ BULAĞI

Quş bulağı, Quş bulağı,
Dağın qoynundan çıxırsan.
Suyun azdır, elə bil ki,
Quş dimdiyindən axırsan.

Həsrətini, nisgilini
Süzüldüyün daşlar bilib.
Sən daldada çağlamısan,
Yerini tək quşlar bilib.

Varlığından insanlara
Kim isə xəbər yetirib.
Sənin suyun buralara
Geniş yol çəkib gətirib…

**1990**

## GƏL-GƏL DEYİR

Qaranlıq düşən kimi
Yamacda güllər itir.
Hünərin var çəməndən
Bir qom çiçək dər gətir.

Çökür yerə qaranlıq,
Yavaşca əsir külək.
Göylərin yaxasında
Ulduzlar açır çiçək.

Elə bil ki, Ay gülüb,
Yanıma yüksəl deyir.
O ucalıq, gözəllik
Adama gəl-gəl deyir.

**1990**

## QAPIMIZDA BİTƏN AĞAC

Günəşə uzansa da
Onun yarpaq əlləri,
Heyf ki, gəzə bilmir
Çəmənləri, çölləri.

Qapımızda dayanıb
Heç bilmirəm haçandan.
Durub bitdiyi yerdə
Dünyaya göz açandan.

Ucalır yarpaq-yarpaq,
Göylərə qalxır ağac.
Hər bahar təzə gözlə
Dünyaya baxır ağac.

Ona görə darıxmır,
Ona görə bezmir o.
Hamı yanına gəlir, –
Nə olsun ki, gəzmir o…

**1986**

## MEŞƏMİZDƏN KÖÇƏN AĞAC

Ağaca bax, çırtıldayır
Hönkürüb bir çağa kimi.
Qalxıb alov dilimləri
Kökündən budağa kimi.

Ayaq üstə yanır, yanır,
Təpəsindən tüstü çıxır.
Gövdəsindən, budağından,
Damarından alov axır.

Çarəsi yoxdur, dayanıb,
Gedə bilmir, qaça bilmir.
Kökü torpağa bağlıdı,
Qanadlanıb uça bilmir.

Ağac yanır, alovlara
Bələnibdir gövdə, budaq.
Baxan deyir: – Bəxtəvərin
Əynindəki dona bir bax!

Ağac yanıb külə döndü,
Arada söz-söhbət gəzdi:
– Elə qəşəng donu olan
Bu meşəni bəyənməzdi…

Bir quş kimi qanadlanıb,
Hara isə uçdu ağac.
Alovlu don geyən kimi
Meşəmizdən köçdü ağac.

Gözümüzün qabağında
Bir sehrli quş oldu o.
Tüstü libasa bürünüb,
Buludlara qoşuldu o…

**1990**

## ŞƏFALI İYNƏ

Gövdəsinə qurd düşüb,
Xəstələnib bu ağac.
Kimi çağıraq, etsin
Onun dərdinə əlac?

Meşə ana zəng etdi
Tez təcili yardıma:
– Loğman qardaş, amandı
Yet balamın dadına!

Həkim gəlib söylədi:
– Ağrıtsa da bir azca,
Gərək mən iynə vuram
Azarlamış ağaca.

Xəstə yamanca qorxdu,
Ancaq dözdü, neyləsin?
Ağacdələn həkimin
Şəfalıdı iynəsi…

**1987**

## ÇƏTİR OLDU

Zərif bir çiçək idim,
Gün üstümə şığıdı.
Kəpənək qanadının
Kölgəsinə sığındım.

O yazığı yolundan
Edən xoş ətir oldu.
Qanadlarını açıb,
Üstümdə çətir oldu…

**1991**

## ÇƏMƏNƏ SƏPİLƏN GÖYQURŞAĞI

Qoşuldu bir-birinə
Yağışla gün işığı.

Bu ülfətdən yarandı
Gözəl bir göyqurşağı.

Sevindirdi böyüyü,
Sevindirdi uşağı.

Sonra gül-çiçək olub,
Səpələndi aşağı…

**1988**

## BADAM

Badama bax, badama bax,
Çiçəyini yerə tökür.
O, öz budaq əlləriylə
Elə bil ki, dolma bükür.

Körpə-körpə badam tumu
Gün altında şişir, şişir.
Uca, ucqar budaqlarda
Yavaş-yavaş bişir, bişir…

Açın yaşıl bələyini,
Qonur çəyirdəyi qırın.
Dadlı badam yemək üçün
İndidən növbəyə durun…

## QURU BUDAQ

Həsrət-həsrət yellənsə də,
Yarpaq ona yaxın durmur.
Quru budağın üstündə
Heç quşlar da yuva qurmur.

**1990**

## RƏNGBƏRƏNG KÖRPÜ

Göz oxşayır yamanca,
Tağları rəngbərəngdi.
Təbiətin qurduğu
Körpü necə qəşəngdi.

Onu sovqat gətirib
Kəndimə ətirli yaz.
Dünyanın heç yerində
Bu cür körpü tapılmaz.

Göylər tapdanmaq üçün
Salmayıb bu körpünü.
Hələ üstündən keçən
Olmayıb bu körpünün.

Onun heç bir qorxusu
Yoxdur bahar selindən.
Tağları yoğrulubdur
Günün "şehli" telindən.

Yox-yox, bu körpü deyil,
Əsl qövsi-qüzehdi.
Yağışlı şəfəqlərin
Göydə açdığı zehdi…

**1991**

## BULUD İÇİNDƏ İŞIQ

Günəşin qarşısını
Kəsməkçin, bilə-bilə
Səmadakı buludlar
Tez verdilər əl-ələ.
Bu təşəbbüs nahaqdı,
Birdən ildırım çaxdı.
Bulud haray qopardı:
– Vay, neyləyim indi mən?!
Bizim də içimizdə
İşıq varmış sən demə!

Alovlandı buludun
Köynəyinin yaxası.
Şimşək onu əritdi,
Bulud oldu teyxa su.
Səpildi dağa, düzə,
Yerdə ot çıxdı dizə.
Günəş güldü, şəfəqlər
Dindi sarı sim kimi.
Güllər yerin üzünə
Qondu təbəssüm kimi…

**1986**

## ÇİÇƏK

Torpağın xalı – çiçək,
Pətəyin balı – çiçək.
Nə yaxşı ki, bürüyüb
Çəməni, yalı çiçək.
Əzib keçə bilmirəm,
Kəsibdir yolu çiçək…

## ÇİÇƏKLƏR ARASINDA

Seyr edirəm dörd yanı,
Nə gözəldir bu yamac!
Oynamaq istəyirəm
Bu çəməndə gizlənpaç.

İndicə atam gəlib,
Deyəcək ki, gəl gedək.
Qorxuram sevincimin
Ömrü ola çox gödək.

Bir kəpənəyə dönüb,
İzlənmək istəyirəm.
Çiçəklər arasında
Gizlənmək istəyirəm…

**1990**

## MƏNZƏRƏ

Bu zanbaq, o lalədi,
Bu nərgiz, o süsəndi.
Qəfildən külək əsdi,
Zərif güllər səksəndi.

Elə ki, zəmilərin
Telini oxşadı meh,
Sünbüllərin içində
Rəqs etdi, oynadı şeh…

**1988**

## QONAQ

Göyün üzündən
Bir ulduz axdı.
Durub mən onun
Ardınca baxdım.

Qorxma, ürəyin
Dönməsin buza.
Qonaq gedir da
Ulduz ulduza…

**1994**

## ÇİÇƏKLƏ SÖHBƏT

Qaydadır, gözəlləri
Hərisliklə süzərlər.
Gözəl olan çiçəyin
Saplağını üzərlər.

Ətirli çəmənlərə
Yolum düşmür haçandı.
Gözəlliyin özü də
Başa oyun açandı.

Çiçək, sənə qıymıram,
Görürsən, əlim boşdu.
– Oğlan, sənin əlində
Can vermək mənə xoşdu…

**1994**

## KÜLƏK

Hamı çəkilib evə,
Həyətdə külək əsir.
Oynamağa kimsə yox,
Ora-bura tələsir.

Boş konserv qutusunu
Qovur o yan, bu yana.
Səs salır ki, dəcəllər
Yuxusundan oyana…

**1994**

## BALACA BALIQÇI

Qarmağı atdı suya
bir uşaq alnında qürur,
Elə bil barmağı altda
dənizin nəbzi vurur.

Qarmağı çəkdi sudan,
qəlbi balıq tək döyünür,
Evə boş dönməyəcək,
oğlan işiylə öyünür…

**1995**

## SAHİLƏ

Dişin dişinə dəyir,
Üşüyürsən, Sahilə!
Bəsdir daha çimdiyin,
Tez elə, çıx sahilə!

– Atacan, üşümürəm,
Gəl mənə bax yaxından.
Dənizin dalğa əli
Əl çəkmir ha yaxamdan!

**1995**

## GÜNDƏN-GÜNƏ

Atam sahildə olur
İlin bütün yayını.
Gah dalğalar qoynunda,
Gah da evdə yuyunur.

Dənizə getməyəndə
Hövsələsi daralır.
Hey çimsə də, ağarmır,
Gündən-günə qaralır…

## GÜNƏŞ VANNASI

Qızıl şəfəqlər altında
Qızıl qumlar sıralanır.
Günün fırçası sarıdı,
Ancaq dərimiz qaralır..

## İLBİZ

– İlbiz, ilbiz, bilirəm ki,
Qəlbin incədi, kövrəkdi.
Ancaq məni bir başa sal,
Buynuz nəyinə gərəkdi?

– Mənim də taleyim budur,
Gözsüz canlı necə gəzər?
Buynuzum korun əlində
Titrəyən əsaya bənzər…

**1995**

## KÜLƏK VƏ AY

Neçə gündür hirsli külək
Haray qopara-qopara,
Qara buludlara büküb,
İstəyir Ayı apara.

Ay isə pozmur halını,
Gülümsəyib bizə baxır.
Onun bulud torbasını
Asanlıqla deşib çıxır…

**1995**

## QARPIZ TUMLARI

Qarpız kəsdik şipşirin,
Qıpqırmızı, bal kimi.
Tumları görünürdü
Qara-qara xal kimi.

Belə dedi onlara
Baxıb balaca Bahar:
– Gör bunun köynəyinin
Nə qədər düyməsi var?!

**1997**

## DARÇIN

Uzanıram, can atıram günəşə,
Yarpaqlarım yamyaşıldı həmişə.

Gözəllikdə, yaraşıqda tayım var?
On dörd, on beş metrə qədər boyum var.

Çiçəyim ağ, xırda, yanağım iri,
Könül açan ətrim tutub hər yeri.

Qabığımı qurudurlar kölgədə,
Məndən yaxşı dərman yoxdu bəlkə də…

**1977**

## MİXƏK

Xəzan yoxdu mənimçün,
Yamyaşılam qış-bahar.
Al, qırmızı gülümün
Xoşagələn ətri var.

Elə bil ki, alışır
Qırmızı ləçəklərim.
Tünd, qonur rəngdə olur
Quruyan çiçəklərim.

**1977**

## GÜLÜMBAHAR

Gələn kimi, gülüm, bahar,
Yerdən qalxır Gülümbahar.
Yarpaqları uzunsovdu,
Sanki yaşıl bir alovdu.
Narıncıdı çiçəkləri,
Nə qəşəngdi ləçəkləri!
Gəl özün bax, qəşəng güldü,
Heyf, ömrü bircə ildi.
Doymaq olmur çiçəklərin
Gözəlindən, göyçəyindən.
Fayda verir insanlara,
Boyaq olur ləçəyindən…

**1977**

## ZƏYƏRƏK

Gövdəm düz, özüm zərif,
Yaraşır mənə tərif.
İtiuc yarpaqlarım
Düzülüb qatar-qatar.

Gövdəmin zirvəsində
Göy rəngli çiçəyim var.
Yaxına gəl, yaxına,
Diqqətlə bax sən mənə.
Şar tək qutucuğumda
Toxum olur on dənə.
Məni adi otlara
Oxşatma, Zəyərəyəm.
Dərdlərin dərmanıyam,
İnsanlara gərəyəm…

**1977**

## SU YORĞAN

Gecədir, hamı yatıb,
Hər yana zülmət çöküb.
Balıqlar yorğan kimi
Çayı üstünə çəkib…

**1991**

## DAĞ ÇAYI

Dönüm onun gözünə,
Yol açıb öz-özünə.
Axır, axır, tükənmir,
Suyu hey təzələnir.
Dağın bağırsağı tək
Elə hey çözələnir.
Pay verir bağ-bostana,
Hövzəsində boldu su.
Çaylaq bir uzun yoldu,
Çay bu yolun yolçusu…

**1987**

## QARA RƏNGİ SEVİRƏM

Sevirəm qara rəngi,
Olmasa qara torpaq,
Yaşıllığı hayandan
Alardı çəmən, yarpaq?

Qara torpaqda bitən
Güllərin rənginə bax:
Qırmızı, bənövşəyi,
Göy, mavi, sarı, dümağ…

Lalələr, qərənfillər
Sanki alovdu, yanır.
Bağların sinəsindən
Qızılgüllər boylanır.

Bu torpaqdır yaradan
Yüz-yüz əlvan çələngi.
İndi bildinmi niyə
Sevirəm qara rəngi?

**1988**

## HAZIRCA EV

Ev-eşik dərdi çəkmir ha,
İlbiz axı çanaqlıdı?!
Doğulandan mənzili var,
Öyünməyə o, haqlıdı.

Dəng eləmir qonaq onu,
Bu hazırca çanaq onun
Körpə vaxtı beşiyidi,
Böyücək ev-eşiyidi…

**1987**

## ÇAY YUXARI

O, qatıb qabağına
Nədir elə aparır?
Vıyıldayır, qışqırır,
Yaman haray qoparır.

Üzü yuxarı axır,
Dərədən dağa qalxır.
Bu nə qəribə seldi,
Yox, bu sel deyil, yeldi…

**1987**

## YALANDAN AĞLAYIR

Bir yağışlı havada
Ağaca gedib yaxın,
Onun yarpaq gözündən
Süzülən yaşa baxın.

Sevinsə də, gülmür heç,
Özünü saxlayıb o.
Buludlara qoşulub,
Yalandan ağlayır o.

**1987**

## KÖLGƏ

Vurğunuq yer kürəsinin
Gecəsinə, gündüzünə.
Bir üzündən gün çıxanda,
Kölgə düşür bir üzünə…

Harda işıq var, istidi,
Harda kölgə var, soyuqdu.
Kölgəni günəş yaradır,
Özünün kölgəsi yoxdu…

**1987**

## ALTDA QALAN DAMCI

Yağış yağır şırhaşır,
Ara vermir bir hovur.
Buluddan yerə qədər
Damcı damcını qovur.

Bir-birinin üstünə
Yıxılır bu damcılar.
Ağırlığın altında
Sıxılır bu damcılar.

Deyirəm vay halına
Altda qalan damcının.
Əzib şikəst edirlər
Yazığın qol-qıçını…

**1987**

## ADLAR

Uşaqlar, bu dünyada
Öz adı var hərənin.
Hər otun, hər çiçəyin,
Hər dağın, hər dərənin.

Adım çəkilən zaman
Qəlbimə işıq düşər.
Adlar olmasa əgər,
Hər şey qarışıq düşər…

**1987**

## GÖBƏLƏK HEYKƏLİ

Daşa bax, nə qəşəngdi,
Elə bil göbələkdi.
Möcüzədir, möcüzə,
Baxanın gülür gözü.
Bu heykəli qoyubdur
Ana təbiət özü…

**1990**

## GÖBƏLƏK SEVİNCİ

Biz çiskinli havadan
Nahaq yerə incidik.
Bu payız yağmurunun
Hər damlası incidi.
O, adi yağış deyil,
Göbələk sevincidi…

**1990**

## GÖY YERƏMİ ENİBDIR

Dənizin üstü ilə
Uçan zaman təyyarə,
Boylanıb pəncərədən
Heç baxmısanmı yerə?

Xəzər necə gözəldi,
Xəzər necə qəşəngdi.
Quş qanadlı dalğalar
Elə bil ki, çiçəkdi…

Düşündüm ki, səmadı,
Mən dənizi unutdum.
Ağ-ağ dalğalara bax,
Elə bil ki, buluddu…

**1986**

## AĞACIN NƏĞMƏSİ

Ömrüm boyu su içdikcə
Ucalırdım, boy atırdım.
Budağımda mürgüləyən
Tumurcuğu oyadırdım.

Ağac idim, doğradılar,
Adıma odun dedilər.
Düşəcəksən qismətinə
Alovun, odun dedilər…

Hey yanıram, dörd tərəfi
Qəlbimin tüstüsü sarmış.
Ömür boyu su içənin
Sən demə yanğısı varmış…

**1990**

## AY PİYADA OLSA DA

Meşədə Aya sağ ol
Deyib, maşına mindik.
Tez sürəti artırıb,
Öz kəndimizə döndük.

Çatıq həyətimizə,
Düşən zaman maşından,
Göyə baxıb gördüm ki,
Ay dayanıb qarşımda.

Uzaqlarda qalmışdı
Neçə dərə, neçə dağ,
Ay piyada olsa da,
Gəlmişdi bizdən qabaq…

**1989**

## SƏMADA AY ÜZÜRDÜ

Axşam çıxıb balkona
Ülviyyə göyə baxdı.
Dedi:
– Bir bax, əmican,
Ay elə bil qayıqdı.

Bu nə gözəl mənzərə,
Topa-topa bulud var.
Göylər sanki dənizdi,
Dalğaları buludlar.

Para Ayım üzür bax,
“Suları” yara-yara.
Arabir də gizlənir
Baş vurub “dalğalar”a…

**1981**

# KİM ZƏHMƏTƏ KÖNÜL VERSƏ, ƏVVƏL-AXIR XEYİR TAPAR…

## ƏGƏR İNSAN İSTƏSƏ

Adamların dilini
Güllər öyrənə bilməz.
Nə dənizlər, nə çaylar,
Sellər öyrənə bilməz.

Ancaq biz onlar ilə
Danışmaq istəyirik.
Qəlbimizdən keçəni
Soruşmaq istəyirik.

Bəs neyləyək indi biz,
Özümüzü öyəkmi?
Təbiətin önündə
Gözümüzü döyəkmi?

Yox, bu yaraşmaz bizə,
Belə əmr edir ürək:
Biz hər şeyin dilini
Gərək bir-bir öyrənək.

Əgər insan istəsə,
Daşın dilini bilər.
Yerdə çiçəyin, göydə
Quşun dilini bilər.

Çalış, çətini işlər
Qaydaya düşüncədi.
İnsanı insan edən
Ağıldı, düşüncədi…

**1991**

***

Əgər insan istəsə,
Pisi yaxşı eləyər.
Qanqal bitən çölləri
Gül-çiçəyə bələyər.

“Ot kök üstündə bitər” –
Doğrudursa bu məsəl,
Cır kök üstündə bitən
Calağı unutma gəl.

Yaraşıqlı, şipşirin
Meyvəsi bizə bəsdi.
Nə olsun kökü cırdı,
Budağı ki, peyvəstdi?!

Peyvənd olan tumurcuq
Danmır ha öz zatını.
Cır kök üstə saxlayır
Öz say-seçmə adını…

**1989**

## ARI VƏ ŞAİR

Kim zəhmətə könül versə,
Əvvəl-axır xeyir çəkər.
Arı güldən, çiçəkdən bal,
Şair sözdən şeir çəkər…

Hər ikisi ləzzət alar
Ömrün gecə-gündüzündən.
O, güllərin ləçəyindən,
Bu qızların gül üzündən.

Arının öpüşü qalar
Çiçəklərin yanağında.
Şair sözü bala dönər
Gözəllərin dodağında…

**1992**

## SU EVİ

Divar hörüb suvadıq,
Gözəlcə bir ev çıxdı.
Yanları, altı bağlı,
Üstü isə açıqdı.

Siz elə bilməyin ki,
Zəhmətimiz puç olub.
Sanki nəhəng bir ovuc
Göy üzünə açılıb.

Qoymur havayı getsin,
Damcını göydə tutur.
Bu üstü açıq evin
Sakini təmiz sudur.

Həyatimizə qonan
Bir top buluda bənzər.
Onun sinəsi üstdə
Kağız qayıqlar üzər.

Yanından neçə yerə
Xırda arxlar çəkilib.
Bütün bağın, bostanın
Gözü ona dikilib.

İçindəki təmiz su
Tərtəmizdi, bumbuzdu.
Bu adicə ev deyil,
Qəşəngcə bir hovuzdu…

**1991**

## ƏL

Oğlum deyir: – Ay ata,
Bir mənim əlimə bax:
Yumanda yumruq olur,
Açandasa şapalaq.

Ata gülür, üzündən
Nur tökülür elə bil.
Deyir: – Oğlum, əl təkcə
Yumruq, şapalaq deyil…

Əl qurub yaradandı,
Əl biçəndi, əkəndi.
Əl körpülər salandı,
Əl kanallar çəkəndi.

Əl dosta vermək üçün
Gül dərib dəstələyir.
Əl yazır, şəkil çəkir,
Əl mahnı bəstələyir

Əl kəmənd atır selə,
Əl sığal çəkir telə.
Güc çatmaz gücümüzə,
Vermişiksə əl-ələ.

Əl çırağban eləyib
Neçə şəhəri, kəndi.
Əl bizi yedirəndi,
Əl bizi geydirəndi.

Əl havadı, əl sudu,
Əl işıqdı elə bil.
Ömrüm-günüm, əl təkcə
Yumruq, şapalaq deyil…

**1983**

## ÇƏPƏR

– Çiçək əkdim, gül əkdim,
Yanına çəpər çəkdim.

– Nə olar, bu çəpəri,
Bir azca da çək bəri.

Düzəltmişəm gül ləki,
Qoyun mən də gül əkim.

– Di gəl verək əl-ələ,
Alətləri al ələ.

Bu taxta, bu da mişar,
Bu çəkic, bu da mismar.

Bu kəlbətin, bu da bel,
Nə durmusan, gəl bəri.

Çəkdiyimiz bu çəpər
Qoruyacaq gülləri…

**1983**

## GECİKMİŞ QAYĞI

Buket tutan əllərə bax,
Soluxsumuş güllərə bax.

Gətirin qoyaq güldana,
Bəlkə yenə açıldılar.
Bu nə işdi, yazıq güllər
Soluxdular, puç oldular.

Su versək də qopub düşdü
Qızılgüllərin ləçəyi.
Oğlum, gecikmiş qayğının
Kimsəyə yoxdur köməyi…

**1983**

## KÖRPÜ

Dünən asfalt salmışdılar,
Bu gün qazdılar küçəni.
Necə adlayaq o taya? –
Dərd aldı burdan keçəni.

Bir oğlan gəldi sevincək,
Atlandı o yan, bu yana.
Həyətin uşaqları da
Gəlib qoşuldular ona.

Dostlarını haraylayıb,
Belə dedi həmin uşaq.
– Gəlin bu qazılan yerin
Üstündən bir körpü salaq.

Neçə gündür bir keçilməz
Sədd yaranıb, baxın burda.
Bizə nə var, tullanarıq,
Qoca keçir axı burdan?!

Onun dediyi bu sözdən
Uşaqlar razı qaldılar.
Ağac tapıb, taxta tapıb
Kiçik bir körpü saldılar.

O körpələr sevinirlər
Bu körpüyə baxıb hərdən.
Bu körpüdən keçib gedir
Yeri qazan əmilər də…

**1983**

## ARXIN ÖNÜNÜ KƏSDİM

Önünü kəsdim arxın,
Bir az dayandı axın.
Yarandı bir gölməçə,
Sevinirəm gör necə!
Altdan bir deşik açdım,
Su uğuldadı, qaçdı.
Gölməçənin üstündə
Bir kiçicik burulğan,
Əlində gül dəstəsi
Yaxın gəldi bir oğlan.
Ondan aldım bir çiçək,
Suya atdım sevincək.

Çiçəyə bax, çiçəyə,
Üzür, yoruldum demir.
Burulğanda fırlanır
Dəyirman daşı kimi…

**1984**

## BÖYÜRTKƏN KOLU

Böyürtkən kolu əkdim
Bağda çəpər boyunca.
Boy atıb bircə ilə
Oldu hasardan uca.

Baxıb ləzzət alıram,
Kefim kök, ürəyim şad.
Hünəri varsa keçsin
Bu hasarı camış, at?!

Şipşirin böyürtkənlə
Onun üstü doludu.
Bağçamızda həm çəpər,
Həm də meyvə koludu…

**1987**

## GƏZƏN ULDUZ

Uşaqlar, gəlin yaxın,
Gəzən ulduza baxın!
Bayaq ora gedirdi,
İndi bəri şığıdı.
Bıy, bu ulduz deyil ki,
Kranın işığıdı…

Gəzən ulduz görəndə
Sevinclə dolur ürək.
Tikinti meydanında
Qızğın iş gedir demək…

**1987**

## BiÇİN

Nə olub biçinçiyə,
Niyə belə tələsir?
Yıxılanı görəndə
Dik qalan otlar əsir.

İçi nur dolu şehlər
Mirvari tək dağılır.
Çiçəklərin üzündən
Xoş təbəssüm yox olur…

**1987**

## NƏHƏNG ÜTÜ

Yolbasana baxın bir,
Elə bil ki, ütüdü.
Küçənin "paltar"ından
Qırışları itirdi.

**1987**

## ÜZÜ YOXUŞA

Ciğirla qalxdıqca dağa,
Taqətin qalmayıb daha.
İnadından dön, ay uşaq,
Az dırman üzü yoxuşa.

– Çətinsə də dağa qalxmaq,
Çox gözəldir dağdan baxmaq.
Yorulmasın ayaqlarım,
Bükülməsin dizim gərək.
Zirvədən baxmaq xətrinə
Çətinliyə dözüm gərək.

**1988**

## TAXIL BİÇİNİ

Bərəkətli tarlaları
Seyr etməkdən adam doymur.
Zəmi elə quruyur ki,
Biçiləndə ağrı duymur.

Sarı-sarı budaqların
Sünbül bələyi açılır.
Adam bol taxıl görəndə
Gülür, ürəyi açılır…

**1987**

## LİMON BAĞINDA

Günəş görünən kimi
Qəlpələnib ulduzlar.
Ağacların üstünə
Səpələnib ulduzlar.

Sarı-sarı limonlar
Şölə çəkir, alışır.
Yarpaqlar arasında
Ulduz kimi sayrışır…

**1988**

## BOYANA

Səpdiyim toxum
Verib boy, ana.
Düz çəpər boyda
Olub boyana.

İynə yarpaqla
Üstü doludu.
Sanki balaca
Küknar koludu.

Dərim onlardan
Mən yavaş-yavaş.
Könlümə düşüb,
Boyanalı aş…

**1988**

## ANANIN İŞ OTAĞI

Həm məktəbdə, həm evdə
İşləyir mənim anam.
Elə bil heç yorulmur,
Heyran olmuşam ona.

Xoş zümzümə süzülür
Anamın dodağından.
Heç vaxt iş əskik olmur
Onun iş otağından.

O, məktəbdən gələndə
Elə bil bahar gəlir.
Bizim mətbəximizdən
Dadlı qoxular gəlir…

**1988**

## ƏKDİYİM AĞAC BİTDİ

Əkdiyim ağac bitdi,
Sanma ki, işlər bitdi…
Gərək onun həmişə
Qayğısını çəkim mən.
Yeri qazıb, dibinə
Balaca arx çəkim mən.
Xəstələnsə, sağaldım,
Olum ona həkim mən.
Tək darıxar, yanında
Çoxlu ağac əkim mən…

**1991**

## NEHRƏ VƏ MƏN

Nehrəm, çalxalan,
Doyunca yellən.
O baş-bu başa
Getdikcə dillən.

Nə oldu sənə,
Yellən, yatma da!
Mən yüyrükdəyəm,
Sənsə çatmada…

Sən çalxandıqca,
Üzə çıxar yağ.
Mən yelləndikcə
Dönüb olaram
İgid bir qoçaq…

**1990**

## SAZBƏND

Ağacı doğrayıb bənd-bənd,
Aylarla çalışır sazbənd.
Oyur, deşir, hamarlayır,
Sığallayır, tumarlayır.
İşləyir o ağır-ağır,
Üz-gözündən sevinc yağır.
Ağaca can bağışlayır,
Üst-başını naxışlayır.
Pərdələr düzüb qoluna,
İşləri salır yoluna.
Bəzək vurur künəsinə,
Simlər düzür sinəsinə.
Sonra onu çəkir döşə,
Tazanəni salır işə.
Aman, aman, bu nə sazdı?
Sazbəndin kefi nə sazdı!...
Çalır, çalır asta-asta,
Ovsunlayır bütün kəndi.
Saz dindikcə, ağrıları
Canından çıxır sazbəndin…

**1990**

## QIZIL ƏL

Deyirlər bu ustanın
Əli qızıldı.
Əlmi olar qızıldan? –
Bu da söz oldu…

Hey baxıram diqqətlə,
Adicə əldi.
Babama sual verdim,
Gülməyi gəldi.

Dedi mənə qulaq as,
Ağıllı nəvəm.
Ələ baxma, bax onun
Tikdiyi evə.

Bu evə baxmaq üçün
Bir cüt göz gərək.
O əlin tərifinə
Layiq söz gərək…

Qurub yaradanları
Çox sevir ellər.
Qızıldan qiymətlidir
Yaradan əllər…

**1986**

## BU SƏNİN, O TORPAĞIN

Mən əriyəm, əriyəm,
Dəymişəm, gəl dər məni!
Şipşirin meyvəm olur
Neçə dərdin dərmanı.

Ancaq dənəmə dəymə,
Uzağı gör, uzağı. –
Qoy meyvəm sənin olsun,
Çərdəyimsə torpağın.

Torpaq da əvəzində
Sənə ağac bitirər.
Ağacsa budağında
Çoxlu ərik gətirər…

**1986**

## TORPAĞA ÜRƏK AÇDIM

Torpağa ürək açdım,
Kefini xoş elədim.
Səpdiyimi bitirdi,
Sirrimi faş elədi…

## BİR BUDAQ ƏVƏZİNƏ

Qocalsa da, zirəkdi,
Ürəyində var təpər.
Uzun saplı beliylə
Torpaq qazar, yer təpər.

Babam tənbəl görəndə
Ürəyini didər kin.
Budaq qırmışam, məni
Salıb bağdan didərgin.

Mənə belə söyləyir
Hərdən düşəndə söhbət:
– O çiçəkli budaqda
Meyvə vardı bir səbət…

Babam haqlı inciyib,
Məndən – öz nəvəsindən.
Yüz ağac əkəcəyəm
Bir budaq əvəzinə…

**1983**

## AĞAC

– Səni yerə
Əkdim, ağac!
Hünərin var
Çıx burdan qaç!

– Vaxtında su
Versən mənə,
Əlim çatar
Pəncərənə.

Bu torpaqdan
Güc alaram,
Düz yanına
Ucalaram....

**1983**

## TƏLƏSMƏ, DOSTUM, TƏLƏSMƏ

Oğlan, mən bar ağacıyam,
Çiçəyimə dəymə, dəymə.
Beş-on günə yarpağım da
Açılacaq düymə-düymə.

Arıların pətəyində
Bala dönəcək ləçəyim.
Tələsmə, dostum, tələsmə,
Bir meyvədi hər çiçəyim...

**1984**

## AĞACLARIN ŞƏHƏRİ

Ağac əkdim qoy yurdumu
Yaşıl meşələr bəzəsin.
Bircə ağac qurudumu,
Yerində bitir təzəsi.

Eh, ağac əkmək arzusu
Baş qaldırsaydı hərədə,
Meşələrin ağacları
Ayaq açar şəhərə də.

Hər ağacın qarşısında
Ehtiramla ayaq saxla.
Burda nə qədər ağac var,
Qurtararmı sanamaqla?

Qəlbimizə fərəh dolur
Uzandıqca meşə yolu.
Şəhərin adamı çoxdu,
Meşənin ağacı, kolu.

Biz meşəyə gedən zaman
Bir günəşli səhər idi.
Oğlum dedi: –Yəqin meşə
Ağacların şəhəridi…

**1983**

## POLAD BULUDLAR

Polad buludlar dolub,
Zəmiyə hərdən yağır.
Bu yağış göydən yağmır,
Bu yağış yerdən yağır…

Bu yağış yağmayanda
Torpaq tamam quruyur.
Bu yağış zəmiləri
Quraqlıqdan qoruyur.

Bu yağışın buludu
Tarlanın içindədi.
Bu bulud su çiləyib,
Doyunca için, dedi.

Bu bulud poladdandı,
Bir bax, adi borudu.
Gətirdiyi çayların
Gözlərinin nurudu.

Dibinə işıq salmır
Deyirlər axı çıraq?! –
Susəpənin yanında
Yamyaşıl zəmiyə bax!

Bir az uzaqda isə
Sünbüllər qupqurudu.
Yağış yağdı, zəminin
Tutqun üzü duruldu.

**1987**

## GƏZƏN TARLA

Dolanır kövşənləri
Sürü-sürü, qatarla…
Seyr edirəm onları –
Hər biri gəzən tarla…

Bu tarlanın üstündə
Bitməz nə ot, nə pencər.
Əkməyin lazım deyil,
Sən təkcə onu becər.

Apar çölə, çəmənə,
Vaxtında ver suyunu.
O, səni geyindirər
Paltarını soyunub.

Bu tarla torpaqsızdı,
Bu tarlanın barı – yun.
Siz bu gəzən tarlanı
Təkcə qurddan qoruyun!

**1987**

## QƏLƏM

Kağızın üzərində
Sakitcə gəzə-gəzə,
Elə bil ki, bu qələm
Mahnı oxuyur bizə…

**1993**

## ŞAİR OYUNCAĞI

Hər kəsin olur
Öz oyuncağı.
Şair uşaqdı,
Söz oyuncağı.

Sözlə ev tikir,
Sözlə yol çəkir.
Kağızın üstdə
Söz ağac əkir.

Sözdən düzəldib
Durna qatarı,
Uçan quşları
Geri qaytarır.

Üşüyənlərə
Söz ocaq olur.
Susuzlayana
Söz bulaq olur.

Söz közə dönüb
Qəlbi isidir.
Şairlər sözün
Pərvanəsidir.

Yazıb-yaradır,
Yoruldum demir.
O, bir maqnitdi,
Hər söz bir dəmir.

Qələm budaqdı,
Ona söz qonur.
Gözəl fikirlər
Geyir söz donu.

Gözünə baxsa,
İlahi gözlər,
Onun qəlbində
Sayrışar sözlər.

Dediyi kəlmə
Gözü yaşardır.
Şairi onun
Sözü yaşadır…

**1994**

## SÖZ AĞACI

Hikmət təşnəsi,
Şeir acıyam.
Elə bil ki, mən
Söz ağacıyam.

Barlı budaqdı
Qələm əlimdə.
Söz qönçə tutub
Mənim dilimdə.

Ürəyimdəki
Diləyə bəndəm.
Əsən bir xəfif
Küləyə bəndəm.

O əssə, hava
Təzələnəcək.
Kağız üstünə
Söz ələnəcək…

**1993**

## SÖZ OVU

Hey gedirəm, gedirəm,
Bir yorulmaz yolçuyam.
Ov qaçır, mən qovuram,
Söz ovdur, mən ovçuyam.

Makinam işlədikcə
Sanki dinclik tapıram.
Düşüb sözün dalınca
Elə bil at çapıram…

Yol gedirəm, sözlərə
Hey güllə ata-ata.
Mənim yazı makinam
Bənzəyir avtomata…

**1991**

## KEŞİKÇİ ARILAR

Pətəyin qarşısında
Keşik çəkir arılar.
Əliboş qayıtmağa
Kimin nə hünəri var?

Vaxt itirmə, geri dön,
Get şirə daşımağa.
Pətəkdə müftəxora
Yer yoxdu yaşamağa…

**1991**

## SAP CIĞIRI

Xəbəri yox xəbərdən,
Nənəm corab toxuyur.
Dalıb öz dünyasına,
Asta-asta oxuyur.

Sap cığırı uzanır –
Gedirəm qarasına.
Düz nənəmin yanından
Güllərin arasına.

Sən demə bu cığırı
Bizim pişik salıbmış.
Yumağı siçan ilə
Tay-dəyişik salıbmış…

**1991**

## DÖNƏR

Əl işləsə, quru çöllər
Dilbər bir guşəyə dönər.
Kələ-kötür dağ yolları
Aynaya – şüşəyə dönər.

Arzular körpə olanda,
Ürəklər beşiyə dönər.
Dəhrələr farağat dursa,
Pöhrələr meşəyə dönər…

**1992**

## ARX

Arx suların cığırıdı,
Suların dibindən keçir.
Babam kimi bağban olmaq
Mənim də könlümdən keçir.

Su o yana axa bilməz,
Bu yana çəkdim arxımı.
İnanmırsan gəl özün bax,
Belədi suyun alxımı…

# KİMİN Kİ QANADI VAR, UÇMAQ ONA YARAŞIR…

## QUŞ

Gah göydəyəm, gah yerdəyəm,
Tanrı məni quş yaradıb.
Ürəyimə sevgi verib,
Əhvalımı xoş yaradıb.

Ona görə məni görcək
Torpaq da, göy də sevinir.
Ayağım yerdə dincəlir,
Qanadım göydə sevinir.

**1993**

## DURNA ÇIRAĞI

– Bu nədir ata?
– Durna çırağı.
– Neyləyir axı
Durna çırağı?

– Oğlum, durnalar
Gecələr uçur.
Çıraq yollara
Şəfəqlər saçır.

Sübhədək yanır,
Oyaq olur o.
Durnalar üçün
Mayak olur o.

Durna çırağı
Niyyət, arzudu.
Quşların yerdə
Bəxt ulduzudu.

O, sevən qəlbin
Sədaqətidir.
İnsanın quşa
Məhəbbətidir.

**1994**

## KÖRPƏ QUŞUN NƏĞMƏSİ

Hələ uça bilmirəm,
Balacayam, balaca.
Yaxşı qaça bilmirəm,
Kiməsə yem olacam.

Tez ol, Təbiət ana,
Paltarıma çək rəngi!
Məni xilas eləsin
Gül rəngi, çiçək rəngi!

**1999**

## SAXSAĞAN OXUYANDA

Saxsağan oxuyanda
Nənəm həyəcanlanır.
Təpər gəlir dizinə,
Elə bil ki, canlanır.

Xoş xəbər sorağında
Ürəyi yarpaq olur.
Çöhrəsini bürüyən
Qəm buludu dağılır.

Səsləndikcə ala quş
Arzular gəlir dilə.
Heç bülbül oxuyanda
Sevinməyib o, belə.

Sehrli yumaq kimi
Çözələnir, açılır.
Sağsağan oxuduqca
Üzünə nur saçılır.

Gözü baxır yollara,
Deyir: – Get yığ
Gül-çiçək.
Ürəyimə damıb ki,
İndi atan gələcək…

**1991**

## MƏNƏ GÖY ÜZÜ VERİN

Göydə uçan ağ bulud
Zərif tülə bənzəyir.
Səmanın yaxasında
Quşlar gülə bənzəyir.

Sanki bizi çağırır,
Gəl-gəl deyir göy özü.
Əgər quşlar olmasa,
Qəribsəyər göy üzü…

Başımızın üstündə
Onlar uçur, yarışır.
Kimin ki, qanadı var,
Uçmaq ona yaraşır…

Mənə göy üzü verin,
Göy – vətən əvəzidi.
Quşu quşa döndərən
Ucalmaq həvəsidi…

**1991**

## EŞŞƏK ARISI

Beş-on dəqiqə olar
Uçub bura gəldiyi.
Vızıltısı uzaqdan
Çağırır, gəl-gəl deyir.

Uçur belədən-belə,
Yoxdur onun qorxusu.
Toxunduğu budaqda
Nəfəsinin qoxusu.

Hey çığır-bağır salır,
Elə hey vızıldayır.
Nəfəsiylə budaqda
Görünməz cığır salır.

Özünə dost axtarır,
Eşidib gələn gərək.
Sehrli məktub yazır,
Oxuya bilən gərək.

Onun saldığı cığır
Dönür güclü maqnitə.
Yaxına gələn arı
Çətin ki, burdan ötə.

Yox-yox, bu cığır deyil,
Zərif sevgi torudu.
İçində çabalayan
Bir sevimli arıdı.

"Torçu" geri qayıdıb,
Öz arzusuna çatır.
Ürəyində nə qədər
Sehrli sözlər yatır…

Qanadlarına baxın,
Kim deyir qəşəng deyil?
O eşşək arısıdı,
Ancaq ki, eşşək deyil…

**1991**

## QARIŞQA TOYU

Siz qonaqlara
Baxın yol boyu,
Bu gün olacaq
Qarışqa toyu.

Məclis hazırdı,
O bəy, bu gəlin.
Yaxına gəlin!
Yaxına gəlin!

Sevinc gətirib
Sevgi onlara.
Siz də qoşulun
Bu xoş anlara.

Toyu olanlar
Qanad açacaq,
İndicə onlar
Qoşa uçacaq.

Hamı özünü
Öyər toy günü,
Qanad açmağa
Dəyər toy günü…

**1991**

## TÜSTÜ BÖCƏYİ

Meşənin bir yanında
Elə ki, oldu tüstü,
Bu böcəklər uçuşur
Ora sarı əlüstü…

Sevincdən, həyəcandan
Qanad açır çoxusu.
Onlara gəl-gəl deyir
Sanki yanğın qoxusu.

Tüstünün arxasınca
Uçurlar uzaqlara.
Gedib sürfə qoyurlar
Ütülmüş budaqlara.

Yanğın olan tərəfdə
Yaxşıca isti olur.
Körpəcə böcəklərin
Bələyi tüstü olur…

**1991**

## SALAM APAR

Arıcan, uçub gedirsən,
Səndən bircə diləyim var.
O dağların çiçəyinə,
Bu dağlardan salam apar!

**1991**

## AY KƏPƏNƏK, KƏPƏNƏK

Ay kəpənək, kəpənək,
Söylə, nə düşünürsən?
Qar kimi ağ güllərin
Üstündə üşümürsən?

Zəmi dəniz, lalələr
Qızıl-qızıl adalar.
Qonma onların üstə,
Qanadların od alar.

Kəpənək dəlisiyəm,
Çəkinmə, gəl yaxına.
Sənə duaçı ollam
Qonsan mənim yaxama…

**1991**

## MİLÇƏK SEVGİSİ

Dişi milçək naz satır,
Deyir: – Yaxamdan əl çək!
Qarşısında baş əyib,
Yalvarır erkək milçək.

Deyir: – Sevgilim, sənə
Mən çiçək gətirmişəm.
Dəstə tuta bilmədim,
Bir ləçək gətirmişəm…

Qəlbi yumşalır, gəlib
Çiçəyi alır dişi.
Sevincindən atlanır
Erkək milçəyin döşü…

**1994**

## QƏFƏSDƏ YAŞAYAN QUŞ

Qəfəsdə yaşayan quş!
Dərdli-dərdli ötürsən.
Şad olarsan, özünü
Çəmənzara yetirsən.

Hər gün arzulayırsan
Azad qanad açmağı.
Kökündən yadırğayıb
Qanadların uçmağı.

Azad olsan, arzunun
Çiçəyi çırtlayacaq.
Bir azca uçan kimi
Ürəyin partlayacaq.

Qəfəsin qapısını
Açmaq çətin iş deyil.
Sənin azadlığınla
Ölümün qoşadır, bil!...

**1991**

## PARABİZƏN

– Parabizən, Parabizən,
Verim sənə para, bəzən!

– Pulun mənə gərək deyil,
Qanadlarım göyçək deyil?!

Üstümdəki qara xallar
Səni rahat buraxarlar?

Qıpqırmızı donuma bax!
– Yaxşı, gəl ol mənə qonaq!

Qalx şəhadət barmağıma,
Gülüş qonsun yanağıma.

Hazırsanmı? Bir, iki, üç…
Qanadlanıb uzağa uç!

Gözlərim yola dikilib,
Gözləyirəm bir həftədi.

Kömək elə, ürək dostum
Sən uçduğun tərəfdədi…

**1994**

## YUVA

Ora uçar, bura uçar,
Hey güc verər qanadına.
Quş nə vaxt "subay-salıxdı",
Yuvamı düşər yadına?!
Harda gəldi gecələyər,
Bu koldan o kola keçər.
Yuva eşqinə düşdümü,
Ürəyindən bala keçər…

**1990**

## ÜZƏN ZANBAQLAR

Havada dövrə vurub,
Endi gölə ağ qular.
Elə bil bircə anda
Gül açdı ayna sular.

Üzən zanbağa döndü
Bu quların hərəsi.
Kolların arasından
Baxdım, gəldi həvəsim.

O quşları yaxından
Görmək keçdi könlümdən.
Bu üzən zanbaqları
Dərmək keçdi könlümdən.

Yüyürdüm, uçuşdular
Ağ qular məni görcək, –
Təyyarə meydanından
Qalxan təyyarələr tək…

**1989**

## UĞURLU OV

Alabəzək bir quşu
Addım-addım izlədim.
Onu nişan almağa
Yaxşı məqam gözlədim.

Məni heyran elədi
Durub gendən baxmağı.
Diqqətlə nişan alıb,
Birdən çəkdim çaxmağı.

Çıqqıltı eşidən tək
Quş uçub gözdən itdi.
Ancaq elə bilməyin
Gülləm havayı getdi.

Sevinirəm yamanca,
Qürurla dolub köksüm.
Fotoaparatımda
Qalıb o quşun əksi…

**1989**

## QANADLI MEYVƏLƏR

Gözəl bir bağ salmışıq,
Hər cürə meyvəsi var.
Armud, alma, albalı,
Ərik, zoğal, heyva, nar…

Ən çox xoşuma gələn
Quşların şən səsidi.
Onlar bizim bağçanın
Qanadlı meyvəsidi…

**1989**

## QARIN KÖMƏYİ

Ovçu əlində tüfəng
Ağ kəkliyi izlədi.
Qəflətən qar ələnib
Yazıq quşu gizlədi.

Dağlar, düzlər çevrilib
Ağ kəkliyə döndülər.
Ovçular kor-peşiman
Evlərinə döndülər…

**1989**

## ŞAHİN

Ov gördümü, gözləri
Parlayar fişəng kimi.
Qanadları gərilər,
Şığıyar şimşək kimi.

Acından ölsə belə
O nəzər salmaz leşə.
Vüqarlıdır, mərdliyi
Edib özünə peşə.

Tox olanda toxunmaz
Yanında uçan quşa.
Ov üstünə cumdumu,
Caynağı çıxmaz boşa…

Qırğını, çalağanı
Oylağından qovlayar.
Yerdə dəyməz, quşları
Uçan zaman ovlayar.

**1989**

## KÜRD TOYUQ

Cücəsinə əl uzatdım,
Tükləri dikəldi birdən.
Lələkləri biz-biz oldu,
Kürd toyuq yekəldi birdən.

Qorxmadan cumdu üstümə,
Qərarı çox qəti imiş.
Sən demə onu böyüdən
Bala məhəbbəti imiş…

**1990**

## UÇAN YUMURTA

Cansız idi, üfürüb
Şarıma nəfəs verdim.
Sap bağlayıb buraxdım,
Uçmağa həvəs verdim.

Əlimdən buraxıldı,
O çevrilib quş oldu.
Qanadlanıb göydəki
Leyləklərə qoşuldu.

Deyirlər yönlü cücə
"Cik" edər yumurtada.
Quşlar çaşıb qaldılar,
Uçarmış yumurta da?!

O yanına keçdilər,
Bu yanına keçdilər.
Dimdikəyib, göydəki
"Yumurta"nı deşdilər.

Qabıq kimi dörd yana
"Sınıb" səpələndi şar.
"Yumurta"nı boş görüb,
Xəyala getdi quşlar.

Kim bilir, səhvlərini
Leyləklər hiss etdimi?
Mənim odlu nəfəsim
Onları isitdimi?

**1992**

## DÜNYA, SƏNİ XOŞ GÖRDÜK

Divarları ağappaq
Xırdaca qalaçalar –
Nə onların qapısı,
Nə də pəncərəsi var.

İçindəki dustaqlar
Güc verdi bir balaca,
Parçalandı bir anda
Neçə-neçə qalaça.

Açıldı körpələrin
Bəyaz-bəyaz bələyi.
Cocuqları oxşadı
İlıq bahar küləyi.

Keçdi bir-iki həftə,
Yuvaları boş gördük.
Qanad açdı pərvazlar,
Dünya, səni xoş gördük!

**1992**

## YUVADAKI “DƏYİRMAN”LAR

Yumurtadan çıxan tək
Balalar dil-dil ötür:
– Biz bəbəyik süd içək,
Ana, bizə ət gətir!

Bəs acından öləkmi? –
Baxma tülkü-çaqqala.
Cücüləri diri ver,
Çəyirtkəni şaqqala…

Bu acgöz ətcələrə
Uzaqdan gəldimi pay –
Dimdikləri açılır
Qapı kimi taybatay.

Yazıq ana yorulur,
Gecə-gündüz dərd çəkir.
Sanki ət maşınları
Yuvasında ət çəkir.

Ancaq o, çox xoşbəxtdir,
Neçə bala böyüdür.
Dən daşıyır, körpəcə
Dəyirmanlar üyüdür…

Ət yedikcə ətcələr
Dolurlar ətə, qana.
Beş-on günə böyüyüb,
Hamısı açır qanad.

Uçurlar, kiçik yuva
Daha onlara dardı.
Kənardan durub baxan
Ana nə bəxtiyardı?!

**1992**

## HAVA YOLU

Yağış yağıb, sel gəlib,
Yollar-izlər palçıqdı.
Maşınlar batıb qalır,
Körpü isə uçuqdu.

Quşların nə vecinə,
Ya yağış, ya qar olsun…
Çünki hava yolunu
Apara bilmir sel-su…

**1986**

## O ELƏ BƏRK UÇUR Kİ

Göydə təyyarə varmış,
Birdən boylandım səsə.
Uçub üstümdən keçib,
Bilməmişəm nədənsə…

İndi xəbər tuturam,
Baxıram göy üzünə.
O, elə bərk uçur ki,
Səsi çatmır özünə…

**1987**

## QANADLAR

Uşaq olanda dünyanın
Şəkər kimi dadı olur.
Uşaq olanda adamın
Elə bil qanadı olur.

İllər görür öz işini,
İnsan xəyaldan ayrılır.
Böyüdükcə, bu qanadlar
Daşlara dəyib qırılır…

**1991**

## ARININ CAVABI

– Arı, sən öz qədrini
Nə zaman biləcəksən?
Bilirsən ki, çalanda
Özün də öləcəksən,

Bəs niyə dinc durmursan?
– Yaşamaq eşqim sönür,
Pətəyimdəki bal da
Acı zəhərə dönür.

Elə hirslənirəm ki,
Vallah, çalmasam, olmur.
Məni incidənlərdən
Qisas almasam, olmur…

**1991**

# BİR SÖZ SƏNİN, BİR SÖZ MƏNİM

## SİZ ONSUZ DA…

Nahar vaxtı yetişəndə
Zarafatla dedi dayım:
– Böyüyün böyük payı var,
Kiçiyinsə kiçik payı.

Sonra göz vurdu bibiyə:
– Cocuqlara az xörək çək!
Bu sözləri eşidəndə
Gülümsündü şeytan Mələk:

– Bibi, gərək uşaqlara
Çoxlu xörək çəkəsiniz.
Qoy biz də yeyib yekələk,
Siz onsuz da yekəsiniz…

**1992**

## YAŞILLAŞIR

– Yaz gələndə qar əriyir,
Sellər, sular aşıb-daşır.
Bitkilər, otlar göyərir…
– Göyərmir e, yaşıllaşır…

**1992**

## YAŞIL ZOLAQ

– Boz çölün ortasında
Nədir o yaşıl zolaq?
– Susuz yaşıllıq olmaz,
Yəqin ordan keçir arx…

**1986**

## PAPAQ

Çətin sual verməkdi
Mənə dayımın işi.
Bir gün yenə soruşdu:
– Ağac qadındır, kişi?
– Qadındır.
– Nədən bildin?
Söylədim dil-dil ötüb:
– Görmürsənmi, başına
Yarpaqdan yaylıq örtüb?
Verdiyim bu cavaba
Dayım məəttəl qaldı.
Gedib mənə dükandan
Yaxşı bir papaq aldı…

**1992**

## ÜSTÜMDƏN ÖTƏN BULUD

– Göy üzü sənin üçün
Olubdur vətən, bulud.
Hara belə gedirsən,
Üstümdən ötən bulud?!

– Soluxan çiçəkləri
Görəndə necə dözüm?
Göylərdə yaşasam da,
Yerdədi könlüm, gözüm.

Gedirəm, uzaqlarda
Yolumu gözləyən var.
Çiçəklərə sovqatdı
Apardığım damlalar…

**1991**

## XORUZUN PAYI

– Əmi, niyə acıqlısan? –
Hey başını bulayırsan.
– Samir, almanı dişləyib,
Niyə yerə tullayırsan?

Onu əkib-yetişdirmək
Elə bilmə havayıdı.
– Əmi, mən payımı yedim,
O da xoruzun payıdı…

**1991**

## BALACA PƏHLƏVAN

– Pəhləvanam, ay ata,
Məni yıxan az olar.
– Gəl güləşək.
– Güləşsəm,
Axı gücüm azalar?!
– İgidə yaraşıqdır,
Ay oğul, ehtiyat da.

Ancaq gücü saxlamaq
Olarmı ehtiyatda?
Baxma yorulmağına,
Hamı ilə güləş sən.
Gücün o qədər artar
Nə qədər çox güləşsən…

**1983**

## BUYNUZ

– Ata, ay ata,
Çıxsa buynuzu,
Qoç ola bilər
Bu kiçik quzu?

– Nə üçün olmur,
Olar, ay qoçaq.
– Buynuz nə üçün
Gərəkdir qoça?

– Əyridi, sanki
Oraqdı buynuz.
Oğlum, qoç üçün
Yaraqdı buynuz…

## KƏPƏNƏKLƏR OXUYUR

– Kəpənəklər oxuyur,
Nəğmələr qanadlıdı.
Onların həzin səsi
Necə şirin, dadlıdı!

– Kəpənək oxuyarmı,
Yalan deyirsən neçün?
– Gərək çiçək olasan
Kəpənək nəğməsini
Eşidə bilmək üçün…

**1991**

## YADIMA SAL

– Oğlum, yadıma salarsan,
Düşüb qəzet alaram.
– Ata, yadıma salarsan,
Mən yadına salaram…

**1987**

## İKİ – BEŞ

– Neçə almısan,
Söylə, Nişanə?
Qız doluxsundu:
– İki beş, ana.
– Bəs onda nədi
Gündəlikdəki
Bu yağlı "2"?
Adam anaya
Yalan satar heç?
– Bəs mən demədim
Bir "2", bir "5"?!

**1987**

## NAĞARA

– Nağaraya baxın bir,
Onu dinləmək xoşdu.
– Nə var onun içində?
– Heç nə, nağara boşdu.
Əcəb sual verirsən,
Bu nə sözdü, ay Elçin?
– Boş deyil, nağaranın
Səslə doludur içi.
Dinən kimi nağara,
Səs yayılır mağara…

**1984**

## KİRPİ

– Payla uşaqlara,
Bu qədər oxu,
Ay Kirpi, ay Kirpi,
Neynirsən axı?

– Acizi basmağa
Hamı zirəkdi,
Mənim paltarımda
Oxlar zirehdi.

Yumağa dönmərəm
Qorxum olmasa,
Yaşaya bilmərəm
Oxum olmasa…

**1984**

## SƏNƏ SOYUQ DƏYƏCƏK

– Sənə soyuq dəyəcək,
Əynində yoxdu pencək.
– Yox, soyuq köynəyimə
Dəyib, yerə düşəcək…

## İKİ ƏRƏBİN SÖHBƏTİ

Yaz idi, hər tərəfi
Bürümüşdü sis, duman…
– Qardaş, dəvə görmədin?
– Yox, gəlməyib rastıma.

Sən ki fit çala-çala
Gedirsən yavaş-yavaş,
Heç dəvəsi itənə
Oxşamırsan, a qardaş…

– Görüm andıra qalsın
Bu çəni, bu dumanı.
O dağın arxasına
Hələ gəlir gümanım.

Ona görə toxtağam,
Od düşməyib canıma.
Dəvə orda olmasa,
Baxarsan fəğanıma…

## DƏNİZ NİYƏ DUZLUDUR

– Dəniz niyə duzludur? –
Fikirləş yaxşı-yaxşı.
– Sularına qarışıb,
Balıqların göz yaşı…

## YERİN QULAĞI

– Ata, əyil qulağına
Söz söyləyim, –
Deyir Qoşqar.
Ata gülür:
– Kim var axı
Evdə səndən,
məndən başqa?
Nə sözün var açıq söylə!
Pıçıldayıb deyir Qoşqar:
– Dünən anam deyirdi ki,
Lap yerin də qulağı var…

## ÜZƏ YAZILAN YAZI

– Yenə konfet yemisən?
– Sən bunu hardan bildin?
Sığallayıb başımı
Anam qımışdı, güldü.

Səpkiləri göstərib,
Davam etdi sözünə:
– Sənin konfet yeməyin
Yazılıbdır üzünə…

**1992**

## ƏGƏR SU ÇOX OLSAYDI

– Okeanlar, dənizlər
Daha çox sahə tutur.
Bizim Yer kürəsinin
Böyük hissəsi sudur.

– İnanmaram bu sözə
Dünyanı tutsa sellər.
Torpağın qucağında
Durmurmu çaylar, göllər?

Əgər su çox olsaydı
Heç torpağı öyərdik?
Ona Yer kürəsi yox,
Su kürəsi deyərdik…

**1992**

## ŞƏHƏRDƏ NƏ GƏZİRSƏN

– Uçursan buz bağlamış
Küçənin üzərində.
Bir ağ ümid gizlənib,
O qara gözlərində.

Ay qağayı, qağayı,
Nə gəzirsən şəhərdə?
Dənizdə sənin üçün
Darıxır ləpələr də…

– Görmürsən nə soyuqdu,
Özüm də bərk acmışam.
Balıq üzüb dərinə,
Mən şəhərə uçmuşam.

Bir qarın yem gəzirəm,
Danlamayın məni siz.
Qarnım tox olmayanda
Yadıma düşmür dəniz…

## ÜZÜM

– Söz vermişdin ki,
Nə oldu, ə, bəs?
Sənə inanmaq
Əbəsmiş, əbəs.
– Yalançı oldum,
Üzr istəyirəm,
İncimə, Həzi.
Olsaydı üzüm,
Yeyərdim özüm, –
Üzüm nə gəzir?

## PAMBIQ, YOXSA DAŞ?

– Bir kilo daş ağırdı,
Bir kilo pambıq, Bağır?
– Pambıq.
– Elə şey olar?
– Görmürsən yağış yağır?!
Suyun altında pambıq
Sözsüz ağır olacaq.
Nə qədər yağsa, daşın
Vecinə deyil ancaq…

## OPTİK OX

– De görüm optik oxu
Yağlayırlar nə ilə?
– Bilmirsən? –
Kərə yağla. –
Bic-bic güldü Nailə.

## İKİ QARDAŞIN BİR BACISI

– Mənim bir qardaşım var,
Bacımın iki.
– Heç belə də şey olar? –
Gop oldu bu ki…

– Tələsmə, dostum, düşün
Sən yaxşı-yaxşı.
Tək bircə bacısı var
İki qardaşın…

## CAVAB VER

– Sənə bir sual verim,
Düşün, cavab ver, Tutu.
Trolleybusun çəni
Nə qədər benzin tutur?

– Bunu bilir bəbə də,
Verdiyi suala bax.
Trolleybus benzinlə
İşləyirmi, ay qoçaq?

## TAPMIŞAM

– Ayağı dənizdədi,
Başı dağın döşündə.
– Heç belə də şey olar?
– Niyə olmur, düşün də…
Təranəyə demişəm,
Fikirləşir üç aydı.
Tapa bilmir…
– Goplama,
Mən tapmışam,
bu, çaydı…

## DOVŞANDAN QORXAN DOVŞAN

– Dovşan maskası geyib,
Dovşana yaxınlaşdım.
Ancaq o məni görcək
Qaçıb dağları aşdı.

Düşdüm onun dalınca,
Düzü, oldum ərəsən.
Dovşan axı dovşandan
Niyə qorxur görəsən?

– Gülməli danışırsan,
Doğrudan da, ay Solmaz.
Məgər dovşan bilmir ki,
Sən boyda dovşan olmaz?!

**1987**

## ELƏ BİL Kİ…

– Sənsiz yuxum gəlmir, bala,
Tez ol, soyun, qısıl mənə!
– Mütəkkəni qucaqla, yat,
Elə bil ki, mənəm, nənə!

**1987**

## NİYƏ QIŞQIRDIN

– Pəncərədən baxan kimi
Qışqırdın, bu nə iş idi?
– Zivədən şalvar asıblar,
Elə bilmişəm kişidi…

**1987**

## HANSI HAVA AĞIRDI?

– De görüm soyuq hava
Ağırdı, yoxsa isti?
– Əlbəttə, soyuq hava, –
Cavab verdim əlüstü.

Yusif qalxdı ayağa,
Bic-bic baxdı, qımışdı.
Onun təbəssümündən
Gözlərimiz qamaşdı.

Dedi: – Niyə aranda
Biz bişirik eləsə?
Dağdasa üşüyürük,
Gəzirik əsə-əsə?!

**1987**

## NƏNƏ VƏ NƏVƏ

Nənə uzandı,
Oynadı nəvə,
Onu yatmağa
Qoymadı nəvə.

– Nə üçün səs-küy
Salırsan, atam?
Niyə qoymadın
Bir azca yatam?

– Heç cıqqırım da
Çıxmayıb, nənə.
Yəqin ki, yuxu
Görmüsən yenə…

**1988**

## ON BİRİNCİ ADAM

– Biz şəkil çəkdirmişik
Evimizdə keçən il.
O bayram şənlikləri
Heç yaddan çıxan deyil.
Şəklə diqqətlə baxıb,
Cavab ver görüm, Vüqar,
Bizim mənzilimizdə
Neçə nəfər adam var?
– On nəfər.
– Düz demədin,
Fikirləş, söylə sözü.
Məgər evdə deyilmiş
Şəkilçəkənin özü?!

**1988**

## XANƏNDƏ

– Oxuyur, səsi
Baxmır sözünə,
Sifəti pörtüb,
Yanağı yanır.
– Niyə qavalı
Tutub üzünə?
– Yəqin xanəndə
Bizdən utanır…

**1989**

## NİYƏ ACIDIR

– Dostum, fikirləş
Sən yaxşı-yaxşı,
Niyə acıdır
Xiyarın başı?

– Bir süzgəc kimi
Hər şeyə dözür.
Tağlardan gələn
Şirəni süzür.

Öz işindədi
O, gündüz-gecə.
Qoymur xiyara
Acılıq keçə…

**1989**

## DÜZGÜN CAVAB

– Maşın getdikcə yükü
Azalır, ya çoxalır?
– Azalır.
Çünki benzin
Yavaş-yavaş yox olur…

**1989**

## BÖYÜRMƏK, YA BÖYÜMƏK

Kitab oxuyan zaman
Bizim balaca Süsən,
Birdən öskürdü,
Dedim:
–Yenə nə böyürürsən?
Başa düşmədi sözü
Dönüb baxdı əlüstü.
Təəccüblə soruşdu:
– Məgər böyümək pisdi?!

**1989**

## SAMİRLƏ SÖHBƏT

– Bülbül nədi?
– Cəh-cəhdi.
– Bəs at nədi?
– Dəh-dəhdi.
– Ulaq nədi?
– Çu-çudu.
– Bulaq nədi?
– Su-sudu.

– Öküz nədi?
– Ho-hodu.
– Keçi nədi?
– He-hedi.
– Maşın nədi?
– Bip-bipdi.
– Cücə nədi?
– Cib-cibdi.
– Köpək nədi?
– Ham-hamdı.
– Samir kimdi?
– Sam-samdı…

**1990**

## SÖZLƏ

– Hey məni qıdıqlayır,
Ay ata, bacıya bax.
– Bacı harda, sən harda,
Bu nə sözdü, ay uşaq?

Bəsdi daha güldüyün,
Gedirsən ki, özündən.
– Bacı məni əllə yox,
Qıdıqlayır sözünən…

**1986**

## QOVLUQ

– Qovluq nədi, ay Sevil?
– Kağız-kuğuzun evi…

## ÇAYDAN

– Qoymuşam ocağın üstə,
Çaydana bax, dızıldayır.
– Alov yazığı göynədir,
Dızıldamır, sızıldayır…

**1984**

## AYAQ DİŞLƏYƏN ÇƏKMƏ

Gördüm oğlum axsayır,
Dedim: –Yanını çəkmə!
Dedi: –Ayaqlarımı
Yeyir axı bu çəkmə?!

Gülə-gülə soruşdum:
– Çəkmənin dişimi var?
– Bəs nədir ayağıma
Sancılan xırda mıxlar?

Düz sözə nə deyəsən? –
Dinmədim, çaşıb qaldım.
Elə o gün oğluma
Təzə bir çəkmə aldım…

**1990**

## MEŞƏNİN QORXUSU

– Qucağında şir, pələng,
Ayı gəzir həmişə.
Bu vəhşi heyvanlardan
Qorxmursanmı, ay meşə?

– Qoynuna sığınandan
Meşənin nə qorxusu.
Sən də qonaq gəl mənə,
Dinlə, quşlar oxusun.
Sinəmdəki güllərin
Əyil, öp yanağından…
– Yəni heç qorxun yoxdu?
– Var.
– Nədəndi?
– Yanğından.
Əlini cibindən çək,
Yoxsa səndən küsərəm.
Kibrit çöpü görəndə
Əsim-əsim əsirəm…

**1987**

## ŞEH

Oğlum çöldə gəzəndə
Şehli otlara baxıb,
Belə dedi:
– Ay ata,
Deyəsən yağış yağıb…
– Yağış nə gəzir, oğlum,
Heç gör göydə bulud var?
– Hə, bildim, tərləyiblər
Yəqin çiçəklər, otlar.
– Bu nə tərdi, nə yağış,
Parıldayır gör necə?!
Şehdi, çiçəyin, otun
Üstünə qonub gecə…

**1986**

## FOTOŞAM

– Həvəsi gəlib,
Yağış hey tökür.
Çimir dağ-dərə, –
Göy şəkil çəkir.

– Boş-boş sözləri
Başından çıxar.
İndi gecədir,
Şəkilmi çıxar?

– Bax, alqışlayır
Çiçəklər göyü.
Fotoşamıdır
Şimşəklər göyün…

**1989**

## SU BUZ TƏK OLDUĞUNDAN

– Günəşə bax, günəşə,
Dönməyir öz yolundan.
Yayda dənizdən çıxır,
Qışda dağın dalından.

Nə üçün belə olur,
Kim cavab verər bizə?
– Su buz tək olduğundan
Günəş girmir dənizə…

**1992**

# ÇOX RAZISAN ÖZÜNDƏN,
# DÜŞƏRSƏN HA GÖZÜMDƏN

## HİM-CİM

Darıxırdı təklikdən
Kim ayrıca gəzirdi.
Him ayrıca gəzirdi,
Cim ayrıca gəzirdi.
Axır ki, cana doydu,
Him sevda himi qoydu. –
Cimə göz qaş-elədi,
Eşqini faş elədi.
Cim də bənd imiş himə,
Gedib qoşuldu Himə.
Onlar tarın üstündə
Döndülər qoşa simə.
Sirdaş oldu Cim Himə,
Sirdaş oldu Him Cimə.
Heç kəs bilməsin deyə
Başladılar him-cimə…

**1999**

## ÜŞÜYƏN AĞAC

Küləyə bax, küləyə,
Aləmi qarışdırıb.
Bir əskini ağacın
Belinə dolaşdırıb.

Mənə belə söyləyir
Oğlum ayaq saxlayıb.
– Ağaca bax, üşüyür
Boynuna şarf bağlayıb…

**2000**

## GİCİTKƏN VƏ KƏPƏNƏK

– Axı kimə neyləmiəşəm? –
Mənə yaxın duran yoxdu.
Ay kəpənək, nəyə görə
Gicitkənlə aran yoxdu?

Qoy qalmasın ürəyimdə
Bircə gilə arzu, muraz.
Gəl qon mənim yarpağıma,
Çiçəyimlə oyna bir az.

– Dostum, sən deyəsən məni
Barmağına dolamısan.
Nə vaxt yanına gəlmişəm,
Barmağımı dalamısan.

Tək qalmısan, darıxırsan,
Tikanların sanki oxdu.
Ona görə böcəklərin
Səni görən gözü yoxdu…

**1991**

## YUVA ÜSTÜNDƏ DAVA

Hava isinən kimi
Sığırçın döndü geri.
Asanlıqla tapdı o,
Yuva qurduğu yeri.

Gözünə inanmadı,
Qəzəblənməsin necə?
Doğmaca yuvasına
Yiyə çıxıbdı sərçə.

Dimdiyi şaqqıldadı,
Çil-çil donu qabardı.
Hədələdi sərçəni,
Haray-həşir qopardı.

Davakar sığırçını
Tanımamısan hələ! –
İndi sənin tükünü
Didib verərəm yelə.

Evimdən çıxan kimi
Asanca yol seçmisən.
Məgər mən ölmüşəm ki,
Yuvama sən köçmüsən?!

Dimdikləşmə başlandı,
Tüklər uçdu havada.
Sığırçın düşmənini
Çölə atdı yuvadan…

Dəyişməli oldu o,
Yuvasını kökündən.
Yumşaq döşək düzəltdi
Boz sərçənin tükündən…

**1987**

## QƏLƏM VƏ POZAN

Qələmin Pozan ilə
Arası bərk dəymişdi.
Kimi gördü deyirdi:
– Bu Pozan lap qəmişdi…

Düşməndir, ayağımın
Altını hey qazır o.
Paxıllığından yanır,
Yazdığımı pozur o.

Vecinə də almırdı
Pozan bunları qəti.
Ancaq bir gün Qələmə
Söylədi həqiqəti:

– Deyirsən ki, Pozanın
Məni götürmür gözü.
Söylə, nə vaxt pozmuşam
Doğru yazdığın sözü?

**1990**

## YOLUNMUŞ AT QUYRUĞU

Tövlədə atı gördü,
Qorxu düşdü canına.
Sərçə tələsik uçdu
Dostlarının yanına.

Cikkildədi, çığırdı,
Haray-həşir qopardı.
Qarnıboş sərçələrin
Zəhləsini apardı.

Nə yaxşı ki, vaxtında
Düşmüşəm duyuq, – dedi.
Həyəcanla, qorxuyla
“At” – dedi, “quyruq” – dedi.

Ələ saldılar onu:
– Sən bunun sözünə bax!
Bəlkə birinci dəfə
At görürsən, ay axmaq?

Sərçə atıldı-düşdü,
Didib tökdü özünü.
Qəribliyə salmayın –
Dedi mənim sözümü.

Başımızın üstünü
Böyük təhlükə alıb.
Ümidimiz tək, bircə
Sərvaxt olmağa qalıb.

Soruşdular:
– Nə olub?
Açıq de, başa düşək.
Nə qəribə sərçəsən,
Görməmisən at, eşşək?

Sərçə coşdu, nə coşdu:
– Evimizi yıxıblar.
Tövlədə kəhər atın
Quyruğunu qırxıblar.

– Elə bu?
Bundan ötrü
Car çəkmisən aləmə?
Başı batmış,
Üfürüb,
Milçəyi fil eləmə…

Gülüşdülər sərçəyə,
Onu qoydular lağa:
– Atın quyruğu ilə
Nə işin var, ay qağa?

– Quyruq yolan dəcəllər
Bilin, bizi izləyir.
Hər tük bir cələ olub,
Yolumuzu gözləyir…

Sərçələr o yazığın
Sözlərini kəsdilər.
Pırıldaşıb uçdular,
Xırmana tələsdilər.

Uçub yerə qondular,
Samanlığa düşdülər.
Uşaqların qurduğu
Cələyə ilişdilər.

Sərçə onlara baxıb,
Ah çəkdi, gəldi dilə:
– Sözə baxmayanların
Axırı olar belə! –

Deyib uçdu, damdakı
Yuvasına girdi o.
Yuxusunda yolunmuş
At quyruğu gördü o…

## SAPAND

Dost, özünü yığışdır,
Görürsən bu sapandı? –
Düz hədəfi tapandı,
Elə bilmə sapandı.
Vızıldayıb hər dəfə,
Daş dəyəcək hədəfə…

**1998**

## SÖZ GÖTÜRMƏYƏN UŞAQ

Konfet verəndə alar,
Soyub ağzına qoyar.
Dondurmadan, meyvədən
Dostum çətin ki, doyar.

Kobud, ağır söz desən,
Özünü itirmir o.
Nə verirsən götürür,
Təkcə söz götürmür o…

**1999**

## ARPA VƏ BUĞDA

Arpa dedi Buğdaya:
– Nə özünü öyürsən? –
Mən səndən qüdrətliyəm,
Gərəkliyəm, – deyirsən.
Arpa çayı olmasa,
Əkinçinin zəhməti,
Əməyi zay olardı.
Yaxşı olsan, sənin də
Adına çay olardı…

**1999**

## SOYUQDAN "UTANAN" TÜLKÜ

Çırpışdırıb aparıb
Hündüşqadan, toyuqdan.
Tülkü-tülkü boylanır
Yuvasından – oyuqdan.
Deyirik:
– Bir çıx çölə!
Çağırsaq da bayaqdan,
Çıxmır,
Belə söyləyir:
– Utanıram soyuqdan…

**1990**

## TÜLKÜNÜN YALVARIŞI

Oğrun-oğrun, sinə-sinə
Girmək istəyəndə hinə,
Tülkü lələ,
Keçdi ələ!
Gözlərindən
yaş axıtdı
Gilə-gilə:
– Bəsdir yedim kötək, lələ,
Burax məni, köpək lələ!
Aclıq məni hinə salıb,
Ta baxmaram hinə sarı.
Cücələrə göz dikmərəm,
Bir də bura üzükmərəm…

**1983**

## ÇƏMƏN OLMAQ İSTƏYİRSƏN

Səhra öyürdü özünü:
– Dönüb çəmən olacağam!
İndən belə səhər-səhər
Şehdə çimən olacağam.

– Gərək gül-çiçəyin olsun,
Çəmən deyilməz hər düzə.
Çəmən olmaq istəyirsən,
Qoynunu otlarla bəzə…

**1990**

## KOLUN HƏDƏSİ

Çəpərin ortasında
Böyürtkənlər qapqara.
Onları dərib yedim,
Çəkiləndə kənara
Kol yaxamdan yapışdı,
Başladı hərbə, hədə.
– Mənim meyvəmi yeyib,
Hara qaçırsan, ədə?!

**1989**

## SAĞSAĞAN VƏ SOĞAN

Girib bostanımıza,
Qoymayıb bir sağ soğan.
Ağzı dönüb zəhərə,
Ufuldayır sağsağan.
Haray salır, qışqırır,
Sarsağa bax, sarsağa!
Deyir: – Mən gəlməmişdim
Bura oğurluq üçün.
– Bəs soğan yeməmisən
Niyə göynəyir için?

**1989**

## DOVŞANIN GİLEYİ

Qar bizə kömək üçün
Yağdı ki, örtsün izi.
Ancaq heç bilmədi ki,
Bəlaya salıb bizi.

Taqətimiz kəsilib,
Acından öldük daha.
Gərək çıxaq həyətə,
Yuva anbar deyil ha!

Dostum arxayın gəzir,
Xəbəri yox özündən.
Belə iz yayınarmı
Heç ovçunun gözündən?

Ürəyimizdə qorxu,
Başımızda əndişə.
Heç bilmirik neyləyək,
Qış bizi salıb işə…

**1989**

## XOŞA GƏLƏN SÖYÜŞ

– Küçüyü söydüm,
Xoşuna gəldi.
Quyruq buladı,
Üzümə güldü.

Kimə söysəydim,
Alardım kötək.
Ancaq sevindi
Balaca köpək.

– Nə dedin ona?
– İtil, burdan it!
Nə istəyirsən,
Ay it oğlu it?!

**1989**

## ÇAYLA SÖHBƏT

– A çay, niyə yatmırsan?
– Vaxt olur ki, yataq da?!
– Sənin ki, yatağın var…
– Çay yatmır ha yataqda.
Dincəlmir ha bu fağır,
Elə hey axır, axır…

**1991**

## OVÇU VƏ TÜLKÜ

– Sən qorxmadan kol-kosa,
Tikanlığa girirsən.
Sığallı paltarınla
Mənə yandıq verirsən.

Ömrün boyu sümsünür,
Gəzirsən, dolaşırsan.
Yuvaya girən zaman
Torpağa bulaşırsan.

Enmədiyin bir dərə,
Çıxmadığın dağ olmur.
Yenə sehrli kürkün
Dağılmır ki, dağılmır.

Yaman səliqəlisən,
Arxanca çox yortmuşam.
Tülkü, sənin üstündə
Mən neçə kürk yırtmışam.

Qulaq assan sözümə,
Yaxın dostun olaram.
Sənə yar-yaraşıqlı
İsti palto alaram.

Nə istəsən verərəm,
Ay şələquyruq tülkü.
Çıxart mənə bağışla
Əynindəki o kürkü…

– Elə zarafat olmaz,
Dost, özünü yığışdır.
Göydən yerə səpilən
Gah qardır, gah yağışdır.

Kürküm olmasa, qışda
Üşüyərəm, donaram.
Yayın qızmar çağında
Alışaram, yanaram.

Məni hiyləgər edən
Yaşamaq həvəsimdir.
Ömrümün sonunacan
Bu kürk mənim bəsimdir…

**1991**

## YARASA ƏMRİ

Danışanda bir düşün,
Sözlərini dağ elə!
Üstümə qışqırırsan:
– Günəşi dustaq elə!

– Ay yarasa, nə üçün
Özümü gücə salım?
Qaranlıq zindanlara
Günəşi necə salım?

**1991**

## AY VƏ KÜLƏK

Külək Ayı şar bildi,
Külək möhkəmcə əsdi.
Onu göydən götürüb,
Aparmağa tələsdi.
Ay güldü, Külək gördü
Hay-harayı əbəsdi…
Gətirib buludları
Onun önünü kəsdi.
Ay yenə də işardı,
Külək incidi, küsdü.
Dedi ki, yorulmuşam,
Oynamıram, ta bəsdi!...

**1988**

## DƏRƏNİN DAĞ ÇAYINA GİLEYİ

Sənin adın dağ çayıdı,
Mənə ögey tək baxırsan.
Əgər dağ yaxşıdı, onda
Niyə dərəyə axırsan?

**1988**

## BIĞLARI SÜNBÜL PİŞİK

Siçan balası dedi:
– Ana, çölə bax sən bir! –
Yuvamızın ağzında
Bitibdir bir cüt sünbül.

Ana siçan hirsləndi:
– Çıxsan çölə deşikdən,
Yaxa qurtaramazsan
Bığı sünbül pişikdən…

**1987**

## ARANIN SUALINA DAĞIN CAVABI

– Aran qara həsrətdi,
Səninsə zirvən dümağ.
Axı bu qədər qarı
Neyləyirsən, ulu dağ?

– Bahar gələndə onu
Mən selə döndərəcəm.
Qoşub dağ çaylarına
Payını göndərəcəm…

**1987**

## DOVŞAN VƏ TISBAĞA

Dovşan güldü Tısbağaya:
– Gəl qaçaq, mənə çat görüm!
Tısbağa dedi Dovşana:

– Özünü suya at görüm!
Mənə lağ edir hər uşaq,
Oğulsan, suda yarışaq!

**1987**

## AĞAC VƏ QARPIZ TAĞI

Ağac söylədi Tağa:
– Yaman zəifsən, qağa!
Tağ dedi: – Məndən əl çək,
Nə olsun ki, zəifəm,
Üstümə az ayaq aç.
Tək bircə qarpızımı
Saxlaya bilərsənmi
Budağında, ay Ağac?!

**1986**

## MÜBAHİSƏ

Bəlkə də Kəhər
Olmazdı Kəhər.
Mən olmasaydım, –
Öyündü Yəhər.
Yaman hirsləndi
Tapqır Yəhərə:
– Bəs mən olmasam,
Atın belindən
Düşməzsən yerə?
Dindi Üzəngi:
– Sən səsini kəs!
De, mən olmasam,
Minici ata
Necə minər bəs?

Cilov qarışdı
Söhbətə bu dəm:
– Elə başam ki,
Başda gəzirəm.
Ata çırpılıb
Öyündü Şallaq:
– At qanad açdı,
Qüdrətimə bax!
Kəhər qızışıb,
Saxlamasam mən,
Bəs kim saxlayar, -
Öyündü Yüyən.
Dilləndi Kəhər:
– Eh, dinmədikcə,
Yolu azdınız.
Unutmayın ki,
Mən olmasaydım,
Siz olmazdınız…

**1972**

## BİLETSİZ SƏRNİŞIN

Tramvaya mindinmi
Bilet alasan gərək.
Konduktoru görəndə
Dilə gəldi Kəpənək:

– Tramvayda getsəm də
Qonmamışam heç hara.
Bileti neyləyirəm,
Uçuram ora-bura…

**1988**

## LEYLƏK VƏ BÜLBÜL

Leylək çox qəzəbliydi,
Hikkəsini udurdu.
Onun Sarı Bülbülə
Bərk qəzəbi tuturdu.

Bir gün dedi: – Ay Bülbül,
Bir keç dayan qarşımda.
De, kim mənə tay olar
Gözəllik yarışında?

Qanadımın ucunda
Kömür qaralığı var.
Yupyumşaq tüklərimdə
Bəyaz qar ağlığı var.

Səmalara uçanda
Ağ buluda bənzərəm.
Göylərin yaxasını
Zanbaq kimi bəzərəm.

Sənsə adicə quşsan,
Ancaq gözəl səsin var.
Nə üçün ürəkləri
Oxşayan nəfəsin var?

Nəğmə paylanan zaman
Ünvanımız tərs düşüb.
Mən gözəllikdə quşa
Eybəcər bir səs düşüb.

Bülbül güldü: – Ay Leylək,
Sözlərimə qulaq as;
Xəyalında qurbağa
Mahnı oxumaq olmaz.

Mən ötmək istəyəndə
Gülümü düşünürəm.
Obamı düşünürəm,
Elimi düşünürəm.

Hər əzaba hazıram,
Sevdiyim güldən ötrü.
Ona görə səsimdən
Gəlir gül-çiçək ətri…

**1992**

## QODUQ VƏ CEYRAN

Qoduq dedi Ceyrana:
– Bu naz-qəmzəni burax.
Dərdindən divanəyəm,
Gəl evlənək, ev quraq.

Ceyran gülüb Qoduğa
Verdi belə bir cavab:
– Məndən sənə tay olmaz,
Get anqır, tayını tap!

**1992**

## TUTUQUŞU

– Ay dəcəl Tutuquşu,
Söylə, hardan gəlirsən?
Dediyim kəlmələri
Təkrarlaya bilirsən.

Səni yamsıladığın
Quşların ahı tutdu.
Hamını təkrarlayıb,
Öz səsini unutdun.

Mənə yaltaqlanırsan
Əlimdə oxu görüb.
Hünərin varsa əgər
Bülbül tək oxu görüm?!

**1994**

***

Başqaları danışanda,
Oxuyanda getdi huşu.
Mənasını anlamadan
Təkrar etdi Tutuquşu.

Özünə umac ovmamış,
Yada əriştə doğradı.
Düşdü qızıl qəfəslərə,
Uçmağı da yadırğadı.

Boğa bilmədi özgəyə
Xoş görünmək həvəsini.
Onu-bunu yamsılayıb,
Unutdu öz nəğməsini…

**1992**

## QUZU, HEY

Yazda dilləndi
Quzey:
– Quzu hey,
Quzu hey!
Əridi dağın
buzu, hey!
Açılıb dan
üzü, hey!
Dolan dağı,
düzü hey!
Yaşıl don geyib
Quzey,
Quzu hey!
Quzu hey!

**1998**

## KAŞI VƏ NAŞI

– Dost, bu nədi?
– Kaşıdı.
– Sizin usta naşıdı? –
Çaş-baş düzür kaşını,
İtiribdir başını.
Sanki onu it tutub,
Boyuna xam ip tutum!
– Öyrədəydin kaş onu,
Düz düzəydi kaşını.
Yerə soxmayaydı o
Ustasının başını…

**1998**

# NƏ ÜZLƏ

Söküb-töküşdürməyə
Dostumun üzü ağdı.
Ancaq tapa bilməzsən
Onu yır-yığış vaxtı.

Dilindən düşməsə də
Səliqə-səhman sözü,
O, heç bilmir ki, nədir
Səliqə-səhman özü.

Yuxudan duran kimi
Gərək xeyli deyinsin.
Paltarını tapmır ki,
O, əyninə geyinsin.

Deyinməyə haqqı var,
Bütün günah ondadı.
Pencəyi bir tərəfdə,
Şalvarı bir yandadı.

Köynəyi hara qoyub? –
Məgər onun huşu var?!
Deyən gərək: mətbəxdə
Corabın nə işi var?

Geyinincə dostumuz
Qurtarır birinci dərs.
Ay uşaqlar, məktəbə
O, nə üzlə getsin bəs?!

**1985**

## ELƏ BAXMA

Mənə baxma heç elə,
Söyərlərmi heç elə?!
Xalqa arxa çevirən,
Öz ömrünü heç elər…

## ÇOX GÜVƏNMƏ

Qarışqa, bal görəndə
İşıq gəlir gözünə.
Bala batıb ölərsən,
Çox güvənmə özünə…

## YALANÇI ELƏ BİLİR

Min söz uydurub deyir
Naşı adamı görcək.
Yalana bəzək vurub,
Adını qoyur gerçək.

Yüz doğru söz deyəsən,
İnanmaz hələm-hələm.
Yalançı elə bilir
Yalançıdı el-aləm…

## BAŞ

Unutma ki, hər şeyi
Dəyişməzlər başa-baş.
Hündürdə olduğundan
Demirlər ki, başa baş.

Bir iş görsən fikirləş,
Hər vaxt özünü tox tut.
Ağılsız adamlara
Deyirlər: başı yoxdu…

## ÖYÜD

Dürtülmə ora-bura,
Hər yerə burun soxma.
Özündən balacaya
Üstdən aşağı baxma.
İş açma başına sən,
Məgər özbaşınasan?!

**1985**

## QOVURĞA BİTƏRMİ

Cibimə buğda töksün
Xahiş etdim bibimdən.
Çıxarıb səpdim şuma
Qovurğanı cibimdən.

Mənə güldü uşaqlar,
Səhvimi anladım gec.
Dedilər ki, ay səfeh,
Qovurğa bitərmi heç?!

**1985**

## AĞACIN QARĞIŞI

Ağrıdan üzülmüşəm,
Səni olasan çolaq.
Məni niyə kəsirdin
Vura bilmirdin calaq?!

## İKİ DAŞ

– Saatım xarab olub,
Bir az işləyib, yatır,
Onu düzəlt, ay usta!

– İki daşı çatışmır,
Ay oğul, bu saatın, –
Biri altda, biri üstdə…

## QƏNŞƏRƏ ÇIX

Daldadan çıx qənşərə,
Çəkim səni məhşərə.

## KİM BİLİR DƏRSİMİZİ

– Kim bilir dərsimizi? –
Əllər havaya qalxdı.
Ancaq dərs bilməyənin
Əli havayı qalxdı.

Düşündü: “Tutar qatıq,
Tutmaz da olar ayran”.
Biləni, bilməyəndən
Kimdi seçib ayıran?

Dostum nahaqca yerə
Gözə soxdu özünü.
Əl qaldırıb, alova,
Oda soxdu özünü.

Adı çəkilən kimi
Üstünə duman çökdü.
Lövhənin qarşısında
Puçur-puçur tər tökdü.

**1990**

## ŞEİR YAZANDA

Mən şeir yazan zaman
Qızım baxırdı gendən,
Gəlib öpdü üzümdən,
Kağız istədi məndən.

Qələmi də istədi
Öpüşün əvəzində.
Vermədim, bir inciklik
Duydum onun üzündə.

İstəməzdim yarımçıq
Qoyum yazdığım şeiri.
Çıxarıb dəsmalını
Sildi öpdüyü yeri…

**1977**

## YUMURTA

Yumurtaya “batonda”
Deyir balaca Gündüz.
Gülzar gülür: – Ay qaqaş,
Danışa bilmirsən düz.

Öyrənərsən, sözümü
Təkrar eləsən əgər.
Adam "batonda" deməz,
Adam "yutumda" deyər…

**1977**

## HEYKƏL

Stolun üstə çıxıb,
Əl uzadır qabağa.
Mən heykələm,
heykələm
Deyir balaca Ağa…

**1977**

## BUDAQDA DİŞLƏNƏN ƏZGİL

Kiçik əzgil ağacı
Təzəcə gətirib bar.
Körpəcə budağında
Neçə dənə meyvə var.

Əmim hədələyib ki,
Bax, bunu dərmək olmaz.
Qoyun dəysin, yetişsin,
Səbriniz olsun bir az.

Yadınızdan çıxmasın,
Axı əzgil bircədi?!
Əl vurmayın, yetişsin,
Görək dadı necədi?

Əmim bağa çağırdı
Bir gün məni – Yazgülü.
Kimsə elə budaqda
Dişləmişdi əzgili.

Başladı sorğu-sual:
– Kim dişləyib, söyləsin!
Hamı boynundan atdı,
İndi əmi neyləsin?!

O, bir armud gətirdi
Dedi: – Dişləyin bir-bir.
Diş iziylə oğrunu
Tapmaq çətin  deyildir…

Hərə bir dişləm vurdu,
Günel hönkürdü birdən.
Dedi: – Əmi, bağışla,
Belə etmərəm bir də…

**1988**

## SƏHV

Bir görün neyləyibdir,
Neyləyibdir bu qoçaq?
Düz şəridin altında
Ocaq çatıbdır, ocaq…

Yuyulmuş paltarları
Tamam veribdir hisə.
Ona bərk hirslənəcək
Əgər anası bilsə…

**1987**

## QUYRUĞU YOLUQ SƏRÇƏ

Gəzişir çəmənlikdə
Quyruğu yoluq sərçə.
Ürəyindən qorxunu
Atıb biryolluq sərçə.

– Çimməyəmi gəlib o? –
Çimmək nədi, yox əşi!
Artıq-urtuq yeməkdi
Onun işi, vərdişi.

Ağızdan çörək qapsın
Az qalır ki, dürtülüb.
Quyruğunu itirib,
Əvəzində sırtılıb.

Fırlanıb yanımızda
Zəngin süfrə seçər o.
Quyruq nədi, yem üçün
Qanadından keçər o…

**1987**

## HƏYA OLMASA

Çəkinmirəm mən
Baxın, heç kəsdən.
Nə vaxt istəsəm,
Qaçıram dərsdən.

Günlərim belə
Baş alıb gedir.
Bilmirəm qorxu,
Həyəcan nədir.

Yadında saxla
Bunu, ay Solmaz,
Həya olmasa,
Həyəcan olmaz!

**1990**

## TOPUN ƏVƏZİNDƏ

Topum dəyib başına
Yaman hirslənib nənəm.
Onu ağrıdan topdu,
Üzr istəyənsə mənəm…

**1988**

## İKİ İT

Zəncirli it acıqlıdır,
İstəyir qapa, tuta.
Boynundakı zəncir qoymur
İtliyini unuda.

Bir kimsəylə işi yoxdu,
Bəxti yaman gətirib.
Boynu zəncir
görməyən it
İtliyini itirib…

**1987**

## ÜŞÜYƏN KİTABLAR

Üstünü toz bürümüş
Gör nə qədər kitab var.
Görən soyuq rəflərdə
Üşümür bu kitablar?

Sanki onlar utanır
Yazanın əvəzinə.
Çünki həsrət qalıblar
Oxucu nəfəsinə…

**1988**

## BIÇAQ VƏ MƏN

Tiyəni ballı görcək
Sevindim, əlim əsdi.
Mən bıçağı yaladım,
Bıçaq dilimi kəsdi…

**1988**

## YADINDA QALMIR

Bəhanəsinə baxın,
Düzmü iş görüb Qəni? –
Deyir: – Kitab ağırdır,
Dərsə aparmaq olmur.

Dartıb cırdığı üçün
Kitabın vərəqini
Şeir acığa düşüb,
Onun yadında qalmır…

**1989**

## DALI-DALI GEDƏN OĞLAN

Habil öyündü: – Yolu
Gedərəm dalı-dalı.

Kürəyimdə gözüm var,
Ta mənə nə sözün var?!

Birdən dostum ilişdi,
Arxın içinə düşdü.

Batdı palçığa, lilə,
Hamı güldü Habilə…

**1987**

## ŞAPALAQ ÖPÜŞÜ

Aqşin, dəcəllik etmə,
Farağat dur yerində.
Yoxsa ananın əli
Öpər yumşaq yerindən…

**1989**

## NƏ YAXŞI

Başına nələr gəlib
Sümsüklüyün ucundan?
Küçük, qorxma, biz səni
Öldürmərik acından.

Yapışqanı yal bilib,
Yalamısan, mənə nə?
Yaxşı ki, yapışmayıb
Alt çənən üst çənənə…

**1985**

## NƏ AÇMISAN YAXANI

Nə açmısan yaxanı,
Oturmusan yayxanıb?!
Vecinə də almırsan
Yoldan ötüb baxanı.

Oxuyuram üzündən,
Çox razısan özündən.
Dur özünü yığışdır,
Düşərsən ha gözümdən…

**1985**

## ÖCƏŞMƏ

– Bilirsən nə güclüdü,
Hamını yıxar atam!
– Yekə-yekə danışma,
Lovğalıq etməz adam.

İnsanı xoşbəxt edən
Əməyidi, işidi.
Gülarənin atası
Çəlimsiz bir kişidi.

Ancaq el sevir onu,
Xasiyyətcə həlimdi.
Çoxlu ixtirası var,
Qüdrətli bir alimdi.

Onun adı nəğmə tək
Düşübdür dildən-dilə.
İnsan qolu ilə yox,
Güclüdür ağlı ilə…

**1985**

## ƏKİL-BƏKİL

Əkil-bəkil qaz idi,
Həyətdə qalmaz idi.
Gedib göldə üzərdi,
Uzaqlarda gəzərdi.
Sahilin çiçəkləri,
Bəs hanı dibçəkləri?
Kəpənəyə baxın bir,
Dərdi-qəmi az idi.
Qarışardı güllərə,
Qaz onu tapmaz idi.
Tez göldən adlayardı,
O tayda otlayardı.
Yatanda ayağının
Birini qatlayardı.
Tük dağıldı çəmənə,
Bir çiçəkli yaz idi.
Yolan tülkü lələydi,
Yolunansa qaz idi…

**1978**

## ŞAR KİMİ

Pətəyə əl uzadıb,
İşə salma özünü.
Şişirdərlər şar kimi
Arılar üz-gözünü…

**1985**

## ANASINI KİM ÇOX SEVİR

Məhəbbətdə görürlər
Həyatın mənasını.
Kim hamıdan çox sevir
Görəsən anasını?

Sualı eşidən tək
Hamı döşünə döydü.
"Mən", "mən" səsi ucaldı,
Hamı özünü öydü.

Sual verən söylədi:
– Boş-boş öyünməz adam.
Kim anasını sevir,
Qoy çimsin buzlu suda.

Tez yeridi irəli,
Elçin döydü döşünə.
Soyunub suya girdi,
Dişi dəydi dişinə.

Xəstələndi bu qoçaq,
Ananın gözü doldu.
Elçinin işlərindən
O da xəbərdar oldu.

Dedi ki, bu soyuqda,
Oğlum, çimmisən əbəs.
Öz qədrini bilməyən,
Ananı sevə bilməz.

**1985**

## GÜCÜMƏ SOYUQ DƏYƏR

– Mən hamıdan güclüyəm –
Öyünür kiçik Vüsal.
– Soyuq olar, qolunu
Yorğanın altına sal.

– Anacan, qollarımı
Çöldə saxlasam əgər,
Onların içindəki
Gücə soyuqmu dəyər?

**1984**

## QURULDAQDAN QURULTAYA

Haray saldı
Bir Qurbağa:
– Gəlin, gəlin
Quruldağa!
Üstümüzü
Alıb quraq,
Fikirləşək,
Plan quraq!
Qızışıb
İnsanlar axı? –
Qurutmaqçın
Bataqlığı.
Yığılıblar
Qurultaya…
Quruldaya -
Quruldaya
Qurbağalar

Gəlib çıxdı,
Qur-qur səs
Ərşə çıxdı.
Dünyagörmüş
Bir qurbağa,
Özünü verdi
Qabağa.
Dedi: – Nədir
Bu hay-həşir?
Qurultunuz
Qulaq deşir!
İnsanlara
Mən bələdəm,
Üzünüzü
Almasın qəm.
Onlarda ki,
Laqeydlik var,
Qurumaz bu
Bataqlıqlar.
Ayılmır
Kimsənin başı,
Arxayınca
Quruldaşın!...
Sevindilər
qurbağalar
Quruldaya-
quruldaya,
Minnətdarlıq
göndərdilər
Quruldaqdan
qurultaya…

**1991**

## KEÇİ MƏŞQ EDİR

Ağlı yoxdu çağacan,
Mələyir bu çağacan.
Qocalıb, vaxtı keçib,
Ruhdan düşməyib keçi.
Elə bil ki, məşq edir,
Axşamacan mələyir.
Ancaq "mən" deyə bilmir,
Elə "mə", "mə" eləyir…

**1985**

## TUTARLAR

Vüqarın var
Tapançası,
Tüfəngi,
Lovğalanır:
– Öldürərəm
Pələngi!

Deyirəm ki,
Bu gün evdə
Təkcə qal,
Razı olmur,
Vüqar salır
Qalmaqal.

Ağlamsınır:
– Necə qalım
Evdə tək?
– Nə üçündür
Çiynindəki
O tüfəng?

Oğru gəlsə,
Öldürərsən,
Ay Vüqar!
– Adam vursam,
Axı məni
Tutarlar?!

**1984**

## GÜC

– Ata, məni yıxır Əhsən,
Mənə bir az güc verərsən?
Güləşəndə yıxım onu,
Qollarımla sıxım onu.

– Oğlum, mənə bir qulaq as,
Kənardan güc almaq olmaz.
Güc yığmaqçün indən belə,
Səhər-axşam idman elə.

**1984**

## HAMI GÜLÜR ORXANA

Hamı gülür Orxana,
Qurbağadan qorxana.
Heyvanların adını
Öyrənəcək o haçan? –
Tısbağa şəkli çəkib,
Altında yazıb:
– Siçan…

## YUMURTA VƏ SİÇAN

Yumurtaya girişib,
Siçana bax, siçana.
İstəyir ki, aparsın,
Gücü çatmır heç ona.

Bu nə yaman bərk imiş,
Dişləyir, batmır dişi.
Yumaladı bir təhər
Belə görəndə işi.

Yumurta sındı birdən,
İçindən cücə çıxdı.
Gözü bərəlmiş siçan
Cücəyə baxdı, baxdı…

Cücədən qorxub qaçdı,
Siçana bax, siçana.
Elə bil qanad açıb,
Çatmaq olar heç ona?!

## MİLÇƏKDƏN QORXAN OĞLAN

Çəməndəki arını
Tutmaq istədi Aslan.
Arı sancdı, Aslanın
Alnı şişdi bir azdan.

İndi arı görəndə
Qaçıb gendən baxır o.
Arı bir yana qalsın,
Milçəkdən də qorxur o.

## GOPÇU QƏDİM

Belə deyir gopçu Qədim:
– Girdim bağa
Ərik yedim, heyva yedim.
İncimәsin bizdən Qədim,
Sözünə olardıq şərik.
Əgər heyva yetişəndə
Budaqda qalsaydı ərik?!

**1977**

## SİÇANLAR NƏRD OYNAYIR

Gecə saldı hay-haray,
Yuxudan qalxdı hamı.
– Nə üçün qışqırırsan? –
Danladılar İlhamı.

– Çarpayının altında
Siçanlar oynayır nərd…
Hamı güldü bu sözə,
İlham bala oldu pərt.

**1985**

## VERDİYİ BARA GÖRƏ

Yuxarıdan aşağı
Süzərək Narı Gilas
Dedi: – Bu bağda məndən
Uca yoxdur, qulaq as!

Nar dedi ki, ay Gilas,
Öyünmə nahaq yerə.
Ağacı tanıyırlar
Verdiyi bara görə…

**1985**

## BU İT

Bu it itə oxşamır,
Bu it elə bil qurddu.
Ağzındakı o ağ şey
Sümük deyil, quruddu.

Bu it pis əməlini
Çox çətin ki, tərgidə.
Yəqin ki, o, qurudu
Çırpışdırıb sərgidən…

Bu it cildinə girmiş
Qəlbi qara qurda bax!
Özü oğurlamasın,
Girsin onun gözünə
Ev-eşiyi qorumaq…

**1985**

## ŞİR NİYƏ BÖYÜMÜR?

İki yaşım olanda
Atam mənə şir alıb.
Mən böyümüşəm, ancaq
Şir elə helə qalıb.

Dili də yoxdur onun,
Lovğalanmır, öyünmür.
Nə yeyir, nə də içir,
Onunçün də böyümür…

## DUZ-BUZ

– Duz səpdik buzun üstə…
– Bıy, duz nədi, buz nədi?!
Məgər qar, buz xörəkdi? –
Söylədiyin söz nədi?

– Yollar buz bağlayıbsa,
Maşınlar necə keçər?
Duz buzun canın alır,
Sürüşkən olmur küçə…

**1985**

## ÜZGÜÇÜYƏ BAXIN BİR

Üzmək bacarmır, ancaq
Öyünür kiçik Kərəm:
– Mən dənizin üzündən
Dibinəcən üzərəm!

Onu suya buraxdıq,
Dedik: – Yaxşı, üz görək!
Əl-qol atıb, dənizin
Dibinə batdı daş tək.

Dartıb çıxartdıq onu,
Bir gör düşüb nə hala?! –
Üzgüçüyə baxın bir,
Boğulmuşdu az qala!

Daş tək batır, heç suyun
Üzünə qalxa bilmir.
Utanır, uşaqların
Üzünə baxa bilmir…

**1984**

## RÖVŞANƏ

Rövşanə uşaqları
Cırnatmağı xoşlayır.
O, əl-qol ata-ata
Danışmağa başlayır:

– Tütəyimi görürsən,
Yaxına gəl, ay Gülər.
Heç sənin atan belə
Tütək düzəldə bilər?

– Niyə düzəltmir.
– Ay-hay…
Get de düzəltsin görək!
Gülər ağlayıb deyir:
– Mənə düzəldin tütək!

Ata tütək düzəldir
Ona güc-bəla ilə.
Rövşanə gülür:
– İndi
Bir şey çal tütək ilə.

Gülər istəyir çalsın,
Heç nə alınmır ancaq.
Rövşanə deyir:
– Bu ki,
Oyuncaqdır, oyuncaq…

Bir bax, mənim tütəyim
Haray salır hər yana.
Gülər yenə ağlayır,
Rövşanə gülür ona…

## BATAQLIQ

Qurd düşüb torpağına,
Qurd düşübdür suyuna.
Yüz ildi qamış ölçür
Bataqlıq öz boyuna.
Nə ölür, nə dirilir,
Mat qalıb bu oyuna…

## QARANLIQDAN QORXAN QIZ

İşıq sönəndə qorxur,
O da yumur gözünü.
Üstəlik əlləriylə
Bərk-bərk örtür üzünü…

O dayanar beləcə,
Əgər yanmasa işıq.
Deyir ki, gözlərimə
Qoy dolmasın qaranlıq…

Gülmək tutur məni də,
Deyirəm ki, ay Ülkər,
Gözlərini yumanda
Qaranlıq olmur məgər?!

## AY ÇAY, HARDAN GƏLİRSƏN

– Ay çay, hardan gəlirsən?
– Uça-uça dağlardan?
– Ay çay, hardan gəlirsən?
– Uca-uca dağlardan.
– Dağlarda nə var, nə yox?
Çay dedi gülə-gülə:
– Bir şey olsaydı əgər
Orda qalardım elə...

**2000**

## BİR TALA BAHAR

Həyətdə əkdiyim bu xəsil
bir tala bahardı elə bil.
Çəksə də, şaxta, qar qoşunu,
Soldura bilməyib qış onu.
Qoynunda otlayır quzular,
Ürəkdə gül açır arzular.
Bu xəsil həyəti bəzəyir,
Yaşıl bir adaya bənzəyir....

**1991**

# “Söz çəməni”, “Ana dilim” , “Şeirli, sehrli qrammatika” kitablarından

Ey Rəbbim! Dilimdəki düyünləri aç ki, sözümü yaxşı anlasınlar.

“Qurani-Kərim”dən

## ANA DİLİ

Ananın özü kimi
Ana dili müqəddəs.
Damarımızda qandı,
Ciyərimizdə nəfəs.

Şirin layla eşidib,
Körpə dinclik tapıbdır.
O dil ana südüylə
Ruhumuza hopubdur.

Bəxtəvər ömrümüzün
Mənasına dönübdür.
Müqəddəs ruhumuzun
Aynasına dönübdür.

Ana dili qürbətdə
Vətənə dönə bilər.
Düşmənlərin başına
Mərmi tək enə bilər.

Odur ən çətin anda
Köməyimizə yetən.
Ana dili yoxdursa,
Nə ana var, nə vətən…

***

Bəli, ana dili hər bir insan üçün müqəddəsdir. Bu dil analarımızın südü və laylası ilə qanımıza hopmuşdur.

Dil olmasa insanlar bir-biri ilə necə əlaqə saxlaya bilərdilər? "Hər bir insan öz dilinin altında gizlənib", "Neçə dil bilirsənsə, o qədər insansan" kəlamları təsadüfi yaranmamışdır. "Dilini bilmək" ifadəsi də göydəndüşmə deyildir. Görkəmli alim Pifaqor təsadüfi demirdi ki, hər hansı xalqın xarakterini öyrənmək istəsən, ən əvvəl onun dilini öyrənməlisən.

Doğrudan da, xalqı, onun folklorunu, məişətini, adət-ənənələrini öyrənmək üçün birinci növbədə onun dilini bilmək lazımdır.

Bizim ana dilimizin – Azərbaycan dilinin çox qədim bir tarixi vardır. Bu dil uzun müddət "türki", "türk dili", "türkcə", "Azərbaycan türkcəsi" kimi işlənmişdir. Dilimizə zaman-zaman türk dili söylənilməsi də təsadüfi deyildir. Ona görə ki, bu dil türk dilləri ailəsinin qərb qrupuna mənsub ən zəngin, ən qədim qollarından biridir.

Böyük rus şairi M.Y.Lermontov dilimizə çox yüksək qiymət vermiş, onu bütün dünyada geniş yayılan fransız dili ilə müqayisə etmişdir. Lermontov belə qənaətdə idi ki, fransız dili ilə Avropanı gəzmək mümkün olduğu kimi, Azərbaycan dili ilə də bütün Qafqazı, eləcə də Asiyanı gəzmək mümkündür.

Azərbaycan ədəbiyyatının ən gözəl inciləri bu dildə yaranmışdır. İlk yazılı abidəmiz sayılan "Kitabi-Dədə Qorqud" dilimizin qədimliyi və zənginliyindən xəbər verir. Ulu Nizaminin bu dildə yazdığı əsərlər əlimizə gəlib çatmasa da, o,

ana dilimizi çox yüksək qiymətləndirmişdir. Qədim dövrlərdə yaşamış Həsənoğlunun, Nəsiminin, Xətainin, Füzulinin və başqalarının əsərləri Azərbaycan dilinin nə qədər geniş imkanlara malik olduğunu göstərən danılmaz faktlardır. Şah İsmayıl Xətainin hakimiyyəti illərində Azərbaycan dili dövlət dili səviyyəsinə qalxmışdır.

M.P.Vaqifin, Q.Zakirin, Nəbatinin, Natəvanın, Qurbaninin, Xəstə Qasımın, Sarı Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin və onlarca digər el sənətkarlarının əsərlərində dilimizin saflığı, onun ifadə zənginlikləri insanı heyrətləndirir.

Həmişə görkəmli şairlərimiz, yazıçılarımız, alimlərimiz Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmışlar. M.F.Axundzadə yeni Azərbaycan əlifbasının yaradılması ideyasını ortaya sürmüş, çox-çox sonralar bu arzunu həyata keçirmək mümkün olmuşdur. Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" curnalını "Sizi deyib gəlmişəm" məqaləsi ilə açması da təsadüfi deyildi. Zaman-zaman dilimizi unutdurmağa çalışanlara Mirzə Cəlil çox tutarlı cavablar verirdi.

"Molla Nəsrəddin" jurnalında bir karikatura verilmişdi. Şəkildə təsvir olunurdu ki, bir kişinin ağzını zorla açıb ora dil yerləşdirmək istəyirlər. Kişi isə qışqıra-qışqıra deyir ki, ay qardaşlar, mənim ağzımda öz dilim var!

Cəlil Məmmədquluzadə bu karikatura ilə dilimizi unutdurmağa çalışanlara qarşı üsyan edirdi. Görkəmli ədib "Anamın kitabı" əsərində bütün insanları öz dillərini mükəmməl öyrənməyə səsləyirdi. Sabirin şeirləri dilimizin gözəlliyinin təntənəsi idi…

M.İbrahimovun, Ə.Vəliyevin, S.Rəhimovun, M.Hüseynin, İ.Əfəndiyevin, Ə. Məmmədxanlının, İ.Şıxlının, S.Rüstəmin, M.Müşfiqin, S.Vurğunun, R. Rzanın, Şəhriyarın, N.Xəzrinin, B.Vahabzadənin, M.Arazın və başqa bu kimi sənətkarlarımızın əsərlərində Azərbaycan dili dağ şəlaləsi kimi çağlayır…

Dilimizin saflığı uğrunda mübarizə aparan ümummilli liderimiz Heydər Əliyev həmişə yazıçılara, şairlərə, sənət adam-

larına himayədarlıq edirdi. Yeni mərhələdə Azərbaycan dilinin inkişafına dövlət qayğısı məhz dahi öndərimizin adı ilə bağlıdır.

Nə yaxşı ki, indi müstəqil Azərbaycan Respublikası, onun dövlət dili, yeni əlifbası var…

Əziz balalar, ana dilimizin zənginliklərini, incəliklərini öyrənmək hamımız üçün vacibdir. Bu yolda Sizin hamınıza uğurlar arzulayırıq…

## "ƏLİFBA"M

Oxumağı, yazmağı
Öyrənmişəm təzəcə.
Misra cığırlar üstə
Baxışlarım gəzəcək.

Kitablar həsrət ilə
Yolumuzu gözləyər.
Sən dönmüsən gözümdə
Sehrli bir güzgüyə.

"Əlifba"m, ay "Əlifba"m,
Ömrümə yaraşıqsan.
Gözlərimdə təbəssüm,
Ürəyimdə işıqsan.

"Əlifba"m, ay "Əlifba"m,
Bir sehrli açarsan.
Elmin qapılarını
Üzümüzə açarsan.

Səni tanımamışdan
Həyatda çox büdrədim.
Səninlə dost olandan
Artıb gücüm, qüdrətim.

Kitablar ruhumuzda
Fırtına qoparacaq.
Sətir cığırlar bizi
Zirvəyə aparacaq.

Ay aman, gözləyirmiş
Kitabda bizi nələr?
Açılıb üzümüzə
Qiymətli xəzinələr.

Sətirlər arasında
Nələr, nələr görərəm?
Məna çiçəklərini
Baxışımla dərərəm.

"Əlifba"m, ay "Əlifba"m,
Ömrümə yaraşıqsan.
Gözlərimdə təbəssüm,
Ürəyimdə işıqsan.

"Əlifba"m, ay "Əlifba"m,
Bir sehrli açarsan.
Elmin qapılarını
Üzümüzə açarsan.

# FONETİKA

## SAİTLƏR

“A”nı lağa qoyaraq
“İ” dedi:
– Mən incəyəm.
Hərflər arasında
Mirvariyəm, inciyəm.

“E” də, “Ə” də incədi,
“Ö” də, “Ü” də incədi…
“İ”nin kobud sözündən
Qalın səslər incidi.

Elə bil “Əlifba”nın
Üstünə zülmət çökdü.
Qoymadı dil-boğaza,
“İ” üyütdü, “İ” tökdü…

Dedi ki, sən qalınsan,
“O” da, “U” da qalındı…
“I” sizdən də betərdi. –
“A” küsdü,
“A” alındı.

Söylədi:
– “Əlifba”nın
İlkin səsi mənəm, mən.
Bil ki, bütün səslərin
Sərkərdəsi mənəm, mən.

Nə olsun ki, incəsən,
Dostum, çəkmə özünü.
İlki mən, sonu mənəm
“Ana”, “Ata” sözünün.

Nə olsun ki, qalınam,
“A”yam,
“A”yam,
“A”yam mən.
Hər səs bir ulduzdusa,
Şəfəq saçan ayam mən.

Utan kobud sözündən,
Yana-yana qal indi.
“Ana” sözünə qalın
Deyən özü qalındı…

**1999**

## SAMİTLƏR

Eşitmirsən, kar samit?
Gözün görmür, kor samit?

Başıma nə gətirdin
İmtahanda gör, samit?

Saitlərə qoşulub,
Sözdən çələng hör, samit!

**1999**

# NİTQ HİSSƏLƏRİ

Dilin ən böyük vahidi nitq adlanır. Nitq isə ayrı-ayrı hissələrdən ibarətdir… Bu yarı-ayrı hissələr birləşərək nitqi əmələ gətirir…

## İSİM

Bu dünyada nə varsa:
Ağac, torpaq, daş, adam…
Hər şey, hər şey isimdi,
İsim addı, mən adam.
Budaq mənəm, bar mənəm,
Alma, heyva, nar mənəm.
Həm tikan, həm güləm mən,
Qarışqayam, filəm mən.
Həm quzuyam, həm otam,
Həm suyam, həm də odam.
Maşın mənəm, at mənəm,
Quş mənəm, qanad mənəm.
Günəş mənəm, ay mənəm,
Bulaq mənəm, çay mənəm.
Səmayam, ulduzam mən,
Oğlanam mən, qızam mən.
Ocaq mənəm, köz mənəm,
Çörək mənəm, duz mənəm.
Anayam, atayam mən,
Dənizəm, adayam mən.
Canam, ruham, bədənəm,
Həm xalqam, həm vətənəm.
Nəfəs mənəm, can mənəm,
Damar mənəm, qan mənəm.
Elan elə eşq mənə!

Ürək mənəm, eşq mənəm.
Göz də, qaş da isimdi,
Gözdə yaş da isimdi.
Dil mənəm, dodaq mənəm,
Büzməyin dodaq mənə.
Ürəklərin oduyam,
Mən hər şeyin adıyam.
Bildinizmi kiməm mən?
Mizrabam mən, siməm mən…
Əşyaların adıyam,
İsiməm, isiməm mən…

## SİFƏT

Sifətəm, hər bir şeyin
Əlaməti mənəm, mən.
Ürəyə düşən həsrət,
Saça düşən dənəm mən.
Həm sağlam, həm xəstəyəm,
Həm soyuq, həm istiyəm.
Çürük mənəm, saf mənəm,
Bulanıq, şəffaf mənəm.
Doğmayam mən, yadam mən,
Ağızlarda dadam mən.
Cavan mən, qoca mənəm,
Alçaq mən, uca mənəm.
Dərin mən, dayaz mənəm,
Qara mən, bəyaz mənəm…
Hər şeyin rəngi mənəm,
Ən varlı, zəngin mənəm.
Əlamət bildirirəm,
Genişəm mən, daram mən.
Axtarsanız, dünyanın
Hər yerində varam mən…

## SAY

Yerdə, göydə nə varsa,
Gərək hər gün sayam mən.
Həm miqdar, həm sıranı
Bildirirəm, sayam mən.
Rəqəmləri vurarsan,
Rəqəmləri bölərsən.
Mən olmasam, əşyanın
Sayını nə bilərsən?
Məni saya salmasan,
Sayları itirərsən.
Günləri itirərsən,
Ayları itirərsən.
Yaşını unudarsan,
Bir daşa oxşayarsan.
Bilməzsən ki, heç hansı
Əsrdə yaşayırsan!
İlk gündən yaranmışam,
Çox qədiməm, uluyam.
Sayam, məni sayanın
Nökəriyəm, quluyam…

## ƏVƏZLİK

Çətinə düşənlərin
Köməyinə gəlirəm.
Neçə nitq hissəsini
Əvəz edə bilirəm.
Mən isimin, sifətin,
Sayın, zərfin dostuyam.
Neçə-neçə növüm var,
Öz işimdə ustayam.

Nə əmr etsən, hazıram,
Demə həvəsim yoxdu.
Əvəzliyəm, əvəzlik,
Mənim əvəzim yoxdu…

**ZƏRF**

Dost, məni oxşadırsan
Gah sifətə, gah saya.
Kimliyimi bilməzsən
Feili salmasan saya.
Sən ona sual versən,
Necə? Nə zaman? Harda? –
Tez məni göstərəcək,
Dost dostu qoymaz darda.
Mən nitq hissələrinin
Ərköyünü, tərsiyəm.
Feilin silahdaşıyam,
Hərəkətin tərziyəm.
Başqa növlərim də var:
Kəmiyyət, zaman, yerəm.
Feilsiz mən çətin ki,
Suala cavab verəm…

**FEİL**

Feiləm, mən də feiləm,
Az aşın duzu deyiləm.
Əkən mənəm, biçən mənəm,
Yeyən mənəm, içən mənəm.
İşləyirəm, çalışıram,
Hey yanıram, alışıram.
Şimşək olub çaxıram mən,
Selə dönüb axıram mən.

Gah gəzirəm, gah qaçıram,
Gah üzürəm, gah uçuram.
Ağladıram, güldürürəm,
Çəmənlərdən gül dərirəm.
Əlvan çələng toxuyuram,
Şeir, mahnı oxuyuram.
Keçmiş, indi, gələcəyəm,
Səslə məni, gələcəyəm.
Əbədi hərəkətəm mən,
Xeyirəm, bərəkətəm mən…

## QOŞMA

Leksik mənam yoxsa da,
Çətin ki, boş duram mən.
Sözlərə qoşularaq
Məna yaradıram mən.

## BAĞLAYICI

Adım bağlayıcıdır,
Sanmayın ki, körpəyəm.
Cümlələrin, sözlərin
Arasında körpüyəm.

## ƏDAT

Ədatam, məqamında
Köməyə gəlirəm mən.
Sözlərin mənasını
Artıra bilirəm mən…

# CÜMLƏ ÜZVLƏRİ

## MÜBTƏDA

Cümlə yumruğa bənzər,
Üstündə var beş barmaq.
Kimdən soruşsan, deyər:
Mübtədadı beş barmaq.

Onsuz günüm olmasın,
Xəbərə sirdaşam mən.
Mübtədayam, mübtəda,
Başlanğıcam, başam mən.

Atalar deyib: olar
Kişinin bir sifəti.
Hayanda olsam belə,
Mən dəyişmərəm qəti.

Adlıq haldan savayı
Başqa hala düşmərəm.
Cümlənin harasında
Olsam da, dəyişmərəm.

Cümlə üzvlərinin
Əlasıyam, xasıyam.
Cümlə bir ailədi,
Mən onun başçısıyam…

## XƏBƏR

Bilmək istəyirsənsə
Mən cümlədə nəçiyəm,
Heç vaxt bunu unutma:
Xəbərəm, xəbərçiyəm.

Həmişə, ömrüm boyu
Dil-dodaqda gəzərəm.
Mən cümlədə qayğıkeş
Bir anaya bənzərəm.

Çiynimə çox-çox ağır
Bir yük götürürəm mən.
Hər tərəfdən, hər yandan
Xəbər gətirirəm mən.

Məni tapsan, asanca
Sən bir fikrə gələrsən.
Mübtədanın hansı söz
Olduğunu bilərsən.

Məni tapa bilməyən
Avaradı, fərsizdi.
Xəbəri tanımayan
Dünyadan xəbərsizdi…

## TAMAMLIQ

Mən cümlədə işimi
Dürüst, tam anlayıram.
Sözü dəqiqləşdirir,
Fikri tamamlayıram.

Deyin, nə vaxt xəbərin
Köməyinə gəlmirəm?!
Təkcə adlıq, yiyəlik
Halda ola bilmirəm.

Tamamlığam, tamamlıq,
İşimdən zövq alıram.
Həm vasitəli, həm də
Vasitəsiz oluram.

Xəbər mənə möhtacdı,
Gözləri qalıb yolda.
Vasitəliyəm yönlük,
Yerlik, çıxışlıq halda.

Təsirlik haldayamsa,
Vasitəsizəm demək.
Fikrin ifadəsinə
Hər vaxt edirəm kömək…

## TƏYİN

Mən həmişə öndəyəm,
Haqqım çatır öyünəm.
Əlamət bildirirəm,
Təyinəm, mən təyinəm.

Nitq hissəsi deyiləm,
Mənə yaxşı-yaxşı bax.
Sifətə oxşasam da
Cümlə üzvüyəm ancaq.

Hansı bir cümlə üzvü
Düzəlibsə isimdən,
Oluram onu təyin
Eləmək həvəsində.

Cümlə üzvlərini
Nura bələyən mənəm.
Mübtəda şahdır, onu
Təyin eləyən mənəm…

## ZƏRFLİK

Zərfliyəm, mən zərfliyəm,
Özün çəkir zərf niyə?
Biz onunla qohumuq,
Olsa da kökümüz bir.
Hərənin öz yeri var,
Deyilik ikimiz bir.
Dediyimdən dönmərəm,
Vurursunuz üz niyə?
O, nitq hissəsidirsə,
Mən də cümlə üzvüyəm.
Feili xəbər dostumdu,
İsimlərlə işim yox.
Gah tərz, gah yer, gah zaman
Bildirirəm, işim çox.
Gah kəmiyyət oluram,
Çoxluca gül dərirəm.
Səbəb də bildirirəm,
Məqsəd də bildirirəm.
Xəbər havayı yerə
Çeviribmi üz mənə? –
Onu izah edirəm,
Möhtacdı baş üzv mənə…

**Tabesiz mürəkkəb cümlənin birinci tərəfi ilə ikinci tərəfi arasında söhbət**

Qərq eləsin xoş ətrinə
hər gül bizi,
Qoy soyuqluq
duyulmasın aramızda.
İki yerə bölə bilməz
vergül bizi,
Təki nöqtə
qoyulmasın aramızda…

## DURĞU İŞARƏLƏRİ

### NÖQTƏ

Elə bil qara xaldı
Nöqtə sözün sonunda.
Baxma kiçikliyinə,
Xidməti var onun da.

Heç nə gərəksiz deyil,
Hər şeyin öz yeri var.
O olmasa, cümlələr
Bir-birinə qarışar.

Nöqtə var isə əgər
Cümlə bitib deməli.
Onun durduğu yerdə
Biz də dayanaq gəlin.

**1977**

## QOŞA NÖQTƏ

Bənzəyir gözdən düşən
Bir cüt yaşa nöqtələr.
Qarışqa gözləridir
Sanki qoşa nöqtələr.

Qoşa nöqtə fonar tək
Cümlə içində yanır:
Nöqtələr arasından
Təzə fikir boylanır.

**1977**

## NÖQTƏLİ VERGÜL

Mən də qoşa nöqtə tək
Bir cüt gözəm, bəri dur!
Alt gözümdən yaş axır,
Üst gözüm qupqurudur.

**1977**

## ÜÇ NÖQTƏ

Cümlə var qarşısını
Bir nöqtə kəsə bilmir.
Cümlələrin sonunda
Üç nöqtəyə baxın bir!

Nöqtələrin dediyi
Sözləri arif anlar.
Sanki hansı fikrinsə
Ayaq izidir onlar…

**1977**

## VERGÜL

Quyruq qoysan nöqtəyə
Dönüb vergül olacaq.
Nöqtə kimi cümlənin
Sonunda olmur ancaq.

Sözlərin arasında
Məskən salıb özünə.
Üzüyola cümlələr
Baxır onun sözünə.

Sanki çatılmış qaşdır,
Vergülə bax, vergülə.
Əgər o qoyulubsa,
Cümlə bitməyib hələ.

Yazı yazanda dost tək
Köməyimə gəlir o.
Cümlənin mənasını
Dəyişə də bilir o.

**1977**

## NİDA

Çox zaman cümlələrin
Sonunda olur nida.
Nöqtə üstündə duran
Dirəyə bənzər o da.

Sevinc, qorxu, həyəcan,
Təəccüb oyadır bizdə.
Onu görcək titrəyir
Ürək də, dil də, söz də.

**1977**

## SUAL

Sual bizim nidanın
Qocalığıdı bəlkə?
Beli tamam bükülüb,
Bir gör düşüb nə kökə?

Duruşu salır bizi
Çox zaman dikə, dağa.
Sözlərimi biçəcək? –
Bənzəri var orağa.

Yorulmur, hey soruşur
Deyingən bir qarı tək.
Ona cavab verməyə
Sözlər tapasan gərək…

**1977**

## SUAL, NİDA

Nidaya bax, sualla
O, yanaşı duranda,
Daha kəsərli olur
Deyilən sözlər onda.

**1977**

## TİRE

Bu tiredir, yazanda
O da işə yarayar.
İki defis alınar
Onu bölsən yarıya.

**1977**

## DEFİS

Mən tirenin yanında
Balacayam, körpəyəm.
Əks, yaxın mənalı,
Bir də təkrar sözlərin
Arasında körpüyəm.

**1977**

## APOSTROF

Mən də apostrofam,
Bənzəsəm də vergülə,
Oxşarlıq tapmazsınız
İşimizdə bir gilə.

Axı hər işarənin
Vardır öz vəzifəsi.
Uzun tələffüz elə
Yanımda olan səsi…

Of, of, apostrof,
Səni gözləyir
Katastrof…

**1977**

## DIRNAQ İŞARƏSİ

Sözlərin mənasını
Bəzən dəyişirəm mən.
Yaxşını sal dırnağa,
Fərqi olmasın pisdən.

**1977**

# LEKSİKA

## DİLİMİZİN SÖZLƏRİ

Elin də tarixi var,
Dilin də tarixi var.

İgid odur xalqının
Keçmişindən söz aça.
Dil – tükənməz xəzinə,
Məna – kilid,
Söz – açar…

Söz ləpədir, dalğadır,
Dil ümmandır, dənizdir.
Dilimizin sözləri
Müqəddəsdir, əzizdir.

Sözün hər çalarında
Həyatın sehri vardır.
Söz babaların bizə
Qoyduğu yadigrdır.

Halal ocağımızda
Közü qorumalıyıq.
Sözü yaşatmalıyıq,
Sözü qorumalıyıq.

Kim ki, sözü unutdu,
O, həyatda uduzdu.
Söz – dil kəhkəşanında
İşıq saçan ulduzdu…

**1991**

## KOĞA

Koğaya bax, koğaya,
Elə bil ki, çəlikdi.
Kim mənə kömək etsə,
Pay böləndə şərikdi.

Götür koğanı ələ,
Bağa gedək, ay Elçin!
– Koğa nəyə gərəkdir?
– Budağı əymək üçün.

– Niyə əyək budağı?
– İndi baxıb görərsən.
Mən budağı əyərəm,
Sən gilənar dərərsən.

**1984**

## HERİK ŞUMU

Payızda kotanla
Torpağa salıb iz,
Bu yeri şumlayıb,
Qoymuşuq dincə biz.

Herik şum qış boyu
Dincini alacaq.
Baharda səpinə
Yararlı olacaq.

**1991**

## SADAQ

Babam bərk hazırlaşır
Ox atmaq yarışına.
Baxıb heyran qalıram
Onun hər vuruşuna.

Yaydan üzülən oxlar
Düz hədəfə dəyir, bax.
O qədər atdı, atdı,
Tamam boşaldı sadaq.

Məndən xahiş elədi:
– Olum sənə sadağa!
Get oxları gətir yığ,
Ox qabına – sadağa…

**1991**

## DƏRYAZ

– Gəzir biçənəyi
Sənin baban hər yaz.
Gedir ot çalmağa
Əlində bir dəryaz

– Dəryaz nədir, nənə?
– Bıy, başıma xeyir.
Bilmir dəryaz nədir,
Bu uşaq nə deyir?

Ona kərənti də
Söyləyirlər, Araz.
Ay şəhərli oğlan,
Ot biçəndi dəryaz.

# QƏZİL

– Fırlatdım cəhrəni,
Əyirdim, nazildi.
Ancaq bu yun deyil.
– Bəs nədi?
– Qəzildi.

–Keçinin tükünə
Qəzilmi deyirlər?
– Hə.
– Ondan corabmı
Toxuyub geyirlər?

– Yox, –
Nənəm gülərək
Başını bulayır.
Qəzil yun deyil ha,
Adamı dalayır.

Ancaq biz onun da
Xeyrini görürük.
Qəzildən ya sicim,
Ya çatı hörürük…

**1991**

# SİCİM VƏ ÇATI

Onların ikisi də
Qəzildən hörülür, bax;
Sicim upuzun olur,
Çatı gödəkdir ancaq.

Odun, ot yükləyirlər
Sicimlə at-ulağa.
Çatı gərək nerqarın
Buzov ilə balağa.

Kim onların başını
Çatılayır, bağlayır,
Dopdolu məmələrdə
Özünə süd saxlayır.

**1991**

## XAMA VƏ QAYMAQ

– Bişiribdir nənəm fətir,
Xama gətir, qaymaq gətir.
– Qaymaq nədir, xama nədir?
– İkisi də el sözüdür.
Qaymaq bişmiş südün üzü,
Xama çiy südün üzüdür.

**1991**

## ÖRÜŞ

Yazda ot bollanacaq,
Çör-çöp də ballanacaq.
Quzum toğluya dönüb,
Örüşə yollanacaq.
Bu nə yaxşı örüşdü,
Otu boldu, genişdi.
Soruşdum: – Örüş nədir?
Hamı mənə gülüşdü.
Babam çeşməyi taxdı,
Dönüb üzümə baxdı:
– Məgər nəvəm bilmir ki,
Örüş geniş otlaqdı?

**1990**

## KİRKİRƏ

Sən qədim dəyirmansan,
İşlərsən qol gücünə.
Bir ovuc dən tökmüşəm
"Göbəyinin" içinə.
Nə getmisən fikirə? –
Fırlan, fırlan, kirkirə!

Üyünüb dönür una,
Səni fırlatdıqca mən –
Alt daşla üst daşının
Arasında qalan dən.
Dalğalar kimi kükrə,
Fırlan, fırlan, kirkirə!

**1990**

## TEŞİ

Fırlandıqca bu teşi,
Yunu əyirir, eşir.
Hörümçək tək hördüyü
Tordan tutub sallanır.
Əyirdiyi ip onun
Ortasına dolanır.
İşə salıb teşini,
Nənəm durub o başdan.
İp dolu çubuq bədən
Yoğundu koppuş başdan.
Zaman keçib, qocalıb,
Muzeyə düşüb teşi.
Maşınlar görür bir vaxt
Onun gördüyü işi.

## BADIŞ

– Toyuğun ayağında
Üzüyə bax, üzüyə.
– Heç belə də şey olar? –
Hamı güldü Həziyə.

– Üzük deyil, bəs nədir?
– Bax, əskidi, badışdı.
Çəpərdən aşıb gedir,
Çil toyuq çox nadincdi.

Biz bu əskini onun
Ayağına tikmişik,
Qonşunun toyuğuyla
Düşməsin tay-dəyişik.

**1986**

## DOVLA

Qışın bu vədəsində
Hardandı bu çiçəklik?
Çəmən bilib, dovlanın
Yanına qaçma, kəklik!

Qayıt, o çəmən deyil,
Ovçu quran dovladı.
Sözə baxmayıb getdin,
O da səni ovladı…

**1988**

## ƏRSİN, OXLOV VƏ SAC

– Kim bilir cavab versin:
Nəyə lazımdır ərsin?

– Bunu babə də bilir,
Çətin nə var ki, burda?
Ərsinlə doğrayırlar
Xəmiri xırda-xırda.

Kəndimizdə görmüşəm
O qəribə dəmiri.
Nənəm onunla kəsib,
Kündələyir xəmiri.

– Bəs onda oxlov nədi?
– Oxlov? – Kündəni yayan.
– Düzdür, sən sualıma
Cavab ver görüm, oğlan:

Söylə görüm sac nədi?
– Sac – çörək bişirəndi.
Doğru cavablarıma
Bir yuxa düşür indi?

– Düşür…
– Onda tez elə,
Nənənin yanına qaç.
De ki, xəmir eləyib,
Ocaq üstə assın sac…

**1988**

## AXUR

Axşamlar yorğun-arğın
Qayıdanda naxırdan,
İnəyin gözü gəzir,
Görsün nə var axurda?

– Axur nədir, ay baba? –
Eşitmirsən, cavab ver.
– İnəyin qabağına
Ot, ələf qoyulan yer.

Mənim ağıllı nəvəm,
Başa düşdünmü?
– Bəli.
Axur malın, inəyin
Boşqabıdır deməli…

**1987**

## CİRƏ

Başqa çarəmiz yoxdu,
Azdırsa azuqəmiz,
Cirəylə işlədərik
Əti, yağı, qəndi biz.

– Cirə nədir?
– Qənaət.
Adamlar az yeyirlər.
Azaldılmış, kəsilmiş
Paya cirə deyirlər.

## KƏRƏ-KÜRƏ

– Kərə qoyun tayın gördüm,
Kürəni görmək gərək.
– Kərə nədi, kürə nədi? –
Bilirsənsə de görək!
– Kürə – qulağı uzundu,
Kərə – qulağı gödək…

**1987**

## İLXI, NAXIR, SÜRÜ

– Sən kənddə yaşayırsan,
Gərək biləsən axı,
İlxı nədir, ay Tural?
– At sürüsüdür ilxı.

– Yaxşı, bəs naxır nədir?
– Dadlıdır inək südü,
Guya bilmirsən, naxır
Mal-qara sürüsüdü.

– Bəs onda sürü nədir?
– Sürü elə sürüdü.
Qoyun sürüsünə bax,
Otlaqları bürüdü…

– İlxıçı – at otaran,
Naxırçı – mal otaran.
Bəs qoyun otarana
Nə söyləyirlər?
– Çoban.

**1984**

## SƏLLİMİ

– Daha getmir naxıra,
Vurğun vursun Səlimi.
Neyləyək, inəkləri
Ötürürük səllimi.

– Səllimi nədir, nənə?
– Səllimi – özbaşına.
Kəndin dana-buzovu
Qalıb başlı-başına.

## QISIR

Nənəm ürəyini qısır,
İnəyimiz qalıb qısır.

Bu il bala verməyəcək,
Uşaqlar süd görməyəcək.

**1992**

## KEÇƏ

Gəlib çıxmışam yaylağa
Uzaq yollar keçə-keçə.
Babam quran alaçığın
Yanı palaz, üstü keçə.
Ondan çətin isti kecə,
Ondan çətin soyuq keçə...

**1994**

## DABBAĞ

Gəl gedək dabbağxanaya,
Baxaq dabbağın işinə.
O, dərini aşılayıb,
Döndərir gönə, meşinə.
– Nəyə gərəkdir gön, meşin?
– Bu nə sualdı, bir düşün.
Bil ki, dabbağ dəriləri
Nahaq yerə aşılamır
Əgər gön, meşin olmasa,
Çəkmə, kürk, plaş olarmı?

**1986**

## DƏC

Ağac dəc idi, ona
Toxunmamışdı bir əl.
Beş-altı alma dərib,
Dəci pozdu o dəcəl.

**1987**

## HERAĞAC-SAVA

– Lobyaların dibinə
Basdırdığım ağacdı.
Bu ləklərdə əkdiyim
Lobyalar herağacdı.

– Baba, herağac nədi? –
Sual verdi Təranə.
– Herağac söyləyirlər,
Qızım, həm tez əkilib,
Həm də tez bar verənə.

Bu lobyalar dən tutub,
Olar dərib bişirmək.
Təzə lobya əkmişəm
O tərəfdə iki lək.

Hələ şaxlamamışam,
Görürsən, təzə bitir.
Çəpərin dibindəki
O şaxları get gətir.

Şaxlayaq bu ləki də,
Xəbər ver uşaqlara.
Lobya sarmaşıq kimi
Sarınsın bu şaxlara.

Herağac sovulanda,
Bunlar açacaq çiçək.
Bu lobyalar savadı, –
Yəni gec bar verəcək…

## CIR-PEYVAS

Bir gün bağa gedəndə
Baba dedi Eyvaza:
– Kamil bağban, ay oğul,
Cır calamaz peyvasa.

Nəvə dedi: – Olarmı
Verim bir sual, baba?
Peyvas nədir, cır nədir? –
Məni başa sal, baba!

– Kiçik, turşməzə olur
Cır ağacın meyvəsi.
Peyvas alma dərəndə
Gəlir mənim həvəsim.

Ayıgilaslarını
Gilas eləmişəm mən.
Nə qədər cır ağacı
Peyvas eləmişəm mən.

Etdiyim peyvəndlərlə
Bəzəmişəm bu bağı.
İstəsən, öyrədərəm
Sənə calaq vurmağı…

**1983**

## MAĞAR, MAĞAL

Soruşdu ki, Təranə:
– Mağal nədi, mağar nə?
Dedi: – Qızım, yaxın gəl, –
Sözə başladı nənə:

– Elə ki, gün qızanda
Mal-qara, qoyun-quzu
Su üstünə yığıldı,
Qızım, bura mağaldı.

Söylə görüm həyətdə
Belə ev gördünmü sən –
Divarları xalçadan,
Dirəkləri dəmirdən?

Tellərinə gül-çiçək
Düzər qızlar, gəlinlər.
Mağarda toy çalınar,
Süzər qızlar-gəlinlər.

## YATAR

Bu torpağın qoynunda
Nə qədər nemət yatar.

Yeraltı xəzinəyə
Babalar deyib: yatar.

İnsan xəzinə tapsa,
Arzuya, kama çatar.

Uyuyan gözəlləri
Yuxusundan oyadar.

Xərclədikcə onları
Minarələr boy atar.

Şəhər salar, düzülər
Binalar qatar-qatar…

**1991**

## HOZƏKİ

A Zəki, a Zəki,
Hozəkisən, hozəki…
Səliqə-səhmanın yox,
Dağıdırsan, sökürsən.

Qaş düzəltdiyin yerdə
Vurub gözü tökürsən.
A Zəki, a Zəki,
Olma belə hozəki!

**1991**

## AZAN

Səhərlər verilir azan,
Qayıtsın yolunu azan! –
Dönüb ötən günə gəlsin,
Bir imana, dinə gəlsin!

**1994**

## MIĞMIĞA

İtil get, ay mığmığa,
Durma mənlə bığ-bığa!

## ŞƏFFAF

Çox təmizdi şəffaf özü,
"Bulanıqdı" şəffaf sözü.

**1995**

## SUAL-CAVAB

– Dağ nədi, aran nədi?
Şor nədi, ayran nədi?

– Dağ dağdı, aran aran,
Şor şordu, ayran ayran…

## DƏRZİ VƏ DƏRZ BAĞLAYAN

Altına qoyub dərzi,
İşə başladı dərzi.

Öz biçinçi dostunun
Köməyinə tələsdi.

Onun üçün bir qəşəng
Döşlük tikdi əlüstü…

**1992**

## SAPAND

O taydakı bağçada
Gör nə qədər qarğa var.
Üzümə dadanıbdır
Qara-qara qarğalar.

Babam bu tayda durub,
İşə salıb sapandı.
Onun atdığı daşlar
Çətin yana sapandı!

Ancaq məhəl qoymayır
Vızıldayan daşlara.
Çünki tamah güc gəlir
Ac-yalavac quşlara…

## BU CİNASLI ŞEİRLƏR, GÖR SƏNƏ NƏ DEYİRLƏR?

Acgözə bax, acgözə,
Nə verdik, dedi azdı.
Getdi çoxun dalınca,
Yazıq meşədə azdı…

***

Nə soruşsan, qara dinməz,
Adı qalıb qaradinməz.

***

Güldan düşdü, vay, sındı!
Anam baxıb vaysındı.

***

Bəsdir elədin vargəl,
Evdə hər bir şey var, gəl!

***

Elə ki dəydi vəl vələ,
Xırmanda düşdü vəlvələ.

***

Vecinə də almır heç
Nə çovğun, nə boranı.
Bostanın bir küncündə
Mürgüləyir boranı.

***

Bilmirsən şirin dilini?
İşə sal şirin dilini.

***

Evimdədi Gülgəzim,
Niyə çöldə gül gəzim?

***

Əynimdən düşdü fitə,
Məni basdılar fitə.

***

Əlində Novruzgülü,
Balaca Novruz gülür.

***

Avara bax, avara,
Qoyub məni avara.

***

Danışma mənimlə acıqla,
Qəlbindən nə keçir, açıqla!

***

Dayanmışam üzü yola,
Adım qalıb üzüyola.

***

Ağac idim, odun oldum,
Mən alovun, odun oldum.

***

Gürcü dostum əziz Otar,
Apar quzuları otar.

***

Söz deməmiş qız durdu,
Soyuq çayı qızdırdı.

***

Kim işləsə özbaşına,
Oyun açar öz başına.

***

Əgər bu qazanc mənimsə,
Oğulsan onu mənimsə!

***

Ata, nədənsə bu ay,
Gözə az göründü Ay.

***

Demirəm dürrəm, inciyəm,
Ancaq səndən mən inciyəm.

***

Dedim adım Aygüldü,
Sözlərimə Ay güldü…

***

Nəfəsini dərib sən,
Xeyli meyvə dəribsən.

***

Tutmaq üçün bu qurdu,
O tələni bu qurdu.

***

Əli boşdu, zərgərə,
Qızıl gərək, zər gərək.

***

Nə qorxaqdı bu ülkər,
Günəşi görcək, ürkər.

***

Xalça üçün pul azdı,
Pulum çatan palazdı.

***

Bu yarpızdı, o nanədi,
Yaxşı bilirəm nə nədi.

***

Danışma, ə, bəsdi,
Sözlərin əbəsdi.

***

Bu dünyada qafilə
Nə karvan, nə qafilə?

***

Nə içki, nə badə?
Nəbadə, nəbadə…

***

Nə olsun ki, su daşıyam,
Vedrəm var ki, su daşıyam?

***

Gözəl kənddi Ramana,
Qəlbim olub ram ona.

***

Xoş gəlmisən, salam, atam,
Gözün aydın, salamatam.

***

Hər yan dümağ, bəyazdı,
Cığır itdi, bəy azdı.

***

Hər bir dərdə var əlac,
Ona-buna az əl aç.

***

Get bazara, ay Hilal,
Bir az zəncəfil, hil al.

***

Qoru, qora üzüm olsun,
Pay almağa üzüm olsun.

***

Özün söylə, bürüncə
Nə geyim, nə bürüncək?

***

Sözün nədir mənə, Nadir?
Mənim tək dost olar nadir.

***

Həmişə geydiyi bezdi,
Yazıq bu paltardan bezdi.

***

Dopdolur çuval duzla,
Deşmə onu çuvalduzla.

***

Nigaranam Sərkardan,
Qoyub məni sərgərdan.

***

Düşmən yüzdü, səksəndi,
Məni gördü, səksəndi.

***

Yerə inci də sərsəm,
Görməyəcək bu sərsəm.

***

Danışınca qozu-qozu,
Çıx ağaca, çırp bu qozu.

***

Mərdə kəsin qarpız, qovun,
Namərdi qapıdan qovun.

***

Birinciyə gedir qızım, birincidi,
Aldıqları beşin biri bir incidi.

***

Gen dolanma, ay Nəsir,
Dost arasında nə sirr?

***

Elə iş gör, ay Elşad,
Sevinsin, olsun el şad.

***

Oxuyurdu birəbitdən:
Sürətlidir birə bitdən.

***

Bişirdiyim daşmada,
Ha qızdırdım, daşmadı.

***

Yer eşir, gəl-gəl deyir,
Buynuzsuz kəl kəl deyil.

***

Budaqda var sırğagülü,
Külək əsir, sırğa gülür.

***

Keçini biz aparsaq,
Söz olar, sən apar sağ.

***

Əgər səndə yoxsa yaddaş,
Elinə, obana yadlaş.

***

Nabələdə, xama,
Kimdi verən xama?!

***

Bekar gəzmə, işlə, qazan,
Boş qalmasın evdə qazan.

***

Mənə çevirdin arxa,
Gedib yıxıldın arxa.

***

Əlimdə var bir qaval,
Hünərin çatır qov, al.

***

Yeriyəndə yer əsərdi,
Hikkə onu yerə sərdi.

***

Elə ki, gördü şirə,
Qarışqa döndü şirə.

***

Bu oğlan çox ədəbazdı,
Çünki onda ədəb azdı.

***

Mənə deyirlər ayıdöşəyi,
Neyləyir axı ayı döşəyi?

***

İstəmirəm çığırtma,
Çil toyuğu çığırtma.

***

Belə deyir quşüzümü:
– Dimdikləyir quş üzümü.

***

Suyu töksən sərincə,
Saxlayacaq sərincə.

***

Tabaqda un qalınca,
Bişir kökə, qalınça.

***

Bu külüngdü, o beldi,
Bu kəmərdi, o beldi.
Qızıl tapa bilməzsən
Əgər qazmasan yeri.
Yeri, irəli yeri.
Qazıl, torpağım, qazıl,
Gül bitsin qızıl-qızıl.

***

Görə bilmir göz gözü,
Hər yan qara zülmətdi.
İşıqları söndürüb,
Yağı bizə zülm etdi.

***

Bu köhlən at cıdırda
Çətin əyilə, sına.
Mənə inanmırsansa,
Çap onu, özün sına.

***

Bizim bostanımıza
Divan tutub sağsağan.
Dimdik-dimdik eləyib,
Qalmayıb bir sağ soğan.

***
Yuxudan duran kimi
Bizim kiçik Tamaşa,
Həngamə qoparacaq,
Başlanacaq tamaşa.
***
Bu meyvəni o çardaqdan
Mən asmadım, anan asdı.
Xahiş elə versin yeyək,
Yaman dadlı ananasdı.
***
Bağçada görüb qaraltı,
Kəlin gözləri qaraldı.
Əlimdəki dəyənəyi
Görüb, qorxudan kəl əsər.
Yetişib şipşirin olar
Tənəyin üstə kələsər.
***
– Bu nədir bişirmisən?
– Qurudlu kələcoşdu.
Bir boşqab çəkdim, yedi,
Sevindi, kələ coşdu.
***
Daş divardan qopan deyil,
Hara qoysan qalasıdı.
Bu, babaların hördüyü
Xocamsaxlı qalasıdı.
***
Mişarlar düşdü işə,
Ağacdan çəkdik taxta.
Usta əlləri dəydi,
Taxta çevrildi taxta.

***

Boz ay, bəsdi bozardın,
Çıx get, gəlsin yaşıl ay.
Çöllər, düzlər, yamaclar
Qoy bürünsün yaşıla.

***

Yayam, yayam, yayam mən,
Bir çəkili yayam mən.
Çiçəklərin ətrini
Gərək elə yayam mən.

***

Qanmaza ya otaq, ya dam,
Duyğusuz kəslərə yadam.
Ürəyimə bir od düşüb,
Çətin ki, uyuyam, yatam.

***

Mənimçün əzizdi o dam,
Taxtadan tikilib odam.
Orda necə yaşayacam,
Axı mən yanar bir odam?

***

Havayı tökdüm o təri,
Gül əkdim səndən ötəri.
Üzünü döndərib getdin,
Dostluq olarmı ötəri?

***

Yadellilərə
Sinəni sən gər.
Düşmən önündə
Yaransın səngər.

***

Bişirmişəm xaşlama,
Xoşlamırsan xoşlama…

***

Göylər necə aydındı,
Ulduz güldü, ay dindi.
Səni başa düşmədim,
Sözlərini aydın de!

***

Neçə gündü bostanı
Buraxmısan başına.
Könlü yemiş istəyən
Dolanar tağ başına.

***

Öpdüm səni barışaq,
Yaxın gəl, incik balam.
Adam küsəyən olmaz,
Mənim gəlincik balam.

***

Lovğalanma, ay təkə,
Gəl döyüşək tək-təkə.
Sən qoçaqsan, mən qoçaq?
Sən təkəsən, mən qoçam.

***

Ananın sözlərindən
İncimisən sən əbəs.
Deyir dəcəllik etmə,
Nə söyləsin sənə bəs?

***

Qənd yeyir Qəndab bala,
Di axtar, qənd tap, bala.
O qədər qənd yeyib ki,
Batıbdır Qəndab bala.

***

Uşaq vaxtı şah idim,
Heyf, yoxdu şahidim.

***

Təmir edir saatları,
Mənim atam saatsazdı.
Onun əli dəydi, demək
İşləyəcək, saat sazdı.

***

Şamaxıda bir çay var,
Durub baxsan bir saat.
Səni məftun edəcək
Dağlar qızı Pirsaat.

***

Qoy yesin şirin-şirin,
Quzuya qıyaq otu.
Körpə əmlik otlasın
Bu körpə qıyaq otu.

***

Üstü dolu nar ilə,
Əyilib nar qanadı.
Biri qırılıb düşdü,
Əzildi, nar qanadı.

***

Çiçəklərin gözündə
Neçə şehli gilə var.
Qurut o göz yaşını,
Giləvar, ay giləvar.

***

Dostum, bir dön bəri bax,
Gözəldimi bizim bağ?
Gilas verim gəl sənə,
Nə durmusan, gəlsənə!…

***

– Ə, bu nəçidi?
– Abunəçidi.

***

Tülkünün ayaq izi
Qapımızda rədd oldu.
Toyuğu çırpışdırıb
Başımızdan rədd oldu.

***

Əl uzatdım dərəm onu,
Dedim yaxşı qanqaldı.
Tikanı batdı əlimə,
Yarpağında qan qaldı.

***

– Tapan kimi girəvə,
Qapını aç, gir evə!
– Boyun var bircə qarış,
Get öz işinə qarış.

***

Sözü deyəndə açıq,
Niyə edirsən acıq?
Yemək hələ bişməyib,
Axı hamımız acıq?

***

Bu nə yaxşı güldandı,
Gülün yeri güldandı.
Balam güllərə baxdı,
Güllüyünü gül dandı.

***

Bir daş atsan ayna gölə,
Çiliklənər, su da sınar.
Oraq zəmini biçəndə,
Su səhəngi suda sınar.

***

Özün üçün axtar iş,
Faydalıdı axtarış.

***

Gəl sən də bax, Narın, Narın,
Yağış yağır narın-narın.
Üstünün tozu, torpağı
Yuyulur almanın, narın…

***

Çıxsa yaxşı bir
İş güzarına,
Dönərsən əsrin
İşgüzarına…

***

Heç bilmirəm
Hayandayam,
Öz başımın
Hayındayam…

***

Dedi:
– Gözlərimdən itil! –
İti çölə
itələdi.
Küçüynü qapısında
İt elədi…

***

Dəyirmanda göz dikmədim
Öz dənimdən artıq una.
Ehtiyacım yoxdu mənim
Onun-bunun artığına.

***

Qaş-qabağını tökdü,
Əvvəl məni qısqandı.
Bir azca keçən kimi
Öz səhvini qız qandı…

***

Çayda axır su iti,
Üzə bilmir suiti.

***

Əti doğra qıyma-qıyma,
Bişir mənə dadlı qıyma.
Əllərinin bəhrəsini
Dosta ver, düşmənə qıyma.

***

Bir səbəb olmadan
Yar atmaq olmaz,
Qəlbdə eşq olmasa,
Yaratmaq olmaz.

***

Bu gün bilik günüdür,
Dərsin bil, ilk günüdür.

***

Baş – komandir, əl – əsgərdi,
Bunu deyən Ələsgərdi.

***

Əgər olsa Vətən daşlıq,
Nəyə dəyər
Saxta, quru vətəndaşlıq?

***

Kim elimə buyurdu,
Abad gördü bu yurdu.

***

Bir ağsaqqal buyurdu,
Kim qarğıyıb bu yurdu?

***

Gəl iş görək mişarla,
Get taxtanı mişarla!

***

Mənim tutum qurudu,
Matım-qutum qurudu.

***

Verib durma əl əngə,
Ələngəsən, ələngə.

***

Fikirləşməyə
Sən də tap macal.
Qoy düşündürsün
Səni tapmaca.

***

Ulu yurd yerim –
Azıx.
Kim deyir ki,
Biz azıq?!

***

Baş açmaq olmur havadan,
Xəzri dönür giləvara.
Ora-bura baş əyməkdən,
Qalıb neçə gül avara.

***

O çətin ki, tapa xeyir,
Nə soruşsan deyir: – Xeyir!

***

İllər boyu eylədikcə
Göyə zənn,
Bir əlçatmaz dağa dönüb
Göyəzən.

***

Belə deyir hörümçək:
– Sənə torba hörüm, çək!

***

Bu gülləri, ey, bəcər,
Adam olmaz eybəcər…

***

Bu adamın ürəyində
Tamah kordu, tamah kardı.
Gözləri heç nədən doymur,
Tamahkardı, tamahkardı..

***

Söylə nə vaxt məktəbə
Gedəcəyəm, anacan?
Bilmirəm gələcəkdir
Gözlədiyim an haçan?

***

Ata güllə ata-ata,
Atıcı olmuşam, ata!

***

Camış yemir diri-diri,
Cavanşirin cavan şiri. –
Bu doğruçu şir deyil ha,
Danlamayın Cavanşiri.

***

Yol kəsəkdi, yol daşdı,
Təmizləyək yoldaşlı.

***

Uşaqlar topa-topadır,
Uşaqlar bir-birinə
Top atır…

***

Qanadın sınsın,
Ağcaqanad.
Üz-gözümü
Azca qanad.

***

Bağımızda ən uca
Ağacdır yaşıl qovaq.
Əli baltalıları
Gərək həyətdən qovaq.

***

Yuxum oldu
Bildir çin! –
Tutdum bir kök
Bildirçin.

***

Pişiklər güllükdə
Gül eşir,
Pişiklər güllükdə
Güləşir…

***

Taxta novda su vardı,
Ramiz atı suvardı.

***

Bir bax, çayın içində
Var nə qədər daş ada.
Sular nəğmə oxuyur
Torpağa da, daşa da.

***

Bəsdir yığdıq göbələk,
Yorulmuşam, gəl bölək!

***

Mehriban bir nənə kimi
Ulduzları Ay əzizlər.
Deyər: – Mənə yaxın gəlin,
Ay doğmalar, ay əzizlər!

***

Götürməklə kök ələ,
Arıq çətin kökələ!

***

İstəmirsən yumruq, dürtmə,
Burnunu hər yerə dürtmə!

***

Danışınca qaba-qaba,
Get meyvəni dər, yığ qaba.

***

Danışınca qozu-qozu,
Çıx ağaca, çırp bu qozu.

***

Su çatmadı bu ləkə,
Xiyara düşdü ləkə.

***

Yemirəm süzmə,
Qatığı süzmə!

***

Yal verməsən küçüyə,
Qaçıb gedər küçəyə.

***

Bir vaxt onu sel ovdu,
İndi adı selovdu.

***

Bilən kimi darıdı,
Quş zəmiyə darıdı.

***

Şoru qurut,
Olsun qurut.

***

O çaynik, o çaydan,
Süz içək o çaydan.

***

Balaca Gülər,
Nə desən, gülər.

***

Vedrə verdi Güllərə,
Su daşıdı güllərə.

***

Mənə vermir Süsən dən,
İncimişəm Süsəndən.

***

İncitmə, bacı, bacını!
İncitməz bacı bacını…

***

Üz gözünü bozartma,
Bişirmişəm bozartma.

***

Stəkanım armudu,
Mən sevirəm armudu.

***

Su kükrəyir, su daşır,
Yomalayır su daşı.
Nə durmusan, ay Gülzar,
Ağaclara su daşı.

***

Ata, domna peçində
Neyləyir ki, o dəmir?
Polada dönmək üçün
Elə bil ki, od əmir.

***

Çaya çevirib arxa,
Rövşən yıxıldı arxa.

***

Üzümə bax, üzümə,
Sanki gülür üzümə.

***

Ağıla bax, ağıla,
Pəyə deyir ağıla.

***

Dənizdəki adalar,
Təzə-təzə ad alar.

***

Görəndə güllü yazı,
Yazırdı Güllü yazı.

***

Şəkər də qatsan bala,
Ondan şirindir bala.

***

Gedirəm bağa sarı,
Yarpaqlar sarı-sarı.

***

İşinə vermə ara,
Get özünə dost ara.

***

Dörd tərəfə yel əsir,
Vermək olmaz yelə sirr.
Ağacların budağı,
Hədələyir bu dağı.

***

Balaca bacım Şirin,
Bal yeyir şirin-şirin.

***

Tikan gətir bir vələ,
Səni mindirim vələ.

***

Dərslər yetişdi sona,
Evə qayıtdı Sona.

***

Od deyilməz hər qora,
Üzüm sayılmaz qora.

***

Sərginin qırağından
Elşad quşları qovur.
Deyir ki, əvəzində
Mənə qovurğa qovur.

***

Kim açıbsa torbanın
Ağzındakı düyünü.
Plov bişirmək üçün
O aparıb düyünü…

***

Bulağı tapdım axır,
Gör nə qəşəng su axır?!

***

Göylərdə şimşək çaxır,
Haramdı, içmə çaxır.

***

Çərşənbə yetişəndə
Qalayardıq ocağı.
Hamı şənlik edərdi,
Kim unudar o çağı?!

***

Tok yoxdur, yandır şamı,
İşıqda yeyək şamı.

***

Oda atsan odunu,
Kim söndürər odunu?!

***

Fikir vermə o çaqqala,
Üşüyürsən, ocaq qala!

***

Bir sehrli açaram,
Kilidləri açaram.

***

Çox dadlıdı soyutma,
Ye, a bala, soyutma!

***

Ay Əminə, Əminə,
Dur çay gətir əminə.

## YALAN

Dediyindən utandı,
Üz-gözündən tər getdi.
Bu qız yalan deməyi
Birdəfəlik tərgitdi…

## ƏLAQƏ

Aramızdakı
Əlaqə dardı, –
Bəs bu nə ilə
Əlaqədardı?!

## PAYA

Göz diksən özgə paya,
Başına dəyər paya!

## GÜNƏŞ

Elə bil gülümsəyib,
Üfüqlərdə o yandı.
Yatanların hamısı
Yuxusundan oyandı…

## BAL BALA

– Dodağını büzmə gəl,
Şəkər bala, bal bala.
– Anacan, bal ver yeyim,
Qoy qarışsın bal bala…

## GÜLDAN

Bu nə qəşəng güldandı,
Gülün evi güldandı.
Balam güllərə baxdı,
Güllüyünü gül dandı.

## GÜL

Göy çəməndə gül "daşır",
Qalxıb örtüb gül daşı.
Sən də gəl qucaq-qucaq
Dostlarına gül daşı…

## ŞEH

Aydınlıq gecələrdə
Qonaq gəlib şeh gülə.
Şəfəqlərin altında
Gül danışar, şeh gülər…

## KİM HAQ VERİB

Kim haq verib küləyə,
Çiçək qıra, gül əyə?

## GÜNƏBAXAN

Məni əkib becərən
Balacaboy cırtdandı.
Quşların dimdiyində
Tumum bir-bir çırtlandı.

## İKİ QORXAQ

Qabağına it çıxdı
Qayıdanda sahildən.
Sahil köpəkdən qorxdu,
İtsə qorxdu Sahildən.

## BULAMA

İnəyimiz doğubdur,
Bişiriblər bulama.
Ancaq ehtiyatlı ye,
Üst-başını bulama.

## BU DA BAHAR

Hələ qar əriməyib,
Quzum tapsın ot harda?

Kövşənlərdə ot azdı,
Yağış yağa, ot arta!

– Bu da bahar, quzunu
Apar çöldə otar da!

## ÇİM

Deyirsən su dayazdır,
Çəmənlikdən kəsib çim,
Kiçik arxın önünü
O çimlərlə kəsib, çim!

## İTİN KÜÇÜYƏ NƏSİHƏTİ

Yaşamaq istəyirsən hürr,
Hür, hür, hür…

## TƏNBƏLİN NƏSİHƏTİ

Sənə versələr sual,
Dinmə, ağzına su al.

## XALÇA

Təmizlə döşəməni,
Aç, yerə döşə məni.
Tozlansam, çubuq ilə
Döy məni, döşə məni.
Atma mənim üstümə
Körpəni, döş əməni.

## CÜCƏ

– Ay lümək cücəm, cib-cib,
Dən ilə doludur cib.
Çağırıram bir kəlmə,
İstəmirsən heç gəlmə…

## QALMAQAL

Qışqırdılar:
– Qalma!
– Qal!
Düşdü yaman
Qalmaqal…

## ƏKİN, SƏPİN, BİÇIN

Daşıdıq kür-küləşi,
Gəlin yeri əkin di!
Ay traktorçu qardaş,
Sənin işin əkindi.

Şumlamışam torpağı,
Toxum gətir, səp indi.
Bilirsən ki, əkindən
Sonra gələn səpindi.

Zəmi çıxıb qurşağa,
Vağamlayıb, biçin di!
Kombaynçı qardaşım
Sənin işin biçindi…

## RƏDD OL

– Mən səndən incimişəm.
– Niyə?
– Dedin ki, rədd ol.
Pis söz deməmişəm ki,
Demişəm iz ol, rədd ol…

# “Böyük arzuya gedən yol”, “Günlərimiz, aylarımız”, “Yaddaş kitabı”ndan

Əziz balalar! Yəqin ki, “Böyük arzuya gedən yol”, “Günlərimiz, aylarımız” kitablarını xatırlayırsınız. Müəllimlərin, kitabxana işçilərinin, eləcə də sizin arzu və istəklərinizi nəzərə alıb əsərin üstündə yenidən işlədik, onu təkmilləşdirməyə çalışdıq. Beləliklə, bu kitab yarandı. İnanırıq ki, ilin əlamətdar günlərinə həsr olunan şeirlər xoşunuza gələcək, onların həsr olunduğu tarixi günləri heç zaman unutmayacaqsınız. Əslində bu kitab şeir kitabından çox poetik yaddaş kitabıdır.

Arzu və təkliflərinizi bizə göndərməyi unutmayın.

Qəlbi təmiz olanların
Sözünü Haqq eşidir.
Ulu Tanrı, yar ol bizə,
İşimiz haqq işidir…

## ALLAHIM

Allahım, sən olmusan
Əzəldən pənahımız.
Pərən-pərən düşmüşük,
Nə idi günahımız?

Qaçqınların harayı
Göylərə bülənd olub.
Müqəddəs yurd yerimiz
Kafirlərə kənd olub.

Qudurub qəvi düşmən,
Bizə yar ol, Yaradan!
Anaların qəlbini
Sağalt dərddən, yaradan.

Yetmir köməyimizə
Daha səbr, hövsələ.
Allahım, yurdumuzu
Bəlalardan hifz elə…

## ORUCLUQ BAYRAMI

On bir ayın soltanı
Ramazanım xoş gəlib.
Gözəl günlər yaşamaq
Bəxtimizə tuş gəlib.

Ulu Tanrım, çin olsun
Arzumuz, niyyətimiz!
Bizi xoşbəxt eləsin
Ülvi məhəbbətimiz!

Kim ki Sənin yolunda
Oruc tutub, şad olur.
O adam xoşbəxtdi ki,
Nəfsindən azad olur.

Qəlbimizdəki sevgi
Sel tək kükrəyir, daşır.
Gözü tox olan kəslər
Tanrıya yaxınlaşır.

İnsana yaraşarmı
Tamahına qul olsun?
Qəlbi saf olanların
Orucu qəbul olsun!

## QURBAN BAYRAMI

Allah yolunda xərclə
Dövlətini, malını.
Ürəyindəki iman
Nurlandırar yolunu.

Mərhəmətlidi Tanrım,
Günahlardan keçəndi.
O yaxşıları pisdən
Arayandı, seçəndi.

Əsirgəmə malını,
Qəlbində xoş əməl tut.
Sən acları doyuzdur,
İmkansızlara əl tut.

Yaradan qəlbimizə
İlahi nur eləsin!
Verdiyimiz qurbanı
Allah qəbul eləsin!

**1 Yanvar – Təzə ilin ilk günü**

## TƏZƏ İL

**Musiqisi Cavanşir Quliyevindir**

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə,il.
Uğurlu qədəminlə
Ömrümüzü bəzə, il.

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Közlərə işıq gətir.

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim!
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
Sevənlərin qəlbində
Arzular çiçək açsın…

**20 Yanvar – Şəhidlər Günü**

## ŞƏHİDLƏR XİYABANI

Şəhidlər xiyabanı –
Müqəddəs and yerimiz.
Mərmər daşlara hopub
Bayatımız, şeirimiz.

Bizə güllə dəyəndə
Bu torpaq yaralanıb.
Onun sinəsi üstdə
Məzarlar sıralanıb.

Mərdləri qorxutmayıb
Namərdlərin gülləsi.
Hər qəbir – azadlığa
Gedən yolun pilləsi…

Əlimizdə qərənfil,
Dilimizdə haqq sözü.
Bu günahsız millətə
Kömək olsun haqq özü!

Hər baş daşı çevrilib,
Şərəf, qeyrət büstünə.
Bir güllə qoyulubdur
Hər məzarın üstünə.

İgid oğullarımız
Cərgə ilə keçirlər.
Məzarların önündə
Diz çöküb, and içirlər.

Gülləleri götürüb,
Döyüşlərə gedirlər.
Günahsız qurbanların
Ruhunu şad edirlər.

Şəhid məzarlarından
Gedən odlu güllələr,
Düşmənlərin başına
Alov saçar, kül ələr.

Geri dönər Xocalı,
Geri qayıdar Şuşa.
Şəhid ruhu şad olar,
Dönər bir qızıl quşa.

Qarabağ torpağının
Üstündə uçar, uçar.
Hamımızın qəlbində
Arzular çiçək açar…

**1992**

## ŞƏHİDLƏR XİYABANI

Şəhidlər xiyabanı
And yerimiz olubdur.
Gözlər yaşla, ürəklər
İftixarla dolubdur.

Qəhrəmanlar önündə
Dayanıb and içərik.
Lazım gəlsə, el üçün
Biz də candan keçərik.

Üzülməsin analar,
Üzülməsin gəlinlər.
Heç zaman unudulmaz
El yolunda ölənlər…

**26.01.2008**

## 2 Fevral – Gənclər Günü

### GƏNCLİK

Ömrün çiçəkli
Bağıdı gənclik.
Həyatın gözəl
Çağıdı gənclik.

Açmayan gülü
Dərmək olarmı?
Gəncliyi yelə
Vermək olarmı?

Gənclik bənzəyir
Kükrəyən selə.
Gənclər dayaqdı
Vətənə, elə.

Qəlbində sevgi
Çağlayan kəsi,
Nə top qorxudur,
Nə qılınc kəsir.

Qəlbi sevgiylə,
Eşqlə doludur.
Gənclik vətənin
Vuran qoludur.

Odur qoruyan
Yurdumu yaddan.
Gənclik illəri
Çıxarmı yaddan?!

## 2 Fevral – Su, Batlaq Günü

### SU

Möcüzələr yaradır
Həyatda hər damla su.
Çiçək olub açılır
Yağışın hər damlası.

Su olmasa, quruyar
Kollar, güllər, ağaclar.
Gün altında qovrular
Çiçəklənən yamaclar.

Bir həyat çeşməsidir
Çaylar, göllər, bulaqlar.
Su olmasa neyləyər
Balinalar, balıqlar?

Gün altında bərq vurur
Şehlə dolu lalələr.
Yurduma yaraşıqdır
Çağlayan şəlalələr.

Susuz qəribsəyərdi
Meşələr, dağlar, düzlər.
Dünyamıza bəzəkdir
Okeanlar, dənizlər…

## 8 Fevral – Azərbaycanın ilk peykinin orbitə buraxıldığı gün

### BİZİM PEYKİMİZ

Şükürlər olsun
Bizim peykimiz,
Yerdən göylərə
Uçdu ley kimi.

Ulduzlu göydə
Quş tək səkir o.
Torpağımıza
Keşik çəkir o.

Ucadan baxır
Vətənimizə.
Odur tanıdan
Vətəni bizə.

Ona çatmazsan
Təyyarələrlə.
Qonşuluq edir
Səyyarələrlə.

Sanma ki, adi
Kiçik ulduzdu.
O, göyə qalxan
Yumruğumuzdu.

Vətənimizin
Görən gözüdü.
Ocağımızın
Qaynar közüdü.

O bizim üçün
Şərəfdir, şandır.
Göylərdə uçan
Azərbaycandır.

## 11 Fevral – Vergi İşçiləri Günü

## VERGİ VƏ BÜDCƏ

– Vergilərdən gələn pul
Yaradır büdcəmizi.
Sonra da il uzunu
Yaşadır büdcə bizi.

– Büdcə nədir, ay baba?
– Yenilməz qüdrətdir o.
Xalqın xəzinəsinə
Toplanan sərvətdir o.

Xərcləyirik o pulu
Yaratmağa, qurmağa.
Doğma vətənimizin
Keşiyində durmağa.

Elin xəzinəsindən
Bəhrələnmir de, kimlər? –
Alimlər, mühəndislər,
Müəllimlər, həkimlər…

Vergiylə ölkəmizin
Artır gücü, qüdrəti.
Qoymayaq ki, tükənsin
Yurdumuzun sərvəti.

Damcılar birləşəndə
Bir qüdrətli sel olar.
Atalar söyləyib ki,
Dama-dama göl olar…

**22 fevral – Avtomobil Yolu İşçiləri Günü**

## YOLÇƏKƏNƏM, YOLÇƏKƏN

Yurdumuzun yolları
Gözəlləşir günbəgün.
Ən ucqar kəndlərin də
Bəxtinə doğulub gün.

Yol olmasa neyləyər
Bu qədər avtomobil?
Yol həyatdı, yollarsız
Yaşamaq mümkün deyil.

Həmişə tapdansa da,
Yol dillənmir, yol susur.
Yollar yola gətirir
Neçə-neçə yolsuzu.

Elə bil ki, bir çaydı,
Elə bil ki, axır o.
Körpülərdən adlayıb,
Zirvələrə qalxır o.

Xeyir-bərəkətlidi,
Elləri yol saxlayır. –
Şəhərləri, kəndləri
Bir-birinə bağlayır.

Yolçəkənəm, yolçəkən,
İşimdən zövq alıram.
Daşları parçalayıb,
Dağlara yol salıram.

Yaradanın, quranın
Öyünməyə haqqı var.
Qabarlı əllərimə
Heykəldi hamar yollar…

**21 Fevral – Beynəlxalq Ana Dili Günü**

## ANA DİLİ

Ana dili. Ana dili,
Hikmət dili, məna dili!
Hər ləhcəsi, şivəsi bal,
Dinlə onu, xəyala dal.
O dil ana kimi əziz,
Hər kəlməsi şəffaf, təmiz!
O, sel kimi axa bilir,
Şimşək kimi çaxa bilir.
Qürbət eldə vətəndir o,
Köməyimə yetəndir o.
Birləşdirən bizi odur,
Ocağımın közü odur!
Bu dil nəfəsim, canımdır,
Bütöv Azərbaycanımdır.
Bu dil solmayan çiçəkdir,
Keçmiş, indi, gələcəkdir.
Ana dili varsa əgər,
Bizimlədir hər an zəfər…

## 26 Fevral – Xocalı Soyqırımı Günü

### XOCALI

Qarlı qış günü
Bax dəstə-dəstə,
Tanklar yeridi
Şəhərin üstə.

Göydən yağış tək
Güllə ələndi,
Bəmbəyaz düzlər
Qana bələndi.

Durduq ölümlə
Nəfəs-nəfəsə,
Aman vermədi
Düşmən heç kəsə:

Nə qədər ömrə
Nöqtə qoydular,
Bu körpələrə
Necə qıydılar?

Qan çanağına
Döndü Xocalı,
Tonqal tək yanıb
Söndü Xocalı.

Bir gözəl şəhər
Çevrildi külə,
Axdı gözlərdən
Yaş gilə-gilə…

Bu ağrılara
Mən necə dözüm?
Yarəb, hər şeyi
Görürsən özün!

Rəhm etmədilər
Gəlinə, qıza,
Qaniçənlərə
Özün ver cəza!

Bu qədər qəddar
Olarmı insan?
Yerdə qalmasın
Tökülən bu qan!

Gendən baxanda
Bilinməz bu dağ.
Ürəyimizdən
Silinməz bu dağ!

**2 Mart – Azərbaycan Respublikasının BMT-nin üzvlüyünə qəbul edildiyi gün**

## ÖLKƏLƏR ARASINDA

Qovuşdum azadlığa,
Yandı tale ulduzum.
Dəyişdi başdan-başa
Yurdumuzun görkəmi.
Bayraqlar arasında
Dalğalanır bayrağım,
Ölkələr arasında
Öz yeri var ölkəmin…

## 5 Mart – Bədən Tərbiyəsi və İdman Günü

## AZƏRBAYCAN İDMANI

Bizim idmançılara
Hamı ümid bəsləyir.
Vətən eşqi onları
Zəfərlərə səsləyir.

Azərbaycan övladı
Pələng kimi yarışır.
Azərbaycan oğluna
Qalibiyyət yaraşır.

Biləyində el gücü,
Ürəyində fərəhdi.
Sağlam yaşamaq üçün
Bizə idman gərəkdi.

İgidlərimiz varsa,
Sönərmi çırağımız?
Dünyanın hər yerindən
Gəlir xoş sorağımız.

Qəlbimizi titrədir
Qalibiyyət nidası.
Zəfər marşına dönür
Himnimizin sədası.

Uzaq ellərdən gəlir
Yurdumuzun sorağı.
Zirvələrə ucalır
Azərbaycan bayrağı…

**8 Mart – Beynəlxalq Qadınlar Günü**

## MƏNİM ANAM

Hər gülün öz təravəti,
Hər çiçəyin öz ətri var.
Mənim mehriban anamın
Nəfəsində yaz ətri var.

O güləndə qəlbim gülür,
Artır yaşamaq həvəsim.
Gəz dünyanı qarış-qarış,
Anamın yoxdur əvəzi.

Ürəyi safdır, təmizdir,
Bulaq kimi durudur o.
Evimizin yaraşığı,
Gözümüzün nurudur o.

O bizə layla çalanda
Adamın yuxusu gəlir.
Ana əli dəyən yerdən
Gül-çiçək qoxusu gəlir.

Yanaqları elə bil ki,
Təzə açılan çiçəkdi.
Anam hamıdan gözəldi,
Anam hamıdan qəşəngdi…

## LAYLANLA DÜNYAYA NUR ƏLƏNİBDİR

Gecələr yatmayıb bir keşikçi tək,
Anacan, mənimçün layla çalmısan.
Qəlbində arzular açıb gül-çiçək,
Sən bu arzulardan qüvvət almısan.

Bilirəm, dolduqca mən boya-başa,
Qəlbində arzular qönçələnibdir.
Yaşa, əziz ana, səni yüz yaşa,
Nəğmənlə dünyaya nur ələnibdir…

## 21 Mart – Novruz Bayramı

## NOVRUZUM

Novruzum, ay novruzum,
Gəl ərit qarı, buzu.

Çiçəkləsin ağaclar,
Yaşıllaşsın yamaclar.

Bir nəlbəki səməni,
Xatırlatsın çəməni.

Şamlarımız yansın gur,
Hər yana ələnsin nur.

Gözəlləşsin meşələr,
Açılsın bənövşələr.

Çölləri tutsun ətir,
Xeyir-bərəkət gətir!

## NOVRUZ GƏLİR

Evdə novruz şamları
Ulduzlar tək sayrışır.
Bayram edir el-oba,
Küsülülər barışır.

Yaraşıqlı xonçalar
Süfrələri bəzəyir.
Göz oxşayan səməni
Yaşıl şama bənzəyir.

Novruz gəlir yurduma,
Ağaclar çiçək açır.
Tonqalların şöləsi
Qaranlıqda nur saçır…

**2012**

## 23 Mart – Sinoptiklər Günü (Hidrometroloji proqnozlar günü)

## HAVA NECƏ OLACAQ

Sinoptiklər əvvəldən
Xəbərdar edir bizi:
– Sabah yağış yağacaq,
Tutqundur göyün üzü.

Yoxsa biz nə bilərdik
Hava necə olacaq?
Uçuşan buludların
Gözü nə vaxt dolacaq?

Əvvəldən bilərdikmi
Qar yağacaq, ya dolu?
Leysanmı ələnəcək,
Selmi basacaq yolu?

Göydəki buludların
Gözündə gilə varmı?
Hansı külək əsəcək,
Xəzrimi, giləvarmı?

Hava necə olacaq? –
Soyuqmu, ya bürkümü?
Nazik paltar geyinim,
Yoxsa qalın kürkümü?

Güllər solar, buludlar
Boşalmasa, dolmasa.
Yəqin çaşbaş qalardıq
Sinoptiklər olmasa.

Əvvəldən biliriksə
Yağış olacaq, quraq,
Gərək işlərimizi
Havaya uyğun quraq…

**31 Mart – Azərbaycanlıların Soyqırımı Günü**

## SOYQIRIM

Düşmən deyib düşmənə:
"Bu milləti qoy qırım!
Bizdən olmayanlara
Dərs olacaq soyqırım!

Ciyərini parçala,
Gözlərini oy türkün!
Nəsli-kökü kəsilsin
Yer üzündən qoy türkün." –

Bu "məzlum" xalq həmişə
Zülm eləyibdir bizə...
İllər, əsrlər boyu
Kül üfürübdür gözə...

Bu "hay" oğlu "hayların"
Səsinə hay veriblər.
Kəsib torpağımızdan
Onlara pay veriblər.

Günahsız insanların
Selə dönübdür qanı.
Məzlumları üyüdüb,
Cinayət dəyirmanı...

"Hay" həyasız-həyasız
Qaramıza deyinib.
Etdiyi cinayətlə
Fəxr eləyib, öyünüb...

...Analara göz yaşı
İçirməkdən zövq alıb.
Körpələri nizəyə
Keçirməkdən zövq alıb...

Unudub qəvi düşmən,
Türklərə gülmək olmaz.
Tarixdən xalqımızın
Adını silmək olmaz.

Türkün bayrağı uca,
Türkün qılıncı iti.
Heç kəs məhv edə bilməz
Belə qadir millәti.

Bizim tək qəlbi yuxa
Xalq yoxdu yer üzündə.
Dönməz əqidəsindən,
Türk bütövdü sözündə.

Bizə dost olanların
Başına tac qoyarıq.
Bizə xor baxanların
Gözlərini oyarıq.

Heç vaxt qoymarıq sola
Biz azadlıq gülünü.
Göylərə sovurarıq
Düşmənlərin külünü…

**2 Aprel – Beynəlxalq Uşaq Ədəbiyyatı Günü**

## NAĞIL ÇƏMƏNZARI

Bu gün "Qar kraliça"nı
Yazan Andersen doğulub.
Yəqin xoşunuza gəlib
Sizin "Düyməcik" nağılı?

"Vəhşi qu quşları" necə?
Bəs "Çirkin ördək balası"? –
Əkdiyi sənət gülləri
Heç zaman deyil solası.

Onun nağıl çəmənzarı
Həmişə ətir qoxuyur.
Yazdıqları əsərləri
Bütün uşaqlar oxuyur.

Ömrü nağıl olan insan
Nağıl yazmaqdan doymayıb.
Ancaq heç vaxt  uşaqları
Uşaq yerinə qoymayıb.

Onu bu qədər ucaldan
Qəlbindəki məhəbbətdi.
Uşaqları sevindirmək
Xoşbəxtlikdi, səadətdi…

## 29 Aprel – Beynəlxalq Rəqs Günü

## RƏQS, RƏQS

Dövrə vurun, uşaqlar,
Düzülün qatar-qatar.
Dinir kaman, dinir tar,
Qarmona nə oldu bəs?
Rəqs, rəqs!

Elə oynayır Nağı,
Görünmür əl-ayağı.
Üz-gözündən tər axır.
Ay Vüqar, sən də tələs,
Rəqs, rəqs!

Dostlar, durmayın gendə,
Şənlik edək bu gun də.
Qoşul hamıya sən də,
Nə dayanmısan, Əvəz,
Rəqs, rəqs!

Piano çalır Gülər,
Hamının üzü gülər,
Dilimizdə nəğmələr,
Qəlbimizdə min həvəs,
Rəqs, rəqs!

## 3 May – Beynəlxalq Söz Azadlığı Günü

### SÖZ AZADLIĞI

Dünyada hər bir kəsin
Vardır öz azadlığı.
İnsan üçün vacibdir
Fikir, söz azadlığı.

Əsl sözdə şirinlik,
Əsl sözdə dad olur.
Özü azad olanın
Sözü də azad olur.

İnsanın insan kimi
Yaşamağa haqqı var.
İnsanın düşünməyə –
Daşınmağa haqqı var.

Söz azaddır, ancaq sən
Düşünməmiş danışma!
Kəlmələri başında
Bişirməmiş danışma!

Bilmədiyin sözləri
Soruşanda fikirləş.
Düşünəndə azadsan,
Danışanda fikirləş!

İnsan bələddir sözün
Xalisinə, qəlpinə.
Elə danış, kimsənin
Toxunmasın qəlbinə…

**3 May – Türk Dünyasının Həmrəylik Günü**

## TÜRK ELLƏRİ

Havamız, suyumuz bir,
Yasımız, toyumuz bir.
Biz doğmaca qardaşıq,
Əslimiz, soyumuz bir.

Haşa düşmən şərindən!
Köks ötürmə dərindən.
Türk türkə dayaq olsa,
Dağ oynayar yerindən.

Ömrümüz, günümüz bir,
Səsimiz, ünümüz bir.
Bizi ayırmaq olmaz,
Dilimiz, dinimiz bir.

Birləşsə  türk əlləri,
Birləşsə  türk elləri,
Bizə neyləyə bilər
Zamanın sərt yelləri?

**8 May – Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü**

## HARDA Kİ…

Dar ayaqda qayğıya
Möhtacdır cavan, qoca.
Yol verin Ayparaya,
Yol verin Qızıl xaça.

Əlsizə, ayaqsıza,
Yaralıya yardım et!
Obasından, elindən
Aralıya yardım et!

İnsan özgə dərdinə
Lağ edib gülməyibdir.
Qəlbdə ki mərhəmət var,
İnsanlıq ölməyibdir.

Harda ki, Qızıl xaç var,
Demək dərdə əlac var.
Harda ki, Aypara var,
Demək dərdə çarə var…

**15 May – Beynəlxalq Ailə Günü**

## AİLƏ

Adam doğmalarla bir
Yaşamağı xoşlayır.
Bu dünya insan üçün
Ailədən başlayır.

Ailə doğmaların
İsindiyi ocaqdı.
Babam deyir ki, evin
Yaraşığı uşaqdı.

Bəxtəvərəm, bəxtəvər,
Bacım var, qardaşım var.
Evimizdə nə qədər
Dostum var, sirdaşım var…

Babam hikmət çeşməsi,
Nənəm nağıl bulağı.
Anam evin bəzəyi,
Atam evin dayağı.

Gərək batırmayasan
Ailənin adını.
Doğmalara verəsən
Ürəyinin odunu.

Hər an saxlamalıyıq
Biz haqqın tərəfini.
Hər an qorumalıyıq
Ailə şərəfini.

Dara düşsən doğmalar
Köməyinə yetəndi.
Ailə insan üçün
Bir balaca vətəndi…

Dünyada mənim üçün
Bir sehrli aləm var.
Bəxtəvərəm, bəxtəvər,
Evim var, ailəm var…

**18 May – Beynəlxalq Muzeylər Günü**

## MUZEYLƏR

Muzeylər ən dəyərli
Xəzinəyə oxşayır.
Orda tarix uyuyur,
Orda tarix yaşayır…

İnsan yaratdığını
İnsan qorusun gərək.
Keçmişinə qıyanın
Əli qurusun gərək.

Başdan-başa möcüzə
Dünyasıdır muzeylər.
Keçdiyimiz yolların
Aynasıdır muzeylər.

Orda babalarımın
Nəfəsi, ruhu vardır.
Hər kiçik eksponat
Keçmişdən yadigardır.

Muzeylərə sığınıb
Ən qiymətli incilər.
Onlara baxan zaman
Ürəyimiz incələr.

Muzeylər – var-dövləti
Tükənməyən xəzinə.
Qapıları açıqdı
Gələnlərin üzünə.

Hər bir əsər bənzəyir
Bir solmayan çiçəyə.
Keçmiş muzeyə girib,
Yol gedir gələcəyə…

**19 May – Atatürkün Anım Günü**

**ATATÜRK**

İllər, əsrlər boyu
Baş əymədi yada türk.
Mərd olmasaydı, onu
Salardımı yada türk?
Azadlıq savaşında
Düşdü min yol oda türk.
Zəfərlər çalmaq üçün
Gəldi bu həyata türk.
Çapdı Şərqdən Qərbəcən
Süvar olub ata türk…
Babaların yolunu
Əziz tutdu Atatürk.

Gördü yaxşı-yamanı,
Qovdu çəni, dumanı.
Qoyardımı zamanın
Girdabında bata türk,
Atatürk?!
Dərd tüstü, gözlər baca,
Arzu çox, yollar haça.
Dedi: – Gərək ən uca
Zirvələrə çata türk,
Atatürk.
Önə verdi döşünü,
Gördü elin işini,
Azadlıq günəşini
Qoyardımı bata türk,
Atatürk?!

**1998**

## 28 May – Azərbaycan Demokratik Respublikasının Yaranması Günü

### 28 MAY

Yurdumun adı yazılıb
Ölkələrin sırasında.
Aylar, günlər arasında
Əziz günüm, ayım mənim,
28 Mayım mənim!

Tarix necə keşməkeşli,
Azadlığın yolu uzun…
Səkkiz guşəli ulduzum,
Şəfəq saçan ayım mənim,
28 Mayım mənim!

Bayrağımın kölgəsində
Çiçək açdı dağım, daşım.
Bəxtiyar payızım, qışım,
Yazım mənim, yayım mənim,
28 Mayım mənim!

Nə ətirli çiçək imiş
Babalarımın dərdiyi?!
Ulu Tanrının verdiyi
Müstəqillik payım mənim,
28 Mayım mənim!

**2000**

## ƏBƏDİ BAHAR

İyirmi səkkizi maya
Çox yaraşır toy-düyün.
Əbədi bahar gəlib
Yurdumuza həmin gün…

Doğma diyarı xoşbəxt
Görmək necə də xoşdu!
Azadlıq çiçəyini
Dərmək necə də xoşdu.

Həmin gün qəlbimizdə
Neçə arzu dil açıb.
Təkcə dağda, düzdə yox,
Qəlbimizdə gül açıb…

İgid oğullar, qızlar
Olub elə havadar.
Üçrəngli bayrağımız
Dalğalanır havada.

Səslənən himnimizdə
Sanki sel gücü vardır.
Çiçəklənən yurdumuz
O gündən yadigardır…

**31 may – Son Zəng Günü**

**SONUNCU ZƏNG**

Dağa-daşa salsın sizi hər fikir,
Ürəkdə ayrılıq nidası qalsın.
Vurun, elə vurun o son zəngi ki,
Hər vaxt qulağımda sədası qalsın!

Şirin xatirələr düzülsün səfə,
Məktəbin seyrinə çıxaq yenidən.
Qoyun dərsə girək sonuncu dəfə,
Qənimət götürək son kəlməni də.

Müəllim önündə hər vaxt əyil ki,
Onsuz keçən ömür boranlı qışdır.
Ay dost, axı bu zəng son zəng deyil ki,
Qurub yaratmağa ilk çağırışdır…

***

Həyat bir sehrli dəniz,
Hərəniz bir adasınız.
Son zəng elə bil cümlədi,
Siz sonunda nidasınız.
On il bundan əvvəl gələn
Bir sehrli sədasınız.
Bu gün sevdalı insanlar,
Sabah ana-atasınız.

Arzulardan arzu doğur,
Arzulara çatasınız.
Əzizlərim, siz hər yaşın
Sevincini dadasınız…

**1999**

## 2 iyun – Milli Aviasiya İşçiləri Günü

### AZƏRBAYCAN TƏYYARƏSİ

İndi öz təyyarəçim,
İndi öz limanım var…
Ölkələr fəth etməyə
İnamım, gümanım var…

Elə bil göy gurlayır,
Elə bil şimşək çaxır.
Əliyev limanından
Təyyarəm göyə qalxır.

Sanki onu görəndə
Fərəhlənir göylər də.
Üçrəngli bayrağımız
Şəfəq saçır göylərdə.

Heç bilirsiniz nədir
Mənim könlümü açan?
Adi təyyarə deyil,
Azərbaycandır uçan.

Ona baxanda qəlbim
Tir-tir əsir, nədəndi? –
Çünki qərib göylərdə
O bir parça vətəndi…

**15 iyun – Qurtuluş Günü**

## HEYDƏR BABA

Heydər baba, xalqımın
Ağsaqqalı, rəhbəri.
Zəkasından nur alıb
Yurdumuzun səhəri.

Əməliylə, işiylə
Yadları çaşbaş salıb.
Elə bil düşmənlərin
Başına bir daş salıb.

Xalqıma xor baxanın
Sinəsinə dağ çəkib.
Düşmən onun önündə
Təslim olub, diz çöküb.

Heydər baba, xalqımın
Ümid yeri, pənahı.
Gözlərindən boylanıb
Yurdumuzun sabahı.

İnanıb həqiqətə,
Haqq məğlub ola bilməz.
Belə öndəri olan
Xalq məğlub ola bilməz…

***

Heydər baba xalqını
Heç vaxt qoymadı darda.
Onu hamı tanıyır
Hər eldə, hər diyarda.

Nurlu təbəssümü var
Hər açılan səhərdə.
Heykəl olub yaşayır
Hər kənddə, hər şəhərdə.

Adı çəkilən kimi
Üzümüzdə nur yanır.
Onun əsl heykəli
Qəlbimizdən boylanır.

## ULU ÖNDƏR

Vətənin dar günündə
Onun dadına çatdın.
Üçrəngli bayrağımı
Zirvələrə ucaltdın.

Yurdumuzun üstündən
Qovdun qara kölgəni.
Məhv olmaqdan qorudun,
Xilas etdin ölkəni.

Döyüşə hazırlayıb
Öz milli ordumuzu.
Bir alınmaz qalaya
Çevirdin yurdumuzu.

Çiçəklənən ölkəmiz
Gülüstana oxşayır.
Özün olmasan belə,
Əməllərin yaşayır…

## RƏHBƏRİN HEYKƏLİ

Heykəlinə baxıram,
Rəhbər xəyala dalıb.
Çiçəklənən ölkəmiz
Ondan yadigar qalıb.

Səsini dinləyəndə
Güc gəlib qolumuza.
Zəkası günəş kimi
Nur səpib yolumuza.

Hamımızın köksündə
Sönməz ocaq çatıb o.
Dar gündə yurdumuzun
Köməyinə çatıb o.

Heç nədən çəkinmədən
Önə verib döşünü.
Həmişə xalqımızın
Sabahını düşünüb.

Yurdumuzu sevib o,
Elimizi sevib o.
Şəkərdən, baldan şirin
Dilimizi sevib o.

Doğma Azərbaycanı
Gülüstana döndərib.
Hamımızın qəlbində
Heykəli var öndərin…

## 16 iyun – Beynəlxalq Atalar Günü

### ATALAR

Ata olmasa əgər
Övlad ömrü başlamaz.
Atanı sevməyəni
Ulu Tanrı xoşlamaz.

Ata – ömrün mayası,
Ata – güvənc yerimiz.
Ata evi – müqəddəs
Ocağımız, pirimiz.

Ulu Allahın yerdə
Kölgəsidi atalar.
Ataya xor baxanı
Alovlara atalar!

Qəlbində sevgi yoxsa,
Biləyində güc olmaz.
Ata gözündən düşən
El gözündə ucalmaz…

### MƏNİM ATAM

Qeyrətlidir mənim atam,
Namərdlərə qənim atam!

O, vətənin mərd oğludur,
Torpağa, elə bağlıdır.

Əmilərimə qardaşıdır,
Anama dostdur, sirdaşdır.

Təmizlərin təmizidir,
Hamımızın əzizidir.

Evimizə dayaqdır o,
Yol göstərən mayakdır o.

## ATAM

Atam ev gələndə
Elə bil ki, nur saçır.
Anamın çöhrəsində
Təbəssüm çiçək açır.

Gülür qardaşım, bacım,
Sevinir babam, nənəm.
Atam işdən gələndə
Ən çox sevinən mənəm.

Mehribandır hamıya,
Çoxdur ona hörmətim.
Çiynimə əl qoyanda
Artır gücüm, qüdrətim.

Atam ciddi olsa da,
Ürəyi çox kövrəkdir.
Hava kimi, su kimi
Hamımıza gərəkdir…

## 12-28 iyun 2015 – Birinci Avropa oyunlarının Bakıda keçirildiyi günlər

### AVROPA OYUNLARI

Avropa oyunları
Salıb sizi oyuna! –
Yurduma xor baxanın
Xam ip tutum boyuna!

Elə ki zirvələrə
Üçrəngli bayraq qalxır,
Bizi sevməyənlərin
Başında şimşək çaxır.

Yurduma salam verir
Al günəşli bir səhər.
Qızqalası sevinir,
Gülür İçərişəhər.

Bir zaman İpək yolu
Bu diyardan keçibdir.
Qaraşəhər tarixin
Yaddaşına köçübdür.

Yurdumuza xoş gəlir
Zəfər dalınca zəfər!
Hamını heyran qoyur
Saldığımız Ağşəhər.

Böyükşor sahilləri
Dönüb dilbər guşəyə!
Parklarımız bənzəyir
Çəmənzara, meşəyə.

Gözəllik görmək üçün
Dünya Bakıya axır.
Gözün aydın, ay vətən,
Dünya Bakıya baxır…

Kim güclüsə qalxacaq
Uca zəfər taxtına.
Bu gün Bakı çevrilib,
Dünyanın paytaxtına…

**07.06.2015**

## 20 İyun – Ümumdünya Qaçqınlar Günü

## QAÇQINLAR

Bundan ağır dərd olarmı,
Öz evindən qovulasan?!
Həsrətin qaynar sacında
Qovurğa tək qovrulasan?!

Ayrılığın pəncəsində
Gecə-gündüz inləyəsən!
Ürəyinin harayını
Gözü yaşlı dinləyəsən!

Nə qədər fəryad eləyib,
Dilində haray qaçasan?!
Evindən qaçdın, bəs dərdin
Əlindən hara qaçasan?

Heç kəsin ev-eşiyindən
Ayrı bir günü olmasın!
Qaçqınlar dönsün evinə,
Qaçqınlar günü olmasın!

## QAÇQIN UŞAĞIN NƏĞMƏSİ

Sinəndə yadlar gəzir,
Qaradır üzüm, vətən!
Səndən bir şey ummağa
Gəlməyir üzüm, vətən!
Yamyaşıl düzlərindən
Gül- çiçək üzüm, vətən! –
Bol sulu çaylarında
Kaş bir də üzüm, vətən!
Çəmənim, dağım, dərəm,
Yamacım, düzüm vətən!
Sənsiz bir qara daşam,
Ay canım-gözüm vətən!
Harda olsam səndəndir
Söhbətim, sözüm, vətən!
Qürbətdə üşüyürəm, –
Ocağım, közüm vətən.
Sənsiz çox darıxmışam,
Yol çəkir gözüm, vətən!
Qorxuram ki, silinə
Qoynundan izim, vətən!
İllər  ayrılığına
Mən necə dözüm, vətən?! –
Ağrılara, dərdlərə
Olmuşam özüm vətən…

**06.06.2015**

**26 İyun – Silahlı Qüvvələr Günü**

## AZƏRBAYCAN ƏSGƏRİ

Azərbaycan əsgəri
Canını əsirgəməz.
Vətən üçün son gilə
Qanını əsirgəməz.

Qəhrəmanlıq göstərib
Düşməni mat qoyar o.
Vətənə xor baxanın
Gözlərini oyar o.

Döyüşdə şirə dönər,
Sel kükrəyər qanında.
Ədəb-ərkan gözləyir
Ağsaqqalın yanında.

Ona ruh verən eli
Qorumaq həvəsidi.
Babəkin, Koroğlunun
Həzinin nəvəsidi.

Vətən çörəyi ilə
Boya-başa yetibdir.
Bığ yerində elə bil
Bənövşələr bitibdir.

Təzəcə süvar olub
O, zirehli bir ata.
Misri qılınc əlində
Dönübdür avtomata.

Qəlbinə nur gətirən
Tardı, kamandı, sazdı.
Onun damarlarında
Axan Kürdü, Arazdı.

Qeyrətini görəndə
Yağı qorxar, ah çəkər.
O, dağlara sığınıb,
Düşmənlərə dağ çəkər.

Azərbaycan əsgəri
Bu torpağı güldürər.
Bir əlində avtomat,
Bir əliylə gül dərər…

**1992**

## AZƏRBAYCAN ƏSGƏRİ

Azərbaycan əsgəri,
Qüdrətisən ordumun.
Azərbaycan əsgəri,
Sərvətisən yurdumun.

Yağı bir ac qurd kimi
Qıcayıbdır diş mənə.
Döyüşlərə hazır ol,
Aman vermə düşmənə.

Azərbaycan əsgəri,
Səni zəfər gözləyir.
Çiçəkləyən ölkəmi
Aydın səhər gözləyir…

**2 İyul – Azərbaycan Polisi Günü**

## ƏDALƏTİN KEŞİYİNDƏ

Cinayət törədənlər
Qanun önündə quldur.
Polisdən yaman qorxur
Xuliqan, oğru, quldur.

Polis olmasa əgər
Hər gün artar cinayət.
Addımbaşı tapdanar
Namus, şərəf, ləyaqət.

Kim haqqın, ədalətin
Keşiyində dayanır,
Ürəyinin başında
Vicdan günəş tək yanır.

Seçər pisi yaxşıdan,
Tərəzidir xalq gözü.
Haqqı tapdayanlara
Qənim olsun haqq özü...

**22 İyul – Milli Mətbuat Günü**

## "GÖYƏRÇİN"İM

**Musiqisi Nailə Mirməmmədlinindir**

Ömrün boyu ucalmısan,
Ləyaqətlə yaşamısan.

Qanadında sən ellərə
Sevinc, fərəh daşımısan.
Nəqarət
Körpələrin ürəyinə
Cığır salan "Göyərçin"im.
Azərbaycan göylərində
Qanad çalan "Göyərçin"im.

Hey qanad çal, üstümüzə
Şeir, hikmət, nağıl yağsın.
Gəlişinlə ömrümüzə,
Günümüzə günəş doğsun.
Nəqarət

## "GÜNƏŞ"

**Musiqisi Rəşid Şəfəqindir**

Başımızın üstündə
Məhəbbətlə yanmısan.
Nurlu şəfəqlərinlə
Keşikdə dayanmısan.
Nəqarət

Səadətə, ağ günə
Daim yol açan "Günəş".
Uşaqların ömrünə
Gün tək nur saçan "Günəş".

Boylanmısan illərin
Əngin üfüqlərindən.
Azərbaycan nurlanıb
Sənin şəfəqlərindən…
Nəqarət

## 1 Avqust – Əlifba Günü

### SEHRLİ SANDIQ

Bu sehrli sandıqda
Otuz iki açar var.
Bir-birinə bənzəmir
Ancaq ki, bu açarlar.

Elmin qapılarını
Onlarsız açmaq olmaz.
Uşaqlar, çəkinməyin,
Yaxına gəlin bir az.

Dostlarıma dost olsun
Özümə dost sandığım.
Ümidimiz sənədi,
Açıl, açıl, sandığım!

Uşaqların üzündə
Dünyanın sevinci var.
Bu sandığın içində
Otuz iki inci var…

Tək-tək işə yaramır
Ancaq ki, bu açarlar.
Bir yerdə olan zaman
Hər kilidi açarlar…

## 2 Avqust – Azərbaycan Kinosu Günü

### AZƏRBAYCAN KİNOSU

Bizim öz kinomuzun
Şərəfli tarixi var.
"Koroğlu", "Qaçaq Nəbi",
"Ögey ana", "Bəxtiyar".

"O olmasın, bu olsun"
Bir qiymətli incidir.
"Arşın mal alan" sanki
Ekranın sevincidir.

"Axırıncı aşırım",
"Dəli Kür", "Böyük dayaq".
"Nəsimi"ni, "Babək"i
Gərək anlayaq, duyaq.

"Uzaq sahillərdə"yə
Baxanda fəxr edirik.
"Dədə Qorqud"u görüb,
Xəyallara gedirik.

Yeni arzular bizi
Gələcəyə səsləyir.
Çəkilməmiş filmlər
Yolumuzu gözləyir…

Qəlbimdə bir arzu var:
Qoy elə bir gün olsun,
Dünyanı fəth eləsin
Azərbaycan kinosu!

## 15 Sentyabr – Bilik Günü

### MƏN MƏKTƏBƏ GEDİRƏM

Mən məktəbə gedirəm,
Təptəzə dostlarım var.
Çantamda dəftər, kitab,
Ürəyimdə arzular.

Mən məktəbə gedirəm,
Güc gəlir qollarıma.
Mənim ilk müəllimim
Göz dikib yollarıma.

Mən məktəbə gedirəm,
Sevinir, ellər gülür.
Qanadım yoxdur uçam,
Əlimdə güllər gülür.

Mən məktəbə gedirəm,
Ah çəkir yoldan ötən.
Övladların boy atır,
Gözlərin aydın, Vətən!

**1998**

### BİRİNCİ ZƏNG

Həyəcandan gözümə
Yuxu getməyib gecə.
Birinci zəngdən ötrü
Ürəyim əsir necə?!

Qəlbimizdə arzular,
Əlimizdə gül-çiçək.
Yolumuzu gözləyir
Məktəb nəhəng gəmi tək.

Məhəbbətlə izləyir
Bizi doğma baxışlar.
Əl edib yola salır
Qohumlar, dost-tanışlar.

Vuruldu birinci zəng,
Ta bizim nə qəmimiz?
Biliklər ölkəsinə
Yola düşür gəmimiz…

**1999**

**18 Sentyabr – Milli Musiqi Günü**

## MUSİQİ DÜNYASINDA

Nəğmə ilə yoğrulub
Dağım, daşım, torpağım,
Yel əsəndə oxuyur
Otum, gülüm, yarpağım.

Musiqimin mayası
Qarabağ şikəstəsi.
Qəlb oxşayır Müslümün,
Üzeyirin bəstəsi.

Səidim, Cahangirim,
Fikrətim, Arifim var.
Tofiqin nəğmələri
Dolaşır diyar-diyar.

Səslənir simfoniya,
Hamı ayaq saxlayır.
Səslər, ilahi səslər
Bulaq kimi çağlayır.

O ilahi bəstələr
Unudularmı görən?
Üzeyirin, Qaranın
Əvəzi varmı görən?

Dünyaya ahəng verən
Nəfəsimiz var bizim.
Musiqi dünyasında
Öz səsimiz var bizim…

**20 Sentyabr – Neftçilər Günü**

## NEFT

Neftin yurd yeri
Bizim Xəzərdi.
Onsuz maşınlar
Necə gəzərdi?

Yerdən çıxan neft
Əzəldən bəri,
Göyə qaldırıb
Təyyarələri.

Neft texnikaya
Həyat veribdir.
Neft insanlara
Qanad veribdir.

**1975**

## 21 Sentyabr – Beynəlxalq Sülh Günü

### DÜNYAYA SÜLH GƏRƏKDİR

Körpə-körpə əllərə
Gül dərmək çox yaraşır.
İnsana öldürmək yox,
Güldürmək çox yaraşır.

Güllələrin səsindən,
Barıtın qoxusundan
Bəsdir heyvanlar, quşlar
Oldular yuxusundan.

Dünyaya hərb, dava yox,
Dünyaya sülh gərəkdir.
Sülh – gözəllik, xoşbəxtlik,
Bəxtiyarlıq deməkdir…

Gərək qan axıtmaya
Əgər insansa insan.
Sevgi dil açan yerdə
Gərək mərmilər susa.

Deyin xoşbəxt eləyib
Qalmaqal, dava kimi?
Dünyaya sülh gərəkdir
Su kimi, hava kimi…

## 1 Oktyabr – Ahıllar Günü

### AHILLAR

Yurdumuzda nə qədər
Ağsaqqal var, ahıl var.
Şərəflə saç ağardıb,
Ağsaqqallar, ahıllar.

Onların əli titrək,
Onların qəlbi kövrək.
Ahılların qəlbinə
Heç kəs dəyməsin gərək.

Dara düşsək, sözləri
Dadımıza yetəcək.
Ağsaqqalı sevən kəs
Ağ günlərə yetəcək.

Bu həyat yollarında
Qalxıb ucalacaqsan.
Qocalara hörmət et,
Sən də qocalacaqsan!

## 5 Oktyabr – Müəllimlər Günü

### MÜƏLLİM

Hamımızın qəlbində
Yuva qurdu müəllim.
Nadanlardan qorudu
Ana yurdu müəllim.
Vətənin keşiyində

Sayıq durdu müəllim.
Düşmənlərin gözünə
Enən tordu müəllim.
Yolumuzun üstündə
Yanan nurdu müəllim.

**1999**

## ƏZİZ İNSAN

Müəllim ata qədər,
Ana qədər əzizdir.
Onun bizimlə bağlı
Arzuları dənizdir.

Odur ürəyimizdə
Elmə oyadan həvəs.
O, bizimlə fəxr edir,
Bizimlə alır nəfəs.

Müəllimdən öyrəndik
Oxumağı, yazmağı.
Qəlbimizin səsinə
Hər an qulaq asmağı.

O, yeni həyat verir
Hər kəlməyə, hər sözə.
Yerin, göyün sirrini
Odur öyrədən bizə.

Müəllim göstərir ki,
Nə düzdür, nə əyridir.
O, bizə ləyaqətlə
Yaşamağı öyrədir.

Hamımıza sevdirir
Ana yurdu o insan.
Elə bil qəlbimizdə
Yanan nurdu o insan…

**10 Oktyabr – Azərbaycan Teatr Günü**
**27 Oktyabr – Beynəlxalq Teatr Günü**

## NƏ QƏDƏR Kİ SƏHNƏ VAR

Qəlbimizdəki incə
Duyğuları oyadır.
Sehrli bir dünyanı
Xatırladır teatr.

Səhnəmiz başdan-başa,
Bürünüb al qumaşa.
İndicə başlanacaq
Könül açan tamaşa.

Aktyorlar səhnədə
Gələcəklər üz-üzə.
Bir nağıllar dünyası
Bəxş edəcəklər bizə.

Alqışlar yüksələck,
Arzular gül açacaq.
Axundov, Mirzə Cəlil,
Cabbarlı dil açacaq.

Ulu Şekspir özü
Qonağımız olacaq.
Dezdamona öləndə
Gözlərimiz dolacaq.

Teatr möcüzəli
Bir məbədə oxşayır.
Nə qədər ki, səhnə var
Mədəniyyət yaşayır…

## 13 Oktyabr – Dəmiryol İşçiləri Günü

### DƏMİRYOLÇU OLACAM

Polad relslər üstündən
Şütüyüb keçən qatar.
Şəhərləri, kəndləri
Biri-birinə qatar.

Vağzaldan ayrılanda
Gəlir taqqıltı səsi.
Yola düşür elə bil
Şəhərin bir küçəsi.

Gecə qara buluddu,
Qatarsa şimşək kimi.
Bu şəhərdən o kəndə
Hey süzür fişəng kimi.

Uzanır dəmir yolu
Dünyanın o başına.
Qatara minib getmək
Gəlir mənim xoşuma.

Yük daşımaqda belə
Yoxdur onun əvəzi.
Yanımdan qatar keçir,
Artır gəzmək həvəsim.

Dayanıb baxıram mən
Qəlbimdə sonsuz maraq.
Qatara minib gedən
Yekə maşınlara bax!

Elə ki, qatar gedir,
Səs-küy, haray qoparır.
Sanki ürəyimi də
Özü ilə aparır.

Hələ çox balacayam,
Bir gün yaşa dolacam.
Mən də atam, babam tək
Dəmiryolçu olacam…

**18 Oktyabr – Azərbaycanın Dövlət Müstəqilliyi Günü**

## GÖZÜN AYDIN, AZƏRBAYCAN

Zorla endirilən bayraq
Yenidən ucaldı, qalxdı.
Yurdumuzun göylərində
Bahar şimşəkləri çaxdı.

Sevindi torpağım, daşım,
Babaların ruhu güldü.

Müstəqillik – sönməz ocaq,
Azadlıq – solmayan güldü.
Azadlıq yelləri əsdi,
Hər tərəf çiçəkdi, güldü…

Vətən eşqi içimizdə
Yatan vulkanı oyatdı.
Yurdumuzdan küsüb gedən
Əbədi bahar qayıtdı.

Müstəqillik şərbətindən
Çətin, çətin doyar insan.
Ulu yurdum, sən Babəklər,
Koroğlular diyarısan!

Xalqımızı sevməyənlər
Baxıb köksünü ötürdü.
Müstəqillik yurdumuza
Təzə bir bahar gətirdi…

Azadlığın gur işığı
Qara zülmətləri boğdu.
Gözün aydın, Azərbaycan,
Taleyinə günəş doğdu!

**29 Oktyabr – Sürücü Günü**

## SÜRÜCÜ NƏĞMƏSİ

Ağlı bir şey kəsən gündən
Hər kəs özünə yol seçir.
Bu uzanıb gedən yollar
Taledən, ömürdən keçir.

Yenə sükan əlimdədi,
Yollar mənim iş yerimdi.
Onlar qismətimə düşən
Ayrılıq, görüş yerimdi.

Hey gedirəm, bir gün başım
Üfüqlərə söykənəcək.
Sanıram ki, yol qurtarsa,
Mənim ömrüm tükənəcək.

Dizlərimə qüvvət verən
Gəzmək, görmək həvəsidi.
Yollardayam, mənim üçün
Yollar vətən əvəzidi…

**1 Noyabr – Kənd Təsərrüfat İşçiləri Günü**

## KƏNDLİNIN NƏĞMƏSİ

Bir zəhmətkeş kəndliyəm,
Heç mənim əvəzim var?
Bağımda, bostanımda
Meyvəm, tərəvəzim var.

Hər il nə qədər məhsul:
Süd-qatıq, pendir, kərə,
Meyvə, tərəvəz, taxıl
Göndərirəm şəhərə…

Dost üzünə həmişə
Açıq olur qapılar.
Bostanımda, bağımda
Can dərmanı tapılar.

Yemiş, qarpız yeyəndə
Bal-qənd çıxar yadından.
Becərdiyim meyvənin
Doymaq olmaz dadından.

İnsan gərək həmişə
Səpə, becərə, əkə.
Qoymaram soydaşlarım
Aclıqdan korluq çəkə.

Kəndli iş başındadı,
O, sərvaxtdı, ayıqdı.
Şəhər kəndə arxadı,
Kənd şəhərə dayaqdı…

Torpaq nazı çəkirəm, –
İş cövhərdi əl üçün.
Əkirəm, becərirəm
Vətən üçün, el üçün…

**3 Noyabr – Beynəlxalq Əlillər Günü**

## TANRIYA DA XOŞ GEDƏR

Hər vaxt uca saxlayan
Haqq-ədalət yolunu,
Döyüşlərdə itirib,
Ayağını, qolunu.

El-oba qayğısına
Qalanlar unudulmaz.
Vətən uğrunda əlil
Olanlar unudulmaz.

Düşmənlər bizə batmaz
Əgər versək əl-ələ.
Tanrıya da xoş gedər
Hörmət etsək əlilə…

**6 Noyabr – Azərbaycan Televiziyası və Radiosu Günü**

## DANIŞIR, GÖSTƏRİR BAKI

Danışır, göstərir Bakı,
İndi dünya görür bizi.
Uzaq-uzaq diyarlarda
Eşidirlər səsimizi.

Elə ki, Bakı göstərir,
Acılar dönüb bal olur.
Elə ki, Bakı danışır,
Düşmənin dili lal olur.

Şən mahnılar qanad açır,
Muğamımız düşündürür.
Duyanlar bizim sənətin
Qarşısında baş endirir.

Mavi Xəzər dalğalanır,
Kür, Araz çağlayır, axır.
Mənim doğma diyarımın
Hüsnünə el-aləm baxır.

Seyr edirik ekranı biz,
İzləyirik efiri biz.
Qəlbimizin aynasıdır
Ekranımız, efirimiz…

## 6 Noyabr – Bakı metrosunun işə başladığı gün (1967)

### BAKI METROSU

Bizim Bakı metrosu
Bir yeraltı şəhərdi.
Bərq vurur işıqları,
Elə bil ki, səhərdi.

Adamlar bu şəhərdə
Qaynaşır qarışqa tək.
Metromuzu görəndə
Bir dağa dönür ürək.

Minib eskalatora
Dərinlərə enirik.
Yeriyən pilləkənlə
Yer üstünə dönürük.

Adamlar arxayınca
Yerin altında gəzər.
Metro şəhərimizin
Şah damarına bənzər.

Yeraltı küçələrlə
Şütüdükcə qatarlar,
İnsanlar evə, işə
Asanlıqla çatarlar.

Elə bil ki, metromuz
Bir döyünən ürəkdi.
O, bizim insanlara
Hava, su tək gərəkdi…

**9 Noyabr – Azərbaycanın Dövlət Bayrağı günü**

## ÜÇRƏNGLİ BAYRAQ

Bu üçrəngli bayrağım
Gözümün işığıdı.
Azadlıq yağışından
Doğan göy qurşağıdı.

Üstündəki ay, ulduz
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.

Üçrəngli bayraq bizə
Təsəllidi, dayaqdı.
Yolumuzun üstündə
İşıq saçan mayakdı.

**1991**

## AZƏRBAYCAN BAYRAĞI

Bizim bayraq meydanı
Şərəf-şan meydanıdır.
Üçrəngli bayrağımız
Yurdumuzu tanıdır.

O, vətən göylərində
Əzəmətlə ucalır.
Qəhrəmanlar, igidlər
O bayraqdan güc alır.

Dalğalanır, elə bil
Küləklərlə yarışır.
Azərbaycan bayrağı
Zirvələrə yaraşır…

**22.04.2012**

## 12 Noyabr – Konstitusiya Günü

## BİZİM ANA KİTABIMIZ

Bizim ana kitabımız
Ömrümüzün mənasıdı.
Xalqımızın taleyinin
Bir sehrli aynasıdı.

Bu kitabın hər kəlməsi,
Hər sözü qanundu bizə.
Bu kitabdan ilham alıb,
Ana yurdumuzu bəzə.

Elimizi, obamızı
Yağıdan mərdliklə qoru!
Bu kitab qollara qüvvət,
Bu kitab gözlərin nuru.

Bu  kitaba xor baxanın
Gözləri oyulmalıdı.
Müqəddəsdi, öpülərək
Göz üstə qoyulmalıdı…

**2000**

## KONSTİTUSİYA

Dünyada çox kitab var
Bir-birindən maraqlı.
Beləsini tapmazsan
Gəzsən əli çıraqlı.

Hər kəlməsi, hər sözü
Ürəyimizdən keçir.
Ölkənin rəhbəri də
O kitaba and içir.

O kitaba sədaqət
Yurduma sədaqətdir.
Xalqıma sədaqətdir,
Orduma sədaqətdir.

Ona məhəbbətimiz
Bir kükrəyən dənizdir.
O kitab hamı üçün
Müqəddəsdi, əzizdir.

İçindəki sözlərin
Bənzəri var işığa.
O, doğru yol göstərir
Ağsaqqala, uşağa.

O kitaba güvənir
Düşəndə insan dara.
Kompas tək yol göstərir
O kitab insanlara…

## 17 Noyabr – Milli Dirçəliş Günü

### MİLLİ DİRÇƏLİŞ GÜNÜ

Azadlıq təşnələri
Meydanlara doldular.
Xalqımın düşmənləri
Saraldılar, soldular.

Bakının küçələri
Sehrli çaya döndü.
Oraq-çəkic çevrilib,
Ulduza, aya döndü.

Düyümlənən yumruqlar
Düşmənə ölüm! – dedi.
Bəsdir bu qədər zillət,
Bu qədər zülm! – dedi.

Evdə qalan olmadı,
Hamı axışıb gəldi.
Babəkin, Koroğlunun,
Nəbinin ruhu güldü.

El gücü selə döndü,
Qəzəb seli çağladı.
Böyük bir imperiyanın
Sütunları laxladı.

Sevindi böyüyümüz,
Sevindi uşağımız.
Üçrəngli  bayraq dönüb,
Oldu göy qurşağımız…

**2000**

## 6 Dekabr – Rabitə İşçiləri Günü

### RABİTƏÇİ NƏĞMƏSİ

Heç bir şey qarşımızda
Dönə bilməz əngələ.
Dünyanın harasına
İstəyirsən zəng elə.

Uzaqdakı dost-tanış
Düşəndə yadınıza,
Poçt, teleqraf, internet
Yetişər dadınıza.

Biz həmişə hamının
Köməyinə gəlirik.
İşimizlə uzağı
Yaxın edə bilirik.

Əlaqə yaradırıq
Ölkələr arasında.
Şəhərlər arasında,
Bölgələr arasında.

Kimə nə göndərsələr,
Ünvana yetiririk.
Məktublar, bağlamalar
Aparıb-gətiririk.

İnternetə qoşulsan
Vaxtın şən ötə bilər.
Məktubun bircə anda
Ünvana yetə bilər.

Dayanaraq üz-üzə
Danışa da bilərsən.
Ürəyindən keçəni
Soruşa da bilərsən.

Şərəfli peşəmiz var
Peşələr sırasında.
Əlaqə yaradırıq
İnsanlar arasında…

**10 Dekabr – İnsan Hüquqları Günü**

**İNSAN**

İnsan ata, anadı,
İnsan qardaş, bacıdı…
İnsan dünyanın nuru,
Təbiətin tacıdı.

Əsl insan görəndə
Çəkinir oğru, quldur.
Hüququnu bilməyən
İnsan kölədir, quldur.

Onun sevmək, seçilmək,
Seçmək azadlığı var.
İstədiyi şəhərə
Köçmək azadlığı var.

İnsanın qüdrətinə
Baş əyir uca dağlar.
İnsanın insan kimi
Yaşamağa  haqqı var.

İnsan şəhərlər salır,
İnsan yaradır, qurur.
Öz işindən zövq alır,
Köksünə sığmır qürur…

İnsan xoşbəxt yaşasın,
Sevinsin, gülsün gərək.
İnsan öz hüququnu,
Haqqını bilsin gərək!

**16 Dekabr – Sərhəd Qoşunları Günü**

## VƏTƏNİN KEŞİYINDƏ

Ən ucqar nöqtələrdən
Başlayır əziz vətən.
Qoyarammı yurduma
Gəlsin hər yoldan ötən?

Əsgər gərək vətənə
Həmişə keşik çəkə.
Yurdumun sərhədindən
Qoymaram quş da səkə.

Bəd niyyətlə gələni
Uzağa qovaram mən.
Vətənə xor baxanın
Burnunu ovaram mən.

Gündüzlər sərhəd boyu
Günəş kimi yanaram.
Gecələr sübhə qədər
Keşikdə dayanaram.

Ölməmişəm, sağam mən,
Düşmən bilsin həddini.
Gözüm tək qoruyaram
Vətənin sərhədini…

**31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü**

## AZƏRBAYCAN DEYƏNDƏ

"Harda birlik var, orda
dirlik" deyib babalar,
Düşmənə göz dağıdır
bizim ellər, obalar.

Dünyanın hər yerinə
səpilmişik toxum tək!
Azərbaycan deyəndə
qürurla vurur ürək.

Tənhayam, təkəm deyə
köks ötürmə dərindən,
Səsimə səs verən var
dünyanın hər yerindən.

Azərbaycan deyəndə
sözümüz şəfəq saçır,
Azərbaycan deyəndə
arzular çiçək açır.

Dar məqamda, qardaşım
əl verirsə əlimə,
Zaval yoxdu elimə,
zaval yoxdu dilimə!

# KİÇİK POEMALAR

## İNTİQAM

Qanadları qara qarğa,
Bir də gəlmə bizim bağa!
Tutduğundan barı usan,
Cücələrə dadanmısan.

Yazıqları daşıyırsan,
Damağı çağ yaşayırsan.
Son qoydun sevincimə sən,
Daha məndən incimə sən. –

Belə söylədi İsgəndər,
Günlər ötdü, aylar ötdü.
Cücələrin qənimini
Bir gün yaxşı-yaxşı güddü…

Tapdı qarğa yuvasını,
Oğlanı fikir götürdü.
Dağı arana apardı,
Aranı dağa gətirdi.

Amansız intiqam hissi
Sinəsində qaldırdı baş.
Boz qarğanın yuvasına
Yaxınlaşdı yavaş-yavaş.

Ocaq çatıb qazan asdı
Qarğa qalxanda havaya.

Yumurtaları bişirib,
Yenə qaytardı yuvaya.

Xəbərin yoxdu xəbərdən,
Qanadları qara qarğa!
Uçub getmisən səhərdən,
Xoşbəxtliyin bitdi daha!

Nə şəkkin var, nə də şübhən
Arxayınca yaşayırsan.
Əlinə fürsət düşəndə
Cücələri daşıyırsan…

Heç toyuğu düşünmürsən,
Anlamağa təhərin yox!
Özgəsinə quyu qazan
Özü düşər, xəbərin yox!

Kürt düşmüsən neçə gündü,
Bala yolu gözləyirsən.
Hələ dünyaya gəlməmiş
Körpəni əzizləyirsən:

– Günlər dönüb oldu həftə,
Həftələr dönüb oldu ay.
Yolunuzu gözləyirəm,
Laylay, balalarım, laylay!

Laylay, körpəciyəzlərim,
Gözünüzü açın, açın!
Deşin, deşin yumurtanı,
Ananızı qucun, qucun!

Məni salıbdır bu hala
Çil toyuğun qarğışımı?
Bu yumurta cücələrin
Daşa dönmüş göz yaşımı?

Gecə-gündüz intizarla
Sinəmi sizə söykədim.
Canımda odum qalmadı,
Dilimdən sözüm tükəndi…

Təki çıxın yumurtadan,
Sizin üçün dən olaram.
Dilim qurusun, ölsəniz
Baş daşınız mən olaram.

…Qış gəlib qapını kəsdi,
Qar ələndi düzə, dağa.
Yumurtaların üstündə
Qaxac olub öldü qarğa…

İsgəndərin gözü doldu,
Düşmənini bağışladı.
Yuvasında qaxac olan
Boz qarğanı alqışladı.

Tutduğundan peşman oldu,
Hey özünü danladı o.
Sonsuz bala sevgisinin
Mənasını anladı o…

**31.07.1984**

**KÖRPÜ ƏFSANƏSİ**

Günortaydı, sürünü
Gətirdilər mağala.
Daşların kölgəsinə
Doluşdu çəpiş, oğlaq.

Soyunub Bərgüşadda
Çimdilər ata-bala.
Bu çay həm sevinc idi,
Həm də ki, xata-bala…

Elə ki, qar əridi,
Elə ki, düşdü gürşad,
Qızmış bir pələng kimi
Kükrəyərdi Bərgüşad…

Gəmirərdi sahili,
Hay-haray qoparardı.
Qabağına nə keçdi
Süpürüb aparardı.

Sel körpünü çöp kimi
Ağuşuna alardı.
Bu sahildən o taya
Keçmək müşgül olardı.

Hər il körpü tikməkdən
Adamlar yorulmuşdu.
Yay idi, sakitləşib
Bərgüşad durulmuşdu.

Fikri bulanıq idi
Ancaq qoca çobanın.
Necə xilas eləsin
Bu seldən el-obanı?!

Elə ki, gün əyildi,
Oğluna dedi qoca:
– Sən sürünü yay döşə,
Mənsə çimim bir azca…

Oğul qalxdı ayağa,
Oğul çaldı tütəyi.
Otlaq üçün döyündü
Quzuların ürəyi.

Sürü döşə yayıldı,
Sevindi bala çoban.
Oturub bir tərəfdə
Getdi xəyala çoban.

Ləzzətlə seyr elədi
Yamacları, düzləri.
Birdən məşələ döndü
Onun qara gözləri.

Gördü ki, sel oyubdur,
Şırımlanıb təpələr.
Bir qayanın dibində
Baş-başadı küpələr.

Çağırdı atasını,
Dilindən uçdu sözlər:
– Nə durmusan, Lələ, zər!
Lələ qızıl, Lələ, zər!!!

Qoca yaman tələsdi,
Sularda gözü axdı.
Külək kimi bir anda
Dərədən döşə qalxdı.

Küpələrin içində
Qızıllar sayrışırdı.
Qızıllar oxuyurdu,
Qızıllar danışırdı:

– Kim ki, məni xərcləyir,
Halalıdır, halalı.
Çünki sərf olduğum iş
İnsana töhfə qalır.

Siz məni hey xərcləyin,
Körpü tikin, bənd salın.
Səhralara su çəkin,
Şəhər salın, kənd salın.

Qazıb ora-buranı
Qızılı gizləməyin.
Məni dustaq etməkdən
Bir fayda gözləməyin!

Əldən ələ keçsəm də
Əriyib sozalmaram.
Nə qədər xərcləsəniz,
Tükənib azalmaram.

İnsanlar gəlib-gedir,
Həyat çay kimi axır.
Kim qızılı özüylə
Apara bilib axı?!

Xərcləyənlər qazanar,
Gizləyənlər uduzar.
Xeyirxah ələ düşsəm,
Dönərəm bir ulduza.

Yollara nur saçaram,
Evlərə nur saçaram.
Gözləri oxşayaram,
Ürəkləri açaram…

***

Qoca əhd eləmişdi,
Tapşırdı yada, dosta:
– Yanıma göndərərsiz
Tapıb bir yaxşı usta.

Bir tağbənd gəlib çıxdı
Sifarişlə axırda,
Ona belə söylədi
Qoca gözü axarda:

– Bax, çayın bu yerində
Bir körpü salacaqsan.
Xatircəm ol, ay usta,
Haqqını alacaqsan.

Usta nəm-nüm elədi,
Usta çəkdi özünü.
– Burda körpümü olar? –
Geri götür sözünü!

– Bir tağ burda olacaq,
Bir tağ burda…
Tez Lələ
Cibindən üç-dörd qızıl
Çıxarıb atdı selə.

Tağbəndin üzü güldü,
Tağbəndin gözü güldü.
Yanaqları qızardı,
Elə bil qızılgüldü…

– Pul sarıdan çəkinmə,
Xatircəm ol, ay usta!
Xəbər göndərəcəyəm
Qohuma, yada, dosta.

Köməyin də olacaq,
Qol çırmala, gir işə!
Ancaq bunu unutma,
Qol qoydunmu bir işə,

Gərək can yandırasan,
İşləyəsən ürəklə.
Gördün ki, qarşıladıq
Biz səni duz-çörəklə…

Usta işə başladı,
Caladı daşı daşa.
İki sahildən gələn
Tağlar gəldi baş-başa.

Gözəl körpü yarandı,
Körpü nə, bir tamaşa!
Ustanı qərq etdilər
Zərə, ala, qumaşa…

Bərgüşad hey kükrəyər,
Bərgüşad hey tələsər.
Ancaq almaz vecinə
Seli-suyu Lələzər…

Memar əli əllərin
Qınağından çıxıbdır.
Tağlara bax, sellərin
Sınağından çıxıbdır.

Adamların arzusu
Bu körpüdən keçməkdi.
Bərgüşadın gözündə
Elə bil ki, çeşməkdi –
Lələzər.

Bu eynəyi "taxanda"
Çay coşub, daşıb gəlib.
Onun yox, adamların
Gözünə işıq gəlib.

Bu körpü salınandan
Xata-bala sovuşub.
O sahillə bu sahil
Bir-birinə qovuşub…

**1989, Qubadlı**

## AT, SALBA, QAMÇI

Topumuzu götürüb,
Biz öyünə-öyünə,
Çubuq atı səyirtdik
Çardaxlıdan Əyinə…

Əyin yolu çəmənlik,
Əyin yolu gül-çiçək.
Otları tapdamamış
İrəli necə keçək?

Haray saldı qoruqçu
– Biçənəkdən tez çıxın!
– Hirslənmə, Ziyad dayı,
Söylə nə olub axı?

Qoruqla nə işimiz,
Neyləyirik otu biz?
Nə özündən çıxmısan,
Ot yemir ha atımız!
O qışqırdı, biz “çapdıq”,
Əyinə nə tez çatıq?!

Bir də göz açıb gördük,
Düz kəndin içindəyik.
“Atlar”ın nə vecinə,
Biz tər-su içindəyik.

Tər axır alnımızdan,
Tər axır gözümüzdən.
Tez sərildik çəmənə,
Heymi var dizimizdə?!

Əyinin uşaqları
Tökülüşüb gəldilər.
Bizi sel-su içində
Görüb, xeyli güldülər.

Topumuza baxanda
Həsədlə ah çəkdilər.
Bizi Armudluqdakı
Meydançaya çəkdilər.

Armudluğa baxın bir,
Hamının gözü burda.

Armud bağı salıbdır
Təbiət özü burda.

Ağaclar üzə gülür,
Hər növ desən armud var.
Dərdimizdən saralıb
Budaqdakı armudlar.

“Çubuq atlar” çevrilib
Bir anda salba oldu.
Ləzzətli armudlarla
Ağacın dibi doldu.

Yedik, yedik o ki, var,
Biz doyduq, göz doymadı.
Əyin uşaqlarıyla
Xeyli futbol oynadıq.

Kimin heyi var qaça? –
Eh, yamanca uduzduq.
Kapitana baxın bir,
Elə bil ki, quduzdu.

Üstümüzə qışqırır,
Alov çıxır gözündən.
O da oynaya bilmir,
Xəbəri yox özündən.

Futbol qurtaran zaman
Gördük düşüb qaranlıq.
İndi bəs biz neyləyək? –
Çaşıb qaldıq bir anlıq.

Hər kolu, hər qayanı
Şirə döndərib gecə.

Əyindən Çardaxlıya
İndi qayıdaq necə?!

Düşdük yolun ağına,
Ta neyləyəydik axı?!
“Yedəyimizdə atlar”,
Ürəyimizdə qorxu…

İçimizə salmışdıq
Hamımız səsimizi.
İndi ata-anamız
Yəqin axtarır bizi.

O yandan işıq gəlir,
Bu tərəfdən it hürür.
Hərdən quşlar oxuyur,
Bizi heyrət götürür.

Az qalır quyruğunu
Gözümə soxa tülkü.
Nağıllar aləminə
Düşmüşük elə bil ki…

Həcətkəyə çatanda
Toxdadıq bir balaca.
Yenidən süvar olduq
Atımıza – ağaca.

Evə çatanda yaman
Hirslənmişdi atamız.
Onların əllərində
“Qamçı” oldu “atımız” –

Endi topuğumuza,
Endi kürəyimizə.
Ancaq toxtaqlıq gəldi
Bir az ürəyimizə.

Gecə narahat yatdıq,
Qovruldum səhərəcən.
Əyinin qapısına
Qol vurdum səhərəcən…

Ağaclar başlarını
Tərs-tərs bulayırdılar.
Hirslənib, meydançaya
Armud tullayırdılar…

**1987**

## BİR TORBA ÇƏRDƏYİN NAĞILI

Bağımızı götürüb,
Ərik ətri yamanca.
Özü yetişib düşür,
Kimdi çıxan ağaca?!
O qədər yemişəm ki,
Lap doymuşam ərikdən.
Onun çərdəklərini
Yığıb quruduram mən.
Bacılarım dənəni
Sındırırlar, yeyirlər.
"Neyləyirsən yığmağı,
Sən də sındır", – deyirlər.
Kimdi onlara baxan,
Söz əsər etmir mənə.
Səhərdən axşamacan
Dənə yığıram, dənə…
Neynək, öz işinizdi,
Gülün, gülün mənə siz.
Qışda bala dönəcək
Çərdəyin hər dənəsi.

***

Sanki bir torba dənə
Bir torba qızıl idi.
Onu görcək, uşaqlar
Növbəyə düzülürdü.
Şıqqıltı gələn kimi
Şəklənirdi qulaqlar.
Pərvanə tək başıma
Fırlanırdı uşaqlar.
Gündə iki-üç dənə
Sındırırdım dənədən.
Bacım ağlamsınırıdı:
– Nə olar, ver mənə də!
Vermirdim birini də,
Yandırırdım onları.
Yada salırdım mənə
Güldükləri anları.

***

Bir gün…
Bir gün nə gördüm,
İnanmadım gözümə.
Nigar qoz sındırırdı,
Tərs-tərs baxdım üzünə.
O yanda Aidənin
Başı yaman qarışıb.
Sındırdığı cəvizin
Ləpəsinə darışıb.
Dedim mənə də verin,
Üzümə bozardılar.
Dedim: – Çərdək verərəm,
Bir azca qızardılar.
Hirslənib bərk qışqırdım,

Di yaxşı, görərsiniz!
Siz yalvara-yalvara
Mənə qoz verərsiniz.
Tez yüyürdüm yuxarı,
Öz torbamı götürdüm.
Lovğa-lovğa onların
Qarşısına gətirdim.
Qızların ikisi də
Şən-şən üzümə baxdı.
Əl uzatdım torbaya,
İçindən qabıq çıxdı…
Anam məndən soruşdu:
– Niyə gözlərin dolub?
Dedim: – Bir torba çərdək,
Bir torba qabıq olub…
Ağladım hönkür-hönkür,
Mənim dərdim ağırdı…
Gülməkdən uşaqların
Gözündən yaş axırdı…

**1987**

## ÖRDƏK BALALARI

Çıxdı bir cüt yumurtadan
Bir cüt ördək.
Ayaqları incə, gödək.
Boylanaraq sağa, sola,
İkisi də düşdü yola.
Az getdilər, üz getdilər,
Dərə, təpə, düz getdilər…
Göy çəməndə bu ördəklər
Bir kəpənək tapmışdılar.
Hərəsi bir qanadından
yapışdılar.

Hey dartdılar, hey dartdılar,
Qanadları qopartdılar.
Yenə yola düzəldilər,
Dərə keçib, dağ aşdılar,
Çəmənlərdə dolaşdılar.
Şimşək çaxdı, yağış yağdı,
Şaqqıldayıb sular axdı.
Çaşdı ördək balaları,
Qaçdı ördək balaları.
Tuş oldular qurbağaya,
Qoşuldular qurbağaya.
Getdilər, suya çatdılar,
Yenə çətinləşdi işlər.
Atıldılar gölməçəyə,
Demə üzə bilirmişlər.
Az üzdülər, çox üzdülər,
Onlar aclığa dözdülər.
Gəlib çatdılar sahilə,
Baxdılar çiçəyə, gülə.
Böcəklərə darışdılar,
Dağ yuxarı dırmaşdılar.
Az qalxdılar, çox qalxdılar,
Dönüb arxaya baxdılar.
Dərin imiş dərə necə?
Düşəcəklər yerə necə?!
Birdən dağdan bir quş uçdu,
Ördəklər atılıb-düşdü.
Tullandılar qaya üstdən,
Qanad aça bilirmişlər.
Sevindilər, qışqırdılar,
Demə uça bilirmişlər…
Az uçdular, çox uçdular,
Düşdülər bayaqkı gölə.
Üzüb geri qayıtdılar

Deyə-deyə, gülə-gülə.
Qorxdular bala ördəklər,
Bürüdü ətrafı duman.
Yumurtadan çıxdıqları
Qamışlığa çatan zaman.
Gördülər burda bir quş var,
O ağlayır, bu nə işdi?!
Ördəkləri görən kimi
Sevincdən atılıb-düşdü…
Körpələri əzizlədi,
Sildi gözünün yaşını.
Qanadıyla təmizlədəi
Körpələrin üst-başını.
Tanıyıb ana ördəyi,
Sevindi bala ördəklər.
Qoşulub analarına
Düşdülər yola ördəklər.
Yanlarını basa-basa
Onlar kəndə qayıtdılar.
Yeyib arpadan, buğdadan
Böyüdülər, boy atdılar…

## BALIQ OVUNDA

Tilovumu götürüb,
Getdim balıq tutmağa.
Qarmaq atdım, bir qəşəng
Balıq düşdü qarmağa…
Dil açdı birdən balıq,
Dedi: – Məni suya at!
Əvəzində gör sənə
Nə verirəm bu saat?!
Onu buraxdım çaya,
Qarmaq atdım yenidən.

İnanmadım gözümə
Qarmağı dartanda mən.
Soruşdum öz-özümdən:
Bu necə olan işdi? –
Qarmağıma balıq yox,
Bir qutu ilişmişdi.
Qutu, qutu, nə qutu! –
Həsrətlə baxdım, baxdım.
Açdım, onun içindən
Nağıl kitabı çıxdı.
Açıb tezcə
Oxudum:
Biri varıdı,
Biri yoxudu…
Bir qız balıq var idi,
Bərgüşadda yaşardı.
Nəğməsini suların
Nəğməsinə qoşardı.
Elçi gəldi onların
Qapısına hər yerdən.
Gah Həkəri çayından,
Gah Arazdan, gah Kürdən…
Elçilərin hamısı
Bir-bir döndülər geri.
Biləndə ki, qız balıq
Bərgüşad balığının
Oğluna könül verib…

***

Çayın sahilindəki
Kənddə toy oldu bir gün.
Gözəl təsadüf idi
Bu da balıqlar üçün…
Qara zurna mələdi,

Dindi torpaq da, su da.
Düşdü balıqların da
Sümüyünə bu səda.
Toyu toya qatdılar,
Şənlik etdi yüz balıq.
Bir-birinə qovuşdu
Oğlan balıq, qız balıq…
Onlar körpə balıqlar
Gətirdilər həyata.
Qız balıq ana oldu,
Oğlan balıqsa ata.
Bir dəfə ata balıq
İlişdi bir qarmağa.
Sudan çıxdı, geriyə
Qayıtmadı bir daha.
Çay bulandı, duruldu,
Ay dolandı, il ötdü.
Ana balıq zəhmətlə
Bir cüt oğul böyütdü…
Yollandılar dənizə
Oğlanlar elm dalınca.
Təhsil aldılar, geri
Qayıtmadılar ancaq.
Bir dəniz qızı ilə
Evləndilər hərəsi.
Yaddan çıxdı Bərgüşad,
Onun həzin nəğməsi…
Yazdılar ki, anaya
Xam olmuşuq biz əvvəl.
Nə görmüsən o çayda,
Sən də dənizə köç gəl.
Ancaq burda yaşamaq
O qədər asan deyil.

Xırdaca balıqları
İri balıqlar yeyir.
Hər şey yaxşıdı, bircə
Yemək işi çətindi.
İmkanın varsa əgər
Dadımıza çat indi…
Bir az soxulcan gətir
Bizim üçün özünlə.
Gəl, xoşbəxt günümüzü
Görəcəksən gözünlə…
Məktubu oxumaqçün
Lama çıxdı axardan,
Ana balıq düşünüb
Cavab yazdı axırda:
– Gözümün işıqları,
Qurd tapmaq deyil asan.
Ananız ölsün, sizə
Tapammadım soxulcan.
Özüm də ac qalıram,
Çayda soxulcan hanı?
Atanız bircə qurdun
Olmadımı qurbanı?!
Burda işlər şuluqdu,
Balıq tutan çoxalıb.
Dinamitin səsindən
Dincliyimiz yox olub.
Gah da görürsən çaya
Cərəyan buraxdılar.
Tora, qarmağa şükür,
Tələf olur balıqlar…
Gah da dərman tökürlər,
Qırılırıq azardan.
Yenə dəniz yaxşıdır,

Qayıtmayın siz ordan.
Sağ olun dəvət üçün,
Çox-çox razıyam sizdən.
Ancaq ki, Bərgüşaddan
Ayrıla bilmirəm mən.
Atanızın sümüyü
Bu torpağa qarışıb.
Mənim üçün doğmadır
Bu çayın hər qarışı.
Əzizlərim, siz canı
Bədəndən ayırmayın.
Qoca vaxtımda məni
Vətəndən ayırmayın!
İnsanlar söyləmişkən
"Köynək kətan yaxşıdı,
Qürbət cənnət olsa da,
Yenə vətən yaxşıdı".

**1982**

## SUMQAYITIN NAĞILI

Ata, mənə nağıl danış,
Kitabda olan olmasın.
Ata, mənə nağıl danış,
İçində yalan olmasın.

Belə dedi oğlum mənə,
Onun sözünü xoşladım.
Dirsəklənib pəncərəyə
Belə bir nağıl başladım:

Biri var idi,
Biri yox idi,
Bu gördüyün binaların,
Küçələrin biri yox idi…

Hər yan quru səhra idi,
Külək qumu sovurardı.
Yay günəşi bu yerləri
Qovurğa tək qovurardı.

Gül-çiçəyə həsrət idik,
Eh, bu necə bahar idi?!
Cavan əmilər var idi,
Cavan xalalar var idi…

Axışıb gəldilər bura
O əmilər, o xalalar.
Gəldilər ki, bu torpağın
Dərdinə şərik olalar.

Nərə çəkib bu yerlərin
Mürgüsünü dağıtdılar.
Su gətirib, səhraların
Sinəsinə axıtdılar.

Cavanların arxasınca
Bu yerlərə bahar gəldi.
Onlar qaranquş oldular,
Oxudular, bahar güldü.

Bahar güldü, hər gülüşü
Ağac oldu, çiçək oldu.
Saldığımız xiyabanlar
Bir-birindən göyçək oldu…

Evlər düzüldü yan-yana,
Səhra dönüb şəhər oldu.
Bu yerlərin gecəsi də
Bir işıqlı səhər oldu.

O əmilər qəhrəmandır,
Sevir onları el-oba.
O əmilər baba olub,
Aslan baba, Əsəd baba.

O xalalar qəhrəmandır,
İşləyirlər, oğul, yenə.
O xalalar nənə olub,
Zəminə, Gülbahar nənə…

Gözəlləşir şəhərimiz,
Ürəyimiz dönür dağa.
Bu nağılın ardını da
Böyüyüb siz yazarsınız
Əlinizlə bu torpağa, –

Təzə evlər tikərsiniz,
Təzə parklar salarsınız.
Oğul, siz də gələcəyin
Aslanları olarsınız,
Əsədləri olarsınız…

**1978**

# KİTABIN İÇİNDƏKİLƏR

**“Çiçək yağışı”ndan:**
**Qəlbində varsa təpər,**
**Alnından günəş öpər**

Yol...3
Anamın xatirəsinə...4
Tez-tez yuxu görürəm...4
Yuxumda bir ağ at gördüm...5
At belində...6
Bir ovuc torpaq...7
Nənəm uşaq kimidi...7
Havayı ölüm...9
Təkədir verən sürünü bada...9
Nərminin gözləri...10
Yağış,kirpi, göz yaşı və kirpik...11
Çaylaq daşlarının mahnısı...12
Boylandıqca...12
Dünyamızı bəzəyək...13
Yer kürəmiz...14
Balaca əsgər...15
Fayda və qayda...15
İynə...16
Uşaq şeirinə ağız büzənlərə...16
Kölgəni istəmirəm...16
Qoca ağac quruyanda...17
Çobanyastığı...17
Sarmaşıq gülü...18
Növbə...18
Bizim torpaq...19
Dünya...19
Yaşamaq uğrunda mübarizə...19
Baba...20
Qəmərin nəməri...21
Qanad, üzgəc...21
Balığın sözü...22
Heykəl...23

Heykəl rəqqasələr........................................................................23
Borunun harayı..............................................................................24
Çiçək yağışı....................................................................................26
Qanım............................................................................................27
Gil-gil çay.......................................................................................28
Atam mahnı oxuyur........................................................................29
İnqilab............................................................................................30
Habilin kamançası..........................................................................31
Güzgü.............................................................................................31
İt və gecə.........................................................................................31
Daşağıl çayı....................................................................................32
Mişar çay........................................................................................33
Dərs................................................................................................34
Muncuqlu kol.................................................................................34
Solmaz çiçəyi.................................................................................34
Quru ağacın sözü............................................................................35
Ananın səsi.....................................................................................35
Anam..............................................................................................35
Səbəb..............................................................................................35
Böyürtkən kolu...............................................................................36
Qoruqçu kol....................................................................................36
Gəndəlaş.........................................................................................36
Külək yatıb.....................................................................................37
Celli Cem........................................................................................38
Yaraşarmı........................................................................................39
Dünyanın gözü...............................................................................39
Səhərin gözü...................................................................................40
Günəbaxan......................................................................................40
Ağaclar............................................................................................40
Ocaq başında...................................................................................41
Ocağın közləri.................................................................................41
Gülən qazan....................................................................................42
Dan ulduzu......................................................................................42

**Baharım, sevinc payım,**
**Qışım,payızım, yayım**

Dili açılır.......................................................................................43
Bahar...............................................................................................44
Öpə-öpə...........................................................................................44

Yaz qarı........................................................................45
Ağ çiçəklə söhbət........................................................45
Baharın məktubu...........................................................46
Bu bahar........................................................................46
İlk bahar kimi................................................................47
Gül və çiçək...................................................................47
Budaqlar bar gətirəndə.................................................48
Almanın iki üzü.............................................................48
Dekabr-yanvar...............................................................49
Qarlı günlərin işığı........................................................50
Qar və yağış...................................................................51
Budaqların ağ işığı........................................................51
Torpaq ananın payız nəğməsi......................................52
Yükü azalan maşınlar...................................................52
Çırtma............................................................................53
Uçmaq istəyən ağac......................................................53
O çəmən.........................................................................54
Üç ana............................................................................54
Yaşıl yuxu......................................................................55
Ağ buludlar....................................................................55
Çəməndə çiçək oldu......................................................56
Sehrli dərman – duman..................................................56
Baharın səfiri..................................................................56
Günəş xoş üz göstərdikcə..............................................57
Yazda..............................................................................57
Dolu................................................................................57
Qışda və yayda...............................................................57
Qar gətirən qara gün.....................................................58
Göbələk sevinci.............................................................58
Tut ağacının nəğməsi.....................................................59
Payızın kölgəsi..............................................................59
Qarı niyə əritdin.............................................................60
Yarpaq əvvəl açılıbsa....................................................60
Bu çəməndən bulud keçib.............................................61
Dolu, yağış, qar.............................................................61
Baharda sarı yarpaq.......................................................62
Payızdan baharacan.......................................................62
Tələsən qış.....................................................................63

Qar qız....................................................................................63
Şaxta baba..............................................................................64
Sülh məşəli.............................................................................64
Təzə il.....................................................................................65
Qar altında..............................................................................65
Qar yağdı bir qarış..................................................................66
Elçin niyə üşüyür....................................................................66
Bu ağacın ürəyi.......................................................................66
Ən ucqar yarpaqlar..................................................................67
Donmuş suyun nəğməsi..........................................................67
Bahar şəkli çəkirəm.................................................................68
Qar tənzif.................................................................................69
Yaz..........................................................................................69
Arzunun arzusu.......................................................................69
Yaz gələndə.............................................................................70
Sirr açan payız.........................................................................70
Sehrli açar................................................................................70
"Beçə verən arılar"..................................................................71
Yayda və qışda........................................................................71
"Qar yağan zaman"..................................................................72
Payız lövhəsi...........................................................................72
Payız sarı boyayıb...................................................................73
Qarağac...................................................................................73
Yarpaq boyu............................................................................73
Çöl siçanının nəğməsi.............................................................74
Təzə alma gətir........................................................................74
Kor duman...............................................................................75
İşıq körpüsü............................................................................75
Birinci cümlə...........................................................................76
Kök..........................................................................................76
Qoy soyusun havalar...............................................................76
Cənub qışı................................................................................77
Əldən çıxan qar payı................................................................77
Qar yorğan...............................................................................77
Qış səsimi eşitdi......................................................................78
Qayanın buz saqqalı................................................................78
Qoşqar.....................................................................................78
Qarlı gündə..............................................................................79

Sumqayıtda qış..........................................................................79
Yaz gəlir..................................................................................80
Yaz gəldi..................................................................................80
Göy çobanı...............................................................................80
Payızla qışın görüşü..................................................................81
Yerə xəzəl döşəyir ki.................................................................81
Yel əsəndə................................................................................81
Səməni.....................................................................................82
Yaz nənə...................................................................................82
Novruz tonqalları......................................................................82
Dəniz harda çimir......................................................................83
Dənizdə çimən gözlər.................................................................83
Dəniz çiçəkləyib........................................................................84
Möhür.......................................................................................84
An.............................................................................................84
Pəncərə şüşəsi...........................................................................85
Gözlük......................................................................................85
Yuxarı qalxan şəlalə...................................................................86
Siz mənə yarpaq göstərin............................................................86
Yarpaq məktublar.......................................................................87
Kölgə........................................................................................87
Qaranquşun döşündə..................................................................87
Qozalar.....................................................................................88
Oğuz qışı..................................................................................89
Qış............................................................................................89
Açar..........................................................................................89

**Uşaqsız ev, uşaqsız el**
**Susuz dəyirmana bənzər**

Uşaq.........................................................................................90
Adam balaca olanda...................................................................90
Adam kiçik olanda.....................................................................91
Baba məktəbə gedir....................................................................92
Süd...........................................................................................93
Cücələr və uşaqlar......................................................................93
Evdə yoxdu...............................................................................94
Böyük.......................................................................................94
İki çay, iki şəhər........................................................................95
Nərdivan...................................................................................95

Yox, kəsmə....................................................................................96
Gözlə...........................................................................................97
Yüngülləşəcək..............................................................................97
Belə oxumaq olmur.......................................................................97
Ağacların idmanı...........................................................................98
Qarğa, küçük, quzu və balaca Gültəkin.......................................98
Hələ ölmə.......................................................................................99
Rozanın xahişi...............................................................................99
Xatirə............................................................................................100
Yusifin təəccübü, yaxud şirin çay...............................................100
Ana soxulcanın cavabı.................................................................101
Siçan və öküz...............................................................................101
Aygün...........................................................................................101
Aygünün bibisi.............................................................................102
Gül satanın nəğməsi.....................................................................102
Düyə.............................................................................................102
Kökə.............................................................................................103
Cırıram ki.....................................................................................103
Pilləkəndə konsert........................................................................103
Şokolad kağızı..............................................................................104
Acı, şirin, turş...............................................................................105
Zöhrə............................................................................................105
Quzum..........................................................................................105
Mən bal deyiləm..........................................................................106
Gülü və gül...................................................................................106
Aynurla söhbət.............................................................................107
Acgöz............................................................................................107
Dalımca gəlir................................................................................107
Samirlə söhbət..............................................................................108
Elə bil simdi.................................................................................108
Bulağa gedən cığır.......................................................................108
Qulun............................................................................................108
Quzular əmişəndə........................................................................109
Təkərli beşik.................................................................................110
Kompot.........................................................................................111
Quyuya qarpız atdım...................................................................111
Evciyim böyümədi.......................................................................112
Ürəyimin içində...........................................................................112

Yeddinciyə keçən çanta....................................................113
Təəccüb....................................................113
Mıx vuranda....................................................113
Yarpaq arasında baş....................................................114
Qiymət....................................................115
Vurağan qoç....................................................115
İki qardaş....................................................115
Tənəffüs....................................................116
İtmiş paltarlar....................................................117
Para çörək....................................................118
Su içməyi sevirlər....................................................118
Sarı badımcan....................................................119
Dinləyən yoxsa....................................................120
Tələsmə....................................................120
Dünyanın yüz cür işi var....................................................121
Ağ qönçə, sarı çiçək....................................................121
Toz....................................................121
"Nəm-nəm", "Çay-çay", "Bay-bay"....................................................122
"Maç"....................................................122
Dırmığın yumruğu....................................................123
Belə getsə....................................................123
Qardaşımın kəşfi....................................................123
Ağzım....................................................124
Havaya uyğun....................................................124
Top....................................................125
İlk ov....................................................125
Tətil....................................................126
Şüşəsilən....................................................126
Mən yaxşı oğlanam....................................................127
Liftin qapısında qalan çəkmələr....................................................128
Aysel süd istəyir....................................................129
Gül əkərsən....................................................129
Karandaş....................................................130
Bulud göydə olar....................................................130
Uy, uy....................................................131
Maşının başı varmı....................................................131
Oxşadı....................................................132
Stəkan....................................................132

Televizora baxanda....132
Çəyirdək....133
At, maşın....133
Ocaq....133
Bədən....134
Qan....134
Yastıq....134
Yay....134
Şirin çayın xətrinə....135
Çəkmə....135
Niyə xəstələnmisən....135
Qorxuram yağış yağa....135
Yerin dişi....136
Qar mənə çatmaz....136
Nənə-bala....137
Əlvida, gəlinciyim....137
"Appa", "Oppa"....138
Xokkeyçi papağı....138
Gecə nənə....138
Ay paltar sərir....139
Gecə lövhəsi....139
Sözə baxsaydın....140
Xəyyam....140
Qarağat....140
Dadlı yuxu....141
Yay yuxusu....141
Yastığa de....141
Narınc....142
Başmaqdan şikayət....142
Sizə meyvə dərərdim....142
Oyuncaq....143
Ayı balası....143
Alma almaya bənzər....143
Ağacın təşəkkürü....144
Bağçaya gedəndə....144
Samokat....144
Paraya dəymə, bütövü kəsmə....145
Tülkü və qazlar....146

İlqar və qazlar........................................................................146
